"YENİ FÜYUZAT"

JURNALI

(1910-1911-ci illər)

76.1
Y-53

«YENİ FÜYUZAT»

JURNALI

(1910-1911-ci illər)

11242

«Elm və təhsil»
Bakı –2010

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

Çapa hazırlayan və
ön sözün müəllifi: **Hüseyn Həşimli**
Əməkdar elm xadimi

Rəyçi: **İsa Həbibbəyli**
Azərbaycan MEA-nın həqiqi üzvü,
Əməkdar elm xadimi

"Yeni füyuzat" jurnalı ***(1910-1911-ci illər).***
Bakı, "Elm və təhsil", 2010. – 448 səh.

Kitabda Bakıda 1910-1911-ci illərdə nəşr olunmuş «Yeni füyuzat» jurnalının bütün saylarındakı materiallar toplanmışdır.

4603000000
*N*098 - 2010 ***qrifli nəşr***

© «Elm və təhsil», 2010

KİTABIN İÇİNDƏKİLƏR:

1. **«YENİ FÜYUZAT»IN YENİ HƏYATI (ÖN SÖZ)** 4
2. **«YENİ FÜYUZAT»**

1910, №1 19
1910, №2 40
1910, №3 60
1910, №4 80
1910, №5 97
1910, №6 117
1910, №7 134
1910, №8 151
1910, №9 168
1910, №10 185
1910, №11 204
1911, №1 223
1911, №2 239
1911, №3 256
1911, №4 274
1911, №5 293
1911, №6 315
1911, №7 343
1911, №8 368
1911, №9 393
1911, №10 422

ÖN SÖZ

«YENİ FÜYUZAT»IN YENİ HƏYATI

İyirminci əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı, mətbuatı və ictimai fikrinin inkişafında mühüm xidmətləri, özünəməxsus mövqeyi olan «Füyuzat» jurnalı böyük ədib Əli bəy Hüseynzadənin redaktorluğu ilə 01 noyabr 1907-ci il tarixdə çıxan 32-ci sayından sonra nəşrini dayandırdı. Jurnalın fəal əməkdaşlarından Osmanlı şairi və publisisti Əhməd Kamal axırıncı saydakı məqaləsində yazırdı: «İştə sözümüz burada bitdi, «Füyuzat» da bu nömrədə bağlandı. Amma dilimiz bağlanmadı, bağlanmaz və bağlanmayacaqdır». Həqiqətən, «Füyuzat» nəşrini dayandırsa da «Füyuzat»çılıq davam etdi, enişli-yoxuşlu yollar keçdi, sosial-mədəni tərəqqiyə ciddi xidmətlər göstərdi, ayrı-ayrı qəzet və jurnalların aparıcı qayəsinə, əsas məsləkinə çevrildi. «Mənafeyi-insaniyyə, milliyəyi – tərəqqi, hürriyyəti – kamilə... dairəsində» fəaliyyət göstərən «Füyuzat»ın ənənələrini, amallarını yaşadan mətbuat orqanları sırasında «Yeni füyuzat» jurnalının ayrıca dəyəri vardır.

1910-1911-ci illərdə Bakıda nəşr olunan, cəmi 21 nömrəsi çıxdıqdan sonra çar hakim dairələri tərəfindən qapadılan bu jurnal qısa müddət ərzində özünü təsdiq edə, mühitdə yer tuta bildi. Jurnalın ilk sayı 18 oktyabr 1910-cu ildə işıq üzü görmüşdür. «Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərə» (şəkilli

məcmuə) kimi fəaliyyətə başlayan «Yeni füyuzat»ın «sər mühərriri» «Füyuzat»dan tanıdığımız Əhməd Kamal, «sahibi-imtiyazı və müdiri-məsulu» isə istedadlı romantik şairimiz Əli Paşa Hüseynzadə (1885-1934) idi. İlk nömrədəki «Başlanğıc» adlı qeydlərdə bildirilirdi ki, məcmuənin bir illik xərci nəşrə hamilik edənlər tərəfindən ödəniləcək, abunə pulları bankda hifz olunacaq, ikinci ildən isə həmin vəsait nəşr qayğılarının həllinə yönələcəkdir. «Yeni füyuzat»ın ilk altı ayda səkkiz səhifə çıxacağı, sonra isə həcmini böyüdəcəyi nəzərdə tutulurdu.

Jurnalın 1910-cu ilə aid on bir sayının, eləcə də 1911-ci ildəki ilk dörd sayının hər biri səkkiz səhifədir. 01 fevral 1911-ci ildə çıxmış 5-ci (ümumən isə 16-cı) nömrəsindən etibarən isə həcmin on iki səhifəyə çatdığını görürük. Nömrədən-nömrəyə təkmilləşən, ətrafına yeni müəlliflər cəlb edən, ədəbi, elmi, siyasi, publisistik xarakterli müxtəlif materiallarla oxucuların rəğbətini qazanan bu dərginin naşirləri poliqrafik keyfiyyətə də ayrıca diqqət yetirirdilər. Jurnaldakı şəkillərin çap üçün hətta Moskvada hazırlanması təşəbbüsü də bundan soraq verir. Bakıda «Kaspi» mətbəəsində nəşr olunan «Yeni füyuzat»ın redaksiya ünvanı Ağa Kazım Haşımovun kontoru idi. A.Haşımovun jurnala böyük yardımını da xatırlatmaq yerinə düşər.

«Yeni füyuzat» geniş abunəçi şəbəkəsinə malik olmuşdur. Jurnalın müxtəlif saylarının son səhifəsində bir sıra abunəçilərin siyahısı verilmişdir. Onlarla tanışlıq nəticəsində öyrənirik ki, dərgi Azərbaycanın Bakı,

Naxçıvan, Culfa, Astara, Nuxa, Lənkəran, Şamaxı və digər bölgələrində, həmçinin o zamankı Rusiya imperiyasının Moskva, Sankt-Peterburq, Həştərxan, Rostov, Petropavlovka, Batum, Aşqabad, Daşkənd, Xocənd, Buxara, Xivə və s. yerlərində, eləcə də Tehran, Rəşt, Ənzəli, London kimi ən müxtəlif şəhərlərdə oxunmuş, yayılmışdır. O da maraq doğurur ki , ayrı-ayrı şəxslərlə yanaşı, müxtəlif təşkilatlar, təhsil ocaqları da bu jurnala abunə olmuşdur. İran Xarici İşlər Nazirliyi, Tiflisdəki Osmanlı konsulluğu, Ənzəlidəki «Nicat» qiraətxanası, Bakının, Nuxanın bəzi məktəbləri və s. bu baxımdan xatırladıla bilər. Azərbaycanın H.Z.Tağıyev, F.Xoyski, Ş.Əsədullayev, F.Köçərli, A.Y.Talıbzadə, Ə.Qəmsukar, H.Sarabski, M.Hacınski, İ.Aşurbəyov, B.Axundov kimi tanınmış şəxsiyyətlərinin də adları jurnalın abunəçiləri sırasındadır. Əlamətdar haldır ki, «Yeni füyuzat» məşhur macar türkoloqu Vamberinin də diqqətini çəkmişdir. Macar alimi jurnalın ona göndərilmiş ilk dörd sayı ilə tanışlıqdan sonra redaksiyaya məktub yazaraq yüksək fikir ifadə etmişdi: «Məcmuəyi-mötəbərənizin... mütaliəsindən... çox məmnun və məsrur oldum. Vaqiən, millətinizə və insaniyyətə etdiyiniz xidmətiniz fövqəladə böyük və mühümdür» (Bu məktub «Yeni füyuzat»ın 1911-ci ildəki 4-cü sayında verilmişdir). Bütün bunlar isə onu göstərir ki, haqqında danışdığımız dərgi Azərbaycan hüdudlarından çox-çox uzaqlarda da tanınmışdır.

«Yeni füyuzat»da Əhməd Kamalın və Əli Paşa Hüseynzadənin imzaları daha tez-tez görünür. Təbii ki,

jurnalın nəşrinə rəhbərlik edən ziyalılar kimi, onlar müxtəlif xarakterli yazılarla dərginin fəaliyyətinə yön verir, başlıca məramın, əsas mətləblərin təqdiminə səy göstərirdilər. O dövrün ədəbi-mədəni mühitində yaxşı tanınan Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Əliqulu Qəmküsar, Mehdi bəy Hacınski, Axund Yusif Talıbzadə, Əli Ricai Daizadə, Məmmədsadıq Axundov, Nemət Bəsir, Bədrəddin Seyidzadə, Əli Səbri Qasımov kimi müəlliflərin müxtəlif səpkili əsərləri dərgiyə rəngarənglik və oxunaqlılıq gətirirdi. XIX əsr şairi Seyid Əzim Şirvani irsinə müraciət də bu baxımdan əlamətdardır.

«Yeni füyuzatı»ın «sahibi-imtiyazı və müdiri-məsulu» Əli Paşa Hüseynzadə (Səbur) 1885-ci ildə Bakıda dünyaya göz açmış, Həbib bəy Mahmudbəyovun məktəbini bitirmiş, sonra Sultan Məcid Qənizadənin məktəbində oxumuşdu. 1902-ci ildə maddi imkansızlıq ucbatından təhsili buraxıb əmək fəaliyyətinə başlamışdı... «Yeni füyuzat» bağlanandan sonra Əhməd Kamal Bakıdan uzaqlaşdırıldığı kimi, Ə.Səbur da 1914-cü ildən Şimali Qafqazda sürgün həyatı keçirməli olmuşdu. Sürgündən qayıdıb yenə ədəbi-publisistik fəaliyyətini davam etdirən istedadlı sənətkarın ömür yolu 1934-cü ildə tamamlanmışdır... Hələ «Şərqi-Rus»da ilk əsərlərini dərc etdirən Ə.Səbur sonrakı illərdə «İqbal», «Günəş», «Tazə xəbər», «Dirilik» və s. mətbuat orqanlarında «Səbur», «Nüsrət», «Nasir» kimi imzalarla çoxsaylı bədii-publisistik əsərlərini oxuculara ünvanlamışdır. Onun 1913-cü ildə

ayrıca kitabça halında işıq üzü görən, müxtəlif vaxtlarda səhnə təcəssümünü tapan «Millətpərəstlər» vodevilində, «Zümzümə» (1914), «Düşüncə yarpağı» (1915) adlı kitablarındakı şeirlərində dövrün, cəmiyyətin aktual sosial-mədəni problemlərinə həssas sənətkar münasibəti ön planda dayanır. (Sonuncu iki kitabdakı şeirlər bu sətirlərin müəllifi tərəfindən müasir oxuculara çatdırılmışdır. Bax: Əlipaşa Səbur Hüseynzadə. Zümzümə, düşüncə yarpağı. (çapa hazırlayanı və ön sözün müəllifi H.Həşimli). Bakı: Nurlan, 2004, 80 səh.)

Ə.Səburun fəaliyyətinin xüsusi bir mərhələsi «Yeni füyuzat»la bağlıdır. Bu jurnal «Füyuzat» ənənələrini layiqincə davam etdirən bir mətbuat orqanı kimi hələ o illərdə təqdir olunmuşdur. Jurnalın 16 noyabr 1910-cu il tarixli 5-ci sayında A.Ağababazadə «Füyuzat»ın feyzli nəticəsi» adlı məqaləsində «Füyuzat»ın fəaliyyətini yüksək dəyərləndirmiş, onun qapanmasını ürək ağrısı ilə yad etmiş, eyni zamanda yazmışdır: «O ağlayış bu gün «Yeni füyuzat» səhnəsini görməklə bir dərəcə mübəddəli-şərur oldu... «Yeni füyuzat» öz səhnəsini yüz illərcə tamaşagərdanın ənzari-intibahına vəz edəcəkdir. Çünki bunu bu gün millətin xahişi meydana çıxarır». Lakin sələfi «Füyuzat» kimi, bu jurnalın da nəşr ömrü qısa oldu: 18 oktyabr 1910-cu ildən 15 mart 1911-ci iladək. Bununla belə, o, sosial-siyasi, ədəbi-mədəni mühitə özünəməxsus feyz, oyanış, hərəkət gətirdi. Və bu prosesin əsas simalarından biri kimi, dərginin sahibi, məsul müdiri

Ə.Səburun xidmətləri danılmazdır. O, «Yeni füyuzat»a rəhbərliklə bərabər, şeirləri və publisistik yazıları ilə çıxış etmişdir. Bunların əksəriyyəti vətənin, xalqın geriliyindən doğan kədərlə yanaşı, nöqsanların tənqidi və tərəqqiyə çağırış ruhunda qələmə alınmışdı. Dərginin 26 oktyabr 1910-cu ildəki 2-ci sayında «Ə.P.» imzasıyla dərc etdirdiyi «Ah, Vətən» şeirində şair istibdada etiraz səsini ucaldaraq yazırdı:

Ah, istibdad ilə məhv oldu əbnayi-Vətən,
Soldu badi-zülm ilə gülşəndə şövqi-yasəmən.

Jurnalın 28 dekabr 1910-cu il tarixdə çıxmış 11-ci sayındakı «Suziş» şeiri isə ümumən poeziyanın ideya-bədii təkamülünü izləmək baxımından maraqlıdır. Kərbəla şəhidlərinə, imam Hüseynə tutulan yas ovqatı üstündə yazılmış bu şeirdə dərin ictimai münəricə, vətəndaş yanğısı var. Şair «əğyar oxuna amac, əduya möhtac» olan Vətənin, xalqın gününə ağlamağı, onun xilasına çalışmağı ayrıca vurğulayaraq fikrini belə ümumiləşdirmişdir:

Bir səs gəlir, baxın, səmadan,
Mavayi-şəhidi-Kərbələdan.
Qurtar Vətəni, - deyir, - bəladan.
Bir səs gəlir bana dəmadəm.
Tutmaqda cahan Hüseynə matəm.

«Təhəyyür» şeirində isə (21 dekabr 1910, №10) Ə.Səbur Hüseynzadə tanrıya üz tutaraq həyəcanlı sual və nidalarını poetik tərzdə ədəbi müstəviyə gətirmiş, həmvətənlərinin taleyi üçün narahatlığını ifadə etmişdir:

Dersən ki, mənəm adil,
Ədlində dayan möhkəm.
Ta hürr ola dünyada
Xəlq elədiyin adəm.
Bunca bu zəruratın
Mənası nədir, bilməm!

«Yeni füyuzat» Azərbaycan poeziyasının janr novatorluğu istiqamətindəki yaradıcılıq axtarışlarında da iştirak etmişdir ki, bu sahədə Ə.Səburun da xidmətləri vardır. 25 yanvar 1911-ci ilə aid 4-cü sayda onun Səid bəyə (çox güman ki, Azərbaycan sonetinin ilk yaradıcısı olan şəhid-şair Səid Səlmasiyə) ithaf etdiyi «Hicran» soneti bu baxımdan maraq doğurur. İtalyan soneti formasında yazılan bu sonetdə məhəbbət duyğuları dolğun təcəssümünü tapmışdır:

Ah! Ey sevdiyim, nasıl yaşasın,
Söylə sənsiz, səni sevən üşşaq?
Ruhumu sənsən eyləyən təskin,
Məni öldür də, məndən olma uzaq!...

Sevmişəm mən səni, yenə sevərim.
Sönməsin həsrətinlə nəşələrim!
Məni sən də sevərmisən? Heyhat!...

Jurnalın 15 mart 1911-ci ildə çıxmış sonuncu sayında Mirbədrəddin Seyidzadənin eyni adlı soneti Əli Paşa Hüseynzadəyə nəzirə kimi ortaya çıxmışdır. Yeri gəlmişkən deyək ki, dərgidə Osmanlı soneti nümunələri də vardır. 18 yanvar 1911-ci il tarixli 3-cü sayda Cəlal Sahirin «Son cavab» soneti ilə rastlaşırıq.

Əhməd Kamal vaxtilə «Füyuzat»da dərc etdirdiyi «Gözəlim, açma maziyi» sonetini «Yeni füyuzat»da da vermişdir (01 fevral 1911, №5). Ümumiyyətlə, Azərbaycan sonetinin təşəkkül mərhələsində «Füyuzat»la yanaşı, «Yeni füyuzat» da önəmli rol oynamışdır (Ətraflı məlumat üçün bax: H.Həşimli. Azərbaycan poeziyasında sonet və terset. Bakı, «Elm», 2003, s.44-63; yenə onun: Avropa lirik janrları və Azərbaycan ədəbiyyatı. Bakı, «Elm və təhsil», 2009, s.147-159).

Ə.Səburun «İlan və sülük (zəli)» şeiri isə təmsil janrının maraqlı nümunələrindəndir (22 fevral 1911, №7). «Yeni füyuzat»ın müxtəlif saylarında «Eşidənə» başlığı altında kiçik, adətən dörd misralıq şeir parçaları ilə də qarşılaşırıq. Müxtəlif sosial-siyasi və mədəni problemlərə münasibət ifadə edən belə şeirlərin bir çoxu Ə.Səbura aiddir (1910. №3, səh.8; 1910. №6, səh.2; 1910, №8, səh.8; 1910, №6, səh.11 və s.). Eyni zamanda, bu başlıq altında Azərbaycan şairlərindən Seyid Əzim Şirvaninin, Nemət Bəsirin, Osmanlı satiriki Əşrəfin və digərlərinin də qələm məhsulları işıq üzü görməklə oxucuların diqqətini vacib mətləblərə yönəltmişdir.

«Yeni füyuzat»ın poeziya aləmində Abdulla Şaiqin də diqqətəlayiq mövqeyi var. Dərginin müxtəlif saylarında bir sıra şeirlər («Son bahar» və s.) dərc etdirən A.Şaiq «Mərhəmətli Ədhəm» adlı irihəcmli mənzuməsini də jurnalın bir neçə sayında hissə-hissə oxuculara çatdırmışdır. H.Cavidin «Ana» pyesindəki bənzər ideya burada özünün dolğun təcəssümünü

tapmışdır. Digər poetik əsərlərdən M.Ə.Sabirin «Ruhum» (1910, №11), N.Bəsirin «Köylü» (1911, №1), Əli Ricai Daizadənin «Zümzümə və ilhamə» (1910, №5), «Tövhid» (1911, №1), «Avara»nın (Mehdi bəy Hacınski – H.H.), «Gözəlim» (1911, №6) şeirləri və s. xatırladıla bilər. Poeziya nümunələrinin bəziləri məhəbbət mövzusundadır, böyük qismi isə sosial-mədəni problemlərə işıq tutur. Əliqulu Qəmküsar da «Yeni füyuzat»da şeirlər çap etdirmişdir. 1910-cu ildəki 7-ci sayda «Əli bəy Hüseynzadənin Qafqazdan getməsi münasibətilə «Təhəssürat»ını oxuculara çatdıran Ə.Qəmkusar onun Vətən və xalq naminə xidmətlərinə yüksək qiymət verərək yazmışdır:

Ah! Ey dahiyi-sütudənəhad,
Bizə lütfünlə eylə ətfi-nigah!
Səndən eylər bu millət istimdad,
Ona sizlərsiniz yeganə pənah!

Ə.Qəmkusarın «Şəhidi-hürriyyət Səid Səlmasinin ruhuna ithaf» şeirində (1911, №2) isə Vətən və istiqlal naminə canını fəda etmiş şairin niskilli xatirəsi ehtiramla yad olunmuşdur:

Dediyin tək həyati-istiqlal
Oldu axır fədası məsləkinin.
Can nisar etdin, etdin istikmal,
Qaim oldu əsası məsləkinin.

1911-ci ilin 6-cı nömrəsində isə Ə.Qəmkusar «Səid Səlmasi kimdir» başlıqlı qeydlərindən sonra şəhid dostunun ölümündən bir müddət əvvəl ona yazdığı məktubu dərc etdirmişdir. Həmin məktub iki

şairin müsibətlərini, həmçinin S.Səlmasinin dünyagörüşünün bəzi məqamlarını aydınlaşdırmaq baxımından əhəmiyyətlidir.

«Yeni füyuzat»dakı şeirlərin bir çoxu o zaman Bakıda yaşayıb fəaliyyət göstərən, jurnala «sər mühərrirlik» edən Osmanlı ədibi Əhməd Kamala məxsusdur. Bunlar barədə danışmazdan əvvəl deyək ki, «Yeni füyuzat» öz səhifələrində dünya ədəbiyyatı nümunələrinə, onlar haqqında materiallara da yer ayırırdı. Dərginin müxtəlif saylarında Osmanlı ədəbiyyatının Namiq Kamal, Cəlal Sahir, Əşrəf, Məhəmməd Cəlal, Midhət Camal kimi nümayəndələrinin şeirləri verilmişdir. Namiq Kamalla Hikmətin birgə əsəri kimi təqdim olunan «Vətən mənzuməsi»nin hissə-hissə bir neçə nömrədə dərci isə xüsusi əhəmiyyətə malik olub məmləkət və millət naminə fədakarlığa çağırış ideyasını ön plana çəkirdi. Rus şairi N.A.Nekrasovun «Biçilməmiş tarlalar» şeirinin Əli Səttar İbrahimovun tərcüməsində nəşri, «Tolstoy haqqında» ayrıca məqalənin verilməsi, «Təracümi-əhval» ümumi başlığı altında A.S.Puşkinin ömür və sənət yolunu işıqlandıran irihəcmli materialın bir neçə nömrədə dərci (müəllifi Məmmədsadıq Axundov) və s. faktlar da «Yeni füyuzat»ın ədəbi əhatəsinin geniş hüdudlarından soraq verir. Və təbii ki, bu istiqamətdəki çalışmalarda Əhməd Kamalın – bu keşməkeşli və macəralı ömür yaşamış Osmanlı ziyalısının da xidmətləri inkarolunmazdır. Öncə onun bəzi şeirləri barədə. «Yeni füyuzat»ın müxtəlif saylarında ədibin bir sıra şeirləri verilmişdir

(«Şərqi», «Təraneyi-vətən» və s.). «Ə.K.» imzasıyla çıxmış «Şərqi» şeiri (1911, №2) lirik duyğuların emosional təqdimi ilə səciyyələnir:

Bir zamanlar mən idim taci-sərin,
Şimdi kimdir, gözəlim, dəmgüzərin?
Nerəyə getdi əcəb vədlərin?
Mənə, ey vah ki, əğyar oldun?
Gözəlim, şimdi kimə yar oldun?

«Təraneyi-Vətən» isə (1910, №3) çağırış ruhuna görə marş kimi dəyərləndirilə bilməklə yanaşı, jurnalın əsas ideya xətti ilə həmahəng səsləşirdi:

Vətən əldən gediyor,
Bizə fəryad ediyor.
Yetiş imdadə diyor:
Yürü, fəryadına gəl!
Vətən imdadına gəl!

1910-cü ildəki 5-ci sayda dərc olunmuş yeddi bəndlik şeir isə Vətən və istiqlal naminə şəhid olanların mənəvi ömrünün əbədiliyi ideyasını poetik tərzdə mənalandırır:

Sizə bizdən salam! Əlf salam!
Ey ölüb, millәti dirildənlər!
Sizə ölmüş demək haram! Haram!
Əbədiyyət sizi səna eylər!

Ə.Kamalın belə şeirləri çoxdur. Onun publisistikasının mövzu dairəsi poeziyası ilə müqayisədə daha genişdir. «Füyuzat»da olduğu kimi, «Yeni füyuzat»da da Əhməd Kamal türk-islam dünyasının mənəvi birliyi, mənafelərinin qorunması ideyasına xidmət edən diqqə-

tələyiq məqalələrlə, beynəlxalq aləmdəki hadisələrin analitik təhlilini verən siyasi icmallarla, cəmiyyətin sosial-mədəni problemlərinə güzgü tutan yazılarla çıxış etmişdir. Bu cəhətdən onun «Türkiyə-Rumıniya ittifaqı» (18 oktyabr 1910, №1), «İngilislər və aləmi-islam» (01 noyabr 1910, №3), «Asiyada» (26 oktyabr 1910, №2; 9 noyabr 1910, №4; 23 noyabr 1910, №6; 30 noyabr 1910, №7), «Osmanlı xuliqanı» (7 dekabr 1910, №8; 14 dekabr 1910, №9), «Potsdam mülaqatı» (18 yanvar 1911, №3), «Eyb və qüsur bizi özümüzdədir» (01 fevral 1911, №5), «Müəllimlərimiz» (22 fevral 1911, №7; 1 mart 1911, №8; 8 mart 1911, №9) və s. yazılarını, müxtəlif nömrələrdə «Siyasi», «Siyasi və ictimai» rubrikalarında dərc olunmuş digər məqalə və icmallarını xatırlada bilərik. Bu məqalələrin bəzilərində çağdaş düşüncə baxımından yanaşdıqda müba-hisə oyadan məqamlar da vardır. Məsələn, onun «Novruz» məqaləsində (15 mart 1911, №10) bu bayramın türklərə aid olmaması barədə fikir analoji mahiyyət daşıyır. Lakin küll halında Ə.Kamalın publisistikası yüksək qiymətə layiqdir.

«Yeni füyuzat»da publisistika bir sıra digər müəlliflərin də əsərləri ilə təmsil olunur. Bu sırada Axund Yusif Talıbzadənin adı ayrıca xatırlanmalıdır. Onun jurnalın ilk sayında dərc olunmuş «Bəqayi-ruh» məqaləsində Vətən və xalq taleyi, tərəqqiyə çağırış amalı aparıcıdır. A.Y.Talıbzadənin müxtəlif saylarda dərc olunmuş silsilə məqalələrində cəmiyyətdə qadınların və kişilərin mövqeyi, vəzifələri, maddi

təminatı, qurulması təşkil olunan ictimai birlikdə onların təlim və fəaliyyətləri kimi məsələlər geniş işıqlandırılmışdır (1910, №9, 10; 1911, №2, 3 və s.) A.Y.Talıbzadənin «Eydi-əzha» məqaləsi də aydın qayəsi ilə seçilir. Müəllif qurban bayramının mahiyyətindən, kəsilən qurbanlardan danışmaqla yanaşı, təsirli, maraqlı bir tərzdə ictimai bəlaları, imkanlıların kasıblara biganəliyini də diqqət mərkəzinə çəkir: «Füqəranın halı təmin edildimi? Yetim miskinlərimiz ət yeməkdən doydumu? İslamiyyət naminə təzə təşəbbüsatda bulundumu? Nə deyəlim, nə cavab verəyim? Cavabını kim söyləsin? Siz, ya mən? (30, noyabr 1910, №7).

«Yeni füyuzat»da Yusif Məlikovun «Hökumətlər» (16 noyabr 1910, №5), İsmayıl Həqqi Babanzadənin «Avropapərəstlərə» (16 noyabr 1910, №5), Yusif Əlinin «Xanımlarımız» (15 fevral 1911, №6), M.S.-nin (Məmməd Sadıq Axundovun) «Bizim Şərqdə iğtişaş» (01 fevral 1911, №5), «Məktəbli və mədrəsəli» (22 fevral 1911, №9), H.Səbri Ayvazovun «Müsəlmanlara qəsd» (1911, №10) kimi məqalələri də dövrün, cəmiyyətin, beynəlxalq aləmin müxtəlif sosial-siyasi və mədəni problemlərini publisistikanın geniş imkanları vasitəsilə aşkarlayır. Jurnaldakı «Rusiyada tatarlar. Nasıl girdilər, nasıl məhv oldular? (müəllifi Ə.M., çox güman ki, Əli Mişan, 1911, №1, №2, №5), «Şeyx Şamil» (1910, №7,8) kimi məqalələr türk-islam tarixinin müxtəlif səhifələrini xatırlatmaqla yanaşı, birliyə, həmrəyliyə çağırış, köklə qayıdış ideyasını

təcəssüm etdirir. «Mədrəseyi – Səadət»də ziyafət» adlı məqaləni də ayrıca yad etmək istərdik. Həmin məqalədə Əli bəy Hüseynzadənin Türkiyəyə getməsi münasibətilə 3 dekabr 1910-cu ildə Bakıda «Səadət» məktəbində təşkil olunan vida mərasimindən söz açılır. Sonra oxuyuruq: «Qafqaz ondan, o Qafqazdan razı olaraq İstanbula gedir» (1910, №8).

«Yeni füyuzat»da oxucuları müxtəlif xarakterli, xüsusən təbiətşünaslıq və tibb sahəsindəki elmi məlumatlarla tanış etmək məqsədilə verilən materiallar da maraq doğurur. Əli Mişanın «Hərarət» (1910, №1; №3), «Qida» (1910, №6), «Məşribati-küuliyyə» (1910, №9), Əli Paşa Səburun «Səhhət» (1910, №2, №4; 1911, №5) məqalələri bu baxımdan qeyd oluna bilər. Bütün bunlar oxucuları sağlam məişət üçün zəruri biliklərlə təmin etməyə yönəlmişdir. Əli Səbri Qasımovun «Gizli həyat» məqaləsi (1911, №9) də maraqlı elmi informasiyalarla zəngindir. Oxuculara təbiətlə bağlı müxtəlif bilikləri çatdırmaq məqsədi daşıyan materiallar sırasında Əli Mişanın «Arılar» (1911, №4; №7) məqaləsi də diqqəti cəlb edir. Bir çox digər yazılar da maraqlı publisistika nümunəsi təsiri bağışlayır.

«Yeni füyuzat» yeniyetmə oxucuları da yaddan çıxarmırdı. Jurnalın müxtəlif saylarında verilən düşündürücü riyazi məsələlər şagirdlərin asudə vaxtının səmərəli təşkilinə, təfəkkürlərinin inkişafına layiqincə xidmət göstərirdi. Məsələləri düzgün həll edən şagirdlər abunə ilə mükafatlandırılırdı.

Dərgidə verilən müdrik sözlər, hikmətli əhvalat-

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

lar, həmçinin lətifələr onun rəngarəngliyini təmin etməklə yanaşı, didaktik və estetik baxımdan da əhəmiyyətli idi. Jurnalda müxtəlif tarixi, siyasi, ədəbi simaların şəkillərinin verilməsi də mətnlərdən alınan təəssüratların tamamlanmasına layiqincə xidmət göstərirdi.

Oxucu məktublarının, onlara cavab və izahların dərci isə jurnalın həssas, operativ mövqeyindən soraq verirdi.

Əlbəttə, «Yeni füyuzat»ın feyzləri barədə çox danışmaq olar. İndiyədək də müxtəlif tədqiqatçılar yeri gəldikcə onun nəşr tarixindən, səhifələrindəki bəzi materiallardan bəhs etmişlər (M.Z.Cəfərov, Ə.Mirəhmədov, İ.Həbibbəyli, N.Axundov, İ.Ağayev, A.Hüseynzadə, Ş.Vəliyev və başqaları). Amma jurnal haqqında ən yaxşı sözü onun özü deyə bilər, fikrindəyik. Elə bu düşüncə ilə də uzun müddətli çalışmaların nəticəsi kimi «Yeni füyuzat»ın bütün materiallarını (şəkillər istisna edilməklə) çağdaş oxuculara çatdırmaq istədik. Beləcə, «Yeni füyuzat» nəşrə başlamasından düz yüz il sonra yeni həyatına qovuşdu...

HÜSEYN HƏŞİMLİ
Əməkdar elm xadimi, Naxçıvan Dövlət Universitetinin prorektoru

«YENİ FÜYUZAT»

18 OKTYABR 1910

№ 1 (Hər şeydən bəhs edər həftəlik məcmuəyi- müsəvvərədir)

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ - İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

İŞTİRAK QİYMƏTİ:

Sənəlik - 4 manat 40 qəpik;
6 aylıq: 2 manat 40 qəpik;
3 aylıq; 1 manat 30 qəpik.

BAŞQA ŞƏHƏRLƏRDƏ:

Sənəlik - 5 manat;
6 aylıq: 2 manat 70 qəpik;
3 aylıq ; 1 manat 40 qəpik.

«Kaspi» mətbəəsində təb olundu.

«YENİ FÜYUZAT»

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Çeşənbə günləri nəşr olunur.

Abunələrimiz özlərinə çatmayan nömrələri idarəyə xəbər versinlər.

Tək nüsxəsi Bakıda 10 qəpik, qeyri şəhərlərdə 11 qəpikdir.

"Kaspi" mətbəəsində təb olundu.

«YENİ FÜYUZAT»

№ 1
18 OKTYABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ - İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında Ağa Kazım Haşımovun kontorunda, «**FÜYUZAT**».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

1910, № 1, səh. 1

= BAŞLANĞIC =

Bir kərrə daha demişdik ki, biz cahilləriz. Ülum və fünun gündən-günə tərəqqi ediyor. Aləmi-mədəniyyətdə hər gün yeni bir əsəri-tərəqqi görünüyor. Biz bunlardan bixəbəriz. Bunlardan bizi xəbərdar edəcək qəzetələr, məcmüələrdir. Bir-iki qəzetəmiz var. Bir məcmuəmiz yox. İştə biz bu yoxluğu yox etmək üçün «Yeni Füyuzat»ı nəşrə qərar verdik. Məcmuəmizin məsləkindən bəhs etməyi zayid görürüz. Məcmuədə görüləcək imzalar ötədən bəri mətbuatda görülmüş, binaən ileyh məsləkləri tanınmış imzalardır. Məcmuənin məsləki də o imzaların məsləkləri olacaqdır.

Məcmuənin abunə pulları bir sənə bankada hifz olunacaqdır. Məcmuənin bir sənəlik həyatı sahibi-imtiyaz ilə digər dörd şərik tərəfindən təmin edilmişdir. Demək ki, bu məcmuənin tam bir sənəlik xərci münhəsirən şirkətimiz tərəfindən veriləcəkdir. Bu bir sənə zərfində məcmuənin qazandığı gələcək sənə üçün məcmuəyə maya olacaqdır. Hasili, bunu bir sənə biz yaşadacağıq. Bir sənə sonra isə məcmuə qareyini-giramın (hörmətli oxucuların) himmətinə istinad edəcəkdir.

«Yeni Füyuzat» altı ay səkkiz səhifə, üç aydan sonra on altı səhifə olaraq intişhar edəcək və abunə qiymətləri də ona görə dəyişdiriləcək. Artığı əshabından təhsil ediləcəkdir.

Və min Allah ət-töfiq! (Allah-taala tövfiq versin!)

HEYƏTİ-NƏŞRİYYƏ

18 OKTYABR 1910, № 1, səh. 2

SİYASİ

= TÜRKİYƏ – RUMİNİYA İTTİFAQI = BALKANLARDA SLAVİZMİN MƏĞLUBİYYƏTİ

Son zamanlarda Türkiyə ilə Ruminiya dövlətləri arasında bağlanan ittifaqi-əsgəri bütün Avropa məhafilində, bütün qəzetə sütunlarında uzun-uzadıya mübahisata mövcil olmaqdadır. Çünki Türkiyə ilə Ruminiya arasında belə bir ittifaqın bağlanması Balkan yarımadasındakı hərəkati-siyasiyyəyə əsasından təsir edərək o hərəkata başqa bir cəryan verir. Bu ittifaqın Balkanda əsas siyasət olan Slav ittihadına nə böyük bir zərbə olduğu bu məsələdən naşi Rusiya xariciyyə naziri İzvotskinin süqutu ilə meydani-sübuta çıxar.

Bu zamanda Balkanda vüqu bulunan belə bir hadisəyi-siyasiyyədən ən ziyadə təlaşa düşənsə, bittəb (təbii olaraq), Bolqariya olacaqdır. Məsələnin Bolqariyaya nə qədər şiddətlə təsir etdiyini anlamaq üçün Sofiya (Bolqaristanın paytaxtı)-da intişar edən «Dnevnik» qəzetəsinin bu ittifaq xüsusunda yazdığı məqaleyi-şədidədən bir neçə sətri buraya tərcümə ediyoruz.

Bu qəzetə deyir ki:

«Bolqar milləti Türkiyə ilə Ruminiya arasında Bolqar dövlətinin təmamiyyəti-mülkiyyəsi və Bolqar millətinin hürriyyəti-milliyyəsi əleyhinə olaraq əğd olunan (imzalanan) bu ittifaqdan mütəəccib olmaz.

Birinci Karlın Ruminiyası başqa cürə hərəkət edəməzdi.

Karl 1869-da taxti-kraliyə ayaq basdıqdan üç il son- ra özünün Almaniya prinslərindən Zuhenrolern familiyasından olduğunu işarə edərək Almaniya imparatoruna atidəki teleqrafı çəkmişdi:

«Hişmətmaab!

Mən hər nə qədər Ruminiya prinsi olmuşsa da, daima bir Zuhenrolern qalacağam».

Kral Karl tarixdə çox az təsadüf edilən bir inad ilə Ruminiyanı tədricən möhkəm bir qala halına qoymuşdur ki, bu qala daima slavları təhdid edir.

Ruminiya dövləti Avropanın cənub-şərqisində zühura gələn irtica və təziqatın daima sağ qolu şəklində qalmışdır. Kral Karlın etiqadınca Balkanda slavların istiqlal və ittihadları Avstriya – Macaristan ilə Ruminiya üçün pək böyük bir təhlükədir. Bu siyasətin nəticeyi-təbiiyyəsi olaraq Ruminiya kralı Karl ilə Türkiyə padşahı Əbdülhəmid arasında qayət səmimi bir münasibət hasil olmuşdu.

Çünki Karl Rusiya ilə Bolqariyanı ayırmaq üçün lazım gələcək hər təşəbbüsdə hər kəsdən önə keçəcəyini və şayəd, Bolqariyadan Türkiyədəki bolqar- lara bir müavinət, bir təhrik olursa, ona mane olacağını Türkiyə padşahına açıqdan-açığa bəyan və təmin etmişdi.

Karl 1902-ci ildə Rusiya ilə Osmanlı müharibəsinin ən qanlı meydanı olan Qiriviçanı gəzməyə gəldiyi zaman Bolqar kralı Ferdinanda demişdi ki:

«Siz Makedoniyaya doğru yürüdüz zaman mən də ordularımla buraya girəcəyəm».

1903-də bu vəd Bolqariyanın əleyhinə icra edildi.

Türkiyənin sabiq xariciyyə naziri İstanbuldakı Bolqar eksarxına açıqca bəyan etmişdi ki, əgər Ruminiya ilə Bolqariya arasında bir ixtilaf olursa, Bolqariyadan bir miqdar yerin Ruminiyaya keçməsi üçün Türkiyə Ruminiyaya müavinət edəcəkdir.

1907-də Bolqariyanı küçültmək xüsusunda Türkiyə ilə Ruminiya arasında tərtib olunan planla Türkiyənin Buxarest (Ruminiyanın paytaxtı) səfiri tərəfindən təsdiq olunmuşdur. Halbuki Bolqariyanın istiqlalı elan olunduqdan sonra Türkiyə ilə Bolqariya arasında müharibə ehtimalları meydana çıxmışdı. Bu əsnada Karl Bolqariyanın Buxarestdəki səfirinə demişdi ki:

«Əgər Bolqariya Türkiyə ilə müharibə edərsə, mən də ordularımla Bolqariyanı istila edərəm.

Ruminiya kralı daima dili ilə də, işi ilə də Balkan yarımadasında slavların düşməni olduğunu isbat etmişdir. Türkiyə isə orada slavlığın ən birinci və təbii düşmənidir. Bu halda bu iki slav düşməninin bir-birilə dost olacağı aşkar bir məsələdir.»

«Dnevnik» qəzetəsi bundan sonra deyir ki:

«Türkiyə və Ruminiya ittifaqı artıq olub bitmişdir. Bizim uzağı görməyən nazirlərimiz yaxında Türkiyə və Serbiya ittifaqını da görməklə bəxtiyar olurlar. Türkiyə və Ruminiya ittifaqı Balkan müvazinəyi-siyasiyyəsi üçün böyük bir təhlükədir. Çünki

Balkanda müvazinəyi-siyasiyyə bu iki dövlətə bağlıdır. Bunlar ittifaq edərlərsə, Balkandakı məsayili-siyasiy- yəni öz mənfəətlərinə, Bolqariyanın zərərinə olaraq həll etməyə müvəffəq olurlar.

Bu ittifaq Krid məsələsinin həllinə dəxi təsir edəcəkdir. Çünki Türkiyə Ruminiyanın üç yüz min əsgərinə güvənərək Bolqariya tərəfindəki hüdudundan əmin olub, bütün qüvvəti ilə Yunanıstana hücum edəcəkdir.

Bu ittifaq çarəsiz Bolqariya siyasətinin istiqaməti-qədimini dəyişdirəcəkdir. Malinov kabinəsinin zəif tədabiri səbəbilə Bolqariya bir uçurum kənarına gətirilmiş və beynəlmiləl bir qarantina altına alınmışdır.

Bu məsələ isbati-həqiqət edərsə, Bolqar dövləti hesabsız zərər görəcək. Bolqar milləti də Ruminiyanı qiyamətə qədər əfv etməyəcəkdir.

Lakin Ruminiya da yaxında mülkədarların ərazisini təqsim üçün kəndlilərin bundan bir neçə sənə əvvəl etdikləri kimi, yenə qiyam edəcəyini və bu halda Ruminiyanın bizim yanımızda vəziyyəti təhlükədə olacağını Ruminiya diplomatları unutmasınlar.»

ƏHMƏD KAMAL

18 OKTYABR 1910, № 1, səh. 2- 4

x x x

Muromsev – Tula yilayəti zadəganından olub

1850- də dünyaya gəlmişdi. Darülfünun professorlarından idi. 1882-də hökumət tərəfindən professorluqdan ixrac edilmişdir.

Rusiyanın birinci dövlət dumasına rəis seçilmişdir. Duma dağıldıqdan sonra... ...viburq protestesinə rəyasət etdiyindən bir sənə həbs olunmuşdu. Sonra yenə professor oldu.

Bu zat Rusiyanın, hətta bütün aləmi-insaniyyətin mədari-iftixarıdır.

18 OKTYABR 1910, № 1, səh. 4.

= BƏQAYİ – RUH =

Pişgahi-çeşmi-canımda vətən eylər vəfat,
Olmaz olsun belə suzişli, fəlakətli həyat!

Hər bir şeyin həyatı ruh ilə qaim olduğu kimi, ruhun da meydani-mübarizeyi-həyata çıxması təbii təcəssümat vasitəsi ilə olur.

Ruhun bəqası mütəkəllimini-islamiyyə əndində (nəzdində) sabit bir əmr olduğu kimi, Avropa füzələsının təslimi dəxi qüruni-əxirə (son əsrlər) nətayicindən ədd olunur (hesab olunur).

Bu məsələ indəlümum qəbul edildikdən sonra qüvvəyi-natiqənin əbədi yaşaması meydana çıxır.

Ərvahi-xəbisə ilə ərvahi-təyyibənin mübarizələri meydanı açılır. Həqq ilə batil, nur ilə zülmət, hidayət ilə zilalət müqabilə edir. Hərdəm bir şəkil və şəmayil alır. Hər vaxt bir vəziyyət və heykəldə təcəssüm edir.

Gahi musalar fironlar ilə müqabilə edib, yədi-beyzaları ilə aləmi işıqlandırır, gahi isalar dəmi-həyatbəxşaları ilə ilə ehyayi-əmvat edir, gahi xatəm ül-ənbiyalar zühur edib:

«Cənge həftad-o do mellətе həmə ra ozr bede ke nədidənd həqiqət, rəhe əfsane zədənd», deyərək ümuminsanları tövhid və ittihada dəvət qılır. Bunlara müqabil məzahibi-müxtəlifə mütəcəssim olur. insanları firqə-firqə edib bir-birlərinin can və malına yağı edir.

Bəşəriyyətin nahaqq qanı tökülməsini iğrazi-şəxsaniyyələrinə (şəxsi qərəzlərinə) bir vəsilə ittixaz edib, islam və səlamətə zərbələr vurur. Bir tərəfdən də Türkiyədə kabusi-əzəmlər və o biri tərəfdən də İranda tacdar cəlladlar hökmran olmağa başlayır. Vətən və milləti həvayi-nəfisələrinə qurban edib, səfalət və bətalətə giriftar edirlər.

Hürr və azad olan Vətən və övladi-vətəni əcanib və əğyarın təsərrüf ıə nüfuzu altına salırlar. Hər biri islamiyyətin bir qolundan qanını sormağa başlayır. Bunu görüncə «Zülmə səbr Allaha üsyan deməkdir. Zalım mərhəmətə gəlməyəcəkdir» kəlamını dərxatir edərək qədim zamandan bəri mütənafir olan Osmanlı İranın ruhu Midhətlər, Rzalar və Abbas ağalarda təcəssümə başlayır. «Milləti satmaqda xunkar, etməyir namusa, ərəzə etibar» nidasını guşi-aləmə yetirir və «Gördü vətəni əsiri-afat, zalımlara etmədi məmaşat» məfadınca Şah Əbdüləzim içində şahi-xunxar və cəlladi-tacdara qarşı vurduğu zərbədən ruhi-pakını millət və vətənə təqdim etməyə rizalar göstərir.

Kabusi-əzəmin dəxi «Ruhi-qiyam peykərinin bərq mənzərəsi qəri-fəzayi-cövrdə tələlin müntəşir» olduğunu görüncə:

«Qırmaz olursam əgər ey davəri-ümid bu silsiləyi-zilləti, boynumdakı bəndi, bu lövhə məğbər edəcəkdir sənə ixtar bir ömrü ki, hürriyyətə həsrətlə tükəndi» təranəsi ilə Midhətlər fədayi-can ediyor. Edib də «Biz şəhid olursaq, həqq yaşayacaq, göz yaşımız deyil, qanımız axsın» təlqini ilə ruhi-pakını mıcahidini-məşrutiyyətə tapşırır. «Tufani-intiqam idi hər qətrə dəmim. Ey padşah, sanma ki, mən sar almadım.»

«Ya dəmi-səfil ruhuna bir şir pəncədir.
Nəyərani-sərmədi olacaqdır sənə adəm!»

Kəlamını irad edərək intiqama qalxışıyor. Əhməd Rzalar, Ənvər və Niyazlar, Tağızadələr Midhətlərin və Rzaların, Məlikülmütəkəlliminlərin və Səid Səlmasilərin əbədi həyata malik olmalarını aləmə qarşı bildiriyor. Kabusi-əzəm ilə tacdar cəlladın taxt və tacını bərbad ediyor. Vətən və millətin cərihələrini tədaviyə başlayır. Fatehlərin, Səlimlərin övladı... Keylərin, Daraların əhfadı (nəvələri) cərihələrin kisrətindən sızıldıyor. Bəstəri-mərəzdə (xəstəlik yatağında) rahat edəmiyor. Kabusi-əzəm, tacdar cəlladın ərvahi-xəbisələri kölgə kimi hər yerdə onları təqib ediyor. Hərdəm bir dürlü təcəssüm edərək cərihəli (yaralı) vətənin sinəsinə axırıncı xəncərini soxmaq istəyir. Biləxərə (nəhayət), əğyar və əcanib (əcnəbilər) qalibində təcəssüm edərək bu qocaman millətlərin axırıncı nəfəsini boğmağa çalışır. Vətənin cavan övladı isə «bir

yanında qəriqi-rəzmi-vücud, bir yanında siyah rəngi-ədəm» təhlükəsini hiss edincə aramyab (sakit) olmayıb, Midhətlərin və Rzaların ruhlarını həyəcana gətirir. Heç bir dürlü fədakarlıqdan çəkinilməyir. Meydani-müsabiqədə canlar fəda olunur və bazari-ehtimamda qeyrətli qızların qiymətli saçları satılır. Gah tənınlərə əksəndaz olub, övladi-vətənə «Sirati-müstəqim»lər göstərir. Gahi «İrani-növ»lər həyatnümayi-təcəddüd olur. İranın «Həyat»i-kühənşanını iadəyə çalışır. Bir tərəfdən «Füyuzat», «Həqiqət», «Günəş» kimi ləməəpaş (işıqsaçan) olmağa başlayır. Bir tərəfdən vətən və övladi-vətənə yeni kamalat «Füyuzat» qapısı açılır.

İn həmə avazha əz şəh bud,
Gərçe əz hülqume Abdulla bud. -

Məfadi ilə Midhət və Rzaların ruhu hər yerdə fəryada başlayıb.

Pişgahi-çeşmi-canımda Vətən eylər vəfat,
Olmaz olsun belə suzişli, fəlakətli həyat! -

Nidasını bütün cahaniyanın səmi-etibarına yetirir.

İştə bəqayi-ruh bu mücahidlərə fəda olmaqdır. Və cahanda əbədi baqi qalacaq ruhlarda o mücahidlərin ərvahi-təyyibələridir ki, hər dəqiqə vətənin səmayi-iztirabında fəryad edirlər.

Əvət, fəryad edirlər! Amma.....kim eşidir?

AXUND YUSİF TALIBZADƏ

18 OKTYABR 1910, № 1, səh. 4, 6-7

HƏFTƏYİ-FƏNNİİ
HƏRARƏT [1]

Hərarət həyat üçün çox lazımdır. Üzərində yaşamaqda olduğumuz kürreyi-ərz (yer kürəsi) günəş sayəsində isti olur. Bir də kürreyi-ərzin hərarəti-zatiyyəsi vardır ki, dərin məhəllərin isti olmasına kömək edir. Bu bəhsi gözəlcə anlamaq üçün ərzin biçimini, yəni şəkilini xatırlamalısınız.

Kürreyi-ərzin iki ucu basıq bir portağal kimidir. Bayırdakı qabığın üstündə biz yaşayırız. Ortasındakı boşluq isə dəmirçilərin ocaqlarda əridib maye (sulu) atəş halına gətirdikləri dəmir və sair mədənlər kimi qızğın bir maye ilə doludur. İştə kürreyi-ərzin hərarəti-zatiyyəsi bundan irəli gəlir. Kürreyi-ərzin üzərindəki yanar dağlar isə bu bəhsi isbat edir.

Günəşin istiliyi ərzin mərkəzinə keçmədiyi kimi, hərarəti-mərkəziyyə, yəni ərzin içindəki hərarət dəxi ərzin üzünə qədər çıxmaz. Bu iki müxtəlif hərarətin biri-biri ilə qarşılaşdığı hüduda hərarəti dəyişməz təbəqədirlər. Ərzin orta cəhətlərində bir məhəlli on arşın qədər qazarsan, bu təbəqəyə rast gəliriz. Lakin ərzin uclarına yanaşdıqca bu dərinlik ziyadələşir. Məsələn, İstanbulda (28, 30) arşin dərinliyində quyu qazmalı ki, o təbəqəyə təsadüf edilsin. Bu təbəqədən yer üzünə qədərki məhəl günəşin hərarətilə və dərinlərdəki cəhət isə ərzin hərarəti-zatiyyəsilə isti olur. İştə bunun üçündür ki, bir neçə şajin dərinliyində olan quyunun içinə çılpaq girirlər. Çünki mərkəzi-ərzə

(ərzin içinə) yaxınlaşdıqca hərarət çoxalır. Ərzin günəşə yaxın olan yerləri daima isti, günəşə yaxın olmayan yerləri soyuq olur.

Ərz (yer) nasıl dursa dursun, orta tərəflərində günəşin ziyası bir iynə kimi düz gəlir. Belə gəldiyi üçün ərzin orta tərəfləri isti olur. Ərzin övc tərəflərinə günəşin ziyası əyri gəldiyi üçün oralardakı yerlərin havası mötədil haldadır-yəni nə çox soyuq, nə çox istidir. Bir yerin yüksəkliyi-alçaqlığı və duruşu dəxi hərarət şiddətinin dəyişməsinə mövcib olur. bir yer nə qədər yüksəksə, o qədər soyuq, nə qədər alçaqsa, o nisbətdə istidir.

Məsələn, xətti-üstüva cəhətlərində, yəni məntəqeyi-harrə daxilində elə yüksək dağlar vardır ki, təpələri qarla örtülüdür. Halbuki dağın ətəyində xalq şiddəti-hərarətdən çıpçılpaq gəzər.

Əlhasil, yüksək bir dağ üç iqlimi havidir: Təpəsi qarla örtülü və tamamilə iqlimi-baridə (soyuq) şəbih olub, orada soyuq məmləkətlərin ağacları, otları yetişir. Dağın ortası iqlimi-mötədilə bənzər, yəni hərarət və bürudəti şiddətli deyildir. Dağın ətəkləri isə o məhəllin iqlimi-əslisinin eynidir.

Dəniz kənarları ilə orta yerlərin dəxi dərəceyi-hərarəti bir deyildir.

Məsələn: İki şəhər düşünəlim. Biri dəniz kənarında olsun, biri dəni zdən bir az uzaq olsun. Bakı ilə Tiflis kimi. Birincini hərarəti orta halda, ikincinin isə ona görə daha şiddətlidir. Çünki suların o yana – bu yana axması havadakı hərarəti udar. Bunun üçün dəniz

kənarındakı şəhərin hərarəti daima azalır. Çox soyuq vaxtlarda da dəniz öz hərarətini havaya və ərzə verərək o şəhəri isti eləyir. Dəniz kənarından uzaq olan şəhərlərdə isə belə lazım olan vaxt, yəni yayda hərarəti udub, qışda hərarət verəcək dəniz kimi bir vasitə olmadığından o şəhər həmişə bir halda qalır.

Bir yerin şimal və yaxud cənuba nazir olması hərarətinin dəyişməsi haqqında pək çox təsiri vardır. Şimala baxan məhəllər daima o tərəfdən gələn soyuq ruzigara, cənuba baxan yerlər dəxi cənubdan gələn isti ruzigara qarşı olacaqlarından, hərarətləri dəxi ona görədir. Hətta bir dağın şimal üzü soyuq, cənub üzü isti olur.

Sonu var.

BALAXANI, ƏLİ MIŞAN.

18 OKTYABR 1910, № 1, səh. 7-8

1.Məxəzlərimiz firəngcə və osmanlıca hifzüz-səhhəyə dair yazılmış kitablardır.

VƏRDANİ, YAXUD RUHUNDAN ƏVVƏL SƏMAYA YÜKSƏLMİŞ BİR CƏSƏD

M.Ənvər bəyə.

İnsan baxıb ufuluna, ey nur müstətir,
Göylərdə səlb olunmağı meraca bənzədir.

Peyvəstə xüda keçinirkən müfəkkirəm,
Varmaz asıldığın yerə, ey nəşi-möhtərəm.

Sən səlb olunmadın, xeyir, aşdın səhaibi,
Yüksəldin asimanlara dəvayi-həqq kimi.

Bir qəbzə xak olan bu yığın mədfənin deyil,
Türbəndəki bu nəşi-pərişan sənin deyil.

Sən ölmədin, sənin olamaz, məncə, mədfənin,
Ölsən də, ölməsən də, fəzalar yerin sənin.

Ölməz bəşər, bəşərdə olan ehtiras olur,
Ölməz böyük doğan, əvət, ahadi-nas olur.

Mən belə qəbri-məzlumə qürbi-xüda deyirəm,
Ərşin süqut müdhişinə etila deyirəm.

x x x

Misirin mühiti-zövqü səfahətnisarını,
Təzlil üçünmü qazd qazanlar məzarını?

Rəqqasələr gərək o mühiti-məzəllətə,
Çoxdur ölük, bu nəşi-mübarək o millətə.

Misirin dəhani-zövqü səfahətnisarı, bax,
Olmaqda bir dəqiqədə min ləh zövqə qərq.

Səmətin o sövti susduramaz, ey böyük məzar,
Qəbrin o qövmi ağladamaz, ey şəhidi-zar.

Qəbrin o bir kitabi-məali ki, kimsələr,
Bilməz nədir malı qiraət də etsələr.

Ummisidir bu gün bu kitabın o məmləkət,
Aç sineyi-qədidini, ey şanlı skilet!

Get gir məhafili-tərəbü zövqü işrətə,
Nəşinlə tut o qövmi, gətir rahi-qeyrətə.

Misirin türabıdır deyərək xaki-məğbərin,
Qəbri-müqəddəsin olamaz İngilislərin.

Fikrin sənin ki, olmadı heç bir dəm onların,
Qəbrin bizimdir, olsa belə aləm onların.

Min qəbrə cilvəzar olur xanədan böyük,
Qəbrin sənin fəqət kürreyi-ərzdən böyük.

x x x

Bir qaziyi-mübcəl ikən namın...ehtimal,
Qatil deyən də var sənə, ey nəşi-bizaval.

Bilməm ki, bir xətamıdır, ey möhtərəm nəbi?
Qətl eyləmək dəniləri xəlq eyləmək kimi?

Bir fərdi öldürüb bütün əfradi-milləti,
Ehya edən də, qatil isə.....qatiliyyəti.

Təqdis edər şu qəlbi-xarabim, hüviyyətim,
Bir böylə iftirasə fəda adəmiyyətim!

Bir şəmsdir o alçağı qətl eyləyən əlin,
Bir leyldir fəzalara zülmətli məqtəlin.

Qatillər eynidir şu turabi-məzəllətin,
Sən asimanısan kürreyi-adəmiyyətin.

Mehrabsan, önündə edər nuri-həqq zühur,
Bir Kəbəsən, içində durur bir cahan nur.

x x x

Zülmün ki, xakdan əzəli bir səriridir,
Növi-bəşər rəiyyəti, yaxud əsiridir.

Sən ləhədi-nikbət açdın o təxti-mədbədəbə,
Sən zülm ilə müharibə etdin müharibə.

Bir fərdsən baxılsa, fəqət sən bir ordlusan,
Yanında ey tərəb sədaları, ey sihələ susən.

Fəryadi-həqqü mədilətin, ahi-millətin,
Bir məkəsi olan bu şəhidi-həmiyyətin.

x x x

Qoynunda İştə yatmada bir nəşi-layəmut,
Ey Misri-pürtərəb, əvət, ey Qahirə, sükut!

Susun səriri-zövqü tələb, nəğməyi-həvəs,
Rahət burax şu məğbəri, artıq sədanı kəs!

Bir İngilis mətaısan, eyip deyilmisən,
Bağdun güzidə bir ərəbi-üğdələnmədən.

Bağdun...məzari - möhtərimi gərçi bir dərddir,
Qəlbi-fəzada İştə fəqət nəşi üğdədir.

MİDHƏT CAMAL

18 OKTYABR 1910, № 1, səh. 5

MƏKTƏB

Aşağıdakı məsələni doğru həll edib ən əvvəl idarəmizə göndərən şagirdlərə «Yeni Füyuzat»ın üç aylıq abunəsi hədiyyə ediləcəkdir. Məsələlərimiz həm milli məktəblərimiz şagirdlərinə, həm gimnaziya, realni….kimi hökumət məktəbləri şagirdlərinə təklif edilir. Bunun üçün cavablar yalnız türkcə deyil, rusca da qəbul olunur.

= MƏSƏLƏ =

Qarnı acımış olan bir ovçu xörək yeyən iki çobana rast gəlir. Çobanlara deyir ki;

«Mən də sizinlə bərabər yeyim. Sizə pul verərəm.»

Çobanlar buna razı olur, biri beş, digəri üç çörək gətirir. Üçü də yeyirlər.

Ovçu gedərkən çobanlara səkkiz şahı verir.

Çobanın biri deyir ki, mən beş çörək gətirdim. Sən isə üç. Indi beş şahı mənim, üç şahı sənindir.

Digəri deyir ki, yox! Bir çörəyin qiyməti bir şahıdan azdır. Bu səkkiz şahını yarı-yarıya bölək. Dörd şahı mənim, dörd şahı sənin olsun. Sonra mən sənin məndən artıq gətirdiyin iki çörəyin pulunu sana verərəm.

Indii bu iki təqsimin hankısı düzdür? Yaxud nasıl təqsim etmək lazımdır?

Cavablar üçüncü nömrəyə qədər idarəmizə göndərilməlidir.

x x x

EŞİDƏNƏ MƏRHƏBA!

Halətim bədtər olur artdıqca idrakım mənim,
Hər kimin idrakı yoxsa, rahətü xamuşdur.

Əhli-irfanə cahan girdabi-qəmdir daima,
Qüssədən azad olan bu dəhrdə bihuşdur.

Ə.P.

18 OKTYABR 1910, № 1, səh. 7-8

«YENİ FÜYUZAT»

№ 2
26 OKTYABR 1910

SƏR MÜHƏRRIR: ƏHMƏD KAMAL

SAHİBİ - İMTİYAZ:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında Ağa Kazım Haşımovun kontorunda, «**FÜYUZAT**».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

1910, № 2, səh. 1

= VAVEYLA =

Get, Vətən, Kəbədə siyahə bürün,
Bir qolun rövzəyi-nəbiyə uzat.
Birini Kərbəlada Məşhədə at.
Kainata o heyətinlə görün!

Bu tamaşaya həqq də aşiq olur,
Gözə bir aləm eyləyir izhar,
Ki, cahandan böyük lətafəti var.
Bu lətafət olunsa gər inkar,
Məzhəbimcə demək müvafiq olur.
Aç Vətən, sinəni, Allahına aç,
Şühədanı çıxar da ortaya saç.

De ki, yarəb, bu Hüseynindir,
Şu mübarək həbibi-zişanın,
Bu kəfənsiz yatan şühədanın,
Kimi Bədrin, kimi Hənindir.

Təzələnsinmi qanlı yaraları?
Mey tökülsünmü qəbri-əshabə?
Yaxışırmı sənəm bu mehrabə?
Xaçmı qonsun bədəl şu mizabə?
Dinin qalmasınmı bir əsəri,
Adəm övladı bir tağım cani,
Səndən alsınmı sari – şeytani?

NAMIQ KAMAL

26 OKTYABR 1910, № 2, səh. 1

SİYASİ
ASİYADA:

Rus və İngilis rəqabəti. Bu rəqabətə İran və Əfqanın alət olması, Osmanlı və İranın mazidəki (keçmişdəki) qəflətləri, Osmanlı və Almaniyanın İranı himayələri, İranın halı və istiqlalı.

İngilis və Rus dövlətlərinin Qara dəniz və Ağ dənizdə olduğu kimi, Asiyada da siyasi və iqtisadi biri – birinə zidd mənfəətləri vardır.

Sibriya, hətta Asiyanın şimalı bir başdan o biri başa qədər Rusiyanın əlindədir.

Hindistan isə İngilislərin hökmü altındadır. On doqquzuncu əsrin əvvəlinə qədər ruslar Qafqaziyada, İngilislər də Himalaya dağlarının ətəklərində dururdular. Bu iki rəqib dövləti Qafqaziya, Ermənistan, İran, Əfqanistan biri-birindən ayırmışdı. Bu məmləkətlər İngilislər ilə rusların arasında bir divar hökmündə idi. Onlar bu divarın iki tərəfindən biri-birinə nəzəri-rəqabətlə baxırdılar.

1799-cu sənəsində ruslar Asiyada hərəkətə başladılar. Qafqaziyanı keçdilər. Hindistana doğru yürüməyə başladılar. Rusların Asiyada bu hərəkətləri, baxüsus (xüsusilə) Hindistana yaxınlaşmaları İngilislərin işlərinə müvafiq gəlmirdi. Onlar üçün onların Hindistandakı siyasi, iqtisadi mövqeləri, mənfəətləri üçün böyük bir təhlükə idi. Bu səbəblə İngilislər rusların bu hərəkətlərinə səbr ilə, əhəmiyyətsizliklə, daha doğrusu, qəflətlə baxmazdılar. Rusları tövfiq

etmək (dayandırmaq) İngilislər üçün əmri-vacib olmuşdu.

İştə bu tarixdən etibarən ruslar ilə İngilislər Asiyada rəqabətə, bir-birinə oyunlar oynatmağa başladılar. İkisi də yekdigərilə açıq müharibə etmədilər. Ancaq hər biri Asiyadakı yerli hökumətlərdən birini özünə müttəfiq tutub, digərinin üstünə saldırmaq siyasətini ələ aldı.

Rusiya Qafqaziyanı aldıqdan sonra İrana qonşu oldu. Fəqət elə bir zamanda qonşu oldu ki, İran çox zəif idi. Zəif daima qəvinin (güclünün) hökmü altında olmaq aşkar bir fəlsəfəyi-həyatiyyə olduğundan İran da bu qəvi qonşunun naçar hökmü, nüfuzu altına keçdi. Bu səbəblə bir zaman İran şahları Rusiyanın Asiyadakı siyasətlərinə alət oldular. Rusiya İran şahı ilə müahidə bağlayıb, şahı Heratın zəbtinə təşviq və təhrik etdi.

Rusiya Asiyanı istila etmək fikiri çox əskidir. Lakin bütün bu istiladan məqsədi Hindistanı ələ keçirməkdir. Hindistanı ələ keçirmək üçün də Hindistan ilə öz arasındakı məmləkətləri almaq və bu surətlə ordularına Hindistan yolunu açmaq lazım idi. Halbuki Hindistan ilə rusların aralarını kəsən Xivə, Buxara, Əfqan xalqları idi. İştə Hindistandan əvvəl bunlara sahib olmaq iqtiza edirdi. Hətta Peterburq şəhərini bina edən məşhur imparator Böyük Petro (Pyotr) (Veliki Piyoter) demişdi ki:

«Bir kərrə Xivəni alsam, yolum açılır...» Böyük Pyotronun fikiri Xivəni aldıqdan sonra Bəhri-Xəzərdə (Xəzər dənizində) və Aral gölündə gəmilər inşa etdirib,

Volqada yapdığı kimi, Hindistanın şimal qərbisindəki Hindukeş dağlarından və Pamir ərazisindən çıxıb Aral gölünə tökülən Amudərya nəhrində gəmilər işlətmək və bu surətlə nəhrin keçdiyi yerləri və daha doğrusu, Hindistanı təhdid altına almaq idi. Çünki Xivəni aldıqdan sonra Rusiya bu nəhrə (çaya) sahib olacaqdı. Və bu nəhr vasitəsilə istədiyi məhəllə gəmilərlə istədiyi qədər əsgər göndərə biləcəkdi.

Hasili, Rusiya Hindistana keçə bilmək üçün yolunun üstündəki maniələri rəf və dəf etmək çarələrini arayırdı. Bu xüsusda planlar tərtib edirdi. Lakin Rusiyanın bu planları İngilislərə məchul deyildi. İngilislər də rusları Hindistana yaxınlaşdırmamaq üçün tədbirlər hazırlayırdılar.

Ruslar İran şahını Herat üzərinə təşviq və təhrik edincə, İngilislər də Əfqanistan əmirinə para və əsgər verib Heratdan İran şahının mühasirəsini pozmağa müavinət etdilər.

İştə Əfqan əmiri İngilislərin əlində... İran şahı da rusların əlində birər alət-mənfəət.

Onların təhriki ilə 1838-ci sənəsində iki müsəlman milləti Herat üstündə bir-birinin qanını içməyə başladı.

Əfqanlar Heratdan İran mühasirəsini rəf etdilər. Lakin bir az zaman keçdi, yəni 1856-cı ildə yenə o dövlətin təhriki ilə Herat üzərində Əfqan ilə İran boğuşmağa başladı.

İştə bu tarix İslamdan bir səhifə qəflət!

Əfqan, İran, Osmanlı sıra ilə bir cərgədə bitişik

qonşu üç müsəlman dövlətidir. Bu üç dövlətin tarixini əhli-idrak olan bir müsəlman ağlamadan oxuyamaz. O tərəfdə Əfqan ilə İran İngiltərə ilə Rus əlində alət olaraq biri-birini boğar. Bu tərəfdə Sultan Səlim ilə Şah Ismayıl üç il tamam məzhəb üzərində milyonlarla müsəlmanların qanlarını tökürlər. Bir-birini vururlar, qırırlar. Axırı bitab düşürlər. Qonşular gəlirlər, Qafqazı alırlar, Buxaranı alırlar, Xivəni alırlar, Əfqanı alırlar, alırlar. Biz də, nəhayət, bu günə düşürüz.

Tarixə baxsaq görəriz ki, biz müsəlmanlar bütün ömrümüzdə biri-birimizlə vuruşmuşuq. Ya əcnəbilər əlində alət olmuşuq. Yaxud özümüz bir bəhanə icad etmişik. Gah sünni-şiə məsələləri, gah fars-türk davaları, gah Osmanlı-ərəb münaziələri.

Hasili, cənabi-həqq əsbabi-münaziəni yer üzündən göyə çəksə, biz biri-birimizi boğmaq üçün özümüz səbəb xəlq edəriz.

Əfsus! İştə tariximizdə Herat məsələsi kimi məsələlərə məəttəəssüf (təəssüflər olsun ki) çox təsadüf olunur.

Herat İran ilə Əfqan arasında olub, İranın Xorasan vilayətinə yaxındır. Hətta buna «Xorasani – Şərqi» dəxi deyirlər. Bu şəhərin məşhur Isgəndər tərəfindən bina edildiyi rəvayət edilir. Əvvəllər müstəqil bir hökumət idi. Bu gün Əfqanistanın bir vilayətidir. Yüz minə yaxın nüfusu (əhalisi) vardır, qılınc, xalça, gülab ticarəti ilə məşhurdur. Gərək (istər) ticarətcə, gərək müharibəcə çox əhəmiyyəti vardır. Vaxtı ilə qayət abad bir şəhər ikən, sonra bir tərəfdən, müharibələrdən,

digər tərəfdən, türkmanların qarət üçün hücumlarından yarı-yarıya xarab olmuşdur.

İngilislər gördülər ki, əfqanlılar Heratı mühafizə edəməyəcəklər və Herat rusun müttəfiqi olan İranın əlinə düşərsə, rusa Hind yolu açılmış olacaq. Çarəsiz, Əfqanistanı öz hökmü altına almağa qərar verdi. 1840-də Əfqanistana əsgər göndərdi. Qəndhara qədər vasil olub, Əfqanistanın İngilislərin hökm və nüfuzu altına girdiyinə dair əmirə bir müahidənamə imzalatdırdı.

Ardı var

ƏHMƏD KAMAL

26 OKTYABR 1910, № 2, səh. 2-3

= FƏNNİ HƏFTƏ =

= SƏHHƏT =

İnsanın məişəti üçün nə qədər çalışırsa, vücudunun səhhəti üçün də o qədər çalışması lazımdır. Vücud hər növ mərəzdən salim olmalıdır. İnsan üçün səhhətdən böyük dövlət olmaz. Heyfa ki, zəmanəmizdə yaşayan insanlara nəzər – diqqətlə baxsaq və həqiqi bir istatistik tutsaq, bunların bir çox hissəsinin növbənöv illətlərlə (səbəblərlə) məlul (əlil) olduqlarını görəriz. Qiymətli həyatlarını zillət və rəzalətə fəda və əziz vücudlarını min dürlü təhlükələrə ilqa edirlər. Vücudu

illətdən salim olanlarımız çox azdır. Xüsusi ilə cavanlarımızın səhhətləri dəhşətli təhlükələr altındadır. Buna səbəb nə olduğunu arasaq, öz cəhalətimiz meydana çıxar. Çünki biz yaşamaq nədir, səhhət nə ilə əldə edilir? Bunlardan bixəbəriz.

İnsanın yaşamaq üçün möhtac olduğu şeylərin birincisi havadır. İnsan ancaq təmiz hava ilə səhhətə nail ola bilir. Qıda havaya nisbətlə ikinci dərəcədə qalır.

Hava nə qədər təmiz olmazsa, bədəndə o nisbətdə zəifləşir, qan qüvvətini qaib edir. Az bir mərəz o vücudu tez məğlub edər. Biləks (əksinə), hava nə qədər təmiz olursa, qan saf və bədən də o qədər qüvvətli olacağından o vücud mərəzlərə müqavimət edər. İnsan dünyanın nərəsinə getsə, orada hava mövcuddur. İnsanın gəzə biləcəyi yerlərdə havasız bir qarış yerə təsadüf edilməz. Hərbir canlı məxluq beşikdən qəbrə qədər hava ilə yaşamağa məcburdur. Insan gündə üç – dörd dəfə yeyir. Lakin bir dəqiqədə 15 – 25 dəfə nəfəs almağa məcburdur.

Doktor misyö Tanınır deyir ki:

- İnsan bir həftə yeməksiz, iyirmi dörd saat susuz yaşaya bilir. Lakin bir dəqiqə havasız idameyi-həyat mümkün deyildir. Həyata bu qədər lazım olan hava haqqında biz müsəlmanlar nə yapırız. Öz aləmimizi bir gözdən keçirəlim. Evimizdə bir məriz (xəstə) olur. Qapıları, pəncərələri qaparız. Otaqdakı hava dəyişməz. Bir az zaman sonra mərizin dışarı çıxardığı pis hava ilə otaq dolar. Biçarə məriz o pis havanı tənəffüs edə-edə

mərəzini artırır və bəlkə də ölüm təhlükəsinə düşər. Biz ümumiyyətlə qəvaidi-hifzi-səhhətə də riayət etməyiriz. Daha doğrusu, o qaydalardan bixəbəriz.

Bundan bir neçə gün əvvəl xalamın ziyarətinə getmişdim. Gördüm ki, qapılar bağlı, xalam otağın içində. Məqtər (damcı tökən) çubuq da ağzında. Otağın içinə sağ girən naxoş çıxar. Otağın havasına mən təhəmmül edəmədim. Qapıları açdım.

Xalam dedi ki:

- Balam, bir həftədən bəri bütün bədənim ağrıyır. Xüsusən başım.

Dedim ki;

- Xala, sənin bu halda sağ qaldığına təəccüb edirəm. Şimdi qışda müsəlman evlərini gəzsən, çoxunda görəriz ki, otağın ortasında bir kürsü, ev xalqı kürsünün ətrafında. Qapılar, pəncərələr bağlı.

Təbii, belə yerdə baş ağrısı, mədə bulantısı kimi mərəzlər heç əksik olmaz.

İnsan daima təmiz havaya möhtac olduğu kimi, ziyaya da möhtacdır.

Sonu var.

= **ƏLİ PAŞA** =

26 OKTYABR 1910, № 2, səh. 3-4

TƏRACÜMİ - ƏHVAL

= ALEKSANDR SERGEYEVİÇ PUŞKİN =

Ruscadan iqtibas olunmuşdur.

Puşkin Rusiyada fəridi-əsr olan üdəbadan biridir. Təvəllidi Moskva şəhərində 1799 sənəsində 22 mayisdə(may ayında)-dir.

Vəfatı Peterburqda 1837 sənəsində 29 yanvardadır.

Nəcabəti:

Bir ədibi-şəhir Aleksandr Nevskinin zamani-səltənətində Prusiyadan Rusiyaya hicrət edib, burada bir çox təbəqə əyan ailələrinə sərkərdəlik etmiş olan Radşi qəbiləsindəndir. Rusiya tarixində Puşkin familiyası mənasibi-aliyəyə məzhər olmuşdular. Hətta Ivan Qrozninin zamani- səltənətində bulunub, dövlət işləri ilə məşğul olan ailələrdən bir neçəsi də Puşkin ailəsindəndirlər. Əxirən (son zamanlar) Romanovların səltənətlərini imza və təsdiq edən əyan və əşrafın dörd nəfəri də Puşkinlərdən imiş.

Puşkinin atası Serqey Levoviç mərkəzi-səltənətdə sakin olan əyandandır ki, o əsrin iqtizasınca fransız üsulunda ikmali-təhsil və tərbiyə etmişdir.

O, on yeddinci və on səkkizinci əsrdə fransız ədəbiyyatına kamal ilə aşina olub, hətta bu lisanda (dildə) müxtəsər şeirlər də inşad edərmiş (yazarmış).

Sergey Levoviç ədəbiyyata son dərəcə aşiq olub, daima vaxtını alim, arif və ədiblər içində

keçirmək istərmiş. Bunun üçün Moskvanın mərkəzində olan ali və müzəyyən bir imarətini rus əhli-elm və ürfanlarına verib, oranı məcməyi-üdəba etmiş. Fəliza (lakin) Sergey Levoviç daima paytaxtın aristokrat təbəqəsi ilə müaşirətdə bulunub, ballarda, salonlarda əyan və əşrəf ilə eyş-işrət edərək dəmgüzar olurmuş.

MƏMMƏD SADIQ

26 OKTYABR 1910, № 2, səh. 4-5

= İCMALİ – ƏHVAL =

BU HƏFTƏNİN TARİXƏ KEÇƏCƏK XƏBƏRLƏRİ:

London – İngiltərə dövləti İrana bir layihə verib deyir ki:

«Əgər üç aya qədər İran sakit olmazsa, öz əsgərlərimlə İranı sakit edəcəyəm.»

Babi-Ali bu layihəyə etiraz edir. Cavabında İngiltərə:

«Mən İranı təqsim üçün deyil, orada iqtisadi mənfəətlərimi təmin üçün oralara əsgər göndərəcəyəm» - deyir.

Babi-Alinin İrana nə üçün əsgər göndərdiyini soruşur. Babi-Ali cavabında:

«Mən İrana istiqbalda (gələcəkdə) gələcək təhlükələrin önünü almaq üçün əsgər göndərirəm» - deyir.

İstanbul – Babi-Ali İngiltərə xariciyyə nəzarətindən (xarıcı işlər nazirliyi) məktub almışdır. Bu məktubda yazılır ki, İngiltərə İranı bölmək fikirində deyildir. İngiltərənin məqsədi Buşəhr və İsfahan tərəflərində İngilis ticarətini təhti-təminə almaqdır. Oralarda jandarma polisesi təşkil etmək üçün on nəfər İngilis ofiserləri təyin olunmuşdur. Bu ofiserlərin məvacibləri Buşəhr gömrükxanası varidatından veriləcək və axırda yazılır ki, belə bir əhəmiyyətsiz xəbəri ancaq qəzetələr bu hala gətirmişdilər.

İstanbul – İran səfarətxanası tərcümanı Babi-Aliyə müraciətlə İran sərhəddinə sövq edilən əsgərlər haqqında istizahda (yenidən sorğu) bulunmuşdur. Babi-Ali cavab vermişdir ki, bu hərəkət İrana heç bir vaxt təhlükə verməz. Zira, (ona görə ki,) İran sərhəddinə əsgər sovq etməkdən məqsədimiz İranlıların başına gələcək hadisə və bəlaların önünü almaqdır.

x x x

Vyana – Mənabeyi – müvəssiqədən alınan xəbərlərdən görünür ki, İngiltərə dövləti Berlinə zeyldəki (aşağıdakı) məktub ilə müraciət etmişdir:

«-İngiltərə hökuməti İranı təqsim etməyə deyil, onun müstəqil bir məmləkət olmasına tərəfdardır».

x x x

London – İrandan, Türkiyədən və Almaniyadan

alınan xəbərlərə görə oralarda İngiltərəyə qarşı narazılıq hiss olunur. Bu hal bura-bursasına çox sui-təsir etmişdir, burasının şimdiki halı altmış sənə bundan əvvəlki tənəzzül halındadır.

İstanbul – Osmanlının Tehran səfiri xəbər verir ki, İranın hali-hazırı (indiki halı) həyəcanlıdır. Məclis bağlıdır, qəzetələr inandırırlar ki, Almaniya və Türkiyə bilittihad (əlbir) İranda iş görürlər.

İngiltərənin İrana müdaxiləsi Türkiyəni narahat edir.

«Tənin» qəzetəsi deyir ki, bir vaxt Türkiyə Təbrizə də malik olmuşdu. Azərbaycanlılar da türklərdən ibarətdir.

x x x

Keçən avqustun 14-də Buxaranın Rusiya himayəsi altına girdiyinin 40-cı sənəyi – dövriyyəsi olmaq münasibətilə Türkistanın mərkəzi olan Daşkənddə müntəşir «Türkistan postası» bir sürü məqalələr yazaraq, daha ziyadə vaxt keçirilməyib, Buxaranın Rusiyaya ilhaqını tövsiyyə və tələb etməkdədir.

«Türkistan postası» məqalələrindən birisində belə deyilir:

«Biz 40 sənədən bəri Buxaraya rifq ilə müamilə ediriz. Buxaralılar bu müamiləmizdən bizim zəifliyimizə qane olurlar. Artıq biz də qəvi olduğumuzu izhar və isbat edəlim. Buxara 40 sənə əvvəl məhv edilmək lazımdı. Fəqət o zamanlar İngiltərə bizim Əfqanla qonşuluğumuzu istəmədiyindən Buxara xanlığının

idaməyi – həyatına səbəb oldu. Əlyövm (bu gün) İngiltərə ilə münasibətimiz pək iyidir. İngilislərin təşəbbüsatımıza hail olmaq ehtimalı yoxdur.»

Eyni cəridə digər bir məqaləsinə şu sözlərlə xitam verir:

«Yaponiya Koreyanı, Avstriya – Macaristan Bosniya – Herseki, dövləti – müttəhidə Amerika Libriyanı ilhaq etdilər. Türkiyə İranda dönüb dolaşır. Buxaranı tez-tez ilhaq Rusiya dövlətinə fərzdir. Bu babda müzakirat və mükalimata məhəl və zaman yoxdur, Buxaranın bir rus vilayəti olduğunu elan ilə oranı Türkistan valiyi-ümumisi ziri-idarəsinə almalıdır. Şimdi orada hakim olan adamlara gəlincə onları məmləkətlərindən sürüb çıxarmalı və Krim və ya Qafqaziyada iqamətgah intixabı üçün sərbəst buraxmalıdır. Buxara ilhaqında bundan başqa heç bir iş yoxdur».

x x x

= GƏNC MİSİRLİLƏR KONQRESİ =

Brussel – Gənc misirlilər konqresində kapitalasion məsələlərindən, tədrisatın məcburi olmasından, İngilislərin Misiri işğal etdikləri sənədən bəri dərslərin yüzdə on beşə tənəzzül etdiyindən bəhs olunmuş.

Bədə (sonra) misirli bir xanım qadınların təlim və tərbiyəsini şiddət ilə iltizam etmişdir.

26 OKTYABR 1910, № 2, səh. 6-7

AH VƏTƏN!

Ah, istibdad ilə məhv oldu əbnayi – Vətən,
Soldu badi-zülm ilə gülşəndə şövqi-yasəmən.

x x x

Aldı məclislərdə aqil qədrini divanələr,
Məskən oldu tutiyi-xoşgüyə hər viranələr,
Aşinalar qəmzədə, dilşaddır biganələr!
Tarmar oldu yazıq axır müqəddəs əncümən,
Ah, istibdad ilə məhv oldu əbnayi – Vətən!

x x x

Eylədin zənn etmə xalqın haqqını sən paymal,
Yox cəzadan qurtuluş ilə qisası bir xəyal.
Qorx o gündən kim, mükafati-əməl verməz macal,
Həqq edər millət kimi bir gün səni də naləzən,
Ah, istibdad ilə məhv oldu əbnayi – Vətən!

x x x

Olmadıq asudə möhnətdən cahanda bir zaman,
Sıxdı – zənciri – əsarət istədikcə bir aman.
Əlaman zülmündən, ey Zöhhaki-sani, əlaman,
Xanimanlar eylədin vİran cahan mülkində sən,
Ah, istibdad ilə məhv oldu əbnayi – Vətən!

x x x

Könlümü yıxdı fəna mülkündə mövci-iztirab,
Ey gözüm, ağla, şurayi – Vətən oldu xarab,

Nasiri qəm mülkünə aləmdə sultan intixab
Etdilər, əfsus! Olmaz bir dəm azad məhən,
Ah, istibdad ilə məhv oldu Vətən!

Ə.P.

26 OKTYABR 1910, № 2, səh. 7

MƏKTƏB

«Yeni Füyuzat»ın birinci nüsxəsindəki məsələnin həlli:

Çobanın biri beş çörək, digəri üç çörək gətirmiş. Bu səkkiz çörək üç adam arasında müsavi (bərabər) olaraq bölünmüş. Bu halda hər çörək üç parçaya bölünmüş deməkdir. Səkkiz çörək (3x8=24) iyirmi dörd parça edər. İyirmi dörd parçadan hər adama səkkiz parça çörək düşür. Demək ki, beş çörək gətirən çobanın on beş parça çörəyi olub, səkkiz parçasını özü yediyindən ovçuya (15-8=7) yeddi parça çörək vermiş olur.

İkinci çoban üç çörək gətirdiyindən bunun doqquz parça çörəyi olub, bu doqquz parçadan səkkizini özü yemiş və ovçuya bir parça çörək vermiş olur. Bu halda birinci çoban ovçuya yeddi parça çörək verdiyindən yeddi şahı, digəri bir parça çörək verdiyindən o da bir şahı almaq lazım gəlir.

Məsələni doğru həll edənlər:

Məsələmizin həllinə dair qırx altı kağız aldıq.

Bunlardan ancaq beş kağız məsələni doğru həll etmiş. Ən əvvəl mətbəəyə gələn həll:

«Nəşri-maarif» məktəbinin dördüncü sinifinin birinci şöbəsi şagirdlərindən Maştağa kəndindən Hüseyn Rəcəb Mirrəcəbzadədir. Vəd etdiyimiz üç aylıq abunə sənədini idarəmizə gəlib ala bilər.

Digər doğru həll edənlər:

Sabunçuda 21 nömrəli xanədə (evdə) Əsədulla Abdullazadə, Bakıda «Səadət» mədrəsəsinin ikinci sinifində Əsədulla Hacı İsmayıl oğlu İsrafilzadə; Çənbərəkəndində altıncı qorodskoy məktəbinin ikinci sinifində Ağaverdi Novruzov; Bakıda «Realni» məktəbində İbrahim Axundov, «Səadət» məktəbinin ikinci sinifində Süleyman Məlikzadə.

x x x

26 OKTYABR 1910, № 2, səh. 7-8

EŞIDƏNƏ:

Cavankən fəqrdən etmə şikayət!
Cavanlıqdan böyük bir sərvət olmaz.
Qoca müstəğniyi – sərvət də olsa,
Qolunda bir çocuqca qüvvət olmaz.

Ə.SABİR

EŞİDƏNƏ:

Kəbəyi-hürriyyəti sürətlə təcdid eyləyib,
Şad edin ərvahi-məbusanı Allah eşqinə!
Hər tərəfdən min hücum altındadır, imdad edin,
Müsəlmanlar, qurtarın İranı Allah eşqinə!

İstanbul

ƏŞRƏF

26 OKTYABR 1910, № 2, səh. 7

TÜRKCƏ – FİRƏNGCƏ

Məcmuəmiz Əhməd bəyin nəzarəti altında türkcə və firəngcə qursu açacaq. Arzu edənlər noyabırın beşinə qədər məcmuənin adresinə müraciət etsinlər, adlarını yazdırsınlar. Realni gimnaziya kimi məktəblərdəki müsəlman şagirdlərinə hər gün saat 3-dən 5-ə qədər tədris ediləcəkdir.

26 OKTYABR 1910, № 2, səh. 8

«YENİ FÜYUZAT»A ABUNƏ OLAN ZƏVATİ - GİRAM

1) Osmanlı baş şəhbəndəri (liman rəisi) Cəfər bəy Həzrətləri, Tiflis, 5 nüsxə;
2) Şəhbəndər vəkili Həsən bəy həzrətləri, Tiflis, 2 nüsxə;

3) Ağa Kazım Haşımov, Bakı, 5 nüsxə;
4) Ağa Mirəli Nağı Hüseynov, Bakı, bir nüsxə;
5) İsgəndər bəy Məlikov, Bakı, üç nüsxə;
6) Kərbəlayi – İsrafil Hacıyev, Bakı, bir nüsxə;
7) Yusifəli Əliyev, Sabunçu, üç nüsxə;
8) Ağa İsmayıl İbrahimov, Balaxanı, bir nüsxə;
9) Nəsrulla bəy Aşurbəyov, Bakı, bir nüsxə;
10) Qurban Ağayarzadə, Bakı, bir nüsxə;
11) Məmmədşəfi Əlimədədzadə, Bakı, bir nüsxə;
12) Səlman Abdullayev, Bakı, bir nüsxə;
13) Allahverdi Mahmudov, Bakı, bir nüsxə;
14) Kərbəlayi Ağasəlim Dadaşov, Bakı, bir nüsxə;
15) Məmmədrəsul Candarov, Bakı, bir nüsxə;
16) Abdulxalıq Sadıqov, Bakı, bir nüsxə;
17) Mustafa bəy Məlikov, Bakı, bir nüsxə;
18) Mirmöhsün Mirəhmədzadə;
19) Ağaəli Əkbərzadə, Bakı, bir nüsxə;
20) Kazım Axundov, Bakı, bir nüsxə;
21) Mömin Axundov, Bakı, bir nüsxə;
22) Yusif Əhmədov, Bakı, bir nüsxə;
23) Vahab Novruzov, Bakı, bir nüsxə;
24) Dadaş Kərimov, Bakı, bir nüsxə;
25) Cavad Vəliyev, Bakı, bir nüsxə;
26) Əsədulla Mahmudov, Bakı, bir nüsxə;
27) Məmmədcavad Qasımov, Bakı, bir nüsxə;
28) Mikayıl Hüseynov, Bakı, bir nüsxə;
29) Məmmədtağı Zeynalov, Bakı, bir nüsxə;
30) Əlinağı Aslanov, Bakı, bir nüsxə;
31) Sadıq Sadıqov, Bakı, bir nüsxə;

32) Əbdülhüseyn Rzaquluzadə, Bakı, bir nüsxə.

MABƏDİ ÜÇÜNCÜ NÖMRƏDƏ,

26 OKTYABR 1910, №2, səh. 8

«YENİ FÜYUZAT»

№ 3
1 NOYABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, **«FÜYUZAT».**

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

SİYASİ

İNGİLİSLƏR – ALƏMİ- İSLAM

Bu axır zamanlardakı həvadisi – siyasiyyəyə baxınca görülür ki, bütün hadisələr aləmi-islama tələllüq edir. Avropanın önündə bu günə qədər yatmış, həyatdan, hərəkətdən bir vücudi-aciz halını almış olan müsəlmanlar bu gün hüquqi-ictimaiyyə və siyasiyyələrini dərk edərək dəhşətli bir qəzəb və həyəcan ilə qiyam etmiş və canla, qanla hüquqi-məxsusələrini istirdad üçün (geri almaq) cəng və cidala başlamışdır.

O yanda padşahları bir zaman hətta bir səfirin zühurunda boyun əyən osmanlılar bu gün Avropayüa notalar yağdırır.

Bu yanda şahları bir vaxt bir Liyaxovun məhkum fərmanı olan İranlılar bu gün ən güclü bir dövlətin notasına mərdanə cavabi-rədd verir.

Bir tərəfdə «Misir misirlilərindir» fəryadı Avropanın afaqi-siyasətini ildırım taraqqası kimi cınladır. Hər tərəfdə mitinqlər, konfranslar, konqreslər... hər tərəfdə protestlər, rədd, nifrət, lənət... bütün aləmi-islamdan... bütün Avropaya...

İştə aləmi-islamdakı bu qiyami-intibahkarənin, bu vəlvələlərin, bu hay-küylərin, şimşəkli, ildırımlı gecələrdən sonra açılan lətif və zərif sabahlar kimi saf və sakin (sakit) bir istiqbala vasil olacağında şübhə edilməz.

İrandan, Osmanlıdan səhifələr dolusu bəhs

etdiyimiz bu əsnada Misirdəki on milyondan ziyadə olan misirli dindaşlarımızın qeyrət və mücahidələrini sükut ilə keçmək insaf deyildir.

Bu gün Misirdə «Hizb ül-vətəni» deyilən bir cəmiyyət vardır. Bu cəmiyyət bundan iyirmi sənə əvvəl təsis edilmişdi. Bu cəmiyyəti təsis edən bu nüsxədə rəsmini (şəklini) gördüyünüz Misirdə müntəşir «Əl-liva» qəzetəsi sahibi mərhum Mustafa Kamil paşadır.

«Hizb ül-vətəni» cəmiyyətinin məqsədi bu üç kəlmədə xülasə edilir:

«Misir misirlilərindir».

Əvət! Misirlilər deyirlər ki, Misir iqtisadı, siyasəti misirlilərin olmalıdır. Bu gün dəsti-təcavüz uzadanlar artıq əllərini çəkməlidirlər.

Bunlar bu məqsədlərinə nail olmaq üçün şairlərilə, mühərrirləri ilə, advokatları ilə, üləması ilə, şürəfası ilə həbsə girirlər, ölürlər, öldürülürlər. Yenə əl çəkməyirlər. Çünki bunlar haqlarını o qədər anlamışlar, məqsədlərinin ülviyyətinə, qüdsiyyətinə o qədər inanmışlar ki, o əziyyətlər bunlara heç təsir etməyir.

Ah! Bir həqq ki qanıldı. Bir həqq ki, insana əqidə hökmünə keçdi. O hər növ təcavüzlərə, təsəllütlərə uğrasa, yenə sahibinə rücu edər (qayıdar). Bir kərrə o haqqa sahib olduğunu bütün qüvvəyi-ictihadiyyə və vicdaniyyə ilə bilməkdədir.

İştə misirlilər haqlarını belə bir qüvvəyi-ictihadiyyə və vicdaniyyə ilə qandıqları üçün heç bir qüvvət onlara haqlarından əl çəkdirməyə müvəffəq olmayır.

Bundan iki ay əvvəl «Hizb ül-vətəni» cəmiyyəti yenə yaxın üzvləri ilə Parisdə bir konqre yapmaq istədi. Bu konqre İngilislərin əleyhinə idi. İngilislərin Misirdən çıxması üçün idi. Fransa hökuməti Parisdə bu konqrenin iniqad etməsinə mane oldu. Fransa kimi, fransızlar kimi hürr (azad) bir hökumət! Hürr bir millət!

Zənciri-əsarətdən azad olmaq istəyən on milyon müsəlman bir millətin fəryadi-istimdadını (kömək səsini) kəsdi. Nə üçün?

Çünki İngilislər əleyhinə olan bu konqreyə bu gün fransızlar öz torpaqlarında rüsxət (icazə) verərlərsə, sabah fransızların əlində olan Tunis və Cəzayir müsəlmanları da misirlilərdən dərs alıb, onlar da fransızların əleyhinə belə bir konqre yapmağa qalxışarlar. O zaman İngilislər də öz torpaqlarında onlara müsaidə verər. Bunun üçün Afrikadakı Misir, Tunis, Cəzayir, Fas müsəlmanlarını İngilis və fransızlar bilittifaq hər dürlü təşəbbüsdən məhrum etməyə çalışırlar.

Bu son zamanlarda Avropanın Osmanlı, İran, Misir, Fas... müsəlmanlarına etdikləri müamilələr şimdiyə qədər mədəni tanıdığımız Avropanı bizə rəngiəslisi ilə bildirdi.

Bu gün bütün aləmi-islam bir hərc və mərc içindədir. Bu hərc və mərc, bu qalmaqal birdən – birə ətrafımızı tutduğu üçün həpimizi şaşırmış bir hala düşdük. Lakin bu şaşlığın əsl səbəbi cəhalətimizdir. Çünki biz öz-özümüzü şimdiyə qədər heç tanımadıq.

Tariximizi, coğrafiyamızı, keçmişdə nələr etdik? Nərələrdən gəldik? Nərələrdən keçdik? Nə üçün gəldik, nə üçün keçdik? Bunları heç bilmək, tanımaq lüzumunu anlamadıq. Onun üçün bu gün ətrafımızı alan vüquatın içində şaşırız.

Bir vaqiəni əvvəlcə tövlid edən səbəblər vardır. Bu səbəblər bilinməzsə, o vaqiənin mahiyyəti, cövhəri anlaşılmaz. Bunun üçün bugünkü vüquatı yazarkən bir az da tarixdən bəhs etməyi vacib görürəm. Ta ki, islamın keçmişdəki əhvalatını bilərək bugünkü halını gözəl kəşf edəlim.

Misirdə ən əvvəl təsis edən hökumət Fironlar hökumətidir. Hicrəti-nəbəviyyədən on iki əsr əvvəl İranlılar Firon hökumətini məhv edib Misiri zəbt etdilər. İranlılar iki yüz sənə qədər Misirdə hökumət elədilərsə də, sonra məşhur İsgəndəri – Rumi Misirə hücum edərək İranlılardan Misiri aldı. İsgəndəri – Rumi vəfat etdikdən sonra Misir iki yüz sənə qədər «Müluki – Bətalimə» əlində qaldı. Bunlardan da Osmanlılardan əvvəl İstanbulda hökumət edən Konstantaniyyə dövlətinin əlinə keçdi.

Hicrəti-nəbəviyyənin on səkkizinci sənəsi Əmrov ibn As və Zübeyr ibn Avam komandası ilə gedən ləşgəri-islam Misiri Kostantaniyyə dövlətinin əlindən alıb məmaliki-islamiyyəyə əlavə etdi.

Hicrəti-nəbəviyənin altıncı əsrində Misir türklərin, sonra da çərkəslərin əllərinə keçdi.

Doqquz yüz iyirmi ikinci sənəyi-hicriyyəsində Osmanlı padşahlarından Yavuz Sultan Səlim çərkəs-

lərdən Misiri zəbt etmişdi. Lakin orada çərkəslər daima şüris (qiyam) və iqtişaş çıxarmaqda idilər. Bunların şürişlərini kökündən kəsmək üçün Sultan Mahmud Sani zamanında şimdiki xidivin (hakimin) (Misir valisinə xidiv deyirlər) cəddi (ulu babası) Məhəmməd-əli Paşa göndərilmişdi. Məhəmmədəli Paşa Misirdə üsyanları tamamilə sakit etdikdən sonra bu dəfə özü dövləti – Osmaniyyənin əleyhinə qiyam ilə Osmanlı dövlətinin üstünə yüyürdü. O zaman Osmanlı dövləti hənuz müharibədən təzə çıxmış, yorğun bir vaxtı olduğundan Məhəmmədəli Paşaya qarşı durmadı. Məhəmmədəlinin əsgəri oğlu Ibrahim Paşanın komandası ilə Şama qədər gəldi. Biləxərə (nəhayət), Avropa dövlətlərinin müdaxiləsi ilə Məhəmməd Paşa və oğlu İbrahim Paşa geri çevrildi. Məhəmmədəli Paşa daxilən müstəqil, fəqət ümuri-xariciyyədə dövləti – Osmaniyyəyə tabe olmaq və Osmanlı padşahının fərmanı ilə xidivlik, xidiv övladının ən böyüyünə keçmək kimi bir neçə şərt ilə Misirə vali təyin edildi.

Sultan Əbdüləziz beşinci xidiv İsmayıl Paşanın zamanında bu şərti dəyişdirərək xidivin ən böyük övlada deyil, xidiv olan şəxsin öz övladına keçmək üzrə bir imtiyaz verdi.

Görünür ki, Sultan Əbdüləzizin fikiri Misir xidivliyini atadan övlada keçirməkdə bir nümunə göstərərək Osmanlı padşahlığının da üsuli-vərasətini dəyişdirmək və padşahlığı öz övladına keçirmək imiş. Ona müvəffəq oldu. Lakin buna ulaşmadı.

Misirin beşinci xidivi İsmayıl Paşanın israfatı

nəticəsi olaraq Misir İngilis və fransızlara borclandı. Bu borc bəhanəsi ilə bu iki dövlət Misir maliyyəsini müraqibə (kontrol) altına aldı.

Misir xidivləri və məiyyətləri xalqı, misirlilərə çox əziyyət edər, hətta onları adam belə hesab etməzdilər.

Şimdiki xidivin atası Tofiq Paşanın vaxtına qədər misirlilər nə hökumət məmuriyyətlərində, nə mühüm ticarətlərdə olmazdılar. Ancaq əsgərə alınır. Fəqət o da nadir halda yüzbaşı (kapitan) dərəcəsinə qədər çıxa bilirdilər.

Bir misirli qorxusundan böyük bir ticarətə girməz, böyük bir mülk almazdı. Çünki xidiv bir hiylə, bir təhdid ilə dərhal əlindən alırdı. Xidiv İsmayıl Paşa zamanında bu yolda neçələri gecələr Nil nəhrinə atılıb boğdurulmuşdur.

İştə bu zülm və etisaf böyüyə – böyüyə ərəbləri 1882-ci ildə xidiv ailəsi əleyhinə qiyam etdirdi. Bu qiyam Ərabi Paşa deyilən misirli bir qaimməqamın (podpolkovnik) təhti-idarəsində idi.

İngilislər və fransızlar Misirdəki pullarını bəhanə edərək bu qiyamı təskin üçün İsgəndəriyəyə zirehli gəmiləri gətirdilər.

O zaman Fransa məclisi-məbusanı Fransa hökumətinə bu qiyama müdaxilə üçün məsrəf (xərc) vermədi. Bu səbəbdən Fransız ingilislərdən ayrıldı. Lakin İngilis Misirdən əl çəkmirdi. Çünki Misirdəki Süveyş kanalı Hindistan yoludur. Hindistan şimaldan rus təhdidi altında olduğu halda bir müharibə bu kanal

İngilisə qapadılarsa Hindistan əldən gedər. Bunun üçün Süveyş kanalı ya ingilislərin öz əlində, yaxud əmin olduğu bir dostunun əlində bulunmalıdır. Bu səbəblə Misirdə ingilis hər dövlətdən ziyadə əlaqədardır.

Ərabi Paşa qiyamı əsnasında Misirin sahibi – həqiqisi olan Osmanlılar da keçən rus müharibəsindən məğlub çıxmış, binaən ileyh (buna görə) tab və taqətdən kəsilmiş olduğundan əgər bu ərəblərlə dava edərsə və məğlub olursa, Misir bütün – bütün əldən gedər qorxusu ilə qiyamın təskinini ingilislərə buraxdı. İngilis bir xeyli müzahim və müşkilatdan sonra ərəbləri məğlub etdi. Nəticədə Qahirədə asayiş və sükunəti (sakitliyi) tamamilə bərpa etmək üçün üç sənə müddətlə Misirdə qalmağa riza istehsal etdi (razılıq əldə etdi).

İştə o zamandan bəri üç sənə deyil, iyirmi səkkiz sənə keçdiyi halda ingilislər Misirdədirlər və Süveyş kanalının sahibidirlər. Misirdə İngilislərin əsgəri çox azdır. Lakin bütün ümərayi-əsgəriyyə (əsgəri əmirlər) ingilislərdən, yaxud İngiltərəyə satılmış misirlilərdəndir.

Nazirlər ingilis əlində birər fonoqrafdır. İngilisdən nə eşidirlərsə, onu çalırlar. Hər nazirin məiyyətində bir ingilis müavin vardır. İşlər həp bu müavinlərin əlindədir. Nazirlər və xidiv bir möhürzəndən başqa bir şey deyildirlər. Yerli əhaliyə zülm və təəddi son dərəcədədir. Maarif gündən-günə azalır.

İştə mərhum Mustafa Kamil Paşanın təsis etdiyi «Hizb ül-vətəni» cəmiyyəti İngilislərin Misirdəki bu

vəziyyətlərinə qarşıdır. «Hizb ül-vətəni» cəmiyyətinin nə dərəcəyə qədər müvəffəq olacağını bilmək üçün Osmanlı və Almaniyanın bu cəmiyyətə nə dərəcəyə qədər müavinət etdiklərini və edəcəklərini bilmək lazımdır.

Bu gün ingilislər Osmanlını Misirdəki hüququndan keçirmək üçün Osmanlını hər işdə sıxışdırırlar.

Hər şey məchul olsa da, bir şey məlumdur ki, İngilislər bu yanda on iki milyon İran müsəlmanlarını, o yanda on milyon Misir müsəlmanlarını bu dərəcə sıxışdırmaqla bütün aləmi-islamın nifrətini qazanırlar. Halbuki dövlətlər içində rüayası (rəiyyətlər) ən çox müsəlman olan İngiltərə dövlətidir. İngilislər düşünməlidirlər ki, İran və Misir İngilislərin ayaqları altında fəryad edərkən altmış milyon Hindistan müsəlmanları və osmanlılar ingilislərə nəzəri-xoşnud ilə baxmazlar. Hasili, ingilislər bu son zamanlarda özləri üçün böyük təhlükələr hazırlayacaq yola gedirlər. Bir zaman aləmi-islam içindəki mövqeyi-hörmət və mənfəətlərini Almaniyaya tərk etdilər. Bütün bu hay-hudan biz qurtuluruz. Lakin İngiltərə aləmi-islamı qaib edər.

ƏHMƏD KAMAL

1 NOYABR 1910, № 3, səh. 1- 4

«TƏRANEYİ – VƏTƏN»

Vətən əldən gediyor,
Bizə fəryad ediyor.
Yetiş imdadə diyor,
Yürü, fəryadına gəl!
Vətən imdadına gəl!

x x x

Hər tərəf doldu ədu,
Kərbəla xatiri su.
Su bulunmazsa ağu!
Yürü, fəryadına gəl!
Vətən imdadına gəl!

Anamızdır, anamız!
Bunu bizlər qanarız.
Bu uğurda yanarız!
Yürü, fəryadına gəl!
Vətən imdadına gəl!

Anamızdır, anamız!
Anadan da ucamız.
Bu vətəndir xocamız.
Yürü, fəryadına gəl!
Vətən imdadəna gəl!

Sürüdən olma cüda,
Qurd edər sonra cəfa.

Ya ölək!... ya ki, yaşa!
Yürü, fəryadına gəl!
Vətən imdadəna gəl!
Yaşa İran, yaşa sən!
Olma vİran, yaşa sən!
Bizdə var qan, yana sən!
Yürü, fəryadına gəl!
Vətən imdadəna gəl!

ƏHMƏD KAMAL

1 NOYABR 1910, № 3, səh. 4

HƏFTƏYİ – FƏNNİ
(HƏRARƏT)
(BİRİNCİ NÖMRƏDƏN MABƏD)

Canlı dediyimiz heyvanların bədənlərində bir hərarəti-məxsusə vardır. Heyvan ölürsə bu hərarət dəxi məhv olur. Buna «Hərarəti-heyvaniyyə» deyirlər. Bəzi heyvanların hərarəti sabit deyildir. Yəni onların hərarətləri havanın və yerin istiliyinə tabedir. İlanlar, milçəklər kimi. İnsanların və böyük heyvanların hərarətləri əsla dəyişməz. Hava nə dərəcə isti və soyuq olursa olsun, yenə hər bir miqdarda qalır.

Məsələn, insanın hərarəti – bədəniyyəsi hanki mövsümdə, hanki məmləkətdə müayinə edilirsə edilsin, yenə 37 dərəcəyə qədər çıxa bilirsə də, bundan ziyadə artması insanı öldürür. Bəzən dəfə də 25

dərəcəyə qədər düşə bilir. Fəqət o zaman ölüm də insanın başı ucunda dolaşmağa başlar.

Vücudumuzdakı bu istilik nasıl hasil olur?

Bizim vücudumuzun hərarəti nə günəşin hərarətindən, nə də kürreyi-ərzin hərarəti-mərkəziyyəsindən irəli gəlməməkdədir. Əgər elə olsaydı, yayda atəş kimi qızıb, qışda buz kimi donmağımız icab edərdi.

Bütün heyvanların vücudu adətən bir ocaq kimidir. Gecə və gündüz heç bir saniyə tətil edilməmək üzrə vücudun hər nöqtəsində kömür yanıyor. Bu yanmaqdan istilik hüsula gəlir. Nə zaman yanmaq mətəl qalırsa, təbii, hərarət dəxi hasil olmayacağından həyat əməldən düşər.

Şimdi siz deyirsiz ki, bizim vücudumuza kömür nərədən girir?

Yediyimiz konfetlər, şəkərləmələr, yağlı çörəklər həp kömürdür. Bunlardakı kömür mədədə əriyib, həzm olunaraq qana keçir. Qan isə bunları bədənimizin hər nöqtəsinə dağıdır. Nəfəs aldığımız vaxt ağ ciyərlərimizə hava girir. Onun içində məvalhəmuzə deyilən yandırıcı bir qaz vardır, o da qana keçir. Kəzalik vücudun hər nöqtəsinə varır. Orada söylədiyimiz kömürlərə rast gəlir. Onları yandırır. Bu yanmaqdan iki şey hasil olur:

Biri hərarət, digəri hamiz (karbon) ismindəki boğucu bir qaz. Hərarəti-bədənimizi isidir. Ya o böğucu qaz nə olur? O da yenə qana qatışır və ağ ciyərlərə qədər gedir. Nəfəs verdiyimiz əsnada bayıra

çıxır.

İnsanın içi bir maşının paravozuna bənzər. Daima ocağı yanar. İştə bu ocağın yanması ilə bədən də tərpənir. Nə vaxt bədəndə kömür bitirsə, bədən də tərpənməkdən qalır. Yenidən bədənə kömür atmaq lazım gəlir. Bu kömürü də yediyimiz şəkərli, yağlı şeylərdən alırız. Ətdə kömür çox azdır. Müharibə zamanlarında çox yol gedən əsgərlərə daima qənd paylayırlar.

Hər dörd-beş saat yürüdükdən sonra əsgərləri ənlədib, birər miqdar şəkər yedizdirirlər. Çünki yürüyə-yürüyə qanımızdakı kömür sərf olunub, ya azalır, ya bitir. Şəkərdə isə kömür hər şeydən çox olduğundan şəkəri mədəyə atınca içimizdəki ocağa təzə kömür göndərmiş oluruz.

BALAXANI, ƏLİ MİŞAN.

1 NOYABR 1910, № 3, səh. 5

= TƏRACÜMİ – ƏHVAL =
ALEKSANDR SERGEYEVİÇ PUŞKİN

İKİNCİ NÖMRƏDƏN MABƏDİ

Qırxa yavuq (yaxın) sinnində Sergey Levoviç Salon nücəba və gözəllərindən ədd olunan (hesab olunan) Nadejda Osipovna Hanibala rast gəlib, məftunu olur.

Nadejda Osipovna Puşkinin «Arap Petra Velikoqo» nam hekayəsində tərif olunmuş İbrahim Hanibalın əhfadındandır (nəvələrindən), İbrahimin oğlu Osip dəlibaş, vəhşi xasiyyət bir cavan olduğundan Mariya Alekseyevna Puşkin ilə təzəvvüc edirsə (izdivac) də bir kaç zamandan sonra xristiyan şəriətinə müğayir olaraq ikinci dəfə bir başqası ilə də izdivac etmişdir.

Bədə (sonra) Osipin şu hiyləsi faş olub təhti-məhkəməyə alınır. Məhkəmədə Osipin ikinci nikahı fəsx olunub, Mariya Puşkinanın əğdi qanunən təsdiq olunur.

Şu vaqiədən bir sənə sonra Aleksandr Sergeyeviç Puşkinin validəyi-nəcibəsi (anası) olan Nadejda Osipovna təvəllüd etmişdir (anadan olmuşdur).

ƏYYAMİ – TÜFULİYYƏTİ (UŞAQLIĞI) VƏ İLK TƏRBİYYƏSİ

Puşkin çocuğluğunda adı bir çocuq olub, onda dahilik, fövqəladə bir istedad və qabiliyyət əsəri görünməmişdir. Hətta zəki çocuqlara müxtəs olan halati-təbiyyədən belə ari olub, vəhşi, əhrəq, tənbəl bir cocuq olmuş. Bundan naşi də valideyni ona əsla ibrazi-məhəbbət etməzdilər.

Puşkinin əyyami-tüfuliyyəti iki nəfər əcuzə övrət ilə məşhurdur ki, onlar da Puşkinin əksər hekayət və təsniflərində zikr olunurlar. Onların biri ədibin öz nənəcəsi Mariya Alekseyevnadır ki, fərasətli və

tərbiyəli bir övrət imiş.

Mariya Alekseyevna öz nəvəsinin tərbiyəsinə çox çalışmışdır. Daima çocuğa növbənöv nağıl və hekayələr söyləyib, əksər övqat on səkkizinci əsrdəki əyan və əşrafın tərzi-məişət və əhvallarından müba-hisələr edib, Puşkini məşğul edirmiş.

İkinci mürəbbisi isə Puşkinin ən istəkli və həmişə yad etdiyi dayəsi Arina Radionovnadır ki, Puşkinin təsnifatında onun bir çox təmsil və hekayələri və milli şeirləri zikr olunur.

Yeddi yaşında ikən Puşkinin əhvali-təbiəsində böyük inqilabat müşahidə olunur. Qorxunc, tənbəl və bifərasət olan bu uşaq birdən-birə nadinc, tünd və hirsli bir çocuq olur.

Puşkinin ilk təliminə öz nənəcəsi Mariya Alekseyevna, dayəsi Arina Radionovna və bir də xüsusi dəvət olunmuş müəllimi rahib Belikov məmur edilmiş, lakin əsri-məzkurun səliqəsinə rus əlifbasını itmam edəndə Puşkin əcnəbi mürəbbilərə (tərbiyə-çilərə) tapşırılmış. Əcnəbi mürəbbilərin də tez-tez dəyişilmələrindən və yaxud mürəbbilərin ədəmi-ləya-qətlərindən naşi Puşkin bunlardan lazımınca nəfbərdar olmayırdı.

Bir tərəfdən mürəbbilərin ədəmi-ləyaqətləri (ləyaqətsizliyindən), bir tərəfdən də Puşkinin fitri tənbəlliyi səbəbi ilə Puşkin bəzi üluma əsla yanaşmadı. O cümlədən elmi-hesab və həndəsədə cavan Puşkin o dərəcədə zəif imiş ki, çox vaxt müəllimi hüzurunda dərslərini bilmədiyindən ağlarmış.

Demək ki, bu vaxta qədər Puşkinin əhvali-təbiiyyəsi bir tərzdə olub, adi uşaqlardan əsla fərq olunmayırmış.

Sonu var.

MƏMMƏD SADIQ

1 NOYABR 1910, № 3, səh. 5-7

= İCMALİ- ƏHVAL =
BU HƏFTƏNİN TARİXƏ KEÇƏCƏK XƏBƏRLƏRİ

İngiltərənin İrana verdiyi notanı rədd etmək üzrə İstanbulda «Odeon» teatrosunda 10 oktyabr 1910-da böyük bir konfrans verilmişdir. Bu konfransda teatro bütün osmanlılar, İranlılar, üləma, ümərа, zabitan, qəzetçilər, avropalılar ilə dolu idi. Konfransda nitq irad edən zatlar:

Nəcəfi-əşrəf müctəhidini-üzamı tərəflərindən vəkalətən İstanbula göndərilən Şeyx Əsədulla, İstanbul məclisi-məbusanında Aydın məbusu (Aydın şəhərinin nümayəndəsi) Məhəmməd Übeydülla, Əhməd bəy Ağayev, Şeyxülislam Kürdi, Hüseyn Daniş, «İttihad və tərəqqi» mürəxəsi Ömər Naci, doktor Qarabəy, İstanbuldakı «Dəbistani-İraniyan» məktəbinin müdiri Tofiq, Alimcan həzəratı idi.

Əvvəla nitqə Şeyx Əsədulla həzrətləri başladı. Dedi ki:

Avropa dövlətləri aləmi-islamın seylabi-cəha-

lətdə yuvarlanması və bundan təvəllüd edən (doğan) məsuliyyəti üləmaya təhmil edirlər. Halbuki üləma bu məsuliyyəti öz öhdəsindən qaldırmaq üçün istehsali-hürriyyətə sərfi-məsai itdiyi kimi, bütün mövcidiyyəti ilə bundan sonra da hazır və hər dürlü fədakarlığa amadədir (hazırdır).

Şimdiyə qədər olan intriqaların təşəbbüsatını səmərəsiz buraxmaq, əcnəbi boyunduruğuna girməmək üçün çalışmaq lazımsa çalışalım.

İngiltərə bütün İranlılarca hürriyyətpərəst bir millət bilinməkdə idi. Fəqət ultimatomunda cənubi İranda iqtişaşdan bəhs edir. Cənubi İranda iqtişaş olmadı.

Bu iş əşirətlərin (tayfaların) mürir və üburundan ibarət bir şeydir. İranlılar hər dürlü fədakarlığa hazırdır. İngiltərənin bu təşəbbüsatına iştirak etməyəcəkdirlər. İranlılar son fərdinə qədər, balaca bir çocuk belə qalmayıncaya qədər mühafizəyi-vətənə qərar vermişdilər. İran bəlkə təqsim edilir, ancaq tarümar olduqdan sonra.

Yuxarıda ismləri keçən natiqlərin hər biri öz nöqteyi-nəzərincə İranın fəlakətini, əsbabi-səadətini birər-birər təşrih etdi.

«İttihad və tərəqqi» komitəsinin mürəxəsi Ömər Naci bəyin xülasəyi-nitqi:

-Möhtərəm qardaşlar!

Qonşumuz bədbəxt və müsibətzədə İranın bir kaç sənədən bəri davam edən əyyami-fəlakətinin ən əlimini təşkil edən bu son hadisə ki, İngiltərə hökuməti

tərəfindən İranın işğalı üçün verilən son ultimatomudur.

Əfəndilər, zahirlə işğalın zamanı çoxdan keçdiyini artıq anlamalıyız. Məsələ yalnız İranın bədbəxtliyi ilə qalmaz. Biz bu gün filan, yaxud filan qövm bədbəxt olduğu deyil, filan bədbəxt üçün çalışmalıyız. Bu gün İngiltərə İranın işğalını arzu edir. Fəqət düşünməli ki, bir insan nə qədər yemiş olsa, bağırsaqlarının ala, yeyiləcəyi qədər yeyər. Sonra artıq yeyə bilməz.

Mən İranda, İranın dövri-müsibətində məktəb xocası ikən tələbəmdən Cəmid namında bir çocuğun yetmiş beş yaşında babası mücahidlərlə bərabər getdi və öldü. Bu çocuğa:

-Sənin baban öldü, dedilər.

Çocuq:

-Mənim babam ölməz. Çünki mənim babam İrandır, vətəndir, - dedi.

Konfransda fazili-şəhir Aydın məbusi-möhtərəmi Məhəmməd Übeydulla bəy əfəndi uzun bir nitqdən sonra Almaniya dövlətinin son zamanlarda hər yerdə müsəlmanların imdadına çatdığını və bu gün də müsəlmanlara mədədrəs olduğunu bəyan edərək, konfrans heyəti tərəfindən Almaniyaya bir təşəkkür teleqramı çəkilmək lazım olduğunu bildirmiş və bu təklifi ümumiyyətlə qəbul olunmuşdur. O gecə Almaniya imparatoruna bir təşəkkür teleqrammı çəkilmişdir.

1 NOYABR 1910, № 3, səh. 7-8

= MƏKTƏB =

Məsələmizi həll edən zəvat (şəxslər) məsələnin həllini və aşağıdakı (məsələ həlli) yazılı parçanı məcmuəmizdən kəsib, bir zərf (konvert) içinə qoyaraq idarəxanəmizə göndərməlidir. O parça olmayan məsələlər qəbul olunmaz.

= MƏSƏLƏ =

Bir xidmətçi çalışan günlərində bir manat yarım (1,50) alacaq. İş olmayan günlərində bu qiymətin yarısını alacaq.

Bu şərtlə qırx gün üçün bir adamın yanına xidmətçi girmiş. Qırxıncı gün ev sahibi bu xidmətçinin hesabını görmüş və xidmətçiyə otuz üç manat (33) vermiş.

Əcəba, xidmətçi neçə gün çalışmış, neçə gün çalışmamış?

X X X

EŞİDƏNƏ!

Kimlərə dəsti-qəzadan mən şikayət eyləyim?
Növbənöv dərd eyləyir icad məndə daima.
Razıyam bir dərd ilə ta qəbr yoldaş olmağa,
Heyf kim, bir təzəsi olmaqda hərdəm runüma.

Ə.P.

1 NOYABR 1910, № 3, səh. 8

«YENİ FÜYUZAT»A ABUNƏ OLANLAR:

1) İran dövlətinin liman rəisi, 3 nüsxə, Saidülvüzəra
2) Əbdülbağı Məmmədzadə, bir nüsxə;
3) Novruz Ağazadə, bir nüsxə;
4) Əzizağa Mütəllibzadə, bir nüsxə;
5) Süleyman Ağasizadə; bir nüsxə;
6) Bəradəran Hacıbaba Ağasizadə; bir nüsxə;
7) Əliverdi Əlizadə, bir nüsxə;
8) Axund Yusif Talıbzadə, bir nüsxə;
9) İsabəy Aşurbəyov, bir nüsxə;
10) Ələsgər Lütfəlizadə; bir nüsxə;
11) Doktor Bəhram bəy Axundov, bir nüsxə;
12) Əliqulu Hüseynov, bir nüsxə;
13) Ələkbər Muradəliyev, bir nüsxə;
14) Mirzə Cabbar, bir nüsxə;
15) Məmmədhaşım Babayev, bir nüsxə;
16) İsmayıl Mahmudzadə; bir nüsxə;
17) Yusif Hüseynov, bir nüsxə;
18) Əliağa Həsənov; bir nüsxə;
19) Əsəd Qarayev, bir nüsxə;
20) Abbas Məlikov, bir nüsxə;
21) Kərbəlayı-Məmmədəli Salayev, bir nüsxə;
22) Axund-molla Ağa Əlizadə, bir nüsxə.

Ardı dördüncü nömrədə.

1 NOYABR 1910, № 3, səh. 8

«YENİ FÜYUZAT».

№ 4

9 NOYABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «FÜYUZAT».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

ASİYADA:

Rus və İngilis rəğabəti. Bu rəqabətə İran və Əfqanın alət olması. Osmanlı və İranın mazidəki (keçmişdəki) qəflətləri. Xivə. Osmanlı və Almaniyanın İranı himayələri. İranın halı və istiqbalı (gələcəyi).

İkinci nömrədən mabəd.

x x x

Bu müahidəni Əfqan əmirinə imza etdirdikdən sonra İngilislər artıq Əfqanistanı təhti-itaətə alınmış hesab edib, Hindistana çəkilmək istədilər. Lakin İngilislərin bu tğəcavüzlərindən fövqəladə həyəcana gəlmiş və əmirə üsyan eləmiş olan əfqanlılar dağlara çəkilib, İngilislərin keçəcəyi yollara hakim olan dağ təpələrini tutmuşdular.

1842-ci sənəsində ingilislər Hindistana övdət (qayıtmaq) üçün dağ keçidlərindən keçərkən əfqanlılar təpələrdən bunlara hücum edərək bir dənə İngilis qalmayıncaya qədər öldürdülər. İngilislər əfqanlıların bu zərbələrindən fövqəladə mütəzərrir və məyus oldular. Və bir müddə Əfqan haqqındakı fikirlərini təkrar mövqeyi-icraya qoymaqdan çəkindilər.

Fəqət 1863 sənəsində Türkistan tərəflərində ruslar yenə hərəkətə başladıqlarından İngilislər yenə Əfqan əmiri ilə birləşib və ona lazım olan müavinətləri eləyib, Əfqanı Heratın zəbtinə təhrik və təşviq etdilər.

İngilislər də Əfqanın cənubunda və Hindistanın qərbində və İranın şərqində qonşu olan Bəluçistana yerləşdilər.

1878-də əfqanlılarda yenə bir qiyam və üsyan zühura gəldiyindən bu dəfə İngilislər bütün qüvvələri ilə Əfqanı təhti-itaətə aldılar. Əfqanı öz nüfuzları və hökmləri altına qoydular.

İştə 1840-da İngilis Lord Ukland maharət və tədabir ilə başlayan Əfqan istilası 1878-də İngilislərin arzularına müvafiq surətdə nəticələndi.

Əfqan İngilislərin əlinə keçincə Rusiya üçün o tərəfdən Hindistan yolu bağlanmış oldu. Binaən iley ruslar bu dəfə Hindistan üçün bir başqa yol aramağa məcbur oldular. Və bu yolu Türkistan tərəflərində buldular.

Ingilislər Əfqanı vurmağa başladıqları zaman zatən ruslar o tərəfdən məyus olmağa başladıqlarından Rusiya çarı birinci Nikolay Xivəni istilaya qəti qərar vermişdi.

O zaman Xivə əmiri qəhrəmanlıqla məşhur olub, bütün türkmanların hörmət və məhəbbətini qazanmış olan Rəhmanqulu xan idi.

Rusiya çarı birinci Nikolay Rəhmanqulu xanın üstünə general Profskini göndərdi.

O, müharibədə Rəhmanqulu xanın əsgərləri Rusiya əsgərini tarümar etdi. General Profski Rəhmanqulu xan ilə barışmağa məcbur olub geri çəkildi.

Rusiya Xivə istilasını bir dürlü xəyalından çıxarmayırdı. Bu dəfə Sveçdə üç ədəd yelkənli və iki

ədəd dəmir qablı beş gəmi yapdırıb, bunları Sveçdən Peterburqa, oradan parça-parça Samaraya, oradan Aralskiyə nəql etdi. Və bu gəmiləri işlətmək üçün Türkistanda bir də kömür mədəni buldu.

1853 sənəsində dekabrın on birində Rusiya Xivə üzərinə gəmi və əsgər ilə dəhşətli bir hücum icra elədi. Və birinci dəfə olaraq Xivəni zəbt eitdi.

Bu müharibə bir sənəyə yaxın davam etdi. 1854-də Rusiya Xivə əmiri ilə fövqəladə müxzir və müdhiş bir müahidə bağladı ki, bu müahidə Rusiya ilə Osmanlı arasında əğd olunan Qaynarca və yenə Rusiya ilə İran arasında əğd olunan (bağlanan) bəhri-Xəzər (Xəzər dənizi) müahidəyi-mənhüsələrinə bənzər.

İştə Rusiya Osmanlı, İran və Xivə kimi üç müsəlman dövlətini bü üç mənhus müahidə ilə özünə məhkum və əsir etmişdi ki, bu üç müsəlman hökumətlərinin üçü də bir-birinə cinsən, dinən, adətən, mövqeən yapışıq qonşu idilər və qonşudurlar.

Rusiya Xivəni aldıqdan sonra Xəzər dənizindəki donanmasını qüvvətləndirdi. Xəzər dənizinin şərqində Krasnovodsk qalasını bina elədi. Yavaş-yavaş İrana təğərrüb edərək biləxərə (nəhayət) Dəhistan ilə Absükun arasındakı yerləri də İrandan yədi-zəbtinə keçirdi (öz əlinə aldı, zəbt etdi).

Qəribə burasıdır ki, Dəhistan və Absükun ərazisi rüsların yədi-qəzəb və zəbtinə keçdiyi halda o zaman, yəni bundan təqribən otuz sənə əvvəl İranın Londradakı səfiri Möhsün xan bu xəbəri qəzetlər ilə təkzib edirdi.

Daha doğrusu, şah bu xəbər əhali arasına dağılırsa (yayılırsa), bəlkə, bir həyəcan olur, bu həyəcandan da əlahəzrət rahatsız olur, fikri ilə Möhsün xana bu xəbərin yalan olduğunu qəzetlərlə elan etdirirdi.

Bu gün kiçik bir məmləkət kimi Xivə deyib keçdiyimiz Xivə xanlığı bir zamanlar bir tərəfdən Hindistana və bir tərəfdən Ərəbistan və biladi – Ruma qədər hökm edən əzim-üssitvət bir islam hökmdarlığı idi.

Hətta Osmanlı padşahlarından Sultan Süleyman Qanuni Xivə xanları ilə ittifaqlar yapmış və Sultan Muradi-salis bir zaman Xivə xanına səfir göndərib, imdad, müavinət tələb etmişdir.

İştə bebə bir qitəyi-əziməyi-islam rus əlinə və Əfqan kimi İrana müadil bir hökuməti-islamiyyə də İngilislərin yədi-qəsbinə düşərkən şahlarımız, padşahlarımız nə yapırdılar?

Eyş-nuş ilə bu gün, anma qəmi-fərdanı,
Sana ismarladılarmı bu yalan dünyanı?

Fəhvayi-səfihincə: «Canan baağuş və müstəbənəsin nuşanuş» olaraq fəryadi-məhaliki fəramuş etmişlər və o gündən bəri yığılıb gələn əsbabi-inqirazın bugünkü nəticəyi-mənhüsəsi içində mədhuş və bihuş qalmışdılar.

Əgər o zamanlar Xivə və Əfqan kimi iki qitəyi-islamiyyənin inqirazına İran və Osmanlı laqeyd qalmamış olsaydılar, əgər İran və Osmanlının müqəddəratını o zaman əllərinə almış olan vükəla (vəkillər)-də bu günü görə biləcək nüfuzi-nəzər olsa idi, o zaman bu iki

hökuməti-islamiyyənin imdadına şitaban olurlar və onlar da bu gün İranın təxlisinə Osmanlılarla bərabər qeyrət edərdilər. Və bəlkə İran, Osmanlı və Əfqan və Xivə kimi müstəqil üç dövləti-islamiyyə arasında olsaydı, heç kimsə İrana təcavüzə cəsarət etməzdi. Lakin əfsus!

Osmanlı və İranın mazidəki qəfləri nəticəsi olaraq o gün İran, İngilis və Rus kimi iki qüvvətli rəğibə qonşu olmuş və o iki qitəyi-islamiyyə birər cəsədi-biruh kimi bu gün hərəkətdən aciz qalmışdılar.

Daha var.

ƏHMƏD KAMAL

9 NOYABR 1910, № 4, səh. 1-3

= HƏFTƏYİ – FƏNNİ =
= SƏHHƏT =

Keçən nömrədən mabəd.

Keçən nömrədə dediyimiz kimi, insan nə qədər havaya möhtacsa, o qədər də ziyaya (işığa) ehtiyacı vardır.

Günəş girən yerə həkim girməz.

Demək ki, insanın yaşadığı otaqlara günəş girirsə, o insanın heç bir zaman həkimə ehtiyacı olmaz.

Günəşin ziyası insanın ən ziyadə bağlı olduğu şəraiti-həyatiyyədəndir. Insan ətrafını əhatə edən

şeyləri günəşin ziyası sayəsində dərk edir. Günəş kürreyi-ərz üzərindəki, bilcümlə canlı məxluqata; insanlara, heyvanlara, səbziyyata həyat bəxş edir. Əgər günəşin ziyası olmasa, yer üzündə həyat qalmaz. Havasız yaşamaq mümkün olmadığı kimi, ziyasız idaməyi-həyat da qabil deyildir.

Ziyanın dərəcəsinə görə həyatın qüvvəti də dəyişir.

Şimdi pis hava və az ziya içində yaşayanların səhhət və həyatlarını nəzər-diqqətdən keçirəlim. Onları təmiz hava və çox ziya içində əmrari-həyat edənlər ilə müqayisə edəlim.

Məsələn: Pis havalı və qaranlıq fabrikada, mədən ocaqlarında, neft quyularında çalışan biçarə fəhlənin onda doqquzunun rəngi solur, nəfəsləri tutuq və daima xəstədir.

Ey möhtərəm qarie! (oxucu)

Bəşəriyyətin rifah və səadəti üçün fədayi-səhhət və həyat edən fəhlə sinifinin yaşadığı qoquşları (kazarma) görmək, sənin üçün hər növ müşkilati-həyata təhəmmül edən o biçarələrin güzarişi-ömrlərini tədqiq etmək fikirinə düşdünmü?

Əgər insafın və insaniyyətin səni bu fikirə düşürmüşsə, onların nə üçün daima xəstə və natəvan yaşadıqlarının əsbabını anlamışsan.

Biçarələr təmiz havadan məhrum. Ziyadan məhrum. Ruhən, cismən hər növ-rahətdən məhrum.

İştə bunun üçündür ki, ən yüngül bir mərəz bunları dərhal məğlubi-qəhri edir.

Əgər bir otağ cənuba baxarsa, günəşin ziyası oraya girməyəcəyindən orada daima naxoşluq peyda olur. Əgər qiblə tərəfinə baxarsa, orada xəstəlik az olur.

«Günəş girməyən yerə həkim girər» - məsəli heç inkar olunmaz bir həqiqətdir.

Ziya insanlara və heyvanlara lazım olduğu qədər nəbatata da lazımdır. Günəşin ziyası altında açıq bir yerdə dikilmiş bir ağac ilə günəş görməyən bir divar dibinə dikilmiş bir ağacı müayinə etsəniz, görərsiniz ki, birinci ağac ikincidən daha yaşıl, daha canlı, daha böyük, daha gözəl olaraq yetişmişdir. Buna səbəb günəşin ziyasıdır.

Məsələn, bir çiçək dikilmiş dibçəyi heç gün görməyən bir podvala qoyunuz. Podvalın gün girə biləcək bir pəncərəsindən balaca bir dəlik açınız ki, oradan podvala günəşin ziyası girə bilsin. Bir az zaman sonra görəcəksiniz ki, məməni görəndə özünü o tərəfə salan bir çocuq kimi, o çiçək də möhtac olduğu ziyanı almaq üçün ziya gələn o dəlik tərəfinə əyilmişdir. Əgər o dəlikdən ziya gəlməsə, bir-iki gün sonra o çiçək solub məhv olur.

İştə bu isbat edir ki, ziya həyatın ən birinci ləvazimatındandır. Günəş canlı məxluqata ziya verdiyi kimi, hərarət dəxi bəxş edir. Hərarətin həyata lazım olduğunu bilməyən yoxdur. Hərarət haqqında birinci və üçüncü nömrələrimizdə rüfəqayi-təhririyyəmizdən (redaksiya yoldaşlarımızdan) Əli Mişan cənabları təfsilati-laziməni verdiyindən biz burada təkrarından

sərfi-nəzər etdik.

Şimdi insan nasıl yaşamalıdır?

Biz bunu söyləyəcəyiz. Çünkü bizim ən ziyadə bilmədiyimiz şey fikrən, bədənən nasıl yaşamaq lazım olduğudur. Yəni insan nasıl yaşamalıdır ki, fikiri parlaq və bədəni sağ olsun.

İnsan mümkün olduğu qədər çalışmalıdır. Çünki insan nə qədər çalışırsa, bədənində qan o qədər hərəkət edir. Qan nə qədər hərəkət edirsə, bədən də o qədər bəslənir.

İkincisi, insanın oturduğu, yatdığı yerin havası təmiz, rütubətsiz olmalıdır. Çünki rütubətli olan yerin havası da rütubətli olacağından insan növbənöv mərəzlərə (xəstəliklərə)tutulur. Yel azarı (fələc), boğum ağrısı (sustava), quru zökəm, öskürək və sairə bu kimi mərəzlər rütubətli havanın tövlid etdiyi mərəzlərdəndir.

Rütubətli yerlərdə yaşayanların qanları azalır, sulanır, zəifləşir. Əgər otağ həm rütubətli, həm soyuq olursa, təhlükə daha çoxdur.

Yeni bina edilmiş, yaxud təmir olunmuş evə qurumadan əvvəl girmək zərərlidir.

Rütubəti rəf etmək üçün daima evin pəncərələrini açmalı, qışda sobanı (peçi) tez-tez yandırmalıdır.

Hava və ziya haqqında bəhs etdik. Gələn dəfə inşaallah bu zamanda cavanlarımızı xarab edən mərəzlərdən və o mərəzlərin nərələrdən, nələrdən gəldiklərini, surəti-tədavilərini (müalicə üsullarını) yazarız.

ƏLİ PAŞA

9 NOYABR 1910, № 4, səh. 3-4

Gözümdə qanlı xəyal ilə bir həzin tabut,
Zaman-zaman dolaşır üfüq fikrətimdə vüqur.

Beyində saf bulutlar, cahan-cahan ərvah,
Ətəklərində edərlər o mövkəbi təşyi.

Çıxar o,... çıxdığı yol ərşi-intiqama varır!
Keçər o,... keçdiyi yollarda ruyi-həqq qızarır!

Yavaş-yavaş dolaşır, asimanda gah durur,
Edər vücuda ədəm, sanki bir itab nigah!

Onun itab nigahı ilə məhşəri-məlәkut,
Onun rəud sükunu ilə bəlkə ərşi-ilah.

Xüzu və xəşiyyət içində donar, qalır məbhut!
Mənim gözümdə bu tabut hər zaman dolaşır,
İçində Midhəti, xuni-şəhadət ilə daşır.

ƏHMƏD KAMAL

9 NOYABR 1910, № 4, səh. 5
Həmin şeir Midhət paşaya həsr edilmişdir.

İCMALİ - ƏHVAL
İTTİFAQİ - ETİLAF

Qaradağ sərhəddində müqəddimən ara-sıra vüqua gələn hüdud müsadimatı bu axır zamanlarda çox şiddət etmişdir.

Qaradağ sərhəddində olanlar sərhəddən keçib olmaz cinayətdə bulunub, öz hökumətlərinə iltica edirlər və hökumətləri nəzdində heç bir mücazata giriftar olmayırdılar. Buna görə Türkiyə xariciyyə nəzarəti kamali-əhəmiyyətlə Qaradağ hökumətindən belə canilərin cəzalanmasını tələb və israr etmişdir.

Osmanlı hökuməti Ruminiya ilə bir etilafi-əsgəri əğdini mütəaqib Almaniya və Avstriya ilə dəxi əğdi-etilaf müzakiratına girişdi. Fəqət bu etilafa İtaliyanın daxil olmayacağını bəzi Avropa qəzetələri yazmışdılar.

Bu günlərdə Avstriyadan gələn əxbarda və Bolqar mətbuatının işaatında dövləti – Osmaniyyənin ittifaqi-müsəlləsə düxulu təqrir etdiyi və İtaliyanın da bu etilafı qəbul etdiyi dərmiyan olunmaqdadır.

Füyuzat – Qəribədir ki, elani-məşrutiyyətdən bəri gələn kabinələrin həpisində bir cins xəstəlik var ki, o da bitərəflik xəstəliyidir. Ya bilməliyiz ki, zəmanəmizdə ən qüvvətli dövlətlər belə bitərəfanə, təkbaşına mühafizəyi-vəziyyətə müqtədir olmadıqlarını ittifaqları ilə isbat edib dururkən bizim diplomatlarımızın xövf və tərəddüdləri nədən nəşət edir?

Bitərəflik hankı vüquatda olursa olsun, bir məsləkdir ki, vüquatın mahiyyətini təyin etməkdə mütə-

rəddid qalmaqdan nəşət edir. Bu da əczdir.

Bizim kabinələrimiz bu və ya nə tərəfə intisab edəcəklərini təyinində mütərəddiddirlər. Yaxud intisab edəcəkləri tərəfi təyin etsələr də, şərayiti-intisabda aldanmaqdan qorxurlar. Bunların ikisi də əfkari-ümumiyyəyə rahatsızlıq verir. Bu tərəddüdlərin kabinə haqqında hüsni-etimada irasi-xələl edəcək dərəcəyə varmadan bugünkü müvazinəyi-siyasiyyənin iki kəfəsi demək olan ittifaq və etilafın birinə intisab edilməsi lazımdır. Xüsusilə maddi və mənəvi bugünkü vəziyyəti-Osmaniyyə ittifaqi-müsəlləsə ittifaq dərəcəsində təqərrüb etmişdir. Bu qürbiyyəti nəticə pəzir eləmək bu gün ən mühüm və müntəzir məsaili-siyasiyyəmizdəndir.

X X X

London – İstanbul məhafili- siyasiyyəsində söylənilir ki, guya İngiltərə hökumətinin Misiri İngiltərəyə ilhaq haqqında tədqiqatda bulunmaq üzrə Misirə bir heyəti-məxsusiyyə göndərmişdir. Bu şayiat qətiyyən təkzib edilməkdədir. İngiltərə hökuməti Misirin əhvali-hazirəyi-siyasiyyəsində heç bir təbdil vüqu bulunmasını arzu eləməkdədir.

X X X

HİCAZ XƏTTİ VƏ HİNDİSTAN MÜSƏLMANLARI

Hindistanda Pəncab əyalətinin mərkəzi olan Lahur bələdəsində (şəhərində) müntəşir «Vətən» qəzetəsi sahibi tərəfindən Misirdə müntəşir rüfəqamıza göndərilən məktubun surəti-tərcüməsidir.

Hicaz dəmir yolu xətti üçün «Vətən» cəridəsi (qəzetəsi) idarəxanası tərəfindən açılan ianə dəftərinin otuz beşinci təqsiti dəxi darülxilafədəki komissioni-məxsusuna göndərilmişdir. Fəqət məəttəəssüf (təəssüflər olsun ki), bu dəfəki irsalatın miqdarı qırx dörd İngilis birasını təcavüz etməyir. Üç ayda bir göndərilməkdə olan işbu təqsitlərin hər dəfəsindəki irsalat yüzlərcə liraya və hətta bəzən min İranı mütəcaviz bir məbləğə rəsidə olmaqda ikən birdən-birə bu qədər tənəzzül etmiş olması şübhəsizdir ki, hökuməti-Osmaniyyənin Beynəlhərəmeyn xəttin təmdidi haqqında göstərdiyi təraxinin Hind müsəlmanlarına iras elədiyi yas və futurdan nəşət eləməkdədir. Yalnız «Vətən» cəridəsi idarəsi vasitəsi ilə şimdiyə qədər göndərilən ianənin (yardımın) yekunu doxsan səkkiz min altı yüz iyirmi səkkiz Hind rupiyəsinə baliğ olmaqdadır ki, kəsrsiz hesab olaraq yüz min rupiyə deməkdir.

Allah göstərməsin, hökuməti-səniyyə az bir müddət zərfində xətti-mübarəkin inşasına dair bir hərəkətdə bulunmadığı təqdirdə mövcibi-yas və təəssür olan şu əhval və şərayit altında cəmi-ianatda davamı məələsəf arzu etməyən idarəxana yekun irsalat yüz min

rupiyəyə baliğ olar – olmaz dəftəri-ianəni qapamaq əzm və niyyətindədir».

Rəfiqimiz məktubun zirinə (altına) atidəki mülahizəni tərdif edir:

«İkmalı bir çox fəvaidi-diniyyə və iqtisadiyyə və siyasiyyə təmin edəcəyi xəfi olmayan şu xətti-mübarəkin bir an əvvəl itmamı haqqında ricali-dövlətimizin ehtimami-məxsusda bulunmalarını rica ediriz».

«SİRATİ - MÜSTƏQİM»

Füyuzat – Hindistandakı müsəlman qardaşlarımızın Hicaz dəmir yolu haqqında göstərdikləri və həmiyyəti-diniyyələrini digər müsəlmanlara nümunəyi-etibar olaraq ərz edir və hökuməti – Osmaniyyənin xəttin fəaliyyəti-inşaiyyəsini təminə qeyrət etməsini rica ediriz.

9 NOYABR 1910, № 4, səh. 6-7

EŞİDƏNƏ:

Haləti-məstliyində nə olur, ey əyyaş?
Baxıb ayinəyə görsən, əcəba, surətini.
O, kərahət, o səfalət, o rəzalət tökülən,
Surətindən utanıb, anla nədir siyrətini!

Ə.SABİR

«YENİ FÜYUZAT»A ABUNƏ OLAN ZƏVATİ - GİRAM

1) Kərbəlayi-Həsən Murtuzayev, Sabuncu;
2) Yusif Abdullayev, Sabuncu;
3) Mahmud bəy Qulubəyov, Sabuncu;
4) Mehdiqulu Mehdiyev, Sabuncu;
5) Hacı Əbdülcabbar Məcidov, Bakı;
6) Fərhad bəy Ağayev; Bakı;
7) Hüseynqulu Kərbəlayi – Baxış oğlu, Bakı;
8) Kərbəlayi Baləhməd Muxtarov, Bakı;
9) Səfir Mümtazüssəltənə, Paris;
10) Qulaməli xan, Londra;
11) Professor mestr Bron, Kiriç;
12) Məğbus Əsədulla xan Kürdistani, Tehran;
13) Sərdar Mötəmid; Rəşt;
14) Əliqulu Nəcəfov, Culfa.

9 NOYABR 1910, № 4, səh. 7-8

«YENİ FÜYUZAT»IN ÜÇÜNCÜ NÜSXƏSİNDƏKİ MƏSƏLƏNİN HƏLLİ

İşçi çalışdığı günlər üçün bir manat yarım (1 manat, 0/50) və çalışmadığı günlər üçün də yetmiş beş qəpik (0,75) almaq şərti ilə işə girdiyindən bütün qırx gün işləmədiyini fərz edərsən (40 x 0,75 = 30), yəni qırx dəfə 75 qəpik, yəni otuz manat almaq lazım gəlir.

Halbuki işçi qırx gün nəhayətində otuz üç manat (33 m.) aldığından ziyadə qalan bu üç manat çalışdığı günlər üçün artıq alacağı ücrətlərin (zəhmət haqqı) məcmusu olmaq lazım gəlir. Bu halda bu üç manatı yetmiş beş qəpeyə bölərsən (300 : 75 = 4) olur ki, bu dörd manat işçinin çalışdığı günlərin ədədidir.

Demək ki, işçi dörd gün çalışmış, otuz altı gün çalışmamış.

Filhəqiqə, işçi çalışdığı dörd gün üçün altı manat (4 x 1,5 = 6) və işləmədiyi otuz altı gün üçün də iyirmi yeddi manat (36 x 0,75 = 27) alacağından bunların məcmusu otuz üç manat (27 + 6 = 33) edir.

9 NOYABR 1910, № 4, səh. 8.

= MÜKAFAT =

Məsələmizi doğru həll edib, ən əvvəl və bir gün içində idarəmizə irsal edənlər:

«Zənbur» məcmuəsinin dəftərdarı Rza İsgəndərzadə və «Səadət» mədrəsəsinin birinci sinif şagirdlərindən Ələsgər Ələkbərzadə olduqdarından vəd etdiyimiz üç aylıq abunənin bir buçuq aylığı birinciyə, bir buçuq aylığı da ikinciyə isabət edir. İdarəmizə təşrif gətirib abunə sənədlərini ala bilərlər.

İkinci nömrəmizdəki məsələnin həllinə dair yüz qırx yeddi (147) məktub aldıq. Lakin bunların içində doğru həll edənlər:

Çəmbərəkənddə, altıncı qorodskoy məktəbinin

ikinci sinifində Ağaverdi Novruzov;

Bakıda Qafar xan Rzayev;

Bakıda «Səadət» məktəbinin ikinci sinifində Əsədulla Hacı İsmayıl oğlu İsrafilzadə, Mehdi Hacı Əbdüssalam oğlu Səidbəyzadə, Əlabbas, Mirzə Hüseyn Quluzadə, Mir Əbdüləziz Nəsirzadə, Şirməmməd, M.Əhməd oğlu Muradzadə.

Və yenə məzkur məktəbin birinci sinifində Səlman Hacı Xalıq oğlu Hüseynov;

Dərbənddə: Tofiq Məmmədzadə;

Bakıda: Nikolayevski küçədə H.M.zadə;

Bakıda: Abdulla Babayev;

Bakıda: «Nəşri-maarif» məktəbinin dördüncü sinifinin birinci şöbəsi şagirdi Hüseyn Mirrəcəbzadə.

9 NOYABR 1910, № 4, səh. 8

= TƏBRİK =

Birinci və üçüncü nömrələrimizdəki məsələlərimizi həll edənlərə baxılırsa, görülür ki, çoxu Bakıda üləma və əyani-giramin təhti-nəzarətlərində təsis edib, anbəan füyuzatnümayi tərəqqi olan «Səadət» mədrəsəsi şagirdlərindəndir. Mədrəsəyi-məzkurə şagirdlərinin göstərdikləri qeyrət və tərəqqidən naşi «Səadət» mədrəsəsi heyəti – idarə və tədrisəsini səmimi – qəlbdən təbrik edir və digər məkatibi – milliyəmizdən də mədrəsəyi-məzkurə kimi hərəkət və qeyrət gözləyiriz.

9 NOYABR 1910, № 4, səh. 8

«YENİ FÜYUZAT»

№ 5

16 NOYABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, **«Füyuzat».**

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

SİYASİ HÖKUMƏTLƏR:

Hökuməti-münfəridə və hökuməti-əvam.

Zəmanəmizdəki hökumətlər iki şəkildədirlər. Biri «Hökuməti-münfəridə», digəri «Hökuməti-əvam»dır.

Hökuməti-münfəridə dəxi iki növdür. Biri «Hökuməti-mütləqə», digəri «Hökuməti-məşrutə»dir.

Hökuməti – mütləqədə bütün hökumət müstəqillən bir fərdin əlində qalır ki, bu fərdə Padşah, imparator, karol, sultan kimi adlar verilir.

Bu fərd vəfat etdikdən sonra səltənət qanunən təyin edilmiş olan vərəsəyə keçir. Əgər varis olan zat həddi – büluğa yetməmişsə, bunun üstünə bir vəsi təyin edilir ki, buna «Naibüssəltənə» deyirlər.

Varisi səltənət olan zat həddi-buluğa yetincəyə qədər naibüssəltənə o varisin namına icrayi-səltənət edir. Bu gün İranda olduğu kimi.

Hökuməti-mütləqədə məclisi-məbusan olmadığı üçün naibüssəltənə heyəti-vükəla (ministrlər şurası) tərəfindən təyin olunur. Hökuməti-məşrutədə isə məclisi-məbusan olduğundan burada naibüssəltənə məclisi-məbusan tərəfindən seçilir və təyin edilir. Nasıl ki, İranda naibüssəltənə İran məclisi-məbusanı tərəfindən bilintixab təyin edildi.

Hökuməti-mütləqədə hər nə qədər işlərin həpisi padşahın əlindəsə də, bu adam bu qədər işlərin həpsini tək başına görməyəcəyindən özünə vəzirlər təyin edir. Və işləri bu vəzirlərin arasında təqsim eləyir. Vəzirlər

də özləri üçün böyük-kiçik məmurlar nəsb edərək, onlar da öz işlərini bunların aralarında bölürlər.

Belə hökumətlərdə böyük məmurlar kiçik məmurlara qarşı birər padşah kimi olduqlarından və heç bir məmur millətə qarşı məsul olmayıb, mafövqinin, yəni özündən böyük olan amirinin keyfinə qarşı məsul olduğundan hər məmur millətin səlamətindən ziyadə öz amirinin keyfinə xidmət eləməkdən başqa bir şey fikir etməz. Bunun üçün belə hökumətlərdə daima mənafeyi-əhali paymal olur və ən sonra o dövlət də inqiraz bulur. Çünki əhaliyə istinad etməyən dövlətlər paydar olmaz. Tarix bu xüsusda bizə çox misal göstərir.

Hökuməti-mütləqədə qanunlar heyəti-vükəla (vəkillər) tərəfindən tərtib edilib padşaha ərz edilir. O da təsdiq etdikdən sonra mövqeyi-icraya qoyulur. Vəzirlər padşah tərəfindən keyfi-mayəşa təyin və əzl edildiklərindən onlar da məmləkət üçün qanunlar tərtib edərkən bu qanunlarda məmləkətin, millətin mənafeyini deyil, padşahın arzusunu hesab edərək hərəkət edəcəkləri pək təbiidir.

Yeni bir qanun yapmaq, yaxud bir qanunu pozmaq padşahın təsdiq və fərmanına vabəstədir (asılıdır). Əhalinin isə bunlara etiraza heç haqqı yoxdur. Hər nə fərman sadir olursa əhali kor-koranə itaət və əməl eləməyə məcburdur.

Bundan üç sənə əvvələ qədər Osmanlı dövləti bir hökuməti-mütləqə idi. Lakin bu gün Avropada, hətta Asiyadakı böyük hökumətlər içində hökuməti-mütləqə qalmamışdır. Böyük hökumətlərin bir neçəsi cümhu-

riyyət olub, çoxu «Hökuməti-məşrutə»dir.

Hökuməti-münfəridənin ikincisi hökuməti-məşrutədir.

Hökuməti-məşrutə dəxi hökuməti-mütləqə kimi padşah ilə idarə olunursa da, burada padşahın ixtiyarı məhduddur. Höküməti-məşrutədə hər bir işdə heyəti-vükəla məsuldur. Hökuməti-məşrutədə əhali öz aralarından neçə min nəfərə bir vəkil seçib paytaxta göndərirlər ki, buna məbus deyilir. İştə vükəla bu məbuslara qarşı məsuldur. Məbuslar isə ya bir vəziri və yaxud bütün heyəti-vükəlanı düşürə bilirlər. Bütün vəzirlər, yaxud biri məbusların əksəriyyətinin etimadına nail olmazsa, mövqeyində qalmaz.

İdarəyi-məşrutədə padşah yalnız sədri-əzəmi (baş naziri) təyin edir. Sədri-əzəm dəxi özü ilə həməfkar olan vəzirləri təyin edir. Sonra bunları məclisi-məbusana gətirib millət vəkillərinə təqdim edir. Əgər məbuslar əksəriyyətlə bunlara bəyani-etimad edərlərsə, yəni inanırlarsa, heyəti-vükəla öz işinə başlar.

Burada dəxi qanunlar heyəti-vükəla tərəfindən tərtib olunur. Lakin hökuməti-mütləqədə olduğu kimi, bu qanunlar yalnız padşah tərəfindən deyil, mütləq məclisi-məbusan tərəfindən qəbul olunmaq şərtdir.

Məclisi-məbusanın qəbul etmədiyi bir qanun məmləkətdə əsla cari olmaz.

Padşah istədiyi zaman bu məclisi bağlaya bilər. Lakin qanun ilə göstərilmiş bir müddət içində yenidən məbuslar seçkini fərman etmək şərti ilə. Əgər padşah o müddətdə məclisi təkrar dəvət etməzsə, əhali öz-özünə

seçkiyə başlaya bilər.

Hökuməti-məşrutədə əsl ixtiyarlı padşah «məclisi-məbusan»dır. Bu məclisin rizası olmadan padşahın və vükəlanın budcə xaricində bir qəpik bir tərəfə xərcləməyə ixtiyarı yoxdur.

Məşrutə hökumətlərdə padşahın fərmanları vəzirlərdən biri tərəfindən imza edilmədikcə məmləkətdə cari olmaz. Bu da padşah qeyri-məsul olduğundan əgər o fərman zərərli çıxarsa, məclisi-məbusan o fərmanı imza edən vəziri məsul etmək üçündür.

Hökuməti-məşrutədə məclisi-məbusandan başqa bir də «Məclisi-əyan» vardır. Məclisi-məbusan millət tərəfindən intixab olunur. Məbus intixab etmək də hər dövlətdə başqa üsul iledir. Bəzi hökumətlərdə arayi-ümumiyyə iledir. Yəni 21 yaşını itmam edən hər kəsin həqqi-intixabı vardır.

Bəzi hökumətlərdə isə bu həqqi-intixab müəyyən bir vergi verənlərə məxsusdur. Lakin məclisi-əyanın intixabı hər dövlətdə başqa bir yol iledir.

Məsələn, İngiltərədə məclisi-əyana «Lordlar kamarası» deyirlər ki, bu kamaraya üzv olmaq üçün atadan lord doğulmaq şərtdir. Digər hökumətlərin bəzisində bu məclisə əza (üzv) seçmək ixtiyarı heyəti-vükəlanın, bəzisində padşahın, bəzisində isə əhalinin əlindədir.

Mabədi var. (ardı var)

YUSİF MƏLIKOV

16 NOYABR 1910, № 5, səh. 1-3

ZÜMZÜMƏ VƏ İLHANƏ

Mütləq şu cahani-qəmfəzayə,
Hər bir gələn ayrı naləzəndir.

Bu qayəti olmayan fəzayə,
Baxdıqca təhəyyürüm nədəndir?

Etdikcə bu aləmi təsəvvür,
Hər ləhzədə artır təhəyyür.

Mənzurum olunca bunca sənət,
Verməməkdə daha ziyadə heyrət.

Eylər məni heyrətim əxafə,
Bədiyyət içindəki məsafə.

Bunca nə məsafədir, İlahi?
İdrakə sığışmayır kəmahi.

İldızlar, əya, çirağı-ülvi,
Hərçənd əyansınızü məxfi.

Sizlərlə bütün cahan müzəyyən,
Hər şey olur sizinlə rövşən.

Mahiyyətiniz deyil nümayan,
Dərk eyləyəməz sizi bu insan.

Heyrət verir bizə İlahi,
Miqdarı bəşərcə latənahi.

Övzayi-həvadisi-zəmanə,
Yoxdur dəxi hacəti bəyanə.

Dövr eyləyərək mədari-aləm,
İnsana təhacüm eyləyir qəm.

İcadi-həyat insi-candan,
Qafil bu qəzayi-inü andan.

Əlbəttə, «liərəfun» muradın.
Qaldıq arasında min təzadın.

Yox zərrəcə bizdə istitaət,
Layiq ola səncə bir ibadət.

Ətfi-nəzər eylədikcə hər yan,
Hər rəddə bərqlər nümayan.

Hər ləhzə fəqani-rəddir,
Of bərqlər ahi-pürşərərdir.

Sənsən bu cahanda, ey İlahi,
Məzlumların ümidgahı.

ƏLİ RİCAİ DAİZADƏ

16 NOYABR 1910, № 5, səh. 3-4

= FÜYUZATIN FEYZLİ NƏTİCƏSİ =

Qafqaz, o qarışıq millətlər məskəni, dahilər yetişdirən, igid, sərt təbiətli, qitəyi-bəşəriyyətin əski yuvası, tarixi-cahanda daima parlaq səhifələr işğal etmişdir.

Cahalət! O zülmət ilə, daha doğrusu, dağlıq bir səmtdə fırtınalı ruzigar əsəri olaraq qara məxuf və dəhşətli bulutlar nasıl bir yeri əhatə edərsə, eləcə də cahalət bütün qüvvəsilə bu qitədə hökmran olmuşdur. Fəqət cahalət bu cür bütün dəhşət ilə hökmran olduğu halda yenə ədalət mücəssəmi insanlar, nacilər əskik olmamışdılar. Ancaq əsrin təğazası olaraq o əsrin ədalətsizliyini, haqsızliyini indiki əsrdə olduğu kimi millətin dili, namusu olan qəzetə və jurnal vasitəsi ilə deyil, başqa vasitələr ilə bərtərəf etməyə çalışmışlar. Çapalaşmışlar, İştə müvəffəq olmuşlar.

Bu cahalət zülməti ən qorxunc mənzərəsi ilə biz yazıq müsəlmanları əhatə etmiş, bunu cümləmiz biliriz, mühərrirlərimizdən eşitmişiz.

İştə bu cəhalət zülmətini izalə etməyə bizim, biz hüququ əzilən müsəlmanların zavallı, biçarə mətbuatı müvəffəq oldu.

Bundan başqa səbəblər yoxmudur? Var ya! Fəqət ən ümdəsi insaniyyət müəllimi mətbuatdır.

İştə Qafqazda rus, gürcü, erməni və qeyrə mətbuatı çoxdan meydani-mübarizəyi-həyata atılıb, insaniyyət və hüququ və öz mənsub olduqları millətin

hüquqi-müqəddisəsini daimi halda müdafiə edirdilər. Fəryadları ilə özlərini bəşəriyyətə hər bir karlarında (işlərində) haqlı tanıtdırırdılar.

Şimdi gələlim bizə:

Qəlbən, vicdanən, fitrətən islamiyyət qanlı, ziyalı, əhli-elm qəhrəmanlarımız bizi bu hali-məzəllətdə görürdülər, bilirdilər. Binaən ileyh (buna görə) belə həmiyyətli cavanlar razı olarmı ki, millətini əzsinlər? Hüququnu paymal etsinlər?

Əlbəttə, razı olmazlar.

Canından, mənfəəti-şəxsiyyəsindən keçməyincə arzusuna nail olmayacaqlarını bilib meydani-mübarizəyə atıldılar.

Sözü uzatmayalım. İştə «Kəşkül» və qeyriləri cümləsinin ismləri məlum.

Ox! Bu insan qəhrəmanlar biz müsəlmanları o cür cahalət quyusunda, kar və kor bir halda yaşadığımızı görürdülər. Qəlbləri sızlayır, ağlayırdılar.

Meydani-həyatda bir uca daş üstə dayanıb qüvvəsi yetdiyi qədər rahi-səadətə çağırıb, bağırırdılar. Qiyamətlər qoparırdılar. Fəqət yuxu mane!

Bağırdılar, çağırdılar. Axırda məyus oldular. Getdilər. Fəqət bir işıq buraxıb getdilər. Bu işıqlar gedə-gedə böyüyüb, axırda böyük bir nur olub, biz millətin yolunu, mühitini yavaş-yavaş tənvir etdi. İştə bu nur rəngarəng kisvələr ilə meydana gəlib, səadət yolunda çaşmış qalmış biz müsəlmanları bir qədər xilas edirdi. İştə həyat bu nurdandır.

O yazıq həyat gözümüzün önünə məşəl tutdu.

Yolumuzun xətərli olduğunu min dəlil ilə bizə anlatdı. Kimdir səmi-etibara alan?

Məktəbsiz idik və binaən ileyh oxumaq bilməyirdik. Kar idik. Oxucu yox. Lakin təqsir bizdə deyil, cahalətdə idi.

Axır məyus oldu. Nəzər də söndü. Bir az keçmədən başqa nuraniyyət ilə bizləri bu əsrin təqazayi-halından feyzyab olmağa dəvət etdi.

Yenə düşünmədik.

İyirminci əsrdir. Həyat və məişətimiz babalarımızın həyatı kimi olmayıb, bütün-bütünə başqa cəryanda olduğunu və binaən ileyh təğazi-əsrə görə həyati-ictimaiyyəmizi yoluna salmağı həkimanə, filsufanə sözlər ilə dedi, yazdı və söylədi. Dilini bilmədik, sözünü düşünmədik və daha başqa səbəbləpə məbni (əsasən) axırda acı bir əlvida deyib getdi.

x x x

Həyat bir cəryanla axmayır ki, insan bir halda olsun. Bir gün hüznün, kədərin çoxluğundan tənəffüs məqsədi ilə gəzirdim. Birdən «Yeni Füyuzat» bağİran bir səs eşitdim. Çağırdım, aldım. Cümlə kədərim zaif oldu. Hələ zamani-mazimi (keçmişimi) təxtir etdirdi. O mazi ki, onda fərəhim (sevincim) ziyadə idi. Bu günkü kimi mükəddər deyildim.

Heç yadımdan çıxmaz. Bir gün axşam çağı idi. Hava da pək sakit idi. O sevimli «Füyuzat» nəşr olunmuşdu. Aldım. Demək ki, axır görünüş imiş. Demək

ki, bu feyzli səhnə qapanacaqmış.

Əvət! «Füyuzat» mühərriri ədibi-müqtədir Əli-bəy Hüseynzadə cənabları o nurani səhnədə cahanın əzəmətli, xunalud (qanlı) vaqeyesini bütün əsrarı ilə mahİranə bir surətdə əksəndaz etdirirdi.

O səhnəyə baxanlar təbii gah sevincindən gülür, gah ağlayırdı.

Ox! Əsla bu səhnədən göz ayırmaq istənilməzdi.

Fəqət nə çarə ki, axırıncı pərdəsi imiş.

Ah! Örtüklü ixtarı gördüm. Ağladım. İştə o ağlayış bu gün «Yeni Füyuzat» səhnəsini görməkdə bir dərəcə mübəddəli-şərur oldu.

O qapandı. Nə üçün? Tamaşgəran yox kimi idi.

Amma «Yeni Füyuzat» öz səhnəsini yüz illərcə tamaşagəranın ənzari-intibahına vəz edəcəkdir. Çünki bunu bu gün millətin xahişi meydana çıxarır. Binaən ileyh camaatın, millətin rəğbətini bu məcmüəyi-islamiyyənin minlərcə sənələr yaşamasını təmir edir. Biz də seviniriz.

Əvət! Bu sətirləri qaralamağa bu sevinc səbəb oldu. İştə «Yeni Füyuzat»ın minlərcə il davamını cənabi-mövladan və himməti-əhalidən isterham ediriz.

A.AĞABABAZADƏ

16 NOYABR 1910, № 5, səh. 4, 6

İştə bir zərbə! Zərbəyi-şeşpər,
Güşi-canımda şimdi də gürlər.
İştə bir zərbə! Zərbi-rədavər,
Guşi-əsarı çak-çak eylər.

x x x

Ah! Ey qəhrəman ki, namındır,
Vətənin ən şərəfli bir yadı.
Dəsti-pulad intiqamındır,
Kəsən İranda ahü fəryadı.

x x x

Ox! Bir bəzmi-xun nuşanuş.
İştə zərbə gələ, bərhava oldu.
Ox! Bir millət bəla bərduş.
O gün azad hər bəla oldu.

x x x

Səltənət! Arzu! Ümid! Xəyal,
Basaraq bunlara ucaldın sən.
Səni bunlar dəxi edər ical,
Bunların həpisi ziri-payından!

x x x

Çıxdın ey mərd! Ey böyük insan!
Öylə bir ərşi-ehtirama ki, sən
Görürüz etilanı biz hər an,
Bu mürəssə zəmini-zillətdən!

x x x

Şimdi ruhun o ərşi-hörmətdən,
Baxar, afaq qəhr içində qalır.
Baxtlar, taxtlar oxşatdın,
Qızarır, çak-çak olur, dağılır.

x x x

Sizə bizdən salam! Əlf salam!
Ey ölüb, milləti dirildənlər!
Sizə ölmüş demək haram! Haram!
Əbədiyyət sizi səna eylər!

ƏHMƏD KAMAL

16 NOYABR 1910, № 5, səh. 5

= İCMALİ - ƏHVAL =
AVROPAPƏRƏSTLƏRƏ!

Əcnəbi paraxoduna (gəmisinə) minən yolçular dərhal məmləkətlərindən sanki minlərcə fərsəx uzaqlaşmışlar kimi bir çox adata müti olurlar. Heç bir hazırlığa, heç bir idmana tabe tutmadan birdən-birə Fransanın bir guşəsinə atınız. Və həman orada yeyib-içmək, yatmaq-yürümək, oturmaq və sairə üçün nə adətlər varsa ona tabe qılınız. İştə hər şərqlinin əcnəbi vapuruna minərkən aldığı acınacaq hal və vəziyyət.

Şimdi burada «Mesaji maritim» kompaniyasını məatib tutalımmı? Məncə, biləks. Zira bu hal göstərir ki, hər şeydə, hətta əkl və şərbdə (yemək və içməkdə) belə bir əsəbiyyəti-milliyyə izhar olunur.

Bir ingilis Çinə getsə belə kəndisini Çinə getmiş deyil, Çini kəndi ayağı ilə gəlmiş fərz edərək adatının heç birini pozmaz. Çay və ziyarat vaxtını, yuxu və oyanmaq zamanını şaşırmaz. İştə kəndi adətlərində bu səbat və isrardır ki, əqvami-qəribəyə mənəvi bir təfəvüq təmin edir. Və biz şərqliləri kəndi məmləkətimizdə olduğumuz halda yalnız iqtisada, ticarətə, siyasətə deyil, adati-əkl və şərbdə belə istər-istəməz onların zəbunu qılır.

Qüvvətin, təfəvvüqi-mədəniyyətin əlamat və işaratından biri də budur. Mədəniyyəti qalib gələn bir qövm nərəyə getsə lisanını, tərzi-təfəkkürünü, adətini oraya təslim etdirir.

Bir fransız və ya ingilis bizim məmləkətimizə gəldiyi zaman ehtiyacati-ruzmərrəsini dəf üçün (gündəlik ehtiyaclarını ödəmək üçün) türkcə və ya bir lisani-məhəllini öyrənmək istəməz. İstər ki, getdiyi məmləkətin bütün əhalisi kəndi lisanını öyrənsin. Zira kəndi-kəndinə o qədər hüsni-təvəccöhi var. Getdiyi məmləkəti xar və həqir, kəndi şəxsini, kəndi millətini o qədər yüksək görür ki, o məmləkətin əhalisinə kəndi lisan və adatına vüqufsızlığından dolayı adətən acir. Bir İngilis və ya bir fransız əba ən cədd (ata-babalarının) bu məmləkətdə təvəttün edər, yaşar, iktisabi-sərvət edər. Bununla bərabər, buranın nə lisanını və nə adətini öyrənir. Bu cəhli kəndisi üçün zərərli olmaq şöylə dursun, biləks karlıdır. Fəqət heç İngiliscə bilməyən bir türki qolundan tutub İngiltərə və ya Amerikanın bir tərəfinə atınız. Bu zavallı ya aclıqdan ölür və yaxud pək çox səfalətdən sonra fövqəlbəşər bir tağım məsai sərfi ilə lisani-məhəllini bir az öyrənməyə qeyrət edər.

İştə Şərq ilə Qərb arasındakı fərqlər.

Bu acı həqiqətlər. Etiraf edəriz ki, bizim üçün badiyi-iftixar deyildir. Fəqət bu məzəlləti-ictimaiyyəti-mizi şayani-iftixar bir hala qoymaq da bizim əlimiz-dədir.

Biz əvvəl əmrdə mədəniyyətimizi, daha doğrusu mədəniyyətimizin istinadgahı olacaq olan qüvvətimizi təzyiq edəlim. Bu təzyiq adatımızın tədrici surətdə tədil olunmasa mütəvəqqif olacağına şübhə yoxdur. O vaxt belə əcnəbinin payi-istehqarı altına düşməliyiz. Fəqət

öz-özümüzə ətvar və əxlaqca icra edəcəyimiz bu tədilat hər iqlim və mühitimizin, Şərqdəki havamızın, günəşimizin təsiratından azadə olamaz və hər halda millətimizə məxsus və fəqət eyni zamanda hər növ tərəqqiyyata da müstəid bir mahiyyətə bir əlamәti-fariqəyə malik olur. Binaən ileyh ikti-qüvvət cəhətinə qüvvət verəlim. Fəqət qüvvət deyincə yalnız top və zirehlini xatirimizə gətirməklə iktifa etməyəlim.

Maarif, ticarət və iqtisad bu gün top və tüfəngin anasıdır. Maarif və ticarət və iqtisada əhəmiyyət verəlim. Avropalılara bizi əzdirən əsl bu cəhətlərdir.

İstanbul

BABANZADƏ İSMAYIL HƏQQİ

16 NOYABR 1910, № 5, səh. 6-7

Qafqaziyada cəhl və təəssübün atəşin bir şiddətlə hökmfərma olduğu bundan otuz sənə əvvəlki zamanlarda hər dürlü tən və təşniə, müzahim və müşkilata sinəgüşay müqasimət olaraq bugünkü intibahi-əfkarı, rəğbəti-maarifi hüsula gətirən zərdablı Həsən bəy mərhumun rəsmidir ki, mərhumun millət yolunda göstərdiyi qeyrətləri təbrilən dərci-sütun elədik.

16 NOYABR 1910, № 5, səh. 7

= MƏKTƏB =

Məsələlərimizi həll edən zəvat (şəxslər) məsələnin həlli ilə bərabər aşağıdakı (məsələ həlli) yazılı

parçanı məcmuəmizdən kəsib bir zərf içinə qoyaraq idarəxanamıza göndərməlidirlər. O parça olmayan məsələ həlləri qəbul olunmaz. Bəziləri məcmuənin bütün səhifələrini yırtıb göndərirlər. Yalnız o kiçik parçanı istəyiriz.

Bir də bəzi kimsələr məsələnin yalnız cavabını yazırlar. Bu, məqbul deyildir. Bütün surəti-həllini yazmalıdırlar.

Bu məsələni cəbr ilə həll edənə üç aylıq, ikinci məsələni hesab ilə həll edənə bir aylıq abunə hədiyyə ediləcəkdir.

= MƏSƏLƏ 1 =

Mənim və yoldaşımın cibimizdə birər miqdar pul var. Əgər mən cibimdən yoldaşıma 7 manat versəm yoldaşımın pulu mənim pulumun iki qatı olacaq.

Əgər yoldaşım cibindən mənə 7 manat verərsə, ikimizin pulumuz bərabər olacaq.

Əcəba, mənim cibimdə neçə manat, yoldaşımın cibində neçə manat pul var?

Bu məsələni istəyən hesab ilə də həll edə bilər.

= MƏSƏLƏ 2 =

Üç bağım var. İkinci bağımda birincidən 16 ağac ziyadə (çox) var. Üçüncü bağımda ikinci bağımdan 49 ağac ziyadədir.

Üç bağımdakı ağacların məcmusu da 201

ədəddir.

Əcəba, hər bağımda neçə ədəd ağac vardır?

Bu məsələni mütləq hesab ilə həll edilmək mətlubdur.

Məktəb müdirlərindən və müəllimlərindən rica ediriz şagirdlərini öz qeyrət və himmətlərinə buraxsınlar ki, şagirdlər bu yolda çəkəcəkləri zəhmətlərlə mümarisəyi zehniyyə iktisabına müvəffəq olsunlar. Çünki məqsud onları məktəb xaricində də zehnən məşğul etməkdir.

Məsələlərimizi uzaq məhəllərdən həll edənlər həll üçün verilən bir həftənin azlığından və mükafatın əvvəl gətirənə verildiyindən şikayət edirlər. Bunun üçün mükafat hər iki həftədə və aşağıdakı zəvatın hüzurunda doğru həll edənlərin adlarına gürə (püşk) çəkilərək təyin və təxsis ediləcəkdir.

Demək ki, bu məsələlərin mükafatı yeddinci nömrədə təyin olunacaqdır.

Heyəti – gürə:

Əhməd Kamal, Mehdi bəy Hacinski, Əlicabbar Orucəliyev.

16 NOYABR 1910, № 5, səh. 7-8

«YENİ FÜYUZAT»A ABUNƏ OLAN ZƏVATİ - GİRAM
(hörmətli şəxslər)

1) General Hacı Zeynalabdin Tağıyev həzrətləri, iki

nüsxə;
2) Müşarileyhin hesabı ilə Bakıda qızlar məktəbinə, bir nüsxə;
3) Axund Fərəcülla Pişnamazzadə həzrətlərinə, Nuxa;
4) Axund Salam Salamzadə, Nuxa;
5) Axund Əliqulu Mövlazadə; Nuxa;
6) Hacı Əbdülcabbar Məcidov, sabuncu;
7) Mehdiqulu Mehdiyev; Bakı;
8) Məhəmmədhəsən Hacinski; Bakı;
9) Mehdixan bəy Aşurbəyov, Bakı;
10) Əlisgəndər Cəfərzadə, Bakı;
11) Xan Xoyski;
12) Məmməd Məmmədov;
13) Ağa Mehdi Hacı Məmmədbağır oğlu Zeynalov;
14) Hüseynqulu Sarabski;
15) Hacıverdi Əliyev, Sabuncu;
16) Qafar Cəfərov;
17) Ağa Səlim mustafayev;
18) Mirzə İshaq Möhsünzadə , müəllim, Lənkəran;
19) Şirəli bəy Əmircanov, nuxa;
20) Məşədi Mehdiqulu Zülfüqarov; Nuxa;
21) Məktəbi – «Sibqət», Nuxa;
22) İkinci Rus və müsəlman məktəbi, Nuxa;
24) Ağa Məhəmmədəli ismayılov, nuxa;
25) Osmanlı liman müdiri Xəlil Xalid bəy, Rəştdə.

EŞİDƏNƏ:

Bədi-ma ədli ilahi yetişir, çox keçməz,
Göylərə çıxmada İrandakı ahi-cangah.
Belinə bağladığı seyfi-mürəssə şahın,
Bu yaxında taxılır boynuna, inşaalah!

İSTANBUL

ƏŞRƏF

16 NOYABR 1910, № 5, səh. 8.

«YENİ FÜYUZAT»

№ 6

23 NOYABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «FÜYUZAT».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

= SİYASİ =
ASİYADA

Rus və İngilis rəğabəti, bu rəğabətə İran və Əfqanın alət olması, Osmanlı və İranın mazidəki qəflətləri, Xivə, Osmanlı və Almaniyanın İranı himayələri, İranın halı və istiqbalı.

Dördüncü nömrədən mabəd.

Heyf ki, 1854-də Xivə xanı o mənhus müahidəni imza edərkən Osmanlı ilə Rusiya arasında Krım müharibəsi hazırlanırdı. Halbuki Xivə xanı bu müharibə hazırlıqlarından xəbərdar deyildi. Lakin o zamankı Osmanlı ricali-hökuməti də Osmanlı ilə Rus arasında olacaq bu müharibədən Xivə xanını xəbərdar etmədilər.

Əgər Osmanlı hökuməti xanı bu işdən xəbərdar etsəydi, xan bir az daha müqavimət edər və Krım müharibəsi başlayınca Rusiya Krımda Osmanlı ilə məşğul olacağından Xivə müahidəsindən bizzərurə əl çəkərdi. Və Xivə də bu günə qədər mühafizəyi-istiqlal edərdi. Və bu gün onun da bizə müavinət edəcək bir vücudu mövcud olardı.

Şimdi keçən keçdi. Lakin keçəndən ibrət aldıqmı? Əfqanın, Xivənin getməsi İranın iniqrazını hazırladı.

Əcəba, İranın, məazallah (Allah etməmiş), əldən çıxması Osmanlını təhlükəyə düşürməyəcəkmi?

İştə məsələnin ruhu buradadır. Əgər bu məsələni

layiqi ilə düşünərsən, İran və Osmanlının bir-birinə nə qədər mərbut olduğunu anlarız.

Osmanlı ilə İran min üç yüz sənədən bəri islamiyyətin tərbiyətkərdəsi olub, ikisi də irfən, adətən biri-birinin eyni iki millətiçəsimə olduqlarından aralarında heç bir surətlə ayrılmaz rəvabiti-mənəviyyə vardır ki, bu rəvabiti-mənəviyyə sayəsində hər dürlü xətiyyat mazinin buraxdığı xatirati-mənfurəyə rəğmən biri-birilə dost və müttəfiq yaşaya bilirlər.

Bundan başqa, bu iki millətin yekdigərinin bəqa və fənasında nə qədər əlaqədar olduqlarını vəziyyəti-coğrafiyyələrindən istidlal etmək lazımdır.

Asiya xəritəsinə baxılarsa görülür ki, Qərb Asiyadan müntəhayi-Baykala qədər bir silsilə hökumati-islam uzanmışdır. Bunların aralarına əsla incə bir divar belə girməmişdir.

Bu silsilənin ortasına İran düşür. Bu silsiləni təşkil edən hökuməti-islamdan hər birinin bəqa və davamı bu silsiləyə mərbut qalmaqla olduğu kimi bütün bu silsilənin davamı da bu vəziyyətdə qalıb, aradan bir halqanın qopması ilə qaimdir.

Şimdi, məazallah (Allah etməmiş), İranın istiqlalına xələl gələrsə, İştə bu silsilə tam ortasından bölünəcək. Yəni zəncirin ortasındakı halqa qopacaq demək-dir. Bu da silsilənin vəziyyətini təşkil edən digər halqaların da birər-birər düçari-ixtilal olmasını icab edir.

Bu gün İranın Şərq və Şimali-şərqisində təsadüf edən hökuməti-islamiyyə:

Şərqində Əfqan və Hindistan və şimali-şərqisin-

də Buxara, Xivə, bütün Türkistani-kəbirdir. Bu hökumətlər bu günə qədər yarım istiqlal halındadırlar.

Abistəni-səfavü kədərdir liyal həp,

Gün doğmadan məşiməyi-səbəbdən nələr doğar?

məfadınca sabah müqəddərati-ümid ilə doludur. İranın zaval və bəqasının bu hökumətlərin müqəddəratında nə qədər böyük rol oynayacağı az bir mülahizə ilə meydana çıxar.

Əgər İran mühafizeyi-istiqlal ilə bir gün səhhətisiyasiyyəsinə malik olursa, o hökumətlərin istiqbal istiqlallarından ümidvar olunur.

Yoxsa İran getdiyi dəqiqədə o hökümati-islamiyyənin bu gün onların səyadəti-siyasiyyələrinə malik olan dövlətlər tərəflərindən rəsmən birər vilayət elan ediləcəyində heç şübhə yoxdur.

Bu halda Osmanlı nə olur? Silsilədən ayrılmış, qopmuş tək bir halqa.

Əvət, yarısı Avropada, yarısı Asiyada.

Dörd tərəfindən xəsmayi-cəsimə və qəviyyə ilə əhatə olunmuş olduğu halda yaşamağa məcbur olacaqdır. Bu vəziyyətində Osmanlı nə qədər müşkil və təhlükəli olduğunu izaha hacət yoxdur.

İştə Osmanlı dövləti bu vəziyyəti-mühləkəyə düşməmək üçün həyatını, İranın həyatında bəqa və fənasını aramalıdır. Bugünkü kiçik tərəddüdlər yarın (sabah) üçün böyük təhlükələr hazırlar.

Mabədi var. (ardı var)

ƏHMƏD KAMAL

23 NOYABR 1910, № 6, səh. 1-2

EŞİDƏNƏ:

Ümidini kəs, vermə ümid əhli-ginayə!
Hər bir işi bunlar verir badi-fənayə.
Ummaq olmaz zalım olan şəxsdən insaf,
Qurd olsa çoban baxmaz əvət ahü bükayə!

Ə.P.

23 NOYABR 1910, №6, səh. 2

BİZ NƏ DEYİRİZ? ONLAR NƏ DEYİRLƏR?

Dini-mübini-islamın həqiqətini idrak edib digər ədyana mərcəh olduğunu və bu dini həqdən başqa dünyaya bir daha din gəlməyəcəyini iddia və isbat edənlər Avropada az deyildir. Lakin bu dinin əhkamından, həqiqət mənasından qafil olanlar da gərək oralarda, gərək buralarda yox deyildir.

Bu qəflətin bir neçə səbəbləri vardır. Bəzi kimsələr cavanlıqlarında başları keşişlərin qərəzkaranə, daha doğrusu, mənfəətpərəstanə mövizələri ilə dolmuş, bəzi kimsələr də islam məmləkətlərindəki avam, nadan tərcümanların, mütərcimlərin səhviyyat və xətyatlarına aldanmış olduqlarından Qurani-Kərimin həqiqətinə ittiladan məhrum qalmışdılar.

İslamın əhvalından xəbərdar olmaq üçün məmaliki-şərqiyyəyi-islamiyyəyə səyahət edən səyyahlardan

çoxca pul qoparmaq sevdası ilə tərcümanların yalan yalnış, əcib və qərib olaraq verdikləri xəbərlərdən Avropada islam və müsəlmanlar haqqında çox fəna etiqadlar hasil olmuşdur. Və müsəlmanlarda görünən ətalət, cəhalət, sui-əxlaq kimi fəna hallar dəxi bu tərcümanların sözlərini təsdiq edərək avropalıları güya o əhvalın mənşəyi deyən olduğu etiqad sıxımına düşürmüşdür. Lakin Avropada, Amerikada hasili məmaliki-mütəməddinədə həqayiqi-ədyan ilə iştiğal edən insaflı professorlar, filosoflar dinləri bitərəfanə mühakimə etdiklərindən bunlarin dini-islamın həqiqət və ülviyyətinə dair yazdıqları əsərlər Avropadakı fəna nəzərləri, fəna fikirləri yavaş-yavaş dəyişdirib, haqqa yaxınlaşdırmaqdadır.

İştə Avropada on bir alim ilə dörd yüzdən ziyadə mütəfənnin tərəfindən tərtib olunan «Qrand ensiklopedi», yəni «Qamusi- Kəbir»in dini-islam haqqında yazdığı mütaliəni buraya tərcümə və dərc ediriz. Ta ki, Avropa üləmasının dini-islam haqqındakı nəzərləri qarelərimizin (oxucularımızın) məlumu olsun. Xüsusi ilə bu məlumata Rusiyada çox ehtiyac vardır. Çünki rus misionerlərinin dini- islam haqqında qərəzkaranə nəşr etdikləri əsərlər, yaxud misionerlikdən müəllimliyə tərəqqi edənlərin məktəblərdə tarixi-islamı istədiklərı kimi dəyişdirərək verdikləri dərslər gərək avamın, gərək şagirdlərimizin fikirlərinə az-cox təsir etməkdədir. Firəngcə «Qrand ensiklopedi» yazır ki:

«Qurani-Kərim»dəki «Ali-İmran» surəsinin üçüncü ayəsində «İnnəl-ləzinə indüllah əl-islam» buyu-

rulmuşdur.

İslam ləfzinin mənası Allah-taalaya təslim olmaq deməkdir. Bu hesabla o ayənin mənası cənabi-həqqin yanında din ona təslim olmaqdan ibarət olmaq lazım gəlir.

Əsasları tövhid olan əski dinlərdə də Allah-taalaya iman edib axirətə inanmaqdan bəhs edilirdi. Dini-islam isə bunların üstünə Allah-taalaya şükür etmək vəzifəsini artırmışdır.

Müsəlman olmaq üçün başlıca şərt Allah-taalanı tövhid və həzrəti-Məhəmməd əleyhüssalamın nəbüvvətini təsdiq etməkdir.

Dini- islam cismani və ruhani insana lazım olan təbii şeylərdən müsəlmanları heç mən`etməyir (çəkindirməyir).

Məsələn, ramazanda gündüz haram edilən şeylər gecə halal olur. Əgər göstərilən şərtlərə riayət edilə bilirsə, dördə qədər övrət almaq dini-islamda caizdir. Lakin dediyimiz kimi, bunun şərtləri vardır.

Müsəlmanlıqda xınzır (donuz) əti yemək, qumar oynamaq, müskirat (içkilər) istemal etmək qətiyyən məmnu (qadağan) və haramdır. İştə dini-islamın ən qəti mən`etdiyi şeylər bunlardır ki, bunların insana, cəmiyyəti-bəşəriyyəyə nə qədər zərərli şeylər olduqları cümlənin məlumudur. Demək, dini-islam insanı təbii şeylərdən deyil, qeyri-təbii və müzir şeylərdən mən edir. Müsəlmanlar nərələrə girmişsələr. oralara ədəbiyyat, fünun (fənlər), sənaye gətirmişdilər. Müsəlmanlar cəbr, kimya və heyət kimi elmlərə çox tərəqqi (inkişaf)

vermişdilər. Xüsusən cəbr elmi ərəblərin icadıdır ki, əlan avropalılar o elmi ərəbcə «Əl-cəbr»dən alınmış «Alqebra» adı ilə təsiyyə edirlər. Müsəlmanlar mədəniyyət aləmində ikən Avropa vəhşət, təəssüb dövründə yaşayırdı. Avropa mədəniyyət üzünü «Əhli-səlib» müharibələrindən sonra görmüşdür. Onu da yenə müsəlmanlardan görmüşdür. Dinlərin surəti-intişarlarına baxarsan dini-islam qədər təbii intişar etmiş bir din yoxdur. Şimdiyə qədər dini-islam öz həqqaniyyətinə güvənib, bir dəfə misionerlik istemalına möhtac olmamış və digər dinlərin zamanbəzaman zəiflədiklərinə rəğmən dini-islam gündən-günə artmaqda bulunmuşdur.

Əxlaqiyyat cəhətinə gəlincə bu cəhətdə də dini-islam ədyani-sairədən alidir.

Bu gun Avropadakı cəza qanunları dini-islamda da vardır. Cahad və müharibə isə dini-islama təərrüz (hücum) edənlər üçündür. Müsəlmanlar cahaddan sonra zəbt etdikləri məmləkətlər əhalisinin din və ürf və adətlərinə heç təcavüz etməmişdilər. Müsəlmanlar qədər hürriyyəti-diniyyəyə riayət edən heç bir millət olmamışdır. Əhvali-ictimaiyyəcə dəxi qəvanini-islamiyyə qayət ali mərtəbədədir. Ümumən müsəlmanlar müsavidir (bərabərdir). Heç bir mərtəbə, heç bir ünvan miras olaraq qalmaz. Müsəlmanlar arasında qüdsiyyət-filan yoxdur. İslam olan (müsəlman) bilavasitə cənabi-həqqə ərzi-ibadət və ehtiyac edə bilər.

Hər nə qədər hicab məsələsi varsa da qadınlar öz mallarını təsərrüf etmək haqqını haizdirlər. Müsəlman

qadınları haqqında görülən bəzi müamilələr müsəlmanların adati-məhəlliyyələrindən (yerli ənənələrdən) nəşət etmişdir. Yoxsa Qurani-Kərimə görə müsəlman qadınları hüquqca bu günkü Avropa qadınlarından aşağı dərəcədə deyildilər.

Təəddüdi-zövcəcata (qadınların sayına) gəlincə bu, dini-islamın gətirdiyi adət deyildir. Bu adət islamdan əvvəl mövcud idi. Və pək fəna və qarışıq bir halda idi. Islam bu adəti bir nizam altına aldı. Demək ki, o adəti islah etdi.

Ribanın məmnuniyyəti də onun bir çox sui-istemalına meydan verməsindəndir».

ŞURA

23 NOYABR 1910, № 6, səh. 3-4, 6

Bundan təqribən otuz sənə əvvəl Əbdülhəmidi xəl etmək üçün süxtələrlə saraya hücum edərkən şəhid edilən Əli Suavi (şəkil)

x x x

Nigahlar ki, əməllərdir eyləyir fəvəran!
Bu nəzələrdə ..... fəşan olur bir kin.
Nigahlar ki, qəzalardır eyləmiş üsyan,
Bu çöhrə, çöhrə mənasıdır Suavinin.

x x x

Ümidlərlə gülən çöhrə təcəlliyə,
O, xilqətin əbədi xəndə təhkimidcir.
Səma-səma sarılanlar sər Suaviyə,
Gələn zamanların əlvah ruhi-mübhəmidir.

x x x

Qiyam! İştə Suavidən aldığım məna,
Qiyam! İştə Suavi bununla sakindir.
Qiyamlar, həyəcanlar, cidallarla ona,
O fikir hayca ancaq sükun ruh gəlir.

x x x

Qiyam! Bunda uyur ruhu, qayə əməlin,
Qiyam! Bunda gülür çöhrə, bəqaya fəna!
Qiyam! İştə «Suavi» o qahir əcəlin,
Bununla olmadadır qəbri zihəyat bəqa!

x x x

Bəqa ki, namına nisbət fənaya siyandir,
Əzəl, sənlə ləbaləb həyat imrandır.
Əbəd, sənlə qararmış sabah xosrandır,
Əzəl, əbəd sana aid məanı şandır.

ƏHMƏD KAMAL

23 NOYABR 1910, № 6, s. 5

= ÇOCUQLARA =

Küçədən bir çocuq yüyürdü evə,
Bir bumajnik bulub, dedi bu növə:

-Ana, gəl-gəl ki, dövlətə çatdıq,
Pullu olduq, səadətə çatdıq.

Dedi xatun ki, söylə, ey fərzənd,
Nə oldu kim, olduq indi dövlətmənd?

Görəyim, ver, nədir, nədir bu, oğul?
Dedi: buldum bunu, içi dolu pul.

Yol gedən bir qoca kişi nagah,
Düşürüb, keçdi, olmadı agah.

Görmədən kimsə mən qoşub aldım,
Tez qaçıb kəndimi evə saldım.

Anası oğlunun cinayətini
Görərək, zahir etdi nifrətini.

Dedi: oğlum, nə sərd imiş qanın
Ki, buna razı oldu vicdanın?

Tifli-məsum ikən günah etdin,
Kəndi vicdanını təbah etdin.

Niyə verdin fənayə doğruluğu?
İrtikab elədin bu oğruluğu?

Heç zənn etməm özgənin malı,
Bizi zəngin qılıb, edə ali.

Yox, yox! Oğlum, inan ki, xar oluruz,
Ərzəli-əhli-ruzigar oluruz.

Xain olsaq əgər bu dünyada,
İrz və namusumuz gedər bada.

Gözümüz müntəhayi-zillətdən,
Baxamaz kimsəyə xəcalətdən.

Gərçi pul çox fərəhfəzadır, oğul,
Leyk namus pək bahadır, oğul!

Ə.SABİR

23 NOYABR 1910, № 6, səh. 6

= QİDA =

Yediyimiz, içdiyimiz mənfəətli şeylərə qıda deyilir. İnsanlar, heyvanlar, nəbatat yaşamaq üçün havaya, ziyaya nə dərəcə möhtacsalarsa, qidaya da o

dərəcə möhtacdırlar.

Keçən həftəyi-fənnilərdə hava, ziya haqqında məlumat verildi. Hərarət xüsusunda dəxi bəhs edildi. Şimdi yediyimiz, içdiyimiz şeylər ilə vücudumuzdakı hərarətdən və bu hərarətin nə surətlə hüsula gəldiyindən bəhs edəcəyiz.

Hərarət bəhsində demişdik ki, insanın mədəsi bir maşının paravozuna bənzər. Paravoz yanar, hərarət hasil edər. Bu hərarət də maşının qazanındakı suyu buxar halına qoyar. Bu buxar da maşının təkərlərini hərəkət etdirir, maşın da yürür.

İştə bizim mədəmiz də təmamən bu maşının qazanı kimi daimi surətdə yanmaqdadır. Onun hərarəti ilə biz də hərəkət etməkdəyiz. Lakin mədə dediyimiz bu qazanda yanan şeylər nədir?

İştə bu şeylər yediyimiz, içdiyimiz şeylərdir.

Mədəmizə gedən qıdalar orada həzm olunur. Yəni əriyir. Vucudumuza mənfəətli və mənfəətsiz olanları ayırır. Vucudumuza mənfəətli olan qisimləri qanımıza qarışır. Mənfəətsiz olan qisimləri isə bağırsaqlar vasitəsi ilə vucudumuzdan xaricə dəf və tərd edilir. Mənfəətli qisimləri qana qarışdıqdan sonra incə damarlar vasitəsilə ağ ciyərlərimizə qədər gedir. Orada nəfəs ilə aldığımız havanın «Müvəllid ül-hümuzə» deyilən qazı ilə birləşərək ehtiraq, yəni yanmaq hasil olur. İştə bu ehtiraqın nəticəsi olaraq vücudumuzda hərarət hasil olur. Və biz də hərəkət ediriz. Lakin bir maşın işlədikcə xarab olacağı kimi bir ocaqda yandıqca odunu, kömürü bitir. O maşını təmir etmək, o ocağa

odunu bitincə odun atmaq lazımdır. İştə bizim bədənimizdə dəxi ehtiraq üçün lazım olan odun, kömür bitincə biz ac oluruz. Təkrar yeyiriz, içiriz.

Bu yeyib-içməyimiz şeylərdən vücudumuz iki mənfəətli şey gözləyir. Birinin adı karbondur ki, İştə bu vücudumuzun kömürüdür. Vücudumuzdakı hərarət bunun yanmasından hüsula gəlir.

Digərinin adı azotdur. Bədənimiz hərəkət etdikcə, vücudumuzdakı ehtiraq davam etdikcə vücudumuzun bəzi yerləri xarab olur. İştə bu azotun vəzifəsi də o xarab olan yerləri təmir etməkdir. Bunların ikisi də yediyimiz, içdiyimiz şeylərdə təbii olaraq vardır.

Azot ət, süd, yumurtanın ağı kimi heyvanlardan aldığımız şeylərdə, karbon isə nəbatatda, yəni göyərtilərdə çoxdur. Demək ki, insan həm ət, həm göyərti yeməyə məcburdur.

İnsan yediyi qıdanı çox çeynəməlidir. Çünki çox çeynənnəmiş olursa, mədəni yorar. Qıda çeynənib mədəyə atıldıqdan sonra mədə turş bir su çıxarıb o qıdanı çürüdür və belə həzm olunur.

Yediyimiz şeylər iki-üç saat zərfində həzm olunur. Bunun üçün xörək yedikdən sonra ən az iki saat qədər su, yaxud başqa şeylər içməməli və yeməməlidir. Çünki həzmi pozar.

Xörəkdən sonra çox yürümək, suda çimmək, xüsusilə hamama girmək, əfali-səhvaniyyədə bulunmaq (cinsi əlaqədə olmaq) pək çox təhlükəlidir. Qələc çox dəfə bu kimi cəhalət və ya qəflət nəticəsidir.

Xörəkdən sonra oxumaq, yazmaq kimi hərəkət-

lər də zərərlidir. Çünki həzm əsnasında qan mədəyə toplanır. Mədə də ayrılan mənfəətli şeyləri almaq istər. Halbuki oxumaq, yazmaq kimi hərəkətlər əsnasında dəxi qan o hərəkətləri icra edən üzvlərə qaçar. Bu halda da mədə feli-həzmi (həzm işini) layiqi ilə icra edilə bilməz. Yediyimiz, içdiyimiz şeylər həzmsiz mədədə qalar. Mədə şişər, baş ağrısı, bərklik kimi xəstəliklər əksər dəfə (çox vaxt) yeyilən şeylərin həzm olunmamasından hasil olur.

Bunun üçün insan xörək yedikdən sonra iki saat qədər istirahət eləməlidir.

Xörəkdən sonra bir az uzanmaq mənfəətlisə də, yuxu zərərlidir. Çünki yuxu əsnasında qanın hərəkəti azalacağından həzm zəifləşir.

Xörəyi müəyyən vaxtlarda yemək ən vacib olan şeylərdəndir. Məsələn, daima saat on ikidə yeyirsənsə, o vaxtı dəyişdirməməlisən. Çünki mədə hər gün o saatlarda həzmə hazırlanır. Həzm üçün o saat qıda göndərilməzsə mədə boşuna yorulmuş olur. Bu da vücudu xarab edər.

İştə bu qaydalara riayət edərək yaşamaq vacibdir. Qaydasız yaşayan bir adam səhhətini qaib edər. Əfradı səhhətdə olmayan bir millət də zamandan – zamana zəifləşərək bir zaman sonra da nəsli də xarab olur. Aqibət o millət maddi və mənəvi pozulmuş, hətta həyat ilə əlaqəsi kəsilmiş olur.

BALAXANI: ƏLİ MİŞAN

23 NOYABR1910, № 6, səh. 6-8

= MƏKTƏB =

= MƏKTƏBLİ ƏYLƏNCƏSİ =

Əziz balalarım! Bu həftə sizə məsələ verməyəcəyəm. Çünki bir aydan bəri sizi çox yordum. Bu həftə sizə bir hesab əyləncəsi yapacağam. Baxınız nə qərib şey!

Birdən doqquza qədər olan rəqəmləri sıra ilə yazınız. Lakin içində 8 rəqəmi olmasın.

İştə: 1, 2, 3, 4, 5, 6, 7, 9

Şimdi bunu 9 rəqəminə zərb ediniz (vurun).

Nə çıxar?

İştə: 111 111 111

Qəribə deyilmi?j

Yox. Tələsməyiniz! Şimdi də yenə o ədədi doqquzun iki misli olan on səkkiz rəqəminə zərb ediniz. Nə çıxar? İştə: 222 222 222

Səhihi-qərib! Lakin durunuz. Daha var.

Şimdi yenə o ədədi doqquzun üç qatı olan iyirmi yeddiyə zərb ediniz. Nə çıxar?

İştə: 333 333 333

Amma qəribə. Hələ əcələ etməyiniz! Daha qəribəsi var. Şimdi yenə o ədədi doqquzun dörd misli olan otuz altıya zərb ediniz. Nə çıxar? İştə: 444 444 444

Amma qəribə gedir. Deyilmi?

Hasili, o ədədi doqquzun beş misli, altı misli,

yeddi misli, səkkiz misli, doqquz mislinə zərb ediniz! Baxınız nə çıxar? İştə:

12345679 x 45 = 555 555 555
12345679 x 54 = 666 666 666
12345679 x 63 = 777 777 777
12345679 x 72 = 888 888 888
12345679 x 81 = 999 999 999

İştə sizə bu həftə fənni bir əyləncə!

Lakin, ah! Bu nə üçün belə? Bunu bizə bir öyrədən olaydı!

Səkkizinci nüsxədə daha qəribə bir əyləncə yazacağam.

23 NOYABR 1910, № 6, səh. 8

«YENİ FÜYUZAT»A ABUNƏ OLANLAR:

1) Hacı Mahmud Qasımov, Bakı;
2) Rəsulov qardaşları, Bakı;
3) Ağabəy Məlikov, Bakı;
4) Cəfər Həbibullazadə, Astara;
5) Mirzə Əbülhəsənxan, Ənzəli;
6) «Nicat» qiraətxanası, Ənzəli;
7) Yusif Məmmədəliyev, Naxçıvan;
8) Xeyrulla Heybətov, Xilə;
9) İran Xarici İşlər nazirliyi, Tehran.

23 NOYABR 1910, № 6, səh. 8

«YENİ FÜYUZAT»

№ 7

30 NOYABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «**FÜYUZAT**».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

= RİCA =

Abunə olan zəvati-giram ilə agentələrdən borclarını idarəyə irsal etmələrini rica ediriz.

= SİYASİ =

ASIYADA:

Rus və İngilis rəğabəti, bu rəğabətə İran və Əfqanın alət olması, Osmanlı və İranın mazidəki qəflətləri, Xivə – Osmanlı və Almaniyanın İranı himayələri, İranın halı və istiqbalı.

Altıncı nömrədən mabədi.

x x x

Binaən ileyh Osmanlı nə fikirdə, nə tərəddüddəsə bir an əvvəl o fikirə, o tərəddüdə bir nəticə vermə-li və ələnən İranda cəryan edən vüquati-siyasiyyəyə bilfel müdaxilə etməlidir.

Vaqiən Osmanlı dövləti bu nöqtələri düşünmüş və İranın zavalından özünün nə dərəcə müxatirəyə düşəcəyini anlamış olmalıdır ki, İran məsələsində bir-iki dəfə şayani-təqdir cəsarət göstərdi. Lakin, məəttəəssüf, biz bu qədərini kafi görmiriz.

Dövləti – Osmaniyyə tarixi – Osmaninin bir çox səhifələrinə rövnəq verən cürətlərini ehya etməlidir. Hər nə qədər bu gün hökuməti – Osmaniyyə cəsamətcə o zamanlardakı kimi deyilsə də, mahiyyəti – siyasiyyəcə bu gün o zamandan daha cürətkar ola bilər.

Dövləti – Osmaniyyənin tarixi-zəifi olan Krım

müharibəsinə qədər osmanlılar hər tərəfdə miləli-məzlumənin və baxüsus din qardaşlarının istimdadına şitaban olmuşlar və neçə dəfələr Qəndhar və Kabil ixtilallarına, hətta qüvvəyi-hərbiyyə ilə müdaxilə etmişdilər.

Məşrutəyi – Osmaniyyə iştə bu cürətlərlə isbati – sitvət edəcəkdir. Gərçi bu gün fərdayi – İran üçün heç bir təhlükə məlhuz deyildir. Çünki İran məsələsi iranlılıqdan çıxmış, bir məsələyi – beynəddövəl halını almışdır ki, bu dövlətlərin İran haqqında nə siyasətən, nə də iqtisadən ittifaq və ittihad etmələri mümkün deyildir. Şu qədər var ki, hökuməti-Osmaniyyənin bu xüsusda göstərəcəyi kiçik bir tərəddüd, ehmal məsələnin rəngini, mahiyyətini dəyişdirə bilər. Necə ki, keçənlərdə İstanbulda təşkil edilən mitinqin çəkdiyi teleqramma Almaniya imparatoru Vilhelm cənablarının verdiyi cavab məsələyə sui-təsir elədi. Çünki İran xüsusunda Almaniyanın Osmanlı ilə bərabər hərəkət etdiyi haqqında əfkari-ümumiyyə müttəfiqdir.

Almniyanın belə bir cavabı xalqı Osmanlının da İran xüsusunda Almaniyanı təqlid edəcəyi zənninə və binaən ileyh təlaşa düşürdü. Lakin Almaniya imperatorunun bu cavabını ehtiyat ilə tələqqi etmək lazımdır. O teleqram politika icabıdır. Yoxsa Almaniyanın İran haqqında tutduğu və tutacağı məsləklə münasibəti yoxdur.

Almaniya İrandakı mənafeyi-iqtisadiyyəsindən keçməz. Halbuki İranın bugünkü vəziyyəti-siyasiyyəsi Almaniyanın oradakı həyati – iqtisadiyyəsini təhlükəyə qoymuşdur. Xüsusilə Bağdad dəmiryolunun əqsayi –

İrana qədər təmdidi Almaniyanın amali – siyasiyyə və iqtisadiyyəsindən olduqca Almaniya dəxi Osmanlı qədər İran məsailində əlaqədar qalır.

İştə dövləti – Osmaniyyə fəalanə hərəkətlə İranın müqəddəratını dörd gözlə təqib edənlərə sükunəti-ruh verməlidir.

«İttihad və tərəqqi» firqəyi-faxirəsinin ibtidayi – məşrutiyyətdən bəri hər işdə bir fəaliyyəti-mübcələ göstərdiyi yar və əğyarın təhti-təsdiqindədir.

Keçənlərdə o firqənin bu sənə təqib edəcəyi proqramı tərtib etmək üçün firqəyi-məzkurə əzayi-girami Salanikdə bir iniqadi-ümumi yapmışdı. Kabinənin xüsusi ilə bəzi nəzarati – Osmaniyyənin bətaət hərəkətini tənqid ilə daha ziyadə ibrazi-fəaliyyət və bəsirət edilməsi bu iniqadın cümlə müqərrəratından olduğuna şübhə yoxdur.

Ancaq İranın bəzi nüqatını tutan əsgərlərin oralardakı əhalisinə rahatsızlıq verdikləri, məəttəəssüf, eşidilməkdədir.

Bu nabəca hərəkətlərin önünü almaq üçün oralara girən müfrəzə əsgəriyyələrin Osmanlı konsullarının təhti-idarələrinə verilməsi və bu surətlə hərəkati-əsgəriyyənin icbati-siyasiyyə ilə mərafiqətən icra edilməsi daha ziyadə müvafiq məsləhətdir, zənn ediriz. Hər halda bu babda hökuməti-icraiyyənin nəzər diqqətini cəlb eyləriz.

ƏHMƏD KAMAL

30 NOYABR 1910, № 7, səh. 1-2

CƏHALƏTLƏ MÜCADİLƏ

Nə oldunuz, ey Vətən qayıqçıları?
Qaldı dərya üzündə yelkəniniz.
Susdunuz, yox sədavü şivəniniz,
Ey ilk şanlı hayqırıqçıları!

x x x

Qəlbinizdə tükəndimi cürət?
Fırtına, dalğa, sismi yollarınız?
Yoxsa gücdənmi qaldı qollarınız?
Nə çabuq söndü atəşin himmət?

x x x

Ah! Adəmmi olmayan hünəri?
Qorxmayın, həp igitcə qalxışınız!
Fırtına, sis, dumanla çarpışınız!
İrəli, arxadaşlarım, irəli!

x x x

Şəfəq atdıqda, ya ki, erkən,
Inan sahilə dəmir atarız.
Şu qaranlıq dümanları yırtarız,
Sizi alqışlayır mühiti – Vətən.

A.Ş.

30 NOYABR 1910, № 7, səh. 3

= ŞEYX ŞAMİL =

Şeyx Şamil Hümri kəndində 1797-ci ildə təvəllüd etmişdir. Çocuqluq zamanını özündən dörd yaş böyük olan Qazi Molla ilə bir yerdə keçirmişdir. Bunlar vaxtlarını çox məhəbbət ilə keçirmişlər. Şeyx Şamil çocuqluqda rəfiqi (yoldaşı) Məhəmmədden dərs alırmış. Sonra tamam on dörd il Dağıstanın məşhur alimlərindən dərs oxumuşdur. Binaən ileyh Dağıstanda birinci alimlərdən hesab olunurmuş. 23 yaşında ikən siyasi işlərlə məşğul olmağa başlamışdır. Qazi Molla imam olduğu zaman Şeyx Şamili özünə müavin etmişdi. 1832-ci ildə Hümri qəsəbəsi alındığı vaxt Şamil rəfiqləri ilə and içmişdi ki, düşmənə əsir olacaqları halda ölümü əsarətə tərcih etsinlər. Bu müharibədə Şamilin and içmiş olan yoldaşları ölmüşdülər. Fəqət Şamil ağır bir surətdə yaralanmışsa da, ölüm və əsarətdən qaça bilmişdi. Buna hər kəs təəccüb edirdi. Bundan sonra Şamil tamam yarım il ölüm halında yaşamışdır.

1834-cü sənəsinin sentyabr ayında Şamil imamlıq məsnədinə keçib, fövqəladə məharət və istedad izhar etmişdir.

Başlayacağı işlərin əvvəlcə layihəsini hazır etmədən heç bir işə iqdam etməzdi. Para (pul) və qoşun cəm etmək üçün çox cidd və cəhd ilə çalışırdı. Ağıl və istedadı sayəsində bütün çeçen və dağıstanlıları özünə tabe etmişdi.

Şamilin zamanına qədər işlərə məhkəmələrdə xüsusi qanun üzrə baxılardı. Şamil bunların cümləsini

ləğv edib, şəriətin buyurduğu kimi işə baxmanı qazilərə hökm etdi. Az vaxtda Şamilin nüfuzu bütün Dağıstanda nəşr olundu (yayıldı). Hətta rus hökumətinə tabe olmuş dağlılar da ürəklərində Şamilə qarşı bir məhəbbəti – fövqəladə hiss edirdilər. Şamil bunları da şəriət üzrə idarə olunmağa dəvət edirdi. Hökumətini layiqincə idarə etmək üçün əlindəki yerləri bir neçə hissəyə təqsim edib, hər hissəni bir naibə həvalə etmişdi. İşləri şəriət üzrə qət etmək üçün hər niyabətə bir müfti təyin etmişdi. Qaziləri müftilər özləri təyin edirdilər. Hər dörd niyabəti bir müdirin təhti-ixtiyarına vermişdi.

Faxetiyaya hücum etdiyi vaxt ancaq 12000 əsgəri var idisə də, sonraları bunların ədədini altmış minə qədər artıra bilmişdir.Alati-hərbiyyə (hərbi sursat) hazır etmək üçün fabrikalar açdırmışdı.

Xüsusi fabrikalarında 40-ə qədər top hazır etdirmişdi. Qonib, Qonsul və Vedenoda barıt hazır etdirirdi. Ruslardan bir çox əsgər qaçıb Şamilin təhti-idarəsinə daxil olmuşdular. Şamil bunlara çox hüsni-müamilə edər (çox gözəl davranır) və bunlara xüsusi məvacib verirdi. Bunlardan bəziləri hərbiyyə zavodunda işləyib, bəziləri də mühəndislik edirdi.

1842-ci sənəsindən etibarən Şamilin alati-hərbiyyəsi (hərbi sursatı) kafi dərəcədə idi. 1843-cü ildə ruslara hücum edib, bunlardan bir çox hərbiyyə alatı almışdılar. Bu alatın dəxi onlara çox müavinəti (köməyi) olmuşdur.Şeyx Şamil beytülmal təsis etmişdi. Əhali zəkat (onda bir) və vergi beytulmala verirdi. Yenə

dağlılar Gürcüstana hücum edib, qarət etdikləri nüqudu (nağd pulu) beytülmala verirdilər. Rus postaları qarət olunub, nüğudunu beytülmala verirdilər.

Şamil çeçenli Hacı Yusif ilə çox məsləhət edərdi. Bu zat ömrünün cavan vaxtını xidivi-Misir (Misir hökmranı) Məmmədəli Paşanın zamanında Misirin Qahirə şəhərində keçirmişdir. Darülfünun qurtardığı halda Dağıstanda kimsə bunun qədrini bilməyirdi. Mühəndislik elminə aşina idi. Şamilin zamanında Qahirədən övdət edib, lazım olduğu vaxt bacardığı xidməti edəcəyini vəd etmişdi. Lazım olursa xidivi-Misir Məmmədəli Paşadan və Osmanlı sultanından müavinət istəyə biləcəyini də bildirmişdi. Şamil bunun alim və müstəid bir zat olduğunu nəzərdə tutub, özünə məsləhətçi etmişdi. Bir azdan sonra müşarileyhi (onu) Çeçendə naib etmişdi. Fəqət Hacı Yusif camaatın xoşuna gəlmədiyi üçün əzl olunmuşdu (kənar edilmişdi). Bundan sonra gizli olaraq Qars valisinə məktub yazıb, Şeyx Şamilin hərəkətindən şikayət etmişdir. Şeyx Şamil bunu bilib, Hacı Yusifi mütənəbbeh olmaq üçün (cəzalandırmaq üçün) Dağıstanın ən barid (soyuq) kəndlərindən birinə göndərmişdir.

Burada iki il qaldıqdan sonra ruslar tərəfinə qaçmışdır. Fəqət buraya yetişdiyi zaman faciəli surətdə vəfat etmişdir.

QAFQAZ COĞRAFİYASINDAN

Mabədi var.

30 NOYABR 1910, № 7, səh. 3-5

ƏLİBƏY HÜSEYNZADƏ HƏZRƏTLƏRİNİN QAFQAZİYADAN MÜHACİRƏTİ MÜNASİBƏTİ İLƏ

=TƏHƏSSÜRAT =

Səndə ey Qafqaz, ey gözəl gülzar,
Qəlb açılmaz, gülü bənövşə solar.
Daima başqa aşiyanə açar,
Solsa gül, əndəlib olar naçar.

x x x

Nədən ey gülşəni-fünunü ədəb,
Bu qədər xarsan bu dünyadə?
Nə üçün bilmədin, nə oldu səbəb?
Ki vida eyləyir bu dana də?

x x x

Ah ey dahiyi-sütudənəhad,
Bizə lütfünlə eylə ətfi-nigah!
Səndən eylər bu millət istimdad,
Ona sizlərsiniz yeganə pənah!

x x x

Edib əsğa təhəssüratımızı,
Vətən olmaqda pürəsəf naçar.
Getmə! Məyusü naümid bizi,
Etmə ey tutiyi-şəkərgüftar!

x x x

Cismi canımda ehtisasatım,
Şu kədərli fərağa nifrət edər.
Getdiyin yerlərə xəyalatım,
Sürünüb əczlə peykcə gedər.

x x x

Əsfa, ey ədibi-pakzəmir,
Daim oldun qeydi-dünyaya qəriq.
Millətə pəndik olmadı cagir,
Fikrini tutdu bir sükuti-əmiq.

x x x

Gül saçıb pişgahi-rahında,
Gərçi Qafqaziya əlvida eylər.
Səni haqq saxlasın pənahında,
Ey ədibi-müxalisətpərvər!

x x x

Gərçi gül soldu, itdi fəsli-bahar,
Sənə, ey gülüstan, yetişdi xəzan.

Qəm yemə, Əhməd Kamalın var,
Açılır başqa bağzari-bəyan.

Ə.QƏMKÜSAR NƏCƏFZADƏ

30 NOYABR 1910, № 7, səh. 5

= EYDİ – ƏZHA =

Eydi – Əzha gəldi. Qurbanlar kəsildi. Neçə milyonlar ilə canlar bican oldu. Nə oldu?

Füqəranın halı təmin edildimi? Yetim miskinlərimiz ət yeməkdən doydumu? Islamiyyət namına təzə təşəbbüsatda bulundumu?

Nə deyəlim, nə cavab verəyim? Cavabını kim söyləsin? Siz ya mən?

Hacı babalarımız da eydi-əzha rəsmini (mərasimini) icra edir. Minlərcə heyvanat kəsib, Mina dağlarını al qan içində buraxdılar.

Nəticə nə olsun? Heyvanları bican etməkmi? Həkəmiyyat və fəlsəfə ilə uğraşan dini-islama bu qədər kafimi?

Yox, yox! Kifayət etməz, deyirlər.

Bu halda nə deyəlim? Başqa nə söyləyəlim?

Mərkəziyyəti-mühafizə cavabınımı verəlim?

Nasıl mühafizə? Ərəbistanın qum dəryaları içində yaşayan bir camaatın halını təmin üçünmü?

Mərkəzi-islam və qibləyi-inamə müvazib olmaq üzrə qədimdən bəri heyvandarlıqla iştiğal edən bir

qövmindən bəri heyvandarlıqla iştiğal edən bir qövmün məişətini idaməyə çalışmaqmıdır? Yaxud Ərəbistanın qara dağlarını günahsız qanlar ilə rəngalub etmək, Məkkə əhalisinin hüsni-məişətini təmin etmək mərkəz əhalisinin istiqaməti məqsədi üzrəmidir?

Nə bilim? Nə cavab verəlim? Kim cavab versin? Siz, ya mən?

Ərəblər islamiyyət mərkəziyyətini qayib etdilər. Bütün islama hökmran olmaqlıq Türkiyəyə keçdi, deyirlər. Eləmi? Ya?

Ərəbistanda qədim ül-əyyamdan bəri xilafət məhdilik üzrə tökülən nahaqq qanları əzhiyyə heyvanlarının qanları ilə tələfi etmək olarmı? Ya? Cavabını sizmi verməlisiniz, ya mən?

Şimdi isə mərkəzi-xilafət və hökmrani-islamiyyət Türkiyə, nəcib Türkiyədir, deyirlər. İnanırmısınız?

Şu mərkəzi-islamiyyətin sağ cinahı olan Ərəbistanda gündə bir Mehdi zühur etdiyini görürmüsünüz?

İngiltərə əsləhəsi ilə müsəlman qardaşlarının sinələrini hədəf etmələrinə kimlər və nələr səbəb olduğunu bir kərrə də olsun düşünürsünüz?

Cavab, nə deyəlim? Kim desin? Siz, ya mən?

Türkiyənin sol cinahı olan İranda nələr hadis olur? Üzərində nasıl qara bulutlar oynayır. Burasını da rəyüleyn görüb anlamırsınızmı? Bu surətlə islamiyyətin qanad vuraraq səfalət və həlaka doğru nüzul etdiyini və bu vəchlə məhv və izmihlala üz qoyduğunu hiss etməyirmisiniz?

Hasili, islam! İslam! Deyə bağırırız.

İslamiyyətin əmr etdiyi şeylərdən hankısını tuturuz? İslamiyyət insaniyyəti əmr edir. İnsaniyyət mədəniyyəti tövlid eləyir. Mədəniyyət qüvvət və mərifətə dayanır. Biz bunların hankısından xəbərdarız?

İslamiyyətin mədəniyyəti-mazisinə bir şey əlavədən sərfi-nəzər heç olmazsa, o parlaq mazi maarifi də mühafizə edə bildikmi?

Nə elədik? Aləmi-mədəniyyətə nə çıxardıq? Həqiqi insanlar bizim halımıza gülürlər. Biz heç mütəəssir oluruzmu?

Bu suallara nə cavab verəlim? Nə söyləyəlim? Cavabını siz verməlisiniz, ya mən?

Mən isə deyəcəm, iştə bu qədər. Eydi – Əzha gəldi, neçə milyonlar ilə canlar bican oldu. Nə oldu? Və nə olsun?

AXUND YUSİF TALIBZADƏ

30 NOYABR 1910, № 7, səh. 5-

EŞİDƏNƏ!

Şahın əhrarı tutub asdığı bir kor ağacın,
Adını qoydular İranda cangah ağacı.
Dari-dünyada cəza cinsi-əməldənsə əgər,
Bağı-şahda görünür meyvəli bir şah ağacı.

İSTANBUL

ƏŞRƏF

30 NOYABR 1910, № 7, səh.6

BİRİNCİ MƏSƏLƏNİN HƏLLİ

Mənim pulum (s), yoldaşımın pulu (ə) ilə göstərilsə, yoldaşıma mən 7 manat verincə onun pulu mənimkinin iki misli olacağından birinci müadilə:

$7+ə = (s-7) \cdot 2$ olur.

Yoldaşım mənə 7 manat verincə ikimizin pulumuz müsavi olacağından ikinci müadilə;

$ə - 7 = s + 7$ olur.

Bu halda məsələ iki məchullu bir müadilə olduğundan qaydası mövcibincə həll olunursa:

$7 + ə = 2c - 14$

$ə - 7 = s + 7$

Məchulun birini izalə üçün tərh edilərsə:

$s = 35$ olur

Demək ki, mənim pulum 35 manat imiş. Bu otuz beşi ikinci müadilədə s –nın yerinə qoyarsan:

$35 + 7 = ə - 7$

Olur ki, bu da:

$35 + 7 + 7 = ə$

Olur ki, bu da:

$ə = 49$ edər.

Demək ki, yoldaşımın pulu 49 manat imiş.

İkinci məsələ çox tərəfdən həll edildiyindən burada dərcindən sərfi-nəzər etdik. Fəqət hər məsələnin həllini «Füyuzat»da nəşr edildikdən sonra müəllimin

həzəratı məktəblərdə şagirdlərə izah etməlidirlər. Çünki həllə müqtədir olmayan şagirdlərin zehnlərindəki tərəddüdü izalə üçün bu bir əmr əlzəmdir.

30 NOYABR 1910, № 7, səh. 7

Beşinci nömrəmizdəki məsələlərin həllinə dair pək çox məktublar aldıq. Bu məktubların içində doğru həll edənlər də çoxdur.

Düşənbə (bazar ertəsi) günü doğru həll edənlərin adlarına heyəti-qürə tərəfindən mükafat üçün qurə çəkildi. Heyəti-qürədə «Səadət» və «İttihad» məktəblərindən də birər zat hazır olacaqdır. Birinci məsələni cəbr ilə doğru həll edənlər: Bakıda "Realnı" məktəbinin dördüncü sinif şagirdlərindən Tağı Cəfərzadə, Qafar xan Rzayev, «İttihad» mədrəsəsi üçüncü sinif şagirdlərindən Seyid Həsən vələdi – Kərbəlayi – Mir Əlinağı Hüseynov.

Bu məsələni hesab ilə «əadət» mədrəsəsindən Ələsgər Ələkbərzadə həll etmişdir.

İkinci məsələni həll edənlər:

«İttihad» mədrəsəsinin ikinci sinifindən Balağa Ağazadə.

«Səadət» məktəbinin ikinci sinifindən: Teymur Səlimzadə, Əliheydər Novruzəli oğlu Əlizadə, Mirbağır ibn Hadi, Mirzə Hüseyn Quluzadə, Məmmədağa Hacı Əbdürrəhim oğlu, Süleyman Məlikzadə, Ağamehdi Ağəlizadə, Sadıq Ağabala oğlu Rzazadə, Mir Əbdülqəni Mirqasımzadə, Mir Əbdülcavad Mirmöh-

sünzadə, Əliverdi Əlizadə, Şirməmməd Əhməd oğlu Muradzadə, Muxtar Rəhimzadə, Əhməd Süleyman bəy oğlu Cəfərzadə;

Bakıda Nikolayevski küçədə S.M.H.zadə, «Realni» məktəbi ikinci sinif şagirdlərindən Kərim Cəfərzadə.

Beşinci sinifdən Kərim Cəfərzadə, Qafarxan Rzayev.

Sabuncu qorodskoy məktəbinin üçüncü sinifindən Əlisəttar Ibrahimzadə.

Batumdan Vəsfiyyə xanım binti – Təhsin; «Nəşri – maarif» birinci məktəbi üçüncü sinifindən Əsəd Əlizadə, Həsən Kərbəlayi Əlizadə, Həsənəli Abbaszadə, Məmmədəli Babazadə, Əbdülcavad Hacı Nəyyirzadə keşləli.

Əliağa Aslanzadə, məzkur məktəbin ikinci sinifindən Məmmədhüseyn Fərruxzadə, Murtuza Quluzadə.

Məzkur məktəbin dördüncü sinifindən Mirzəhüseyn Mirrəcəbzadə və Miribrahim Mirzəbabazadə iki məsələni də hesab ilə doğru həll etmişdilər.

Balaxanı camaati-müslimin məktəbi dördüncü sinifindən Əlinağı Kərimzadə və Naxçıvandan Məmməd Əhmədzadə.

Cənbərəkənd 6-cı qorodskoy məktəbindən Novruzov.

30 NOYABR 1910, № 7, səh. 8

= MÜKAFAT =

Qürədə (püşkdə) birinci məsələnin mükafatı üç aylıq abunə «Realni» məktəbində Tağı Cəfərzadəyə, ikinci məsələnin mükafatı bir aylıq abunə «Ittihad» mədrəsəsindən Balağa Ağazadəyə isabət etmişdir.

30 NOYABR 1910, № 7, səh. 8

«FÜYUZAT»A ABUNƏ OLAN ZƏVATI – GIRAM

1) Bəy Polad, Qazan;
2) Əbdülqəyyum Mustafayev, Qaryagin;
3) Töhfətülla Saxibullin, Rostov;
4) Məmmədəmin Abbas Məmmədov, Xoqənd;
5) Şahismətulla Şahhidayətov, Daşkənd;
6) Mirəkrəməddin Məqsumə, Buxara;
7) Mirzə Kərim xan, Rəşt;
8) Hacı Mirzə Əbutalıb, Rəşt;
9) Ağa Hüseyn Kəsmayi, Rəşt;
10) Əlişbəy Əliyev, Rəşt;
11) Beynəlmiləl klubu, Rəşt.

30 NOYABR 1910, № 7, səh. 8

«YENİ FÜYUZAT»

№ 8

7 DEKABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ–İMTİYAZ VƏ MÜDİRİ–MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

Hər şeydən bəhs edən həftəlik məcmuəyi – müsəvvərədir.
Bir nüsxəsi 10 qəpikdir.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində.

HÜSNİ PAŞA

Hürriyyət müharibələri əsnasında İstanbulu pəncəyi-istibdaddan fəth üçün hərəkət edən hürriyyət ordusu komandanı Osmanlı ricali-əsgəriyyəsindən Hüsni Paşa həzrətləri (şəkil).

səh. 1

= SİYASİ =
= OSMANLI XULİQANI =

Bu həftə əlimizə «Məşrutiyyəti – Osmaniyyə» adlı bir məcmuə keçdi. Bu məcmuə Parisdə fransızca ayda bir dəfə intişar edilir.

Məcmuənin müdiri-siyasisi Şərif Paşadır. Bu zat məcmuənin üzərində adının altında özünə şu sifətləri yazır:

Əsgəri firiqliyindən müstəfa;
Türkiyənin sabiq Steqholm səfiri;
Bilməm nə qədər nişanlar sahibi.

İştə bu məcmuənin siyasətini idarə edən zat bu sifətlərə haizdir.

Biz bu məcmuəni Türkiyədə görsəydik, haqqında heç bir söz söyləmədən keçərdik. Çünki Türkiyədə bunun müdiri-siyasisini tanımayan yoxdur. Lakin məcmuəni Qafqaziyada gördüyümüz üçün xalqı qəflətdən mühafizə məqsədi ilə bir neçə söz yazmağı vacib bildik.

Əvət, qəzetənin müdiri-siyasisinin nasıl bir zat

olduğunu biləlim ki, qəzetənin nə məsləkdə davam edəcəyini anlamaq qulay olsun.

Bu zat məcmuənin üstündə «Əsgəri fəriğliyindən müstəfa!» olduğunu yazır.

Yəni özü-özünə generallıqdan çıxmış!

Əcəba nə zaman və nə üçün çıxmış?

Bizim bildiyimiz Şərif Paşa dövri – Həmididə uzun sənələr Xariciyyə nazirliyi etmiş olan kürd Səid Paşanın oğlu idi. Yenə dövri – Həmididə bütün paşa oğulları kimi dörd-beş basamağı (pilləç) birdən atlayaraq fəriğliyə qədər vasil olmuş bir paşa idi.

Genə dövri – Həmididə Misir prinslərindən biri ilə izdivac edərək sərvətinin üstünə bir güclü sərvət daha əlavə etməyə müvəffəq olmuş dövlətli bir damad idi.

Nə oldu? Nə keçdi ki, Əbdülhəmid dövründəki generallığından dövri-müqəddəsi-məşrutiyyətdə istefa etdi?

İştə buranı anlarsan, paşanın və məsləkinin mahiyyəti meydana çıxar.

Əbdülhəmid vükəla (vəkillər) və vüzəranı (vəzirləri) özünə sadiq saxlamaq üçün xəzinəyi-milləti bunların nəhb və qarətlərinə tərk etdiyi kimi bunların övlad və əhfadına da bütün mənasib (mənsəblər) və nəyaşini-dövləti (dövlət nişanlarını) təxsis və ehsan etmişdi. Axırda iş bir dərəcəyə gəldi ki, məsələn, bir vəzirin bir oğlu, yaxud bir həfidi olur, Əbdülhəmid dərhal ona bir rütbə verir. Bir az sonra çocuq diş çıxarır, bir rütbə daha alır. Bir az sonra sünnət olur, bir

rütbə daha gəlir. Məktəbə girir, bir rütbə ehsan edilir. Nişanlanır bir rütbə daha... Düyün olur, bir rütbə daha.

Nəhayət, çocuq on beş, iyirmi yaşlarında bir general olur, meydana çıxar.

Dövri – Həmididə iyirmi yaşında generallara sokaklarda pək çox təsadüf edilirdi. İştə «Məşrutiyyəti – Osmaniyyə» məcmuəsinin müdiri Şərif Paşa da belə yetişən paşalardan biridir.

Elani-məşrutiyyətdən sonra hökuməti-cədidəyi-Osmaniyyə bu fənalığı geydirmək üçün təsfiyəyi-rütbə, yəni bu rütbə (çin)-ləri istehqaqa görə düzəltməyə qərar verdi.

Hər kəsin əsgərliyə girdiyi, yaxud məktəbi-hərbiyyədən çıxdığı tarixi hesab edərək o tarixdən elani-məşrutiyyət tarixinə qədər hankı rütbəyə vasil olmağa haqqı varsa, o rütbəni ibqa edib, üst tərəfini geri aldı. Bu qanun məclisi-məbusani-Osmani hərbiyyə əncüməninində tərtib və məclisi-əyan tərəfindən tədqiq və tərəfi-şahanədən təsdiq olunduqdan sonra mövqeyi-icrayə qoyuldu. Demək ki, bu qanuna üsyan edən məclisi-məbusana, məclisi-əyana, zati-şahanəyə... hasili məşrütiyyəti-Osmaniyyəyə üsyan etmiş olur.

Məşrutiyyəti – Osmaniyyəyə həblülmətini-nicat (nicat kəndiri) deyərək sarılmış olan bütün osmanlılar kamali-hörmət və itaət ilə bu və bunun əmsalı olan qəvanini-məşrutiyyətə baş əydilər. Hətta qaziyi – məşhur Əhməd Paşa Muxtar Paşanın oğlu keçən Yunan müharibəsində bir – iki yerindən yaralanan Mahmud Muxtar Paşa kimi müqtədir generallar bu

qanun iqtizasınca miralaylığa düşdükləri halda kamali-iftixar ilə qəbul etdilər. Bir, tək bir fərd bu qanuni-məşrutiyyətə itaət etmədi. O da mövzuyi-bəhsimiz və Parisdə məşrutiyyəti-Osmaniyyə əleyhinə günlük və aylıq qəzetə və məcmuə nəşr edən İştə bu Şərif Paşa yadigarıdır. Çünki təsfiyəyi-rütəb (rütbələr) qanunca bu yadigari-istibdad paşalıqdan bəyliyə düşürdü.

Dövri-məşrutiyyətin bəyliyini dövri-istibdadın paşalığına tərcih etmək üçün insanca bir həmiyyəti-milliyyə, həmiyyəti-vətəniyyə, həmiyyəti-insaniyyə bulunmaq lazım idi. Şərif Paşa bu cövhəri-insaniyyəti vicdanında bulmadı və istefa elədi. Çünki təsfiyəyi-rütəb xoşnud olmayanlara istefa haqqını verməklə də isbati-hürriyyət və ədalət edirdi.

İştə bu infial ilə başına bir neçə sərsəri yığaraq Parisə getdi. Orada məşrutiyyəti – Osmaniyyəni müdafiə maskası altına girərək camiyəti – Osmaniyyənin yeganə vasitəyi-nicat və səlaməti olan «İttihad və tərəqqi» firqəyi-faxirəsini tənqidə və təhqirə başladı.

Lakin bütün ömrü dövri-istibdad saraylarında, qonaqlarında zövq və səfa ilə keçmiş. Bütün ruhu özü kimi Əbdülhəmidin lütfi-didəqanı arasında pərvərişyab olmuş. Binaən ileyh millət ilə otuz sənə payi-zülm altında inləyən millətin ruhu ilə əslən və qətiən təmasda olmamış olan Şərif paşalar millətin münciyi-vətən olan «İttihad və tərəqqi» firqəsinə olan hörmət və məhəbbətini və o firqənin əleyhində olanlara qarşı qeyz və nifrətini təqdir edəməzlər.

İştə bu mahiyyətdə olan Şərif Paşanın təhti-

idarəsində intişar edəcək risalələrin nə məsləkdə olacağını az bir mülahizə ilə anlaşılır.

«Məşrutiyyəti – Osmaniyyə» məcmuəsinin mündəricatından sizə bir nümunə tərcümə edirəm. İnsaf və vicdan ilə mühakimə edərsəniz, insan oğlunda qərəzkarlığın nə qədər yüksək dərəcələri olurmuş, anlarsınız.

Bu məcmuənin bizə 11-ci nüsxəsi vasif oldu. Bu nüsxənin 49-cu səhifəsində:

«Əhməd Rza bəyin bir nitqi». Sərlövhəsi ilə bir məqalə var ki, belə başlayır:

Mabədi var.

ƏHMƏD KAMAL

7 DEKABR 1910, № 8, səh. 2-4

MƏDRƏSƏYİ – «SƏADƏT»DƏ ZİYAFƏT

1910 sənəsi dekabrın üçündə «Səadət» mədrəsəsi heyəti-idarəsi tərəfindən təbib, ədib Hüseynzadə Əli bəy bəradərimiz şərəfinə böyük bir ziyafət kəşidə olunmuşdur. Ziyafətə Bakı üləmayi-benamı və əyani-girami və bütün ərbabi-ürfan xüsusi təzkirələr ilə dəvət olunmuşdu. Sər mühərririmiz də məduyin (qonaqlar) arasında idi.

Ətəmə və əşrəbə (yemək və içmək) fövqəladə məbzul və mütənəvve və şəkili-ziyafət adabi-islamiyyə üzrə mürəttəb idi.

Təamdan sonra əvvəla Bakı qazisi Ağa Mirkərim

ağa həzrətləri elm və ürfanın lüzumuna və Əli bəyin xədəmat və fəzayilinə dair bir nitqi-bəliğ irad buyurdular. Qazi həzrətləri mütəaqib (ardınca) dövləti-aliyyəyi-İran şəhbəndəri Saidülvüzərə Mirhüseyn xan Ağazadə cənabları dəxi lisani-farsi ilə atidəki nitqi söyləmişdir:

Ən sonra mədrəsə heyəti-idarəsi tərəfindən bir zat Əli bəyin bütün Qafqaza, xüsusi ilə bir neçə sənədən bəri mədrəsəyi-məzkurəyə etdiyi xidmətlərə dair bir neçə sözlər söylədikdən sonra mədrəsədən iftiraqına bütün mədrəsə heyətinin mütəəssif və mütəəssir olduğunu əlavə ilə nitqinə xitam verdi.

Ziyafət təqribən üç saat davam etdikdən sonra mədövlər (qonaqlar) dağıldılar.

Əli bəy Qafqaz Şeyxülislamı mərhum nöktəqu Şeyx Əhmədin həfidi olub, Bakı sancaqlarından Salyan şəhərində dünyaya gəlmişdir. Tiflisdə məktəbi-edadini və Peterburqda ülumi-riyaziyyə və təbiyyə darülfünunu ikmal etdikdən sonra İstanbula gedib məktəbi-tibbiyəyi-əsgəriyyəyə girmiş və sonra məktəbi-tibbiyyəyi-şahanə siflis xəstəlikləri müəllim müavini olmuşdur.

Biləxərə dövri-istibdadda fərar edib Bakıya gəlmiş və burada «Füyuzat» məcmuəsi ilə «Həyat» qəzetələrində baş mühərrirlik etmişdir.

İki sənədən bəri də «Səadət» mədrəsəsinin müdiri idi.

Əli bəy doğru düşünən, doğru yazan, doğru yaşayan bir ədib, təbibdir. Qafqaz ondan, o, Qafqazdan

razı qalaraq İstanbula gedir.

7 DEKABR 1910, № 8, səh. 4-5

= ERKƏKLƏR VƏ QADINLAR İCTİMASI =

Erkək və qadın məsələsi bütün bəşəriyyətə aid bir məsələdir. Erkək və qadın deyildikdə bəşəriyyət cəmiyyətlərini təşkil edən, təbii, bir erkək ilə bir qadının ictiması xəyala gəlir.

Əvət! Aləmi-bəşəriyyətdə bir erkək ilə bir qadının ictiması ən mühüm nöqtələrdən məhsub olmaq gərəkdir.

Zira əsasi-bəşəriyyət bundan ibarətdir. Bütün insanlar bu yoldan həyata yetir, cəmiyyətlər təşkil edir. Bütün xeyr və şərr, nəf və zərər bu yoldan, bu mənbədən nəşət edir. Bu qabili-inkar deyildir. Və buna münasib erkək ilə qadınların vəzifələri təyin olunur və buna dair həyat və məişət yolları açılır. Bunun vasitəsi ilə insanlar dirilir. Mübarizəyi-həyata çıxır, dünyada yaşayır, cahanın həyatı ilə məmatı təşxis olunur və cəmi fikirlər və qisim-qisim məsləklər bu yoldan zühur edir. Bunun vasitəsilə insanlar millətlərə, müxtəlif lisanlara, qisim-qisim siniflərə təqsim olunur.

Hasili (nəticəsi), bəşəriyyətdə birinci əsas olaraq erkək ilə qadın məsələsi ortaya çıxır. Məsələmiz pək mühüm, pək ali, son dərəcə müşkül olduğunu biliriz.

Bizdən əqdəmdə (qabaqda) bu yolda yazılmış əsərlərin bir çoxunu da oxuduq, düşündük, iyicə tədqiq

etdik. Kəndimiz də təhqiqə girişmək istədik.

Şu məsələ ziyadəsincə geniş olduğundan bu meydanda əsbtaz olan (avanqard olan) hükəma və üdəbadan hər birisi erkək ilə qadına bir tərəfdən nəzər etmişlər. Hətta axırıncı əsrimizin möhtərəm ədib və filosofu olan qraf Tolstoyun da bu yolda qələmə alınmış əsərlərini və o mərhum tərəfindən yazılmış rədiyələri də gördük. Halbuki qraf Tolstoy kəndi vəzifələrini ifa etmək qeyrətində bulunmayan qadınları təyib etdiyi kimi (təqdir etmə), bilmüqabilə yazılmış əsərlərin də onların müdafiəsinə və erkəklərin təyibinə dair olduğunu müşahidə etdik.

Bu qism təlifat (əsərlər) ya tək erkək və ya tək qadınlara məxsus olduğu üçün o müəlliflər əsl məsələnin bir tərəfini həll etməyə qeyrət etmişdilər. Onun üçün də əsl həqiqət orta ya çıxmadığından naşi məsələmiz bu haladək mütənaze fiha qalmışdır.

Mən isə şu məsələnin həlli yolunda həm erkək və qadın barəsində və onların ailə təşkili üçün ictimaları dairəsində ifayi-məram eləməyi və həm bu yolda şəriəti-müqəddəsəyi-islamiyyənin də nəzəri-həqiqət səmərini təhqiq üzrə izhar etməyi dəröhdə edirəm. (Boynuma götürürəm).

Erkəklər ilə qadınların ictiması elə bir məsələdir ki, ümumə məlumdur. Məlum olması ilə bərabər, bu ictimanın birinci və yeganə vəsiləsi olan erkək ilə qadın miyanında (arasında) bulunan əlaqənin nə olduğunun dəxi məlum olmasını zənn edirəm. Zira heç bir erkək qadınsız və heç bir qadın erkəksiz yaşamaq

istəməz. İstərsə də yaşayamaz. Bəlkə onlarsız bəşəriyyət də yaşayamaz. İnsaniyyət də törəyəməz. Aləmdə heç bir şey və heç iş olamaz. İşbu hisdən heyvanlar da ayrılamaz.

Əcəba, şu məcburiyyətə səbəb nə?

Heyvanları da şahid gətirdik. Onlarda olduğu kimi, insanlarda mövcud bulunan qüvvəyi-heyvaniyyəmidir? Bununla kifayət etmək olarmı?

Bəşəriyyət cismaniyyətcə bir qism heyvan ədd olunduğu kimi ruhaniyyətcə də heyvanlara tətbiq olunması mümkün və cayiz ola bilirmi?

Əlbəttə, cayiz olamaz.

Nasıl cayiz olar ki, heyvanların fəqət nəfsaniyyət ilə insanların isə ruhaniyyət və hiss və məhəbbətlə yaşadıqlarını bilmüayinə müşahidə ediriz.

Ruhaniyyət və məhəbbətlər yolunda insanların hər bir vaxtda cəmi mayəmlək (bütün var-dövləti) və bütün həyatlarını fəda etdiklərini görürüz. Bütün dünya şu məhəbbətin giriftarı və cəmi təcəddüdat və təşəkkülat və qism-qısm təsisat işbu məhəbbətin nətayicindən olduğu aşkardır. Məhəbbətə pərəstiş, məhəbbətə sitayiş və onunla yaşamaq və onun yolunda ölmək və cəmi maddiyyat və mənəviyyata məhəbbət bir əmri-zəruridir.

Hər bir işə məhəbbət onun fədəvisi (fədaisi) olmaqdır. Bir şeyə məhəbbət onun fədakarı olmaqdır.

Əvət! Aləmi-bəşəriyyətdə ədyani-müxtəlifə və mütəfərriqədə əsas olan İştə şu məhəbbətdir. Bütün mübarizələr, məişətlər, sülh və nifaqlar, vəfaq və

şəqaqlar, həyat və məmatlar, mövcudat və mədumat, maddiyyat və mənəviyyat və qism-qism səfa və cəfalar və günagün ictima və infəraqlar bütün-bütünə şu məhəbbətin nətayicindəndir. Bunlar məhəbbətə əsas olduğu kimi, nəticəsi dəxi məhəbbət olması lazım gəlir. Zira hər bir şey ondan doğduğu kimi, hər bir şeydən də o doğur.

Demək ki, hər bir şeyin əvvəli məhəbbət olduğu kimi, axırı da məhəbbətdir.

Mabədi var. (ardı var)

AXUND YUSİF TALIBZADƏ

7 DEKABR 1910, № 8, səh. 5-6

= QƏZƏL =

Cahan çeşmim önündə vadiyi-dəhşətnəmun olmuş,
O vadidə bu insanlar giriftari-cünun olmuş.

Edər əfradi-aləm dürlü-dürlü zülmlər icra,
Sərapa gör bu aləm kim, nasıl dəryayi-xun olmuş.

Bulunmazmı əcəb zülmün sonu dünyayi-fanidə?
Sirişki-didəyi-millət nədən hərdəm füzun olmuş?

Həmiyyət görməz oldum firqəyi-islamda, heyfa,
Onun üçün rayəti-iqbalü nüsrət sərnigün olmuş.

Kimi sərbəst ikən dilşad əmrari-həyat eylər,
Qalıb qeydi-əsarətdə, kimi zarü zəbun olmuş.

Əcəb meydani-qeyrət ikən bu aləm əhli-irfanə,
Neçün bilməm bu aləmlər bu günə vajgun olmuş?

ƏLİ RİCAİ DAİZADƏ
7 DEKABR 1910, № 8, səh.6

«ŞEYX ŞAMİL»

1834-də Dağıstana hücum etmək üçün ruslar əsgəri Teymurxan Şuraya və Avariyanın Xuzax nöqtəsinə cəm etmişdilər (toplamışdılar). Əsgər general Fezenin təhti-komandasında keçilməz dağları barıt ilə dağıdıb, yollar açaraq irəliləyirdi. Bu zaman rus əsgərləri Avariyanı təhti-itaətə alıb, Aşılnu və Axilqu nöqtələrini tutmuşdular.

Axilquda Şamil möhkəm bir qala yapdırmışdı. Ancaq on bir həftəlik müharibədən sonra ruslar bu qalanı zəbt edə bilmişdilər. Bu müharibədə Şamil yaralanmışsa da, yenə qaça bilmişdi. Bu müharibədə Şamilin qoşunundan ölən və əsir olan çox olmuşdur. Ruslardan 500 nəfər ölüb, 2416 nəfəri yaralanmışdır. Bu cümlədən 23 zabit ölmüşdür. Bu zaman yaxın kəndlərdən bir çoxu öz rizaları ilə (razılıqları ilə) Rusiyanın təhti-itaətinə daxil olmuşdular.

General Qrabiya Avariyanın İqali kəndinin ya-

nında dağıstanlılara hücum etmişsə də, məğlub olmuşdu. Bu vaxt Şamil fürsəti fövt etməyib, Avariyanı təhti-idarəsinə almışdı.

1843-də Şamil Şamxal yerlərini zəbt edib, Teymurxan Şuraya qədər təğərrüb etmişdi. Bu ildə ruslara çox zərər dəymişdi. Şamil bunlardan 35 top zəbt etmişdi.

Ruslar bu növ müharibədə bir mənfəət görməyib, layihəni dəyişdilər. Ruslar 1841-ci sənədə Labin qalasını, 1845-də Sunjin qalasını zəbt etdilər. Bu qalaların zəbti ruslara dağlılar ilə etdikləri müharibələrdə çox kömək etmişdir.

1849-da bir müharibədən sonra Çox nöqtəsini almışlar. 1857-ci ildə ruslar Didov, Anqratel, Ansux və Qapıçı nöqtələrini almışlar. 1858-ci sənədə çeçenlərin çox hissəsi ruslara tabe olmuşdur. Bu qanlı münaziələr Baryatinskinin zamanında qət olunmuşdur (dayandırılmışdır). Bu zaman ruslar ləzgiləri Qonib qalasına yığışdırmışdılar. Bu qala qayət mərtəbədə möhkəm, güc və zor ilə alınmaz bir qala idi. Ruslar bir çox müddət bu qalanı mühasirə edib, axırda qəyur və rəşid Şeyx Şamili təslim olmağa məcbur etmişdilər.

Baryatinski Şeyx Şamili çox ehtiram ilə qəbul edib, imparatorun əmri ilə Peterburqa göndərmişdi. Peterburqda imparator Şeyxə çox hörmətlər etmişdir.

Şeyx Şamil həzrətləri Peterburqdan Qaluqa şəhərinə və buradan Kiyev şəhərinə hicrət etmişdir. Burada bir il qalıb, sonra imparatordan izn alaraq Məkkəyi-mükərrimeyə getmişdir. Bir daha Rusiyaya

övdət etməmişdir.

1871-ci sənədə Mədinəyi-münəvvəridə vəfat etmişdir.

Bayratinskidən sonra sərdarlığa böyük knyaz Mixail Nikolayeviç təyin olunmuşdur. Bu vətən, millət yolunda can və malını dəriğ etməyərək 1862-ci sənədən 1881-ci sənəyə qədər çalışmışdır. Bunun zamanında bir çox edadi (orta) və ibtidai məktəblər açılıb, dəmiryol xətləri inşa olunmuşdur. Tiflis ilə Bakı və Batum arasındakı dəmiryol xətti dəxi bunun zamanında inşa olunmuşdur. Bu zat (şəxs) Tiflisdə muzeyxana, musiqi məktəbi, xəstəxana, heyvanlara himayəedici cəmiyyət, islam idarəyi-ruhaniyyəsi təsis etmişdir. Qafqazlılar bunu çox sevirdi. Binən ileyh (buna görə) istefa verib Tiflisdən Peterburqa gedərkən qafqazlılar onu gözyaşı ilə yola salmışdılar.

Mixail Nikolayeviçdən sonra Qafqazda sərdarlar ixtiyari-küll sahibi olaraq hökumət edirdilər.

Bundan sonra Qafqazda Dundukov – Karsakov baş vali təyin olunub, 1881-ci ildən 1890-cı ilə qədər baş valilik etmişdir.

Dundukovdan sonra Şeremetyev təyin olunub, 1890-cı sənədən 1897-ci iləd̆ək baş vali olmuşdur.

Şeremetyevdən sonra knyaz Qalitsin təyin olunmuşdur. Şeremetyev və Qalitsinin zamanında Stavropol şəhərinə, Yekatrinodara, Petrovskiyə, Dərbəndə, Qarsa, İrəvana, Culfaya dəmiryol xətləri çəkilmişdir.

Qalitsindən sonra Voronsov-Daşkov həzrətləri təyin olunmuşdur. Bu halda (hal-hazırda) Qafqazın

sərdarı bu zatdır.

QAFQAZ COĞRAFİYASINDAN
7 DEKABR 1910, № 8, səh. 7

= SON BAHAR =

Nə oldu dürlü çiçəklərin, a çəmən?
Güllərindən dəmət yapdım mən.
Niyə solğun baxırsan? Ah! Elə...
Soldunmu həp çiçəklərin? Söylə!
Susdu bülbüllərin nədən? Orman,
Pozdumu ittifaqını şu xəzan?
Niyə solğun durur şu əşcarın?
Həp qapanmış dumanla kühsarın.
Şu xəzandanmı oldunuz bərbad?
Səbr edin, ah! Etməyin fəryad.
Ağlamazsa bulud, gülərmi çəmən?
Ağlamazsa çocuq, bulurmu ləbən?
Həp mətanətlə bir zaman dayanın,
Inanın, siz də mən kimi inanın!
Məhv olur qar, bura günəş də doğar,
Yetişir qırmızı sevimli bahar.
Ah! Mən son baharı pək sevirəm,
Sevirəm, son baharı pək sevirəm.

A.ŞAİQ

7 DEKABR 1910, № 8, səh.8

EŞİDƏNƏ.

Nar bir gülzar olur, gülzar ruhani olur,
Gər ölərsəm həmnişin duzəxdə əhli-hal ilə.
Heyf ki, cənnət dəxi bir daimi duzəx olur,
Gər ölərsəm həmnişin cənnətdə əhli-qal ilə.

Ə.P.

7 DEKABR 1910, № 8, səh. 8

= MƏKTƏB =

MƏSƏLƏ – 1

Bu gün 1910 sənəsi dekabrın yeddincisi seşənbə (çərşənbə axşamı) günüdür. Bundan tamam iyirmi sənə sonra dekabr ayının on yeddi gününün adı nə olacaqdır?

Bu məsələni qaidəyi-məxsusilə həll etmək və izahat ilə idarəmizə göndərmək mətlubdur. Mükafatı üç aylıq abunədir.

MƏSƏLƏ – 2

Bir dəstə quş bir ağacın budaqlarına cüt-cüt qonmuşlar. Bir budaq boş qalmış. Yenə o dəstə quş yenə o ağacın budaqlarına tək-tək qonmuş, bir quş

açıqda qalmış. Əcəba, neçə quş və neçə budaq varmış?

Bunun mükafatı bir aylıq abunədir.

7 DEKABR 1910, № 8, səh.8

«FÜYUZAT»A ABUNƏ OLAN ZƏVAT

1) Nəsrulla Şeyxov, Culfa;
2) Mirzə Xəlil Qazıbəyov, Culfa;
3) Səttar Zeynalabdinov, Culfa;
4) Hüseyn Rəhimov, Culfa;
5) Abdulla Şeyxov, Culfa;
6) Əliqulu Nəcəfov, Culfa;
7) Əbdülqəni Niyazov, Hacıtərxan;
8) Nemətulla Vahabov, Yekatrinburq;
9) Məmmədəmin Məmmədcanov, Xoqənd;
10) Ağa Bünyadov, Balaxanı;
11) Məmmədhəsən Adıgözəlov, Balaxanı;
12) Abihüseyn Məmmədov, Balaxanı;
13) Hüseyn Cabbarov, Balaxanı;
14) Əsəd Məhərrəmov, Balaxanı.

7 DEKABR 1910, № 8, səh. 8

«YENİ FÜYUZAT»

№ 9

14 DEKABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «**FÜYUZAT**».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür surəti-əqli əsərində.

HÜSEYN HİLMİ PAŞA

Hükamati-islamiyyə ricalında iki sifətə çox nadir təsadüf olunur. Biri namus, digəri fəaliyyət.

İştə rəsmini gördüyümüz Hüseyn Hilmi Paşa həzrətləri bütün müddət xədəmatında bu iki sifəti daşımış Osmanlı ricali-hökümətindəndlir ki, məşrutiy-yəti-Osmaniyyənin ən qorxunc, məhaliki-siyasiyyə içində yuvarlandığı vaxt sədriəzəm olmuş və iki sənə sədarətində bir çox məsayili-daxiliyyə və xariciyyəni vətənin mənafeyinə müvafiq surətdə həll etmişdir. Biləxərə, fərti-iştiğalin verdiyi yorğunluqdan naşi istirahət etmək üzrə istefa etmişdir.

Əlan məclisi-əyan əzasındandır.

Səh.1

SİYASİ
OSMANLI XULİQANI

Mabəd

«Əhməd Rza bəy Anadoluya səyahət etdiyi əsnada İzmir vilayətinə dəxi uğradı.

Təbii, doğrudan-doğruya «Ittihad və tərəqqi» klubuna getdi. Orada bir nitq irad etdi.

Məşrutiyyəti – Osmaniyyə müdiri-siyasisi Şərif Paşa bu sözlərdən sonra Əhməd Rza bəyin söylədiyi nitq ilə istehza etməyə başlayır.

Əvvəla, Əhməd Rza bəyin nitqini görəlim. Baxalım, bu zat nitqində istehzaya mövcib olacaq bir şey demişdir?

İştə nitq:

«Hakimiyyəti-milliyyə toplara istinad etməyə möhtac deyildir.

Əgər maarif olmazsa... əgər ticarət, ziraət gözdən buraxılmışsa, hakimiyyəti-milliyyə bir para etməz.

Qılınc ancaq son çarəsizlik zamanında çəkilir. Hakimiyyəti-milliyyə yalnız mədəniyyətə doğru tərəqqi sayəsində təcəlli edər.

Bu halda milləti təlim və tərbiyə ediniz. Onlara çalışmağı öyrədiniz. Onları qəvaidi-əsasiyyədən xəbərdar ediniz!»

İştə Osmanlı Məclisi-məbusan rəisi Əhməd Rza bəyin nitqi budur.

Şimdi insaf ilə düşünəlim. Bu nitqdə söylənilən sözlərin hankısı istehzaya layiqdir? Milləti təlim və tərbiyə etmək, onlara çalışmağı öyrətmək, «Qılınc ən dar zamanda çəkilir» kimi bir millətə, bir dövlətə çarəsiz qalmadıqca sülh və səlahi ixlala təşəbbüs etməməsini ixtar eləmək Şərif Paşanın nədən istehzasını mövcib olur? Bunu anlamırız.

Qərəzkarlığın da bir yolu, bir dərəcəsi olur.

Şərif Paşa öz qarelərini nə qədər kəmidrak hesab edir ki, Əhməd Rza bəyin bu nitqini yazdığı bir neçə sətir istehza ilə qiyməti-həqiqiyyəsindən düşəcək zənn edir.

Türkiyədə dava gurultuları olduğu bir sırada Əhməd Rza bəyin etdiyi bu nitqi-sülh pərvərani Şərif Paşa «Təbil və zurna gurultuları arasında bir flaveta» səsinə təşbih edir, bizcə, bunun əksi doğrudur. Əsl «Məşrutiyyəti-Osmaniyyə» məcmuəsinin bu istehzası Əhməd Rza bəyin nitqinə edilən alqışlar arasında bir flaveta səsinə bənzər.

İnsaniyyət insaf ilə mütəsəfdir. Əhməd Rza bəy kimi Vətən fədakarları heç olmazsa Şərif Paşa kimilərin təcavüzündən azadə olmalıdır.

Şərif Paşa və əmsalı (tayları) məzhəb, mürəssə saraylarda, Avropanın ən mütənəttin (təntənəli) paytaxtlarında Əbdülhəmidin beyt-ülmalı soyaraq saçdığı ehsanlar ilə zövq və səfa edərkən Əhməd Rza bəy və əmsalı hər növ məşaq və müsibətə təhəmmül ilə vətənin sabah-salahını gözləyirdi.

Vətəni – Osmaninin xilası üçün Avropaya qaçan pək çox jon türkləri Əbdülhəmidin ehsanları qəbuli-irtidada İstanbula övdət etməyə məcbur edərkən Əbdülhəmidi ancaq Əhməd Rza bəyin səbatı məyus edirdi.

Bütün dünya bilir ki, Əhməd Rza Əbdülhəmidin neçə dəfə etdiyi neçə minlərlə ehsanları kamali-mətanətlə rədd etmişdir. İyirmi sənə içində iqbal, min dəfə Əhməd Rza bəyin ayaqlarına düşdüyü halda Əhməd Rza bəydən iltifat yerinə təhqir görmüşdür.

Etmədim iqbal dilcuyi-zəmanə iltifat,
Taleimdən gördüyüm min iltifatın rəğminə!
Fehvayi-dəliranəsincə müşarileyh bütün vətən-

pərvərani – Osmaniyə bir səbat və mətanəti-əxlaq göstərmişdir.

Baxalım, Şərif Paşa bu millətə nə göstərmişdir?

Əhməd Rza bəyin nitqi ilə istehza edən Əbdülhəmid paşası bu millətə nasıl bir mazisi ilə xitab etməyə cürət edir?

Heç kimsə iddia edəməz ki, Əhməd Rza bəy, yaxud «İttihad və tərəqqi» komitəsi layəxtidir. Yəni heç bir xətada bulunmamışdır və bulunmaz deməz. Belə bir sifət Allaha məxsusdur. Lakin belə bir xəta olmuşsa bu xəta ictihaddadır. İctihadda xəta xiyanət deyildir. Bəlkə xəyanət vətəni salamata çıxaran bir firqəyi-fazirəyə qərəzkarlıq eləməkdir.

Bunu heç birimiz inkar edəməyiz ki, Əbdülhəmid kimi bir bəlanı başımızdan «İttihad və tərəqqi» firqəsi atdı. Bugünkü hürriyyətin sahibi İştə bu firqədir. Və bu gün hökuməti – Osmaniyyəni də bu firqə idarə edir.

Bilfərz deyəlim ki, bu gün bu firqə hökuməti idarə edəmir. Bu firqənin idarəsindən məmləkətimiz zərər görür. Bu firqə nə qədər idarəsiz olsa, bu firqənin idarəsindən məmləkət nə qədər zərər görsə, Əbdülhəmidin dövrü qədər idarəsiz olmaz. Məmləkətimiz ondan gördüyü zərərdən ziyadə zərər görməz.

Şimdi Şərif Paşadan sorarız.

- Paşa! Parisə nə üçün getdiniz?

«Ittihad və tərəqqi» firqəsi məmləkəti idarə edəmədiyi üçünmü?

Bu idarə Əbdülhəmidin idarəsindən də zərər-

limidir?

Dövləti – Osmaniyyə təqsim təhlükələri içində yuvarlanarkən siz nə yapırdınız? O zaman nə üçün Avropaya təşrif etmədiniz? Vaqiən siz də o zamanlar Avropaya çıxdınız, lakin Əbdülhəmidin o zaman casusluqdan başqa bir mahiyyəti olmayan səfiri sifəti ilə, millətin dul qadınlarından, yetim çocuqlarından çalınan maaşları ballarda, konsertlərdə yemək niyyəti ilə çıxdınız.

Gənc, oxumuş, sərvətli bir paşa olduğunuz və dövlətin batdığını bildiyiniz halda Vətən üçün Avropada min zərurət və səfalətlə çalışan hankı bir vətəndaşınıza, hankı bir cəmiyyətə bir para ehsan və müavinət etdiniz? Bütün Vətəni – Osmani ağlarkən siz gülürdünüz. Şimdi milləti – Osmaniyyə gülür. Siz nə üçün ağlayırsınız?

Lakin bu gün Əbdülhəmid də sizin kimi ağlayır. Deyilmi, Paşa?

ƏHMƏD KAMAL

14 DEKABR1910, № 9, səh. 2-4

= ERKƏKLƏR VƏ QADINLAR =

= 2 =

MƏHƏBBƏTİ – MÜQƏDDƏSƏ

Dünyada hər bir şeyin vücudpəriz olmasına səbəb hətta bütün cahanımızın əsası məhəbbət

olduğunu söylədik.

Şu məhəbbətlərin əsası və onların möhkəm olan binası tədqiq olunarsa, bir erkək ilə bir qadının ictimasına səbəb olan məhəbbət olduğu berəyül-eyn (göz görməklə) müşahidə olunar. Zira şu ictimaya səbəbiyyət göstərən məhəbbətdən bütün digər məhəbbətlər təvəllüd edər (törəyər). Bu yoldan insanlar övladını sevər. Övlad ata və analarına və onların ətrafında olan mənsublarına məhəbbət edər. Bü təriqlə erkək və qadın bir-birilərinin xiş (qohum) və əqrabalarına mənus olar. Millət və vətənlərini sevməyə başlar. Get – gedə cəmiyyətlərə və hətta bütün bəşəriyyətə şu məhəbbət əksəndaz olar. Cəmiyyətlər ülum və maarif məsaisində bulunar, qism-qism sənaət və ticarət yolları açılar və dünyada hər növ ixtiraat və mənafeyi-bəşəriyyəyə dair ümura qeyrət və məsai bu yoldan sərf olunar. Iştə şu zəhəmata mütəhəmmil olmağa səbəbiyyət göstərən məhəbbətlərin əsası bir erkək ilə bir qadının ictimasına səbəb olan məhəbbətdən başqa bir şey olmadığı, zənnimcə, qabili-inkar olamaz. Zira bəşəriyyətdə mövcud olan əfkar kimi bəşəriyyətin kəndisinin də bu yoldan nəşət etməsi bədihiyyatdandır.

Demək ki, bir erkək bir qadını sevmək və ya erkəyə məhəbbət yetirmək bəşəriyyətin birinci səadəti və cəmiyyətin əs əsası ədd olunmaq gərəkdir.

Şu qadınla erkəyin məhəbbəti nə dərəcədə saf, nə dərəcədə müqəddəs və nə mərtəbə səmimi və ciddi olarsa, o dərəcədə də bəşəriyyətə və bütün cəmiyyətə təbii hüsni-təsiri olacaqdır. Və şu məhəbbətin səmi-

miyyət və ciddiyyəti dərəcələri vasitəsi ilə hüsula gələn erkək ilə qadının ictimasından mütəşəkkil bulunan bəşəriyyət cəmiyyətlərində dəxi səmimiyyət və ciddiyyət mövcud ola biləcəkdir. Burada fəqət nəfsaniyyət hökm etməyəcəkdir. Şəxsiyyətə aid bir para mülahizələr meydan almayacaqdır. Əvət, idarəyi-məişət mələləri və cismaniyyətə aid əhval hökmran olmayacaqdır. Zira onlarda heç bir səmimiyyət və ciddiyyət mövcud olamaz. Etibaratın isə vücudları dəxi etibarı qalacaqdır. Daimi və həqiqi olan ruhaniyyət burada müstəqillən hökm sürə biləcəkdir. Bütün təqdis və ciddiyyətə dara olan (malik olan) ruhaniyyət şu məhəbbətin birinci əsası olması lazım gələcəkdir.

Əvət! Həqiqəti-hal belə olduğu halda insanlar etibariyyat, şəxsi mülahizat və ümuri-məişətlərində bulunan müşkilata düçar və giriftar olmaları ilə bərabər kəndi ictimalarında şu mülahizələr ilqa etməyə müvəffəq ola bilərlərmi sualına nə deyəcəyimiz qalır. Nə cavab verəlim?

Əvətmi deyəlim?

Əlbəttə, bu cavabın məqbul olması pək müşkildir.

Zira erkək bir qadın ilə ictima edərsə, şu qadının bütün ixtiyarati-bəşəriyyəsinə malik olmaq istər və ondan əmniyyətdə bulunmaq üçün şu qadıncığazın istiqlalını məhvə qalxışar. Mümkün olursa, məhbus bir halətdə yaşatmağa qeyrət edər. Qism-qism xəyalat qəlbinə xütur edər.

Qadın istiaətsiz olursa, bəlkə mənim dövlət və

sərvətim tamahına məni sevmiş, daha doğrusu, özümü deyil, sərvətimdən istifadə etmək imiş. Ya ki, məndən başqasını sevirsə və burada izharına cəsarət edəmir kimi düşüncələrə buraxır. Ələlxüsus qadının başqa bir erkək ilə mehriban rəftarını görüncə şu xəyalatı bir qat daha təzayüd etməklə tələşa uğrayır. Qadına olan hiss və məhəbbəti və ona dair əmniyyəti pozulur. Get-gedə məhəbbət azalır. Əksəriyyən məhəbbət əvəzində qadınına nisbətən büqz və ədavət də törəyir. Amma bu hal ilə əmrari-məişət etməyə məcbur qalır. Övladını düşünür. Qadına olan təəhhüdatını nəzərə gətirir, dürlü-dürlü mülahizələr ortaya çıxır. Maddiyyata dair müamilələr ortaya qədəmzən olunca şu ictimanın mənəviyyəti və ruhaniyyəti bütün-bütünə qaib olub, maddiyyat və etibaratdan ibarət qalır.

İştə belə qadın bir erkək ilə ictima etdikdən onun düşüncələri daha da ziyadədir. Zira onun istiqbalı, məişəti və bütün həyatı şərəf və heysiyyəti zövcinin çeğünəliyinə (necə olmasına) bağlıdır. Təzvir edərsə, bu düşüncələrin küllisi (hamısı) onun qəlbinə xütur etmək məcburiyyətindədir.

Qadın maddiyyat cəhətincə öz zəifini hiss edincə, birinci mərtəbədə maddiyyata ətfi-nəzər etməyə məcbur qalır.

Mabədi var.

AXUND YUSİF TALIBZADƏ

14 DEKABR 1910, № 9, səh. 4-5

= TƏHƏSSÜRAT =

ƏFV EDİN MƏNİ!

Könlümdə qaldı, ah, bütün arzularım,
Şimdi yetimlər kimi mən iştə ağlarım.

Mazi, o qönçəzar xəyalat soldumu?
Ey sevdiyim, bu etdiyin insaf oldumu?

Sənsiz yaşarmı zənn edirsən sevən səni?
Ol dövrdə qoyma, ah, cüda eşqdən məni!

Sevmək həyatın ən əzəli bir lüzumudur,
Möhtac olan bu dərdə cahanın ümumidir.

Sevmək, sevilmək iştə səadət bu haldır,
Lakin bu gün o hal mənimçün mahaldır.

Sən olmasan da dərdi-fəraqın mənimlədir,
Eşqin mənimlə, ah, mənim şivənimlədir.

Mən şairəm, mənə elədir ahi-tinətim,
Hicrana eşq bəstə bütün adəmiyyətim.

Şair nədir? Bilmirmisiniz? Bilməyirsiniz!
Zira sirişki-həsrətimi silməyirsiniz.

Şair odur ki, giryə ilə pərvəriş bulur,
Şair odur ki, xəndə ilə giryənak olur.

Şair odur ki, güşinə səslər verir müdam,
Bir pərdədar mütribə dilrüba xüram.

Şair odur ki, bilməyərək diryəza olur,
Məchul bir camala pərəstişnüma olur.

Şair odur ki, siz kimi bir dilpəsəndini,
Birdən atar, məzara atar kəndi-kəndini.

Başlar fəğanə, sonra bilincə günahını,
Mən şairəm, əvət dəliyəm, əvf edin məni!

ƏHMƏD KAMAL

14 DEKABR 1910, № 9, səh. 6

YUBİLEYLƏRİMİZ.
SÖZDÜR DEYİRƏM.

Biz bakılılar nə üçün bu qədər xoşbəxtiz? Yox! Nə üçün bədbəxtiz! Yox! Nə üçün eləyiz? Nə üçün beləyiz?

- Canım, əzizim! Xoşbəxtəm, bədbəxtəm! Şəksiz, məmləkətimi düşünənəm.

- Çox da düşündün. Nə olsun?

- Mən sizə məmləkətimi düşündüm, dedim. Nə olacağını demədim.

- Düşündün, düşündün, nə olsun axı?

Vallah, sizin düşünmənəniz bizim evimizi yıxır.

- Himməti-bəradər! Sizin eviniz söz eşitməməkdən yıxılır.Baxınız, on dəqiqədən bəri mən deyirəm ki, «Məmləkətimi düşündüm!» Hala siz nasıl düşündün deyib, iki dəqiqə məni eşitmək istəmirsiniz. Bax! Evimiz belə yıxılır.

- Qardaş, yür! Bacı yür! Ata yür! Əmi yür! Yoldaş yür! Yür! Yür! Yür!

Aşna, mən də oldum sənin kimi. Ya yox?

- Aşna, sən öləsən, çox qabil adam imişsən. Yarım saatda «yür»-ləri öyrəndin. Sabah da «Cığız»-ları öyrənərsən. Daha səndən əl çəkən deyiləm. Bərəkəlla bu istedadına! Sənə bir sözü iki demək lazım deyilmiş.

- Mən ölüm, düz deyirsən.

- Sən öləsən, məşədi! Qurban olum qabiliy-yətinə! Əgər məmləkətimizdə sən kimi bir hacı, iki kəlbəli, üç məşədi olsa, məmləkətimiz düzələrdi.

- Mən ölüm, düz deyirsən?

- Ay məşədi, duz, çörək haqqı sən çox qabil adamsan. Sən öləsən, biz bir şey qanmamışıq. Hələ bizi də qanan yox. Gör nə bədbəxtlik çöküb üstümüzə!

- Ay atamoğlu, sənin kimi insaflı adam rastıma gəlmir ki!

- Yaxşı! Söhbətimiz iki saat oldu. Bu söhbətdən razı qaldınızmı?

- Qaldım, atamoğlu. Amma bir iş daha var. O nədir ki, təzə bidət çıxıb məmləkətimizdə? Allah lənət etsin bidətçilərə!

- Nədir? Yenə yoldan çıxdın? Bidət nədir? Təzəsi nədir? Köhnəsi nədir?

- Ay balam, koğaz (kağız) gəldi. Mən elə bildim ki, Yuməlidir. Bəs mən necə təfavut qoyum Yuməli ilə Yumaliyə?

Evi yıxılsin, Kəlb Hüseyn dedi hələ elədir. Kəlb Hüseynə çox inanıram. Yüyürdüm, getdim. Gördüm ki, bu bizim Yumələliyə oxşamır. Mən dedim ki, məhərrəm gəlir. Əvvəla ki, biz ilə min üç yüz ildir yoldaşlıq eləyir. Bəlkə onun üçün bir yövm düzəldiblər. İstədim ki, dışarı çıxam.

Biri dedi:

- Məşədi, hara?

Dedim ki, yolu çaşmışam.

Dedi.

- Nə üçün?

Dedim ki, sözü qanmamışam.

Dedi ki; Hansı sözü qanmamısan?

Söz başımda o qədər şəkillərə girdi ki, mən özüm də tanıya bilmirəm.

- Ay məşədi, o söz «yubiley» olmasın?

- Hələ o zəhrimar!

- Ay məşədi, səni bu narahat eləyib?

- Bəli, bəli!

- Ay məşədi, nə üçün elə narahat olursan? Özün, şükür Allaha, qabil adamsan! Özün bir fikir ilə başa düşürsən!

- Necə, yəni?

- Bax! Mən deyim sən mənasını özün başa düş!

«Yubiley», yəni «yığ ey!»

- Allah atana rəhmət eləsin! Balam, indi başa düşdüm.

- Ay məşədi, bilsən bizim eşidənlərimiz zurnanı tərcümə edirlər. Mənasını yox!

- Balam, mabədi varmı?

- Ay məşədi, heç kəs sözü uzatmaq istəməz. Sözü uzatdıran qanacaqsızlıqdır. Bir məsəl vardır ki:

«Eşidənə milçək saz!
Eşitməyənə zurna az!»

Zurna, təbil səsi ilə dəxi ayılmayanlardan əl çəkmək də insafmı?

Yox, balam! Yox!

Ondan rüxsət verin, bunun «Mabədi» olsun!

Ə.P.

14 DEKABR 1910, № 9, səh. 6-7

= MƏŞRUBATİ – KÜLİYYƏ = (ALKOQOLLU IÇKILƏR)

Kürrəyi-ərzin hər bir yerində məşrubatın əlası sudur. Heyvanlar bu sudan başqa məşrubatı bilməzlər və içməzlər. İkin insanlar hər növ məşrubat icad etmişlər və bu icad etdiklərini dəxi qullanırlar ki, bunlara «raki, şərab, birə» deyilir. Bunlar da spirtli sudur. Bu spirtli suların bu vaxta qədər insanlara heç xeyir etmədiyini bütün kainat bilir. Xeyirdən maəda (başqa) həmişə insanı bəlalara düçar etdiyini də

bilirlər.

Bu məşrubati-küuliyyədə bir qüvvət vardır ki, o da spirtdir. İnsanı sərxoş edən də bu spirtdir. Bu spirtdə karbon çoxdur. Şüşəsini açıb bir kibrit (spiçka) göstərsən, kök bir şölə ilə yanar. Bunu insanlar acdıqları zaman nasıl yanarsa, içdikləri zaman da biçarələrin dərununda (içlərində) eləcə yanar. Və bu yanmasından hasil olan nəticə nədir? Bilirmisiniz? Mən sizə anladayım. Nasıl bir insan taam yedikdən sonra taamın üstündən bir portağal, yaxud nar yeyir ki, o taam tez həll etsin və mədəsi çox zəhmət çəkməsin. İştə təbəği insanların içdikləri bu spirtli şeylər də insanın içindəki şeyləri əridir və mədə boş yerə zəhmət çəkir. İnsanın içindəki şeyləri əridib insanı mövtə sövq edir.

İçki içən bir adamın həmişə əlləri-ayaqları titrər. Lisanı söz söyləməkdə səubət çəkər (çətinlik). Fikri-həzyana düçar və bir neçə saat sərxoş olub qalar. Sərxoşluqdan oyandığı zaman bədəni qırıq-qırıq, gözləri şişmiş bir halda bulunur. Sərxoş adamın nə hafizəsi, nə də ağlı mükəmməl olmaz. Insan özünü bu fəlakətə düçar etməməyə çalışmalıdır. Əgər bir insan həır gün içki içsə, axırda alışar. Alışdığı vaxt dəxi tərk edəməz. Tərk edəmədiyi üçün dəxi hər gün içər, axırda böyük bir əyyaş olar ki, bunun da axırı mövtun (ölümün) tez-tez gəlməsinə dəlalət edər.

İçkiyə mübtəla olan adam nəhayət alkoqolik olur. yəni bir dərəcəyə, bir vaxta gəlir ki, ondan sonra spirtsiz yaşayamaz. Bu hal vərasətlə onun övladına da

keçər. Və beləcə bu hal övladdan-övlada keçərək nəhayət biri-biri dalınca gələn övladlar xəstə olur. ömürləri azalır. Axırda o nəsil kəsilir.

İçkinin əxlaqa olan sui-təsirinə gəlincə bu cəhət ədna bir mülahizə ilə anlaşılır. İnsan içkili halında hər fənalığı yapar. Çünki o halda insanın beynində layiq ilə fikir və mülahizə edəcək qüvvət qalmaz. Fikir və mülahizə yerinə insana dəlicə bir cürət gəlir ki, bu cürət insanı hər bəlaya sövq edər.

Avropa üləməsı dünyada olan cənayətlərin, yəni oğurluq, qatillik kimi fəna halların bir statistikasını yapmışlar. Bu statistikada görülür ki, oğurluq və qətl kimi cinayətlərin yüzdə doxsanı içki ilə icra edilir.

Baxınız, sizə bir şey deyəyim. Insanın dünyada ən qiymətli şeyi nədir?

Ağılı, fikri deyilmi?

Şübhəsiz ki, bunlardır. Ən axmaq bir Adama milyonlarla para versəniz, yenə ağblını satmaz. İştə içki, bu xain, düşməni-insaniyyət sizin ən qiymətli olan və milyonlara satmadığınız ağlınızı çalır, fikrinizi əlinizdən alır. Daha belə bir düşmənə iltifat etmək dəlilik deyil, nədir?

Xüsusi ilə dünyada və axirətdə vasitəyi-nicatımız olan Qurani-Kərim bunu bizə mən edir (qadağan edir).

Bir zamandan bəri Avropada «Tərki-işirət» cəmiyyətləri yapırlar. Keçənlərdə İstanbulda dəxi belə bir cəmiyyət yapıldığını bir qəzetədə oxudum. Məət-təəssüf (təəssüflər olsun ki), məmləkətimiz cavanları

arasında bu bəlanın intişar etməkdə olduğunu görürəm. Binaən ileyh məmləkətimizdəki cəmiyyətlərdən biri bu məsələni də nəzəri-diqqətə alıb bir «Tərki-işirət» şöbəsi açsa, millətimizin istiqbalını böyük bir təhlükədən, bəladan mühafizə etmiş olur.Amerikada bəzi şəhərlər vardır ki, oraların əhalisi bilkülliyyə (tamami ilə) işrəti tərk etmişdilər. Hətta oralardan içki yüklü bir maşın belə keçməz.

Hasili, bu müsibətin çarəsini düşünmək millətimizin xeyrinə çalışanların ən mühüm vəzifələrindəndir.

BALAXANI: ƏLİ MİŞAN

14 DEKABR 1910, № 9, səh. 7-8

EŞİDƏNƏ:

MƏMMƏDƏLİYƏ

İntixab eyləsələr də yazın istefanı,
Bədi-ma dinləməyin etsə də min kərrə qəsəm!
Açdı sanma yenidən Məclisi-məbusanı.
Yenə top ağzına məbus arayır şahi-əcəm!

İSTANBUL . ƏŞRƏF

14 DEKABR 1910, № 9, səh. 8

«YENİ FÜYUZAT»

№ 10

21 DEKABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «**FÜYUZAT**».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində.

CAVAB

Bu həftə bir lisani-ədəbi ilə yazılmış məktub aldım. Məktub budur:

Ustadi-həqayiq istinadımız Əhməd Kamal bəy həzrətlərinə!

Həyati-feyzbəxşalarınız yetim islam tələbələri nəfinə olmağını cənabi-həqdən niyazməndanə arzu edirəm. Zati-alilərinin nəcabəti-fitriyyələrinə əmin olaraq müqəddəs «Yeni Füyuzat» məcmuəsinin 8-ci nömrəsinin ikinci səhifəsinin ikinci sütununun iyirmi birinci sətrində dərc buyurduqları «Nəyaşin» kəlməsini ki, nişanın cəmi-mükəssəri olur, hansı qaydaya mübtəni olaraq cəm bağlanmasının lütfən Füyuzatda izah və bəyanını acizanə istirham edib, əski Füyuzatda İrani-növ xətlərindən birinin «Şümərayi-atiyə» sözlərinə tənqid etmələrini yadavər oluram.

Şəhri – Nuxa, 15 kanuni – əvvəl 1910

Qafqaziya

TƏLMİZİ-NACİZİNİZ:
ƏHMƏD BAYRAMZADƏ

Oğlum!

«Nişan»ı «Nəyaşin» surətində cəmi-mükəssər (sınıq cəm forması) halına qoyan mən deyiləm. Ərəblər, ərəblərin üdəba (ədiblər) və şüərası o kəlməyi-münfəridəni (tək söz forması) çoxdan bu hala qoymuşlar. Kitablarında, qəzetələrində bu halda işlənməkdədir.

«Nişan» kəlməsinin cəmini «Nəyaşin» surətində öz dillərinə qəbul edən ərəblər olduqdan sonra sizə, yaxud mənə nə şəkk və tərəddüd düşür? Biz şimdiyə qədər özümüzə ərəb, yaxud farsın bir kəlməsini istədiyimiz kimi təsərrüfə iztiyar verməmişik. Lakin onların ərbabi-qələmi tərəfindən məzhəri-istemal olan kəlməni biz də bilərik.

Misirdə, yaxud başqa yerlərdə çıxan qəzetələrdə xidivin, yaxud padşahın tövcihatını, yəni kimə bir nişan, yaxud bir rütbə verildiyini yazan sütunun sərlövhəsi: «Rütəb və nəyaşin»-dir.

İştə sizə bir misal.

Bu misal Misirdə intişar edən məşhur «Əl-liva» qəzetəsinin müdir və sər mühərriri məşhur Mustafa Kamal Paşanın ayda bir dəfə nəşr etdiyi «Məcəllət ül-liva» namında 172 səhifəlik məcmuənin 26-cı səhifəsində «Əl-Qəzitan» sərlövhəli məqalənin birinci sətrindəndir. O sətr İştə bu parçadadır:

Hər millətin etimadi-ümumiyyəyə məzhər olmuş üdəba və şüərası o millətin dilində icad və təğyirə səlahiyyətdardır. Qaidətullah tərəfindən nazil olimuş deyildir. Zamanın hökm və nüfuzuna tabedir. Ərəb nişanı nəyaşin yapdığı kimi, milyonu da məlayin yapmışdır.

Mən Əhməd Kamalın «Nə üçün belə?» deməyə nə haqqım vardır? Lakin öz dilimin müsaidə etdiyi dairəyi-təsəvvüfü təcavuz edənlərə ixtarati-lazimədə bulunmaq bu dilin az-çox ərbabından bulunduğum üçün vəzifəmdir.

Halbuki «Nəyaşin» kəlməsi yerinə «Vəsamat» kəlməsi dəxi vardır. Və çox az vaxt «Ər-rütəb vəl-vəsamat»a dəxi təsadüf olunur. Lakin dediyim kimi çox az. «Nəyaşin»i, bu kəlməyə tərcih etdirən nişan kəlməsinin «Vəsamə» kəlməsindən əvvəl bir istilah olaraq lisani-rəsmidə təqərrür etməsidir.

Şimdi biz «Nişan» kəlməsini farsi və «Nəyaşin» kəlməsini də «Səda»-nin «Sazəc» və «Nəmudə»nin «Ünumuzəc» şəklində tərib edilməsi kimi bir kələmə-yi-müərrilə hökmündə tutub lisanımızda bipərva işlədə biliriz.

Bir də İrani-növ xətlərindən birinin «Şümarəyi-atiyə» tərkibini tənqid etdiyimi xatırlayırmışsınız.

Əvvəla, mətbuatda keçən münaqişati-qələmiy-yənin belə sənələr keçdiyi halda xatirinizdə qaldığına çox şad oldum. Lakin «Şümarəyi-atiyə»ni burada xatırlamamalıdınız. Çünki bu ona heç oxşamaz. Çünki farsidə təzkir və tənis yoxdur. Farsi bir mövsufun axırı nə olursa olsun, sifətə təsiri yoxdur. Farsın bu qaydasını biz də qəbul etmişik. Hətta bunu daha da tövsi edərək (genişləndirərək) mövsufi-ərəbi də olsa bu hal caizdir demişik.

Bu qayda ədəbiyyati-farsiyyədə sahibi-üsuq və etimad ərbabi-qələm tərəfindən təğyir edilincəyə qədər bu surətdə məri olacaqdır.

Sizə «Şumarəyi-atiyəyə» bənzəyən bir tərkibi-ərəbi göstərəyim. İştə:

Misirdə müntəşir «Əl-Müəyyid» qəzetəsinin 2 oktyabr 1904 tarixli nüsxəsinin «Əl-üstul ül-islami»

məqaləsinin birinci hissəsində.

İştə «Əl-inayət üş-şahaniyyə» ərəbcədə tamami ilə «Şumarəyi-atiyəyə» bənzər.

Ərəb qəzetələrində «Əl-inayət ül-mülukiyyə» tərkibinə də çox az yerdə təsadüf edərsiniz. Bunun da səbəbi şərqimizdə, yəni aləmi-islamda «Şahanə» sözünün mühərrərati-rəsmiyyədə «Mülkiyyə» sözünə mütəqəddimən qərargir olmasıdır. Yoxsa ərəb bu tərkibi qəvaidi-ərəbiyyəyə idxal etməmişdir. Ancaq belə rəsmi bir sözə münhəsirən cəvaz vermişdir.

Çünki rəsmi, ictimai, fənni... bəzi istilahat vardır ki, bunların qədəm və kisrəti-istemalları özlərinə bir xasiyyəti-mütləqə vermişdir. Bunların bəzilərini bəzi dillərə tərcüməyə müqtədir olsalar da, bu əlfaz mütərcümə əğyarını mane və əfradını came surətdə müsəmmanı ifadə üçün o xasiyyəti-mütləqəni iktisab etmək lazım gəlir ki, bu da müddəti-istemala möhtacdır.

İştə bu səbəblə həman hər dil bu kimi kökləşmiş bəzi istilahatı eyni ilə almışdır. Məsələn: «Baykot», «Yubiley» heç bir dildə tərcümə edilməmiş istilahatdandır. Binaən ileyh ərəbdə, farsda. Biz də bu kimi kəlmələri hər tərkibə soxa biliriz. Lakin bu istemal bu kəlmələrə məxsus olduğundan qaidəni ixlal edəməz. Yəni hər kəlməyi-əcnəbiyyə haqqında caiz olamaz.

Bu qədər kafidir zənn edirəm. Sualınıza hər halda məmnuniyyətlə cavab verdiyimə etimad edə biləsiniz, nuri-eynim!

ƏHMƏD KAMAL

21 DEKABR 1910, № 10, səh. 1-3

SİYASİ

«İTTİHAD VƏ TƏRƏQQİ» CƏMİYYƏTİ VƏ OSMANLI KABİNƏSİ VƏ KRİD MƏSƏLƏSİ

Şimdiyə qədər qəzetələr Krid xəbərlərini xarici xəbərlər arasında yazırdılar. Bu son günlərdə gələn əcnəbi qəzetələrində «Krid» əhvalının Türkiyə xəbərləri arasında yazıldığını gördük. O xəbər də budur:

«Dekabr:

Kriddə olan dörd dövlət ki, İngiltərə, Fransa, İtaliya, Rusiyadır, İstanbuldakı səfirlərinə birər nota göndərib deyirlər ki, Osmanlı dövlətinə xəbər veriniz ki, biz dörd dövlət Kridin padşahı Osmanlı sultanı olduğunu təsdiq etdik. Yəni Kriddə Türkiyə padşahının «Hüquqi-aliyyəsi» təbirini «Hüquq hökmdarı» ilə təbdil etdik.

Babi-ali Krid məclisi-millisi üçün heç fikir eləməsin. Kridin yunana əlavəsi üçün (birləşdirməsi) yapılan nümayişlər bizim bu qərarımıza təsir etməz.

Kridin idarəyi-müstəqbələsini təyin üçün də bir fürsət gözləyiriz».

İştə Krid məsələsi «İttihad və tərəqqi» komitəsi proqramı ilə həll olundu, deməkdir. Osmanlılar Kridi qazandılar. Çünki kabinə o proqramla təşəkkül etdi və o proqramla işlədi.

Bu firqənin əleyhində olmaq vətənin əleyhində olmaq deməkdir. Bunu da xatirdən çıxarmamalıdır ki,

Türkiyəyə bu saat ifrati-hürriyyət müzirdir. «İttihad və tərəqqi» firqəsinin ən böyük məziyyəti millətin psixolojusini bilərək etidal ilə hərəkət etməsidir.

Türkiyəni təşkil edən bütün millətlər sənələrcə hökm edən bir etiyadın məhkumudurlar. Bunları təkamülün qəvaidi-tədriciyyəsindən başqa yola gətirəcək bir vasitə olamaz.

Şimdiyə qədər bir neçə millətin qiyamı eşidilmişsə də, bu millətlərdən bir qismi hürriyyəti, təbdilihökuməti birdən-birə həzm edəməməkdən qiyam etmişdir. Bu qiyama da xilafi-tədric olaraq ruhunda təbii hasil olan üsyan səbəb olmuş, bir qismi də heç xəbəri olmadan Əbdülhəmid dövründə millət ağası ikən bu dövri-müqəddəsi-məşrutiyyətdə ağalıqdan düşənlərin iqfalatına qapılaraq qiyam etmişdir. Yoxsa bu qiyamların heç biri Məşrutiyyəti-Osmaniyyə əleyhində hesab olunmaq mahiyyətini haiz deyildir. Zavalı «Ittihad və tərəqqi» cəmiyyəti xaricən və daxilən belə bəlalar içində idarəyi-ümur edir.

İnsaf! İnsaf!

21 DEKABR 1910, № 10, səh. 3-4

= ERKƏK VƏ QADINLAR =

= 3 =

MƏHƏBBƏTİ-MÜQƏDDƏSİNİN TƏSVİRİ

(keçən nömrədən mabədi)

Məsələni bilətraf (ətraflı) mülahizə edincə təzəvvüc etdiyi zövcini nəyə dair sevdiyini bilməkdə kəndisi

də mətəl qalır. Bu surətlə mənəsi və səmimi məhəbbət itib gedir. Ortadan ciddiyyət qalxır. Fəqət maddiyyata və imrari-məişətə dair bir tağım əfkari-vəximə meydangir olur[1].

Bu vəchlə, aya, şu cahaniyana müqəddəs hesab olunan həqiqi və səmimi məhəbbət üçün bir yer qalırmı?

Əlbəttə, yox - cavabına məcburuz.

Erkək ilə qadının ictimasına birinci və bəluə axırıncı olaraq səbəbiyyət göstərən və bir yerdə yaşamalarına vəsilə olan məhəbbəti-müqəddəsə olduğunu dərxatir etdik (yada saldıq). İndi də onun davamını nə surətdə mümkün olduğuna və nə vəchlə şu məhəbbəti-müqəddəsə kəndi halında bağı qalıb, bəzi etibarat ilə müfəvvəs olmamasına dair iradi-kəlam etmək istəyiriz.

Bir erkək bir qadın ilə yaşayırsa, fəqət məhəbbəti-səmimə üzrə yaşadığına və belə biləks (əksinə), bir qadın bir erkək ilə ictima edərsə, əsası yenə o məhəbbəti-müqəddəsə olduğuna və onların ictimaları başqa bir əsasa mübtəni olmadığına ciddi surətdə etiqad və qənaəti-kamilə hasil etmələri icab edər.

İşbu məsələlərimizi heyzi-vücuda gətirmək təsviri üçün yollar aramalıyız. Aramızda vücudu mədum bulunan şu əsasın xəyalı təsvirinin hər kəsə müşkil bir surətdə və mümtəne bir halda görünəcəyini düşünürüz. Biz isə məsələnin həllində aramızda möv-

---

[1] Təzəvvücün bir nümunəsini bəyan etdik. Başqa qism dürlü-dürlü əfkara məbni təzəvvüclərin keyfiyyəti-halı buna qiyas olunmalıdır. Səmimi bir məhəbbətə müstənəd olmayan təzəvvüclər ümumən bu qəbildən ədd olunmaq gərəkdir.

cud bulunan bütün rüsumat və adatımızı xatirdən dəxi unudub, məsələmizin təsviri üçün islamiyyətin ruhu dairəsində mövcud olan yolları iraə (təqdim) və məişəti-bəşəriyyəyə tətbiq etmək səy edəcəyiz. Ona binaən də;

Əvvələn, zövci (ər) və zövcənin (arvadın) bəşəriyyət aləmində əhəmiyyətləri, vəzifələri və vəzifələrini ifa etmələri;

2) Şu erkək ilə qadından təşkil olunan cəmiyyət əfradının əxlaq, təlim və tərbiyəsi;

3) Cəmiyyət ilə əfradının mərbutiyyət və əlaqəsi;

4) Əfradi-cəmiyyət olan erkək ilə qadının maddi cəhətdən təmi-əhvalı;

5) Cəmiyyətin kəndisinin təmini;

6) Erkək ilə qadından təvəllüd etməkdə olan övladın nə vəchlə və nə surətlə tərbiyə və təlimi və təmini-istiqbalı;

7) Erkək ilə qadının aralarında icra olunan nikahın təriq və minvalı;

8) Bu vəchlə təşkil olunan cəmiyyətin və onun əfradının əhəmiyyəti və hüsula gələn nətayici və şu məhəbbəti-səmimiyyənin bunların arasında surəti-idamə və keyfiyyəti-ibqası;

9) Belə bir cəmiyyətin imkani-təşkil və məişəti-bəşəriyyəyə tətbiqi;

10) Şu surətdə təşkil olunan cəmiyyətin halhazırda mövcud bulunan bəşəriyyət cəmiyyətləri ilə təfavüt və müqayisəsi.

İşbu maddələrin hər birisi xüsusi bir məbhəs

olaraq tədqiq və bilətraf mülahizə və bəyan ediləcəkdir.

Mövqeyi-müzakirəyə vəz etdiyimiz şu məhəbbəti-səmimiyyəyə fəqət mənəviyyatdan ibarət olduğu kimi, fövqdə (yuxarıda) dərc olunmuş, bəzi maddələri isə ancaq maddiyyata aid məsayildir.

Mənəviyyat ilə maddiyyat başqa bir lisanla (idiolizma) ilə (materializma) yekdigərlərinə mübayin və mütəzad məsayildən olduğuna məbni birinci ruha aid, ikincisi isə cismaniyyətə mütəəlliq əmrlərdən məhsubdur.

Bəşəriyyət kəndi mübarizəyi-həyatında cismaniyyət təqazası üzrə maddiyyatdan kəndisini xilas edəməyəcəyini də görürüz. Bununla bərabər, ruhi- bəşəriyyətin fəqət mənəviyyat ilə qaim olduğunu zəruriyyat və bədihiyyatdan əd edərək (hesab edərək) birinci ilə qani olan cismaniyyət yaşaya bilirsə də, ikinci ilə də daimi olan ruhi-insanı həyat bulur və onunla yaşar və onunla əlaqədar ola bilər.

Birincinin təsiri müvəqqəti və etibarlı olduğu kimi, ikincinin əsərinin isə həqiqi və daimi olduğu qabili-inkar deyildir. O cəhətdən təhqiq üzrə mənəviyyata nail olmaq üçün maddiyyatdan sərfi-nəzər etmək icab edər.

Mənəviyyata bir daha maddiyyat qarışarsa, ortalıqdan həqiqət, səmimiyyət və daimiyyət qalxar və bəlkə də ictimayi-mütəzadin və nəqizin lazım gəlir. Maddiyyat nəzərə cilvə edərsə, mənəviyyat ortadan qalxdığı kimi, biləks, mənəviyyat meydangir olmaqla maddiyyatın təhti-xifada (gizlin) qalmasını icab edər.

Müzakirəsinin sədədində bulunduğumuz şu məhəbbəti-müqəddəsə və səmimiyyə bütün-bütünə ruha Aid mənəviyyatdan bulunduğu münasibətlə onun vücudpəzir olmasında maddiyyatdan təcərrüd lüzumunu dərmiyan edərək maddiyyata dair mübtəlaya olan maddələrin rəfi-ehtiyacı barəsində sərfi-məsai ediriz.

Bəşəriyyətin həyati – rahiyyələri mənəviyyat ilə qaim ola bilməsi üçün şu bəşəriyyətin imrari-məişət və mübarizəyi-həyatiyyələrində maddiyyata dair hiss olunan ehtiyaclarını təmin etmək uğrunda məsai göstərilir.

Ona binaən də maddiyyata aid olan şu məsayilin bir qismini xüsusi məbhəslər üzrə fövqdə dərc olunmuş tərtib ilə həll və tədqiq olunmasına qərar verildi. Və birinci mərtəbədə (növbədə) zövc və zövcənin, erkək ilə qadının bəşəriyyət aləmində əhəmiyyəti, vəzifəsi və vəzifələrini nasıl ifa edə bilmələri bəyan və məlum etmək ehtiyacı hiss olunduğu üçün birinci məbhəsimiz şu məsələnin həlli olacaqdır.

Mabədi var.

AXUND YUSİF TALIBZADƏ.

21 DEKABR 1910, № 10, səh. 4, 6

X X X

Rəhbəri-hürriyyət və sərfərazani – əhrari-ümmət mərhum Namiq Kamal bəy ilə Hikmət əfəndinin dövri-istibdaddaVətən haqqındarəva görülən hərəkati-müstəbidanənin təsiri-cangüdaz ilə müştərikən bədahətən inşad etdikləri

«VƏTƏN MƏNZUMƏSİ»

Ah! Yaxdıq şu mübarək vətənin hər yerini,
Saçdıq əflakə qədər dudunu, atəşlərini,
Qapadı gözdə olanlar çıxacaq gözlərini,
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Kəndimizdən nədən olduq bu qədər ta məyus,
Gedəlim dadına Allah üçün əhli-namus,
Söndü şəmi-əməl, İştə qırıldı fanus.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Vardı ta Kəbəyə zəmzəmi-xunab axır,
Göydəki ruhi-şəhidanı bu həsrət yaxır,
Yenə ərbab hava seyrinə çıxmış baxır.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Sərilib xaki-həqarətdə Vətən can verir,
Yetişin, son nəfəsimdir, gəlin imdadə deyir,
Sevgili validəmiz aqibət əldən gedir.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Bu Vətəndir dağıdan aləmə elmü ədəbi,
Bundadır Beyti-hərəm, məscidi-Əqsayi-nəbi,
Nə bəla çəkdinsə həp bu Vətəndir səbəbi.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Vətəni çeynədi, keçdi vətənin əğyarı,
Mərhəmət qaldı sənə iki cahan xənkarı,
Gedir, sevgili Quranı hifz et bari!
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Düşünün dövri-zühurundakı şanlı dəmini,
Doldururkən şühədası bu fəna aləmini,
Tutacaq bir çocuğu qaldımı matəmini?
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

21 DEKABR 1910, №10, səh. 5

= TƏHƏYYÜR =

Ətrafı tutan qovqa,
Bir zülmi-dəmadəmdir.
Bir bəhri-bəladır kim,
Hər qətrəsi bir qəmdir.
Heyhat yaratmaqdan,
Sevdası nədir bilməm?

x x x

Deyirsən ki, mənəm adil,
Ədlində dayan möhkəm.
Ta hürr ola dünyada,
Xəlq eylədiyin adəm.
Bunca bu zəruratın,
Mənası nədir bilməm?

x x x

Mahiyyətini bildin,
Varmı daha bir hikmət?
Bilməm nəyə xar olmuş,
Bu aləmi-ünsiyyət?
Röyasa gər dünya,
Fərdası nədir bilməm.

x x x

Hər guşədə min zalım,
Zülm etməyə amadə.
Məzlum ki, pabəstə,
Xunxarlər azadə.
Bu zülm ilə dünyanın,
Əxrası nədir bilməm.

x x X

Firona bu günlərdə,
Təqlid edir insan.
Bir belə fənalıqdan,
Hətta utanır şeytan.
Həqqin bu sükunətində,
Xülyası nədir bilməm?

x x x

Mən Kərbibəlaya,
Baxdıqca verər heyrət.
Həqq batil olub nahəqq,
Göstərmədədir sitvət.
Şümrün də, Yezidin də,
Qövqası nədir, bilməm.

ƏLİ PAŞA

21 DEKABR 1910, № 10, səh. 7

EŞİDƏNƏ:
ƏŞRƏF DEYİR Kİ;

Bir zaman şeyxi-huda püfləsə bir ağıza əgər,
O, da bir şeyx olub başlar idi ecazə.
Yenə bir başqasımı çıxdı Stanbulda əcəb,
Hər gedən şair olub, övdət edə Qafqazə.

Ə.P.

21 DEKABR 1910, № 10, səh. 7

TƏRACÜMİ – ƏHVAL

PUŞKİN MEYDANI – ƏDƏBİYYATA ÇIXIR

Doqquz yaşı keçdikdən sonra Puşkin yenə bir növ inqilabati-təbiyyəyə düşür. Bu dəfə qiraət, mütaliəyə artıq dərəcədə şövq və həvəs izhar edir. Əvayildən (ilk növbədən) şəkilli Plutarxa və Homeradan başlayıb, sonradan fransız təsnifatını (əsərlərini) mütaliəyə başlayır. Bu halda Sergeyeviçin evindəki kitabxanadan (Aleksandr Sergeyeviç) çox ziyadə istifadə edir. Bəzi övqat Puşkin qiraətə o dərəcədə məftun olur ki, hətta gecələri də kitabxanadan çıxmayırmış. Qiraətdən başqa Sergeyeviçin evində təşkil edilmiş olan fənni, ədəbi və siyasi üdəba mübahisə və münaqişələri də cavan Puşkinin tövsiyi-fəzl və kamalına artıq dərəcədə bais olurmuş.

Sergeyeviçin ev səhnəsində mövqeyi-tamaşaya qoyulan məzhəkə və komediyalar cavan Puşkini o qədər həvəsləndirmiş ki, 10-11 yaşında olan Puşkin müsənniflik, komediyanəvislik şövqinə düşmüşdür. Səhnədə artistlik etməkdə məzkurun (onun) həmşirəsi də (bacısı da) ona kömək etmişdir. On iki yaşında Puşkinin məşhur bir pyesi fransız lisanında mövqeyi-tamaşaya qoyulmuşdur. Fəqət bu komediyanın əksər yerləri Molyerdən iqtibas olunmuşdur.

Puşkin əyyami-şəbabətindən (gəncliyindən) fransız lisanına aşiq olduğu üçün ədəbiyyat və şeir nümunələri də təmamən fransız lisanında olmuşdur. Bu

halda gənc ədibin əhval və xasiyyətində yenə böyük təğyirat və təbəddülat zühur etmiş. Mürəbbi və müəllimlərinin səy və tələşlarına rəğmən Puşkində inad, hirs və vəhşət kimi xasiyyətlər müşahidə olunmuşdur. Bundan naşi (buna görə də) valideyni də Puşkini evdən çıxarıb bir məzbut və bağlı məktəbə buraxmaq fikirinə düşürlər.

Sergey Levoviçin bu fikrinə də Peterburqda «Sdesknelski litsey»in güşadı (açılışı) təsadüf etmiş.

1811-ci sənəsində o mədrəsəyi-aliyyənin otuz nəfər tələbəsindən birisi də Aleksandr Sergeyeviç Puşkin olmuşdur. Şu mədrəsənin (məktəbin) daxili nizam və qanunları sairlərinə nisbətən xüsusi bir müntəzəm proqramm olduğundan mədrəsə nəzarətinə ən məşhur professorlar və bərgüzidə (seçilmiş) alimlər cəlb olunmuşdur. O cümlədən; Kunitsin, Qartsov, Faliç və sair məşhuri-əsr olan alimlər mədrəsəyə cəlb olundular. Lakin mədrəsənin müdiri Malinovskinin vəfatından sonra mədrəsənin əski (köhnə) təntənəli nizam və qaydaları dəyişdi. Müəllimlər öz vəzifələrində rəsmiyyət göstərib, mədrəsə əski səlabət və şöhrətini qaib edirdi.

Təbiətən şərir olan Puşkin də sair tələbələr ilə mədrəsənin bu müşəvvəş halından istifadə edərək qulluqçuları ilə qorniçnalar ilə «eşqbazlıq» etməyə məşğul oldu. Bəzi işsiz sərsərilərə yoldaş olub təhsilində artıq bətalət və kəhalət göstərdi. İkmali-təhsildə aldığı şəhadətnaməsində rus lisanında mütəvəssit (orta) dərəcəyə şayistə oldu.

Puşkin öz «Məktəb xatiratında» məktəbin şu halını anarşiya (anarxiya) dövrəsi adlandırmışdır. Məktəbdə olan ədəmi-qanuniyyət (qanunsuzluq) və intizamdan (intizamsızlıqdan) istifadə edərək öz vəzifəyi-müqəddəsələrini unudub sair ictimai və siyasi işlərə də mübadirət etdilər. Tələbələr darülfünun civarında olan «Leyb qusar» alayının gənc zabitləri ilə müaşirətdə bulunduqlarından vətənlərinin hal və övzaından layiqlə məlumat əxz etdilər. Bunun üçün də tələbələr artıq dərəcə mütəəssir olurdu.

1812 – 1814-cü sənələrdəki inqilabat və iğtişaşat da zühur edir. Gənc tələbələr öz ləyaqət və mənivyəti-şəxsiyyələrini (öz mənliklərini) qanıb, qonşu bulunduqları zabitlər ilə məxfi (gizli) cəmiyyətlər və məclislər təşkilinə girişirlər. Təbiidir ki, şu halət və övzadan naşi tələbələrin təlimi müəllim və mürəbbilərin də tərbiyə və tədrisləri nizam və qaydadan düşür. Puşkin də məktəbin şu anarşiyaya uğramış halətindən istifadə edərək, xassə (xüsusilə) qoşun zabitləri ilə birləşib, onlar ilə siyasi işlərə qarışır. Puşkin ikmali-təhsil etdiyi zamanda məzkur darülfünunda bir ədəbi cəmiyyət təşkil olunur və Puşkin oraya üzv qəbul olunur.

Mabədi var.

MƏMMƏD SADIQ

21 DEKABR 1910, № 10, SƏH. 7-8

= MƏKTƏB =

Səkkizinci nömrədəki məsələlərdən birinci məsələnin həllinə dair heç bir cavab almadıq. Anlaşılır ki, məkanımızda hənuz elmi-heyət (nücum elmi) tədris ediləcək siniflər təşkil olunmamış.

İkinci məsələnin həlli üçün bir neçə kağız aldıq. Bunlar da məsələnin yalnız cavablarını yazıb göndərmişdilər.

İkinci məsələnin cavabı:

Dörd quş, üç budaqdır.

21 DEKABR 1910, № 10, səh. 8

«YENİ FÜYUZAT»

№ 11

28 DEKABR 1910

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:

ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, **«FÜYUZAT».**

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində.

LONDON SƏFİRİ TOFİQ PAŞA

Dövri-istibdadda uzun müddət xariciyyə nazirliyi edib, o dövrün səiyatından namusunu mühafizə edən Tofiq Paşa həzrətləri 11 mart hadisəyi-irticaiyyəsində sədriəzəm (baş nazir) olmuş və yenə o hadisə əsasında hərbiyyə naziri olan məşhur Ədhəm Paşa mərhum ilə Əbdülhəmidi iqfal edərək hürriyyət ordusunun İstanbula girməsinə müavinət və qeyrət etmiş olmaqla osmanlılar əndində (nəzdində) böyük bir mövqe ehtiram qazanmışdır.

1910, № 11, səh. 1

SİYASİ VƏ İCTİMAİ

Əlimə firəngcə əski bir kitab keçdi. Bu kitabın adı «Şərqin böhran və inqirazı»dır. Bu kitabda islamiyyət, ittihadi-islam, qadın və təəddüdi-zövcat (zövcələrin miqdarı) və sair kimi Şərqin həqiqətən ən böyük və ən mühüm məsayili çox diqqətlə təhqiq edilmiş.

Kitab çox əski və ilk səhifələri yırtılmış olduğundan çox təəssüf edirəm ki, müəllifinin adını bilmirəm.

Şimdi bu kitabdan bəzi məbahisi öz fikirimi də əlavə edərək «Füyuzat»a tərcümə edəcəyəm. Çünki dərdlərimizə dair yazılmış pək çox kitab oxudum. Lakin bunun qədər xoşuma gələni görmədim. İştə bu

nüsxədə qadın və təəddüdi-zövcat bəhsini tərcümə edirəm.

QADIN VƏ TƏƏDDÜDİ-ZÖVCAT

Avropalılar Şərqin çəkdiyi bəlalara, səfalətlərə səbəb müxtəlif məzhəbli vətəndaşlar arasındakı ədəmi-müsavatdan (bərabərsizlikdən) sonra qadınlar ilə erkəklər arasındakı ədəmi-müsavatı göstərirlər.

Avropalılar deyirlər ki, islamiyyətin (hərəm və təəddüdi-zövcat məsələləri) qadınları əsir və keyfiyyəti-heyvaniyyəyə alt dərəcəsinə endirərək müsəlmanlara hissiyyati-insaniyyəni qaib etdirmiş və onları hər dürlü hürriyyətdən məhrum etmişdir.

İştə bu etiqadda olan naqillər (nəql edənlər) bu xəyalatı hekayə kitablarına qədər bu surətlə yazırlar. Hətta bəzi dəfə bir türk qadının bir şəkili, bir karikaturu görünür ki, bunu görən bir türk özünü Türkiyənin xaricində, başqa bir məmləkətdə zənn edər.

Sonra bəzi xristian millətlərə yapdıqları kimi qadınlardan hicabı qaldırmaq, onları türk boyunduruğundan xilas etmək lüzumunu ixtar edirlər.

Avropalılar bizə bir şey ixtar edərkən çox yumuşaq görünürlər. Əgər o şeydə mənfəətləri varsa, yaxud zərərləri yoxsa.

İngilislərin Hindistanda yerləşmələrinin ən böyük səbəbi və bəhanəsi bu oldu ki;

Hindlilərin məzhəbincə bir qadının əri öləndə dul qalan övrətini yandırırdılar. İngilislər bu vəhşəti rəf

etmək bəhanəsi ilə Hindistana girdilər. Yəni Hindistana mədəniyyət gətirmək məqsədilə o maska ilə Hindistanı zəbt etdilər.

Bir zaman Afrikadakı qara ərəbləri əsir sifəti ilə satırdılar. İştə avropalılar sifəti-insaniyyətə müğayir olan bu halı mən etmək bəhanəsi ilə Afrikaya girdilər. Və Afrika yolları bu bəhanə ilə avropalılara açıldı.

İştə müsəlmanları hicab məsələsindən naşi ittiham edənlər də əllərinə təzə bir müdaxilə bəhanəsi almaq istəyirlər.

Bu dəqiqədə əlimdə olan bir kitab müsəlman qadınları üçün nə deyir, baxınız!

«Quran Sizi xidmətkarlıqla məhkum edir. Siz zinət qulusunuz! Əli-qolu bağlı, üzü-gözü örtülü. Göz həbsinə alınmış qulsunuz.

Ah! Heyf sizə! Üzünüzü çeviriniz xristian bacılarınıza baxınız! Onlar nə dərəcə azaddırlar. Əvət! Istədiklərini eləməkdə azad!

O bacılarınıza erkəklər yalvarırlar, ayaqlarını öpürlər, nə istəyirlər onu eləyirlər.

İştə bu surətlə onlar bəxtiyardırlar. Islamiyyətdən nə gözləyirsiniz? Sizi cənnətdən də məhrum edir».

Əlimdəki firəngcə yazılmış kitab İştə bu sözləri yazırdı. Mən də bu sözləri Quran ilə qarşılaşdırmaq istərəm:

Qurani – Kərim deyir ki:

1) Erkək olsun, qadın olsun, əməli – saleh sahibi olan cənnətə girəcəkdir.

2) Erkək olsun, qadın olsun, kimin əməli-salehi və imanı varsa, ona biz məsudanə bir həyat ehsan edəcəyiz. Və o əməllərin mükafatını özünə verəcəyiz.

Ah! Nə olardı müsəlman qadınlarının o sözləri deyən misionerlərlə mübahisə edəcək fürsətləri olaydı! Olaydı da kilsə böyüklərinin cinsi-nisa (qadın cinsi) haqqında söylədikləri həqarətamiz sözləri onlardan soraydılar.

Qurani – Kərimdə və əhadisi-nəbəviyyədə qadınlar daima təltif ilə zikr olunmuşdular.

«Əl-cənnət təhti-iqdam ül-ümməhat», yəni «Cənnət anaların ayaqları altındadır» buyuran dini-islam qadınların hüququnu kətm etməklə ittiham edilmək rəvamıdır?

Müsəlmanlarda görülən bəzi nabəca (yersiz) halları dinə ətf etmək ya qərəzkarlıq, yaxud nadanlıqdır.

Bir də kilsə böyüklərinin qadınlar haqqında söylədikləri sözlərdən bir neçəsini görəlim. İştə:

«Nə zaman bir qadın səsi eşitsəm islıq çalan (qışqırmaq) bir ilan görmüş kimi qaçaram».

Sen Piyer

Avropalılar deyirlər ki, müsəlmanlar bugünkü tənəzzüllərini qadınlarının fikrən tənəzzüllərində aramalıdırlar. Çünki müsəlmanlar qadınlarını alçatmaqla özlərini alçatmışlar. Qadınların hüququnu təhqir etməklə öz hüquqlarını qaib etmişdilər. Hər bir nöqteyi-nəzərdən qadınların zillətdə qalmaları cəmiyyətin

tərəqqisinə mane olmuş və müsəlmanları daimi bir tədəniyyə (tənəzzülə) məhkum etmişdir.

Əvət! Avropalıların bu sözlərində haqlı nöqtələr buluna bilər. Şübhə yoxdur ki, cəmiyyəti-bəşəriyyənin tərəqqi-tədənisində qadınların təsir və əlaqəsi çox böyükdür. Bir millətin təalisi daima fikir və əxlaqca, xüsusilə qadınlarının əfkar və əxlaqında icra edilən islahat ilə mütənasibən yürümüşdür.

İştə bu nəzəriyyələr aləmi-islamda, baxüsus (xüsusilə) Türkiyədə heç bir zaman nəzər-diqqətdən uzaq tutulmamışdır.

Islamiyyətdə qadın avropalıların zənn etdikləri qədər az nəzər-diqqət və ehtimama alınmamışdır. Lakin bu mütaliələri təqdir etmək üçün islamiyyətin zühurundan əvvəl və hətta çox zaman sonra xristian məmləkətlərindəki qadınların hal və övzasını bilmək lazımdır.

Qadınlar tərəfindən kamali-ibcal ilə qəbul edilən (təkrim və təzim ilə qəbul edilən) xristianlıq onlar haqqında o qədər lütfkaranə hərəkət etməmişdir. Kilsə böyükləri qadınları bir mövcudi-müləvvəs və keyfiyyata məxsus adi bir alət olmaq mənzələsində tanınmışdırlar. Hətta həzrəti-Məhəmmədin vəfatından əlli sənə sonra, yəni 679-da Makon keşişi qadınların cəmiyyəti-bəşəriyyədən olub-olmadıqlarında şübhə və tərəddüd edir və bunu bir məsələyi-mühümmə olaraq ortaya qoyurdu.

İştə qadın haqqında kilsə böyüklərinin bir neçə sözlərini buraya yazıram:

«Bir qadın nədir bilmək istərsənizsə iştə budur:

Dostluğun and içmiş bir düşməni. Çəkilməz bir zəhmət! Lazım bir heyvan...»

Sen Jan Frisustum

«Bütün canavarların içində qadından vəhşisi yoxdur!»

Ə.D.

«Qadın bir vücuddur ki, bizi cənnət qapısından cəhənnəmə gətirir»

Sen Siperyen

Mabədi var.

ƏHMƏD KAMAL

28 DEKABR 1910, № 11, səh. 2 – 4

RUHUM!

Ruhum! Ey şahbazi-ülviyyət,
Himmətim tək fəzada pərvaz et!
Uç! Uç! Övci-səmada pərvaz et!
Təngnayi-bədəndə var xiffət.

x x x

Aşiyani-bədəndə etmə qərar,
Yanma sən də mənim kimi narə!
Bulamazsan məlalimə çarə,
Sıxılırsan, lətifsən, zinhar!

x x x

Boşla bu cismi, cism mən deyiləm,
Sənə müşkül olursa hicranım.
Mən sənin, sən mənim dilü canım,
Mən sənin kəndinəm, bədən deyiləm.

x x x

Hara getsən səninlə mən də varam,
Şu bədəndə fəqət əsiriz, zar.
Ölməyimlə sevinməsin əğyar,
Aləm olduqca mən dəxi duraram.

x x x

Bir səfa bulmadıq bu aləmdə,
Başqa bir aləmə varıb gedəlim.
Bir ovuc xakı xakə tərk edəlim,
Mədfəni-şumi-ali-Adəmdə.

x x x

Mən gedərsəm, var olsun amalım,
Yaşasın şəhriyari-hürriyyət!
Yaşasın şəhriyari-hürriyyət!
Mən gedərsəm, var olsun amalım!

Ə.SABIR

28 DEKABR 1910, № 11, səh. 4-5

«Füyuzat» :

Sabir! Böyüklüğün ən böyük sifəti səbirdir. İştə sən də bu sifətlə mövsum və mövsufsan.

Əzizim, səni incidənlərlə həmpa olmamaq üçün Sabir ol! Sən ölmə! Sən ölərsən, ölümünlə sevinəcək

qədər binəsib insaniyyət təsəvvür edəməm.

A Sabir! Sənə də əğyar olacaq qədər tədəniyi-əxlaqamı düşdün?

«Fələk hər dürlü əsbabi-cəfasın toplasın gəlsin,
Dönərsək, alçağız millət yolunda bir əzimətdən».

28 DEKABR 1910, № 11, səh. 5

MİSİRDƏ MƏŞRUTİYYƏT

Xidivi – Misir Isgəndəriyyədən Qahirəyə gələrkən bir az vaxt Təntədə durmuş.

Təntənin edadi-məktəbi şagirdləri xidivin keçəcəyi yol üzərində toplanıb xidiv keçərkən həp bir ağızdan:

Yaşasın məşrutiyyət!

Yaşasın məşrutiyyətpərvər xidiv! - deyə alqışlamışlar. Xidiv təbii mütəəssir olmuşdur.

Xidivin Qahirəyə övdətindən sonra Təntə hakimi məzkur məktəbə gəlib təhqiqata girişərək iki tələbəni məktəbdən tərd etmiş. Tələbələrin bir cəmiyyəti-xəfiyyəyə mənsubiyyətləri təhəqqüq etmiş.

Ən nəhayət, yenə tələbələr sokakları dolaşıb: «Məhv olsun Təntə hakimi! Yaşasın məşrutiyyət!» nidaları ilə nümayişə başlayaraq, şəhər xalqından bir çoxu da tələbələrə qoşulmuşdur. Bu münasibətlə bir çox adamlar tövfiq olunmuşdur.

«Nasionalist» firqəsindən gənc bir dəvi vəkili

(advokat) dəxi tövqif olanların içində imiş.

= ƏRƏBLƏRİN ÜSYANI =

Ərəblər Hicaz dəmir yolunu xarab etmək məqsədi ilə Qətranə stansiyasına hücum etmişlər.

Mənzilədə ərəblər yolu pozduqlarından bir poyezd (qatar) yoldan çıxmışdır.

Ərəblər tərəfindən stansiya məmurları tamamilə qətl edilmişdir.

Qətranə stansiyasına hücum edən ərəblər doktor Əli əfəndi ilə yol mühəndislərindən Əli Qalib bəyi şəhid etmişlər.

Ərəblər Qətranə stansiyasını və yoldan çıxan vaqonları yaxmışlar. Mədinədən gələn poyezdlər Omanda qalmağa məcbur olmuşlar.

Ərəblər tərəfindən xarab edilmiş olan yollar tez təmir edilib, oraya əsgər göndərilməyə başlanmışdır.

FÜYUZAT

Əvvəldən bəri Hicaz dəmiryolunun inşasına mümaniət edən ərəblər çöllərdə başı boş dolaşan və məşrutiyyəti – Osmaniyyədən xoşnud olmayan bəzi dövlətlərin əllərində aləti-fəsad olan köçərilərdir. Bunların etdikləri bu nabəca hərəkətlərin milləti-nəci-bəyi-ərəbə ümumən təşmili cayiz olmaz. Məşrutiyyəti – Osmaniyyə iki sənənin ömründə hər millətin hüquqi-

sərihəsinə riayət etmiş. Heç bir cins və məzhəbi digərlərindən ayırmayaraq füyuzati-hürriyyətdən bütün ənasüri – Osmaniyyəni müstəfid etmişdir. Buna müqabil bütün ənasüri – Osmaniyyədən də müsavat və müttəhidən hörmət və itaət gözləməyə haqlıdır.

Məşrutiyyəti – müqəddəsəyi – Osmaniyyə bu haqqına təcavüz edənləri tədib etməkdə dəxi məzur, hətta məcburdur.

Suriyadan Hicaza qədər olan vilayəti-mühümməyi – Osmaniyyəni idarədən və siyasətdən bir-birinə rəbt və o qitələrin istiqballarını təhti-təminə alaraq şimdiyə qədər mətruk bir çöldən ibarət olan əraziyə bəxşi-imran eləyəcək bu yolun inşasına mümaniət edənlərə artıq nəsihət deyil, «top» ilə cavab vermək lazımdır.

Dövri – Həmidinin rəxavət hökumətinə alışanlara idarəyi-hökumətin dəyişdiyini ədl ilə mümkün olmazsa, cəbr ilə anlatmaq idarəyi-məsləhət icabındandır.

Hər sənə cahar əqtari-aləmdən tökülüb gələn yüz minlərcə hüccacın təmini-rahatına və məmləkətin təzyidi-imran və sərvətinə bais olacaq bu xətti-müqəddəsi aləti-şərə və fəsad olan bir neçə bədəvinin əlindən belə uzun müddətlərlə xilas edəməmək sitvəti-məşrutiyyətlə qabili-təlif olan əhvaldan deyildir.

28 DEKABR 1910, № 11, səh. 5-6

= SUZİŞ =

Mövcudların sonu ədəmdir,
Dünyanın özü mühiti-qəmdir.
Sorsam deyəcəksiniz həkəmdir!
Bir səs gəlir bana dəmadəm,
Tutmaqda cahan Hüseynə matəm.

x x x

Ey çərx, utan bu gərdişindən!
Dövrani-cəfa nümayişindən!
Bir ailə yandı atəşindən,
Bir səs gəlir bana dəmadəm,
Tutmaqda cahan Hüseynə matəm.

x x x

Batsın, batsın bu çərxi-dövran,
Dünyaları tutdu ahü əfqan.
İslam ağlar, yanar müsəlman,
Bir səs gəlir bana dəmadəm,
Tutmaqda cahan Hüseynə matəm.

x x x

Heyrətdəyəm .ey xüdayi-hikmət,
Kim, Kərbübəlada min qiyamət,
Qopdu, yenə eyləyirmi rücət.
Bir səs gəlir bana dəmadəm,
Tutmaqda cahan Hüseynə matəm.

x x x

Ən şanlı, şərəfli bir mücahid,
Övladi-nəbi Hüseyni-cahid,
Al qan ilə oldu qəbrə varid.

Bir səs gəlir bana dəmadəm,
Tutmaqda cahan Hüseynə matəm.

x x x

Bir səs gəlir, baxın səmadan,
Mavayi-şəhidi-Kərbəladan.
Qurtar Vətəni, deyir, bəladan.
Bir səs gəlir bana dəmadəm,
Tutmaqda cahan Hüseynə matəm.

x x x

Əğyar oxuna Vətəndir amac,
Ey Şahi-şəhid, gözlərini aç!
Bax ümmətinə, əduyə möhtac.
Bir səs gəlir bana dəmadəm,
Tutmaqda cahan Hüseynə matəm

ƏLİ PAŞA

28 DEKABR 1910, № 11, səh. 6-7

ERKƏK VƏ QADINLARIN BƏŞƏRİYYƏTDƏ ƏHƏMİYYƏT VƏ VƏZİFƏLƏRİ

= 4 =

Erkəklər ilə qadınlar bəşəriyyətin ümumi, bəlkə bütün vücudu deməkdir.

Bəşəriyyətin sevimli, nüfuzlu, hilmli, iffətli və gözəl nisfi (yarısı) qadınlar olduğu kimi, cürətli, fəal, zəhmətkeş ola nisfi-digərini də erkəklər təşkil etməkdədir.

Bəşəriyyət üçün birincisi ruh və ikincisi isə cism mənzələsindədir.

İştə bununla da erkək və qadınların vəzifələri təyin olunur. Zira ruha aid keyfiyyət qadınlara məxsus olduğu kimi, cismaniyyətə dair ümurat (işlər) dəxi erkəklərin vəzifəsi olması lazım gəlir.

Ruhun cism üçün nə dərəcə əhəmiyyəti olduğu düşünülürsə, qadınların bəşəriyyət aləmində əhəmiyyət və vəzifələri təyin edilə bilir.

Belə bir surətdə biz də «Şopenhayer» kimi qadınları istedad və qabiliyyətdən ari, qeyri-muxtar, fəqət gözəl bir surət və həyula adlandırmayacağız.

Bütün bəşəriyyətin məzrəəsi (əkin yerləri) və cəmi bəşəriyyətin ağıl, bədən və əxlaq tərbiyəsi yədi-kifayətlərinə tapşırılmış olan qadınlara belə bir nəzər ilə baxmaq rəvamıdır?

Qadınlıq kimi bir heysiyyətə malik və bəşəriy-yətin validəsi, ailə cəmiyyətinin sahibəsi, ümurati-beytiyyənin müdirəsi (ev işlərinin müdirəsi), övlad və ətfali-bəşəriyyətin mürəbbiyyəsi (tərbiyəçisi), ailə əsası, əfkar və hissiyyati-bəşəriyyənin məbnası (əsası), zövcinin rəfiqəsi və bütün intizamat və məbbadiyiyi-ruhaniyyə və məsaliki-həqiqənin müəssisi, bəşəriyyətin madəri-istiqbalı (gələcək anası) və gələcək səadət və fəlakətlərinin yeganə banisi olan bir qadına belə bir nisbət və ya bunca əhəmiyyətsizlik cayiz olarmı?

Əlbəttə, olmaz!

Nasıl da cayiz olsun? Məgər ailələr təşkil edən, övlad tövlid edib, övladının bütün həyatı üçün

məbadiyi-əfkar və hissiyyatı bəxş edən, zövcinə rəfaqət göstərən İştə bu qadın deyilmi? Bunların əhəmiyyətləri və vəzifələri nə dərəcədə ali və mərtəbədə müqəddəs olduğu qabili-inkarmıdır?

Qadınlar haqqında belə əfkari-vəziməyə yol buraxan, onları fövqdə zikr olunan vəzifələrindən münhərif edən, saatlarla bəzək və düzək üçün tualetlər önündə əyləşdirən, qism-qism moda və zinətlərə aludə edən, əxlaqlarını pozub növbənöv fəna yollara uğradan səbəblər qadınlar haqqında bizim bu qəbil əfkarımız və onlara ancaq gözəl bir həyula kimi baxmamız və onların da naçar məcbur olduqları mübarizəyi-həyatiyyədən başqa şeylər olmadığını zənn edirəm.

Bununla bərabər, onlardan ayrı yaşamıyırız. Hər bir işdə əsas onlar olduğunu qəbul etməyə məcbur qalırız.

Əvət, qadınlar da erkəksiz yaşamazlar. Burası da qabili-inkar deyildir. Ruhun istiqaməti cism ilə olması təbiidir.

Qadınların müstəqil olmayıb, bir erkək ilə əlaqə etməyə məcbur olmalarını da inkar etməyiriz. Zira qadın nə dərəcədə alim, qism-qism fənn sahibi, növbənöv sənayeə vaqif olsa da, yenə müstəqil olmayır. Təzəvvücə möhtac qalır. Təzəvvüc etdikdə əksəriyyən kəndi sənət və hirfətindən və mütəfənnin bulunduğu məşğələsindən də dəstbərdar olur (əl çəkir).

Bununla bərabər bəşəriyyətin idarəsində qadınlar yenə müstəqil qalırlar. Bunda isə tək bir gözəllik kifayət etmir və edəməz də.

Bəşəriyyətin cismi mənzələsində bulunan erkəklər də həyat və məişətlərində onlarsız yaşayamırlar. Ruhsuz yaşamaq da dairəyi-imkandan xaric bir əmrdir.

İştə bununla da erkəklərin bəşəriyyətdə olan əhəmiyyət və vəzifələri təyin olunur.

Bəşəriyyət üçün bu dərəcədə əhəmiyyəti olan şu qadınların öz istiqamət və istiqlaliyyətlərində möhtac bulunduqları yoldaş və həmrahları iştə şu erkəklərdir.

Erkəklərdir ki, ailəsinin halını, məişət və əhvalını təmin edər. Erkəklərdir ki, dəvayiri-beytiyyədən xaric ümuratda qism-qism məişət yolları arar, mübarizəyi-həyatiyyə meydanında müsabiqət göstərir, cismani zəhəmata mütəhəmmil olub, arasında yaşadığı cəmiyyətin hər dürlü səadət halı yolunda çalışar, cəmiyyət təkalifini ifa edər. Və daha bunun kimi vəzayifi ifa ilə öz həqlərini əda etmək üçün məsai göstərirlər. Buna görə erkəklər də sitayiş və pərəstiş olunmaqdan geri qalmayırlar. Onların da əhəmiyyəti inkar olunmaz.

Erkəklərin ənva vəzayifi (müxtəlif vəzifələri) və əqsam təkalifi qadınlardan daha ziyadə olmaqla bərabər qadınların vəzifələri də söylədiyimiz kimi pək müqəddəsdir. Şu vəzifələr bir-birlərinə o dərəcədə mərbut və əlaqədardır ki, birisi digərsiz heyzi-vücuda gəlməz. Şu vəzifələrin arasında olan əlaq erkək ilə qadının arasında bulunan mərbutiyyətdən daha ziyadə, daha şiddətlə mütəlasiq və mütəlaimdir.

İştə bu surətlə erkək ilə qadının bir-birlərinə nə dərəcədə sıxı-sıxı əlaqələri olduğu müxtəsər də olsa bəyan olundu. Hər halda erkəyin qadından artıq bir

sevəcəyi olmadığı kimi, qadın üçün də erkəkdən ziyadə məhbub ül-qülub olan başqa bir şey fərz etmək olmaz.

Bu vəchlə təbii şu məhəbbət, şu pərəstiş erkək ilə qadının ictimasını zəruri olaraq heyzi-vücud və hüsula gətirir. Şu ictima isə zəmanəmizdə bulunan insanfüruşluq qəbalələri, növbənöv əqdnamələr, rəsmi qanunlar, qism-qism etibarat və şəxsiyyata aid keyfiyyətlər, günagün təhdidat və vədiyyat (vədələr) sayəsində davam edəməz.

Şu ictimanın davamı i rəlidə söylədiyimiz vəch ilə fəqət səmimi, həqiqi və müqəddəs olan işbu məhəbbət sayəsində hüsula gələ bilər.

Mabədi var.

AXUND YUSİF TALIBZADƏ

28 DEKABR 1910, № 11, səh. 7-8

= MƏKTƏB =

İki atlı qarşı-qarşıya yürümək üzrə sabah saat altıda yerlərindən hərəkət etmişlər. Birinci saatda iki verst, ikinci saatda üç verst yol gedirlər. Bunların gedəcəkləri yolun uzunluğu 40 verstdir. Bunlar yolda üçər saat istirahət etmişlər.

1) Bunlar neçə saat sonra bir-birinə təsadüf edəcəklər?

2) Bunlar biri-birlərinə təsadüf edəndə saat neçə olacaq?

3) Hər biri öz yerindən nə qədər verst uzaqda digərinə təsadüf edəcəkdir?

Bu məsələnin mükafatı bir aylıq abunədir.

28 DEKABR 1910, № 11, səh. 8.

EŞİDƏNƏ!

Ürəfa qəbrimin üstündən übur etsə əgər,
Qəbri-məhzunuma eylər qədəmi bəxş həyat!
Cühəla olmasın Allah qərini-qəbrim!
Bulayım bari məzarımda səlamət! Heyhat!

Ə.P.

28 DEKABR 1910, № 11, SƏH. 8

«FÜYUZAT»A ABUNƏ OLAN ZƏVAT

1) Cahangir bəy Aşurbəyov, Moskva;
2) Kərim Eminov, Dərbənd;
3) Ibrahim Xəlil Isazadə, Lənkəran;
4) Mir Zahid Mirakilov, Xoqənd;
5) Yarülla Muradov, Quriyev;
6) Hacı Səfdər Məhərrəmov, Şamaxı;
7) Məmməd Hüseynov, Aşqabad;
8) Teymur bəy Acarski, Batum;
9) Hafiz Sədəddin Həsənzadə, Qubanskı oblast;
10) Hafiz Məhəmməd əfəndi Şeyxzadə, Şamaxı;
11) Kərbəlayi Hüseyn Nəsirbəyov, Naxçıvan;
12) Hüseynqulu Tağızadə; Petropavlovka;

13) Kərim bəy Narbəyov; Daşkənd;
14) Ziyəddin Meracəddinov, Aleksandrovski;
15) Mola Hüseyn Axundzadə, Nuxa;
16) Ağəli Əhmədov, Nuxa;
17) Məşədi Əsədulla Qafarov, Nuxa;
18) Hacı Məmmədhəsən Hüseynov, Nuxa.

Mabədi var.

28 DEKABR 1910, № 11,

«YENİ FÜYUZAT»

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Seşənbə (çərşənbə axşamları) günləri nəşr olunur.

Abunələrimiz özlərinə çatmayan nömrələrin idarəyə xəbər versinlər.

Tək nüsxəsi Bakıda 10 qəpik, qeyri şəhərlərdə 11 qəpikdir.

«Kaspi» mətbəəsində təb olundu.

«YENİ FÜYUZAT»

№ 1

İKINCI SƏNƏ;

4 YANVAR 1911;

SƏRMÜHƏRRIR: ƏHMƏD KAMAL

SAHIBI – IMTIYAZ VƏ MÜDIRI-MƏSUL: ƏLI PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, **«FÜYUZAT»**

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində.

Makı ilə Xoy müharibəsində (Sədabadda) şəhid olan fədakari-hürriyyət Səid Səlmasinin şəkili.

ardı

Hicab məsələsini və qadınların evlərdə qapalı şalmalarını bəhanə edərək islamiyyəti və müsəlmanları təhqir edən keşişlər və bəzi mühərrirlər və xüsusi ilə missionerlər, əcəba, xristiyanlıq mürəbbilərinin qadınlar haqqında rəva gördükləri bu sözlərə nə deyir və nə deyəcəklər?

İştə bir neçəsini daha yazıram.

Xristiyanlığın bir şöbəsi olan katoliklərin etiqadınca yer üzündə həzrəti-İsanın vəkili olan papalardan (üçüncü bigünah papa) qadınlar haqqında:

«Qadın bir murdarlıq girdabıdır»- deyir.

Yenə kilsə əzizlərindən Sen Qrequvar:

«Qadın əfi zəhərli bir məxluqdur»-deyir.

Tertolyen qadınlara şöylə xitab edir:

«Qadın! Sən cəhənnəmin qapısısan. Sənin səbəbinlədir ki, həzrəti-İsa öldü».

Nopero Antora Dubolıqa deyir ki:

«Dünyada nə qədər batil məzhəb, nə qədər yanlış fikir varsa, həpisi qadınların üzündən meydana çıxmışdır».

Kilsə böyükləri bu sözləri həp adamlarla qadınları biri-birlərindən ayırmaq və həpsini ayrı-ayrı monastrlərə doldurmaq üçün söyləmişdilər. Lakin bu iki cinsi biri-birindən ayırmaq və hər ikisini də keşişlərə əsir etmk üçün bundan daha yumuşaq, daha ciddi bir lisan bulunamazmıdı?

Şimdiyə qədər yazdığımız sözlər kilsə böyüklərinin qadınlar haqqındakı fikir və müamilələrini göstərir. Heyf ki, əvvəldən bəri Avropada zühur edən hürr (azad) fikirli ərbabi-ürfanda qadınlara keşişlərdən daha az həqarətlə baxılmışdırlar.

İştə onlardan da sizə bir-iki misal:

1) «Ağılın iyrəndiyi bir cins! Ah! Nə zaman ədəblərimdə, nə də hingam iqbalımda mənim damımın altında qadın sakin olmayacaqdır!»

Eşil

2) «Bir canavarın dişlədiyi yaraya, bir ilanın zəhərinə əlac bulunmuşdur. Lakin əfi ilandan daha müzirr olan qadına qarşı bu günə qədər bir əlac bulunmamışdır».

Oripid

3) «Qadın hər qınalığın bulağıdır».

Sokrat

Rom filosoflarından Fisaqurs (Pifaqor) qızını ən böyük bir düşmənə vermişdir. Bundan soruşmuşlar ki:

- Qızını nə üçün bu düşmənə verdin?

Cavabında demiş ki:

«-Düşmənə bir qadın verməkdən daha böyük intiqam almaq olmaz. Çünki qadından daha müzirr dünyada bir şey yoxdur».

4) «Qadın fənalıqların ən böyüyüdür».

Yuvenal

5) «Qadın dünyada ən müzirr və murdar bir vücuddur».

Martibal

6) «Şeytənət qadınlarda xəlqidir. Yəni sonradan qazanılmamış, bəlkə onlarla bərabər doğulmuşdur».

Hipokrat

7) «Qadın daima biqərar bir məxluqdur».

Virjili

8) «Qadın hər növ pislik vasitəsidir».

Diyojen

9) «Qadın gərək ictinab ediləcək bir şey yoxdur. Nə atəş, nə bir şey onun qədər qorxulu deyildir».

Aristofan

10) «Qadının xasiyyəti aldatmaqdır».

Bomarşe

11) «Qadınlar yalan söyləmənin yolunu bilirlər. Ən acizi də bunun fənninə aşnadır».

Lafonten

12) «Təbiət qadınları gücdən məhrum yaratdığı səbəbilə onlara özlərini mühafizə etmək üçün yalan

söyləmək məharətini vermişdir».

Şopenhauer

İslamiyyətə «qadınlarımızı təhqir etdirir»-deyən avropalıların qadınlar haqqında söylədikləri, yazdıqları bu biinsafanə sözləri toplamaq istəsək, bir böyük cild kitaba dəxi sığmaz. Bu da inkar olunmaz ki, Avropa ərbabi-ürfanı içində qadınlar haqqında münsifanə, ədibanə fikir və lisan istemal edənlər də vardır. Lakin deyə biləriz ki, bu lisanlar, bu fikirlər yeni-yeni meydana çıxmışdır. Yoxsa xristiyan dininin ərkanı qadınları daima təhqir edir.

Bir millətin zərbməsəli ki, hikmət əvamıdır, o millətin ümumiyyətlə bir şeyə nə gözlə baxdıqlarını, o şey haqqında nə rəy sahibi olduqlarını göstərir.

Yuxarıda xristiyan keşişlərinin, üdəba və mühərririnin qadınlar haqqındakı rəylərini yazdıq. Bir də avropalıların zərbməsəllərindən misal gətirəlim. Baxalım avamları qadınlara nə nəzərlə baxır. İştə:

1) Bir adam bir qadının, bir də iyirmi beş qəpikliyini itirsə, qadına deyil, iyirmi beş qəpiyinə yanar.

2) Ümum xalqa deməyəcəyin sözü bir qadına, bir də boşboğaza demə!

3) Əgər qadın fənasa, ondan özünü saxla! Əgər iyisə, ona bir şey inanma!

4) Qadınına inanan aldanır. İnanmayan əvvəlcə aldanmışdır.

5) Nərədə qadının hökmü varsa, orada rahat və

asayiş olmaz.

6) Bir gözəl qadın, bir gözəl qatır, bir gözəl keçi üç şeytan heyvanıdır.

Fransızların mahnılarında dəxi qadınlar az təhqir olunmayırlar.

Piyer de Pon «Öküzlər mahnısı» adlı mahnısında deyir ki:

- «Hərəmim (qadınım) Janı sevirəm. Lakin öküzlərimi ölmüş görməkdən hərəmimi ölmüş görməyi daha çox arzu edirəm».

Türklərin şeirlərini, zərbməsəllərini arasaq, bir tək zərbməsələ təsadüf ediriz ki, qadınlar haqqında bir az xoş deyildir, o da budur:

«Qadının saçı uzun, ağlı qısadır».

İştə bundan başqa qadınlar haqqında həqarətamiz bir kəlmə belə bulunmaz (tapılmaz).

Hanki millətdən olursa olsun müsəlman ərbabi-ürfanının əsərlərində qadınları təhqir edəcək sözə təsadüf edilməz.

Həzrəti- Məhəmməd əleyhissalamın qadınlar haqqında buyurduğu sözlərdən bir neçə misal göstərəyim:

1) Əgər səni anan və atan ikisi birdən çağırarsa, birinci anana cavab ver!
2) Ana haqqı hər haqdan ziyadə riayət ediləcək haqdır.
3) Çocuğun anasına verdiyi busə yanağını babi-cənnətin (cənnət qapısının) eşiyinə sürtmüş qədər ləzzətlidir.

4) Sizin ən nəcibiniz qadınlara hüsni-müamilə edənizdir.

5) Kim üç qız tərbiyə və təlim edr və evləndirərsə (ərə verərsə), doğru (düz) cənnətə gedər.

Bu gün bir adam həzrəti-Məhəmməddən soruşdu ki;

- Ən ziyadə yaxşılıq etməyə layiq kimdir?

Həzrəti-Məhəmməd cavab verdi ki, anandır.

Dedi ki, ondan sonra kimdir?

Buyurdu ki, yenə odur.

Şimdi burada bir məsələ var. Nasıl olur ki, Avropada qadınlar haqqında o qədər fəna, o qədər təhqiramiz sözlər Şərqdə, aləmi-islamda əksinə, bu qədər gözəl, bu dərəcə münsifanə fikirlər, rəylər varkən Avropa qadınları islam qadınlarından daha ziyadə rəğbət və hörmətə naildirlər?

Çox gözəl! Bunun cavabı asandır.

Mabədi var.

ƏHMƏD KAMAL

4 YANVAR 1911, № 1, səh. 2-4

= TÖVHID =

Şayəstəyi-həmdsən, İlahi!
Yoxdur buna fərdin iştibahı.

Bürhan sana masəva yetər kim,
Hiss etməyiriz onu kəmahi .

Feyzinlə təəyyüş eyləyir həp,
Göylərdə, dənizdə mürğü mahi.

Təbcil edərəm calalını mən,
Gördükcə bütün nücumü mahi.

Bunca nə məsafədir əcəb kim,
Biz boşluq içində latənahi.

Bir böd ki, səthi-münhənidir,
Nərdən bulur istinadgahı?

Bir mənzərədir ki,heyrətəfza,
Həp zati-kamalın güvahı.

Sübhan Allah həkimi-kamil,
Kim, xürrəm səbz edər giyahı?

Ayinəyi-qüdrətindir əşya,
Çarpar gözə feyzi-intibahı.

Bir pərtövi-bikəransan, Allah,
Əma görəməz ki, yox nigahı

Allah kamali-hikmətindən,
Safdır əvamirü nəvahi.

Sənsən bütün aləmə pərəstar,
Sənsən bütün aləmin pənahı.

Əfrad ki, həp yaşar cahanda,
Azadə yayılmış əktinahı.

Hürriyyətə doğru yol bulursa,
Nurundur onun dəlili-rahı.

Sənsən edən aləmi münəvvər,
Sənsən onu nəşr edən, İlahi.

ƏLI RICAI DAIZADƏ

4 yanvar 1911, № 1, səh. 4-5

RUSİYADA TATARLAR. NASIL GİRDİLƏR, NASIL MƏHV OLDULAR?

1154-cü tarixindən sonra Rusiya prinslərindən Yuri vəfat etdi. Bunun üzərinə Moskva və Kiyevdə oturan prinslərin arasında iddia zühur etdi. Bunlardan hər biri özünün ümuma prins olduğunu və qalan prinslərin ona tabe olacağını iddiaya başladı. Qalanlardan da bəzisi Moskva prinsinin tərəfini, bəzisi Kiyev prinsinin tərəfini tutaraq Rusiyada daxili bir müharibə baş göstərdi. İştə bu müharibələr səksən altı sənə qədər davam elədi. Bu əsnada Rusiyanın ümumi bir padşahı yox idi. Hər prins hankı tərəfi istərsə, yaxud daha güclü görürsə, o tərəfə tabe olurdu. Axırda Rusiya prinsləri aralarındakı bu təfriqə və ixtilaf bir

dərəcəyə gəldi ki, hər prins özünü müstəqil bir padşah elan edərək nə Kiyevi, nə də bu Moskvanı tanımadı. İştə bu halda Rusiya daxilən bölünmüş və binaən ileyh (buna görə) qaib olmuşdu.

Asanca ələ keçmək üçün nagəhan bir hücuma intizar edirdi ki, bu hücum da Asiyadan ali-Çingiz tərəfindən (Çingizxan sülaləsi) vaqe olmuşdur.

Çingiz xan Türkistan, İran, Ərəbstan və Anadolu tərəflərini zəbt üçün uzun müddət müharibə ilə məşğul olduğu əsnada Rusiya prinslərinin bu təfriqə və ixtilaflarını və Rusiyanın zəngin bir ərazi olduğunu xəbər alaraq həman atını o tərəfə çevirdi. Bunlar üçün bu zamana qədər Bəhri-Xəzərin (Xəzər dənizinin) qərb tərəfi məchul idi. Bunlar kamali-səhutlə Rusiya içinə girib, gəştü güzara başladılar.

Əvvəla Rusiyanın şərq tərəflərində bulunan bir neçə prins bunların qarşılarına çıxdısa da, tatarların cəngavərliklərinə müqavimət edəməyib pərişan oldular (dağıldılar).

Monqol tatarları bu surətlə Rusiya içində təsadüf etdikləri prinslikləri zəbt edərkən Rusiya prinsləri yenə bir-birləri əleyhinə hərəkət edir, hətta bir prinsi məğlub etmək üçün tatarlarla ittifaq eləyirdilər. Tatarlar Tusinin komandası altında və bir neçə sənə içində Rusiyanın bütün cənubunu zəbt ilə Qıpçaq adı ilə orada böyük bir tatar hökuməti bina elədilər (1224-cü ildə).

Bu qıpçaq hökuməti urupayi-Rusinin (Avropa Rusiyasının) şərq və cənub ilə şimali-şərqisini başdan-başa tutmuşdu. Hətta Kiyev prinsliyi tamamilə qıpçaq

hökumətinə tabe olub, Rusiyanın şimal tərəflərində olan prinsliklərin də cümləsi qıpçaq hökumətinə xəracgüzar oldular. Qıpçaq hökuməti 240 sənə qədər Rusiyada davam etdi. Bütün bu müddət zərfində bu hökumət fövqəladə bir ittifaq və ittihad ilə yaşadı. Lakin axır zamanlarda qıpçaq prinsləri arasına təfriqə düşdüyündən 1463-cü sənəsində qıpçaq hökuməti beş parçaya ayrıldı.

1) Azov dənizinin şimalı ilə Don nəhrinin kənarlarını tutdu. Bunlar Nuqay tatarlarıdır.

2) Krım şibbəcəzirəsində (yarım adasında) yerləşdi.

3) Don nəhri (çayı) ilə Volqa nəhrinin arasındakı ərazidə təsisi-hökumət elədi ki, bunlar Astraxandırlar.

4) Qazanlardır ki, bunlar da bugünkü Qazan quberniyasında qaldılar.

5) Əsl Qıpçaqlardır ki, Astraxanın şimal tərəflərində oturdular.

İştə iki yüz qırx sənə kamali-sitvət və şövkətlə Rusiyada hökmran olan Qıpçaq hökuməti-tatariyyəsinin ən sonra inqirazına səbəb ittifaqsızlıq üzündən belə beş qismə ayrılması olmuşdur.

Mabədi var.

4 YANVAR 1911, № 1, səh. 5-7

= KÖYLÜ =

Bir günü şəhərdən qoca köylü,
At önündə şəkər lə yüklü.

Gəlirdi köyə şəbi-dicur,
Tutur nagəhan bunu yağmur.
Atı biçarənin batar selə,
Şəkər almışdı, batdı həp yük ilə.
Baxar afaqə, valihanə durur,
İldırım da səmada bərq vurur.
Düşərək qorxu ta cigərgahə,
Qorxaraq deyir zavallı Allahə:
Allah! Allah, bu nə ədalətdir?
Eyləmə! Etdiyin kifayətdir.
Atımı, qəndimi selə verdin,
Hər nəyim varsa yelə verdin.
Şimdi də bir çıraq alıb oradan,
Mənimi axtarırsan Allah? Aman!

TATCADAN MÜTƏRCIMI: NEMƏT BƏSIR.

4 yanvar 1911, № 1, səh. 7

«YENİ FÜYUZAT»-IN 11-Cİ NÖMRƏSİNDƏKİ MƏSƏLƏNİN HƏLLİ

1) Əvvəla, biz bilməliyiz ki, şu iki atlı biri-birilə bərabər bir saatda neçə verst yol gedirlər. Bunu bilmək üçün (2+3=5) verst. Yəni birinci atlının bir saatda getdiyi yolu, ikinci atlının bir saatda getdiyi yol ilə cəm etməliyiz (toplamalıyıq).

Şimdi bunların neçə saatdan sonra bir-birilərinə təsadüf edəcəklərini bilmək üçün (40:5=8) saat, yəni yolun uzunluğu olan qırx versti iki atlının bir saatda

getdikləri yolun uzunluğuna təqsim edib, böləcəyiz ki, (bunlar yolda istirahət etməməksizin) səkkiz saatdan sonra bir-birinə təsadüf edəcəklər.

Lakin bunlar yolda üç saat istirahət etdikləri üçün (8+3=11) saat, yəni şu üçər saatı səkkiz saatın üstünə əlavə etmək lazım gəlir. Demək ki, bunlar on bir saatdan sonra bir-birinə təsadüf edəcəklər.

2) Bunlar bir-birlərinə təsadüf edəndə saat neçə olacağını tapmaq üçün (6+11=17), 17-12=5. Yəni bunlar bir-birlərinə təsadüf edəndə axşam saat 5 olacaqdır.

3) Bunların hər birinin öz yerindən nə qədər verst uzaqda digərinə təsadüf edəcəyini tapmaq üçün hər birinin keçirdiyi saatla, saatda getdiyi məsafəni zərb ediriz. (vururuq). Bu halda birinci öz yerindən (2x8=16) və ikinci (3x8=24) verst uzaqlaşmış olacaqdır.

Məsələni doğru həll edənlər:

Bakı Realnı məktəbinin ikinci sinifində Kərim Cəfərzadə, Balaxanıda Əlisəttar İbrahimzadə, «İttihad» məktəbinin üçüncü sinifində Həsən Qasımzadə, Balaxanıda Hüseyn Eldarzadə, «Səadət» məktəbinin ikinci sinifində Əlabbas Hacı Zərbəli oğlu Ağaməlizadə, «İttihad» mədrəsəsinin dördüncü sinifindən Qulam Məcidzadə.

Mükafat üçün qürə gələn həftə çəkiləcəkdir.

4 YANVAR 1911. № 1, səh. 7

= MƏRHƏMƏTLİ ƏDHƏM =

Dağın döşündə gözəl köy, bütün ağaclar məhat,
Uzaqda dağlar ucundan günəş saçar ləməat.

Uçub səhayib üfüqlərdə, toplanıb əlvan,
Alardı başqa şətarət dərə, təpə, urman.

Çiçəklər ilə döşənmiş çayır, bayır, gülşən.
Qüruba qarşı tüyur etmədə fəqan, şivən,

Uzaqda qarlar içində şəfəq vurar Kazbek.
İlan kimi axar ətəyindən köpüklü Terek.

Mətin səxurə o hiddətlə çarparaq çağlar,
Səda verir iki yandan qaya, meşə, dağlar.

Qanadlayan qayaya çarparaq, uçar qartal,
Dikib yerə gözünü ov üçün, baxar dərhal.

Yığıb qanadlarını, pürtəhəvvürü çalak,
Hücum edər, sığıyar ildırım kimi bibak.

Qovar yamacda bir ahunu seyd üçün səyyad,
Həzin-həzin baxışır yavrular, edər fəryad.

Dönər, köçər obaya, ilxı, mal-qara mələşir,
Çoban köpəkləri hərdəm xəfif-xəfif hürüşür.

Enir suya, dərəyə qızlar, əllərində səhəng,
Dodaqlarında gözəl nəğmə, dadlı bir ahəng.

- 2 -

Çinar dibində mələklər kimi tutub ülfət,
Beş-altı çərkəs edirdi gözəl-gözəl söhbət.

Biri tüfəngini vəsf eləyir, bir komasın,
Biri nəcib atını, digəri şəhid babasın.

Vüqar ilə oturub iştə ixtiyar Ədhəm,
Keçən zamanlara aid nələr deyir, bilməm.

Həzin-həzin qonuşur gördüyü zamanlardan,
Xatırladıqca keçən şanlı qəhrəmanlardan.

MABƏDI VAR.

A.Ş.

4 yanvar 1911, № 1, səh. 8

«YENİ FÜYUZAT»

№ 2

İKINCI SƏNƏ;

11 YANVAR 1911;

SƏRMÜHƏRRIR: ƏHMƏD KAMAL

SAHIBI – IMTIYAZ VƏ MÜDIRI-MƏSUL: ƏLI PAŞA HÜSEYNZADƏ

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «Füyuzat».

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində.

Türkiyə sədriəzəmi və elmi-hüquq üləmayi-giramından Həqqi Paşa həzrətlərinin şəkili.

Səh.1

ALIRAM:

Müxtəlif cins heyvan və quş. Diri olurlarsa, daha gözəldir. Cansızları da alıram. Fəqət təzə olmalıdır ki, dərilərini doldurmaq mümkün olsun.

Satmaq istəyənlər hər gün saat 10-dan 2-yə qədər «Metropol» mehmanxanasında 4 nömrəlidə Q.Durova müraciət etməlidirlər.

11 yanvar 1911, №2, səh. 2

= RUSİYADA TATARLAR =
NASIL GİRDİLƏR? NASIL MƏHV OLDULAR?

Mabədi (ardı)

Tatarların Rusiyadakı bu müvəffəqiyətlərinə ən ziyadə kömək edən Vladimir prinsi Yaroslav olduğundan qıpçaqları Rusiyada tamamilə yerləşdikdən sonra bunu Moskvaya prins təyin edib Böyük prins ünvanını verdilər.

Digər kiçik prinslər bir vali (qubernator) hökmündə qalıb, qıpçaqlara vergi verirdilər.

Prinslərdən hankısı vergini çox verirsə, qıpçaqlar digərini əzl edib, onun yerinə çox vergi verən prinsi təyin edirdilər.

Rurik xanədanının Rusiyada hökuməti bu dərəcə alçaqlaşdığı halda yenə prinslər bir-birinə həsəd və xüsumətdən əl çəkməzdilər.

Qıpçaqlar Rusiyanın hər tərəfini zəbt etdikləri halda şimal tərəflərini zəbt edəməmişdilər. Halbuki Vasili adındakı Moskva Böyük prinsi şimal tərəflərdəki kiçik prinslərin istiqlallarına həsəd edərək qıpçaqları oraların zəbtinə təşviq və kömək etdi. Və qıpçaqları ta Finlandiyaya qədər yürütdü.

Halbuki qıpçaqların ruslar üzərinə bu qədər hökmləri 1463-cü sənəsinə qədər davam etmişkən biləxərə (nəhayət), əvvəlcə yazdığımız kimi, bunlar beş qismə ayrıldıqdan sonra o dərəcə hökm və nüfuzları qalmadı. Qıpçaqlar arasında bu zəf və ixtilafı görən Rusiya prinslərində qıpçaqlar əleyhinə bir ittihad və ittifaq fikiri oyandı.

Bir hökumət bir kərrə qıpçaqların halına düşdükdən sonra işi bitmiş demək olur. Ruslar da iki yüz qırx sənəlik əsarətdən çəkdikləri əziyyət və rəzalət üzərinə qıpçaqların bu zəifliklərindən istifadə etməyə qalxışdılar.

Bu işə ən əvvəl təşəbbüs edən İvan Vasilyeviç adında yenə Rurik övladından bir prins oldu. Əvvəla Novqorod şəhərini yeddi sənə müharibədən sonra zəbt edib Böyük prinsliyi oraya nəql elədi (köçürtdü)..

İvan Vasilyeviç bundan sonra digər Kiçik prinsləri də, kimini rizası ilə, kimini güc ilə təhti-itaət və ittifaqa aldı.

Əvvəlcə qıpçaqlar rus prinslərini bir-birləri ilə

vuruşduraraq Rusiyanı zəbt etmişdilər. Bu dəfə ruslar da o tədbirə müraciət etdilər. Və beş qıpçaq hökumətindən Nuqay hökuməti ilə ittifaq edib digər dörd qıpçaq hökuməti əleyhinə qiyam etdilər. Əvvəla 1481-də əsl qıpçaq hökumətini məğlub edib, sonra Krım hökumətini və sonra 1486-da Kazan hökumətini zəbt və bu surətlə tatarların Rusiyadakı 240 sənəlik hökumətlərinə xatimə çəkdilər (son qoydular).

İvan Vasilyeviç 1505 tarixində vəfat etdi. Yerinə oğlu dördüncü Vasili keçdi. Bu da atası kimi cəngavər bir prins idi. Bu zamana qədər hər nə qədər tatarların Rusiyada nüfuzları qırılmışsa da tamamilə məhv olmamışdı. Çünki rus prinsləri arasında daha nifaq və ixtilaf mövcud idi. Bunun üçün dördüncü Vasili əvvəla bu prinslikləri məhv edərək özünə tabe etmək istədi. Və şimal tərəflərindən bir neçə prinsi təhti-itaətinə aldı. Lakin bir tərəfdən rusların bu ittifaqları, bir tərəfdən də atasının Nuqay hökuməti-tatariyyəsi ilə etdiyi ittifaqı pozması tatarlara yenə bir ittihad sevdası verdi. Və 1521-də Krım və Kazan tatarları bilittifaq ta paytaxtı olan Moskva şəhərinə qədər hücum edib bütün oraları zəbt etdilər. Və bu dəfə bütün Rusiya yenidən tatarlara xəracgüzar oldu.

Dünyada hər müvəffəqiyyət ittihad ilə hasil olduğu kimi hər müsibət dəxi ittifaqsızlıq üzündən meydana çıxar. Əvvəlcə rusların ittifaqsızlığı Rusiyanı tatarların əllərinə keçirmiş, sonra tatarların ittifaqsızlığı o qədər zəhmətlə qazanılmış olan müvəffəqiyyətləri bərhava etmiş (heç etmişdir), üçüncü dəfə yenə tatar-

ların ittifaqı yenə Rusiyanı onlara xərcgüzar eləmişdir.

Tarix ayinəyi-ibrətdir. Keçmiş millətlərin əhvalını oxumaqdan məqsəd onları xoşbəxt, yaxud bədbəxt edən səbəbləri bilib ona görə hərəkət etməkdir. Yoxsa tarix masal (nağıl) kitabı deyildir. Tarixə ən çox möhtac olan nifaq və ixtilaf içində yaşayan biz müsəlmanlarız.

Biz tarixin içindən müsəlmanlara aid qismləri seçib Füyuzatda dərc ediriz. Ta ki, keçmişdəki xətalarımızı görəlim. Nə üçün bugünkü bədbəxt hala düşmüşük, biləlim. Və bizi bu hala gətirən səbəblərdən ictinab edəlim.

Mabədi var. (Ardı var.)

11 YANVAR 1911, № 2, səh. 2-4

ŞƏRQİ

TARZƏN CƏNAB ZEYNALA!

Nə üçün belə sitəmkar oldun?
Ahü giryəmləmi bizar oldun?
Fərti-eşqimdən, əvət, zar oldun!
Mənə ey vah ki, əğyar oldun!
Gözəlim, şimdi kimə yar oldun?

x x x

Əcəba, şimdi səni kim sayır?
Sevdiyim zülfünü kimlər darayır?
Kim ayağın öpərək yalvarır?

Mənə ey vah ki, əğyar oldun!
Gözəlim, şimdi kimə yar oldun?

x x x

Bir zamanlar mən idim taci-sərin,
Şimdi kimdir, gözəlim, dəmgüzərin?
Nərəyə getdi əcəb vədlərin?
Mənə ey vah ki, əğyar oldun!
Gözəlim, şimdi kimə yar oldun?

x x x

Gözləməzdim bunu səndən əsla,
Bumudur eylədiyin şimdi bana?
Əlvida! Ey gözümün nuru sana!
Mənə ey vah ki, əğyar oldun!
Gözəlim, şimdi kimə yar oldun?

Ə.K.

11 YANVAR 1911, № 2, səh. 4

ERKƏKLƏR VƏ QADINLARDAN TƏŞKİL OLUNAN CƏMİYYƏTİN VƏ ƏFRADININ TƏLİM VƏ TƏRBİYƏSİ

= 5 =

Erkək və qadınların vəzifələri sabiqdə müxtəsər vəchlə olsa da bəyan olundu. Şimdi isə onların dərəcəyi-ürfan və əxlaqlarına dair iradi-məqal etmək arzusundayıq. Erkək və qadınların vəzifələri zikr

olunduğu üzrə nə dərəcədə mühüm və ali olduğunu bəyan ilə bərabər ifayi-vəzifədə dəxi şu erkək və qadınlar kəndi vəzifələrinə arif olmaları icabı da zimnən anlaşılır zənnindəyəm. Elə bir cəmiyyətin əfradı kəndi vəzifəsini ifa etmək üçün, əlbəttə, vəzifəsinə dair məlumatı nə dərəcədə kamil olursa, ifayi-vəzifəyə istedadı o dərəcə ziyadə olacağı qabili-inkar deyildir. Buna görə cəmiyyəti-məzkurənin bütün əfradı erkək və qadınlar şu barədə təlimati-laziməni havi olmaları icab edir. Və şu təlimatın əsası həmti olmaqla bərabər, dərəcəsi dəxi cəmiyyətin kəndi mütalibat və məişətləri ilə tətbiq olunmaq lazım gəlir.

İşbu dərəcə isə müəyyən bir dairəyə girəməz cəmiyyətin kəndi vəz (vəziyyət) və keyfiyyətindən və icabati-məişətindən başqa bir mizanla məhdud olamaz. Ancaq hər bir insan namını üzərində daşıyan kəs mübtəlayə olan təlimati-ibtidaiyyə vəzayifi-bəşəriyyəsinə kəndisinin arasında yaşadığı əqvamın lisanı və müxtəsər tarixinə, yaşadığı məmləkətin tarix və coğrafi məlumatına və məişətdə möhtac ileyh bulunan elmi-hesaba lüzumu qədərincə də olsa, dara olması icabı bədiyyatdandır. Belə bir cəmiyyətin əsası əqli-səlim olduğu üzrə şu cəmiyyəti içrə yaşayan əfrad dəxi qıdanın cismə olan nisbətindən qüvvəyi-əqliyyə ilə daha şiddətli münasibətdə bulunan maarifi-laziməni dəxi havi olmalıdır.

İştə bütün əvair və mənahinin mizanı şu ağıl ilə mülamati-əqlıyyə olmalıdır. Bunda heç bir şübhə yeri yoxdur. Fikrində, qövlində, etiqadında hər bir kəs

müstəqil olub, təqlidə yol buraxmamalıdır. Təqlid isə fəqət sənayiyi-əməliyyədə cayiz olduğu bir kərrə düşünməlidir.Xülasə, hər bir kəs sərbəst olub, insan kimi yaşamalıdır.

Şu cəmiyyət əfradının əxlaqına gəldikdə hər bir kəs ədnas və xəbasəti-nəfsaniyyədən ari olub, məkarimi-əxlaq və məhasini-adabı havi olmalıdır. Hər bir fərd cəmiyyətin hal və məsləkinə münasib tərbiyəsi validəsinin südü ilə başlayıb ta qəbr evinə gedənəcən bir məslək, bir həqiqət tanımalıdır. Bu vəchlə çocuq arasında təəyyüş etdiyi ailə, mütəəlliqati-ailə, xanada, küçədə əlaqədar olduğu çocuqlarda və darüttərbiyə və darüttəlimi bulunan məkatib (məktəblər) və mədarisdə (mədrəsələrdə) və sonralıqla mərbut bulunduğu (aid olduğu) əfradi-cəmiyyət və təşkil etdiyi içrə dəxi həman birinci dəfə olaraq validəsinin südü ilə təlqin olunmuş həqiqəti görməli və o həqiqəti eşitməlidir. Əfradi-cəmiyyət ümumən cəmiyyətin kəndi məqsədi üzrə tərbiyə olunduğu kimi əfradi-cəmiyyət dəxi şu cəmiyyəti bir məqsəd və bir məslək üzrə təşkil və təsis etməlidirlər. Şu cəmiyyətin mühafiz və dayəsi də o cəmiyyət olmalıdır.

Cəmiyyət kəndi əfradı arasında məkarimi-əxlaq, təqva və ədalətdən başqa bir mabəül-imtiyaz tanımadığı kimi şu xassələrə malik olmayan əfradı dəxi kəndisinə mənsub ədd etməlidir.

Əmri-məruf və nəhi münkər şu cəmiyyətin birinci xassəsi olmalıdır.

Kəndisi kəndi əfradı üzərində kontrol olmalıdır.

Əfradın bütün əfkar və məsləklərini, təriqələrini, əfal və ətvarını təğva və ədalət ilə və həqiqət namı ilə müvazinə qılmalıdır.Bu vəchinə «Novalis» cənablarının «Sağlam bir bədən və səhih bir fikir bəşəriyyətin birinci məsudiyyətidir» kəlamı mövcibi ilə səadəti-bəşəriyyə və həqiqəti-əbədiyyə meydana çıxmalıdır.

İştə fərz etdiyimiz, daha doğrusu, irəlidə söylədiyimiz vəchlə təşil oluna bilən cəmiyyətin və fəradının halı məkarimi-əxlaq və məhasini-ətvar və təlimati-ibtidaiyyə dairəsindən xaric olmamalıdır.

Fövqdə zikr olunan övsafa dara olmayan (malik olmayan) bir insan şu cəmiyyəti-bəşəriyyəyə üzv hesab olunmadığı kimi, elə bir məfluc (fələc) və qeyri-müalic bir üzvi dəxi cəmiyyəti-məzkurə kəndisinə əza hesab edəməyəcəyi də bədihidir. Ancaq bu vəchlə şü əfradın həqiqət və ciddiyyətləri mühafizə olundüğü kimi, cəmiyyətin kəndisi də həqiqət və ciddiyyət şərəfinə nail olmaqla səadəti-əbədiyyəyi bəşəriyyə hasil ola bilər.

İştə insanlar ancaq bu vəchlə məsud olub (xoşbəxt olub), bəşəriyyətin üzü bəxtiyaranə gülə bilər.

Fəqət bu surətdə erkək ilə qadınların əlaqələri müqəddəs qala bilər, ciddi və səmimi ola bilər.

AXUND YUSİF TALIBZADƏ
11 YANVAR 1911, № 2, səh. 4-6

Ehtirasat və iqrazi-bəşəriyyəni heyvanlara tənqid etdirməklə bütün aləmi-mədəniyyətdə şöhrət qazanan

misiyo Durovun şəkilidir ki, bu ayın 22-nə qədər sirkdə ərzi-hünər edəcəkdir.

Gələn nömrədə bu zatın haqqında ərzi-mütaliə olunacaqdır.

11 YANVAR 1911, № 2, səh. 5

= MƏRHƏMƏTLİ ƏDHƏM = MABƏDİ (ARDI)

Vurur yenə qəməsin həpsi onda hiddətlə,
Çatıb da qaşlarını qeyz ilə, məhabətlə.

Ağızlarında dəmadəm təraneyi-qovğa,
Ürəklərində coşar intiqami-qeyzəfza.

Qoşub bu dəmdə kamali-tələş ilə Aslan,
Əli-ayaqları titrər kimi gözləri giryan.

Aman! Amul bəyi qətl etdilər, verincə xəbər,
O anda ortalığı aldı bir sükut, kədər.

Zavallı Ədhəm o dəm iztirab ilə durdu,
«Bilirmisən kim idi qatili?.. aman, sordu,

Ədil adında bir alçaq, hərifi-kəmfürsət,
Üzündə bərq vurur Ədhəmin qəzəb, hiddət.

Şu zalım ah, mənim yaxdı könlümü, heyhat!
Gəmiklərim qırılıb, zəhərləndi iştə həyat.

Bir arslan kimi hayqırdı, durdu hiddətlə,
Zavallı xanasına qoşdu getdi sürətlə.

Süvar olub atına, qəlbi kin ilə doldu.
Misali-bərq nəzərdən o an nihan oldu.

Dağı, daşı çaparaq ildırım kimi dolaşır
Yanar durur, ürəyi intiqam üçün alışır.

Uzaqda iştə qaraltı görər, sanır düşmən
Yaxınlaşır, «o deyilmiş» deyə edir şivən.

Köpüklənib tər içində zavallı at qaçır,
Burun dəlikləri şişmiş köpük duman saçır.

Dəli kimi dolaşır, bir şey olmayır hasil,
Nə etsin, ah, nə çarə, bulunmayır qatil.

Yanar bütün bədəni, seynəyir dodaqlarını,
Damarlarında alov, yandırır yanaqlarını.

Mabədi var.

A.Ş.

11 YANVAR 1911, № 2, səh. 6

= TƏBİƏTİN MƏHSULATI VƏ CƏMİYYƏTLƏRİN İQDAMATİ =

Hava tutqundur, sanki Bakının mühitini bu altun mədənli torpağı mühit olan hava təğyir edib, bir başqa hüznavər, kədərəngiz, həsif hava əhatə etmişdir.

Hava o qədər bulanlıqdır ki, yek nəzərdə (ilk nəzərdə) güya Bakının ətrafında bulunan mədənlərdən dəhşətli bir yanğın çıxıb, bu mühitə hisdən yaranmış bir başqa mühit bəxş edibdir.

Ox! Hələ soyuğun şiddətini hiss edincə insanın düşüncəsi də başqa aləmlər seyr edir.

Mühit də bir başqa anadır.

Nasıl insanın anası, atası hər bir halətdə, xasiyyətdə, istedadda olursa, onların məhsuli-həyatları da o mənbədən bir nümunə olma olur.

Fəqət insanın böyük anası olan mühit gülərsə, övladları da gülə, ağlarsa, o mühitdə yaşayanlar da nərədən nəşət etdiyi məlum olmayan bir kədərlə ağlarlar. Bunu ümumi ərz ediriz. Zira ki, birər-birər insanları düşünsək, o vaxt halət həp bir az təğyirə düşməz. O halda hər bir insanın məişət və binaən ileyh haləti-ruhiyyəsi və maddi və mənəvi səfhələri cayi-tədqiqdir.

O qoca elmi-ruh alimlərinə məlum olan əsbabdan naşi insan vardır ki, daima ağlar, ürəyi cəli kədər ilə ləbaləbdir. Belə insanlara mühitin hər bir əyşasından sanki hüznavər nidalar eşidiriz.

Şöylə ki, baharın çəmənzar, gülüstan səhifələrində o dilaviz məvaqedə yaşıl yarpaqların həzin xışıltıları, qönçələrin, rəngarəng güllərin o məsumanə baxışları, hələ bülbüllərin, o sevimli quşcığazların xoşavaz tərənnümləri bu halda insanlara başqa hissiyyat bəxş edər. Xatirindən çıxardır, fəqət alomı da başqalaşır.

Sədəddən ayrıldım. Məni düşündürən qəflətən hücumavər olan bu şiddətli bürudətdir.

İştə o gün axşamçağı evimizdə otağımda oturmuşdum. Ağaclar o çılpaq bədənlərilə ruzigarın şiddətli hücumundan sanki titrəyirdilər. Ruzigarın şiddətli əsiməyi sanki odada olanlara da hücumavər olduğundan pəncərələr və qapılar ilə çırpışırdılar. Bu çırpışmadan bir vıyıltı eşidildi.

Ox! Bu vıyıltı pək çox şeylər ishas edirdi. Mazidən (keçmişdən) unudulmuş hekayələri təzkar və istiqbaldan birər hallar (gələcəkdən) ixtar edirdi.

Təxminə on-on beş dəqiqəlik bir sükuta daldım. Müttəsif (daim) pəncərədən nəzərimin önündə cərgə ilə əyilmiş qoca ağaclara baxırdım. Ağaclar bütün vücudu ilə titrəyirdilər. Bu mənzərədən, ruzigarın vıyıltısından güş və huşuma ələm gəlirdi. Şair olsaydım cümlə hissiyyatımı əks edə bilərdim.

Fəqət təhrinə müqtədir olduğum hissiyyat bu idi:

Ey bəşər! Var qüvvəniz ilə səadəti-aləmə doğru çalışınız!

Məsum pak qəlbə müdam çalışanlar aranızda vardır. Onları yalqız buraxmayınız!

Hər bir ədavət və fəna xasiyyətlərdən mübərra, saf qəlbli, mürrüvvətli insanların, daha doğrusu, gözü yaşlıların həqiqi atası o ali-təb insanları görməyirmisiniz?

Bizlər onları unutmamalıyıq. İştə bu viyiltılar məzlumların ah-əninlərinə və o həqiqi atalara birər nalədirlər.

Görürmısınız bizlər müdam, müttəsil hərəkətdəyiz. Həm də istiqbal üçün, bu günün fərdası üçün hərəkətdəyiz.

İştə bu anda gözüm müttəsil bir nöqtədə baxdığından qaranlıq gətirib, daha nəzərimin qarşısında titrəyən ağacları o bəyaz qar dənələrini küləyin vıyıltısını eşitməyim, görməyim. Həpisi nihan oldu.

Ox! Bu düzən səhraya baxınız! Günəş təzəcə doğulub, hava sakit, sünbüllər həzin-həzin xışıltılar ilə təməvüc edirlər.

İştə yer sahibi əlində atının cilovu, çal saqqal, əynində don, sinəsini havaya məruz çalışqan bir kişi durur. Çəkdiyi zəhmətlərin xeyirli nəticəsini görür. O, bol məhsulata baxır. Qəlbi məsrur! Möhtərəm qare, hələ o yamaca bax, məhsulat bu il nə gözəl olmuş. İştə kamali-ləzzətlə birincilər dərz bağlayır. Ötədən bəri də arabalar yola düzülüb.

İştə minlərcə külfətlərin mədari-məişəti. Oraya bix! Nə gözəl bağdır. Uzaqdan sanki meşəlik.

AĞABABA

11 yanvar 1911, №2, səh.7

= MƏKTƏB =
MƏSƏLƏ

Bir hovuz 240 vedrə su alır. Bu hovuza iki musluqdan (krand) iki dəqiqədə altı vedrə su gəlir.

Hovuzun altında da bir musluq var. Bu musluqdan da iki dəqiqədə üç vedrə su hovuzdan xaricə çıxır.

İndi hovuz boş ikən bu musluqların üçü də birdən açılsa əcəba hovuz nə qədər saatda dolar?

Bu məsələnin mükafatı bir aylıq abunədir.

Mükafat qazananların məktəb müdirlərindən məsələni həll edən özləri olduqlarını müsəddiq bir kağız alıb, idarəxanamızdan abunə sənədlərini almaları rica olunur.

MÜKAFAT

«Füyuzat»ın on birinci nömrəsindəki məsələni həll edənlərin adlarına çəkilən qürədə mükafat Bakı «Realni» məktəbinin ikinci sinifində Kərim Cəfərzadəyə isabət etməklə abunə sənədini gəlib idarədən ala bilər.

Heyəti-qürə:

Əhməd Kamal, Mehdi bəy Hacinski, Əli Paşa Hüseynzadə.

11 YANVAR 1911, № 2, səh. 8

EŞİDƏNƏ:

İştə İran, iştə Türkiyə, uzağa getməyin!
Bir bina təcdid olunmaz əksəriyyən çökmədən.
Həll olundu məsələ, bihudədir gəlməz sonu,
Tifl hürriyyət doğursa, ola qan tökmədən.

ƏŞRƏF

ŞƏHIDI-HÜRRIYYƏT SƏID SƏLMASININ RUHUNA ITHAF

Bu baxışlar məlalü hüzn saçar,
Bu baxış dağidar edər ciyəri.
Qəlbə min dürlü yəsü matəm açar,
Səndə gördükcə bu nigahləri.

x x x

Ah ey növcavan ki, qəlbində,
Daima bəslədin həvayi-Vətən.
Vətən uğrunda, millət eşqində,
Laləgün oldu qanlarınla kəfən.

x x x

Əsfa! Vermədi əcəl möhlət,
Görməyə şadkam millətini,
Düşmənin vermədi sənə fürsət,
Etdi nabud fikrü niyyətini.

x x x

İştə fikrindəki səbati-hümənm.
Verdi tərcih cana cananı.

Rühi-pakın tutub təriqi-ədəm,
Sinə çak etdi əhli-İranı.

x x x

Saf qəlbinlə bəzli-himmət edib,
Qeydi-dünyadan oldun azadə.
Həsrətü yəsü arizu ilə gedib,
Müstərih ol behişti-əladə.

x x x

Dediyin tək həyati-istiqbal,
Oldu axır fədası məsləkinin.
Can nisar etdin, etdin istikmal,
Qaim oldu əsası məsləkinin.

x x x

İştə min kərrə mərhəba olsun!
O mübarək nihadü fitrətinə!
Cismü canım mənim fəda olsun,
O müqəddəs türabi-türbətinə!

ƏLİQULU NƏCƏFZADƏ

11 YANVAR 1911, № 2, səh. 8

«YENİ FÜYUZAT»

№ 3
İkinci sənə:
18 YANVAR 1911

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ – MTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «Füyuzat».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində

CƏNAB FƏXAMƏTMƏAB (FƏXR OLUNASI) NAYİBİ-SƏLTƏNƏTİ-İRAN NASİRÜLMÜLK HƏZRƏTLƏRİ

İştə bütün sui-əhvalın, sui-təlim və tərbiyədən nəşət etdiyində diplomatlarımız, mühərrirlərimiz, bütün ərbabi-əql və ürfanımız müttəfiqdir.

Hətta İran mayibüssəltənəsi cənab fəxamətməab Nasirülmülk həzrətləri Bakıda ziyarətləri ilə müşərrəf olan zəvatın bir çoxunun bu nöqtəyə nəzər-diqqətini cəlb edərək, ən ziyadə şikayət etdikləri müsəlmanlar arasında nifaqdan və ən ziyadə nəsihət elədikləri səmimi bir ittifaqdan ibarət bulunmuşdur.

18 YANVAR 1911, № 3, səh.1

SİYASİ

POTSDAM MÜLAQATI

Bu son həftənin ən mühüm xəbəri Almaniya ilə Rusiya arasında vaqe olan Potsdam mülaqatıdır.

Bu mülaqatda iki dövlət İrandakı məqasidi-siyasiyyələri ilə Hind dəmiryolu xüsusunda müzakirə və bəlkə müahidə etmişdilər, deyiliyir. Bir neçə zaman-dan bəri yalnız İran dairəyi-siyasətində deyil, bəlkə bütün məsayili-siyasiyyədə bir-birinə zidd yollar təqib edən bu iki dövlətin belə birdən-birə nagəhan olaraq Potsdam şəhərində əqdi-mülaqat etmələri bütün Avro-pa kabinələrini, baxüsus İranla əlaqədar olan dövlətləri təlaşa düşürdü. Hətta Osmanlı məclisi-məbusanında bu

xüsusda atəşli münaqişələr cəryan etdi. Xariciyyə nazirindən bu mülaqat xüsusunda izahat istədilər. Xariciyyə naziri də bu mülaqatın əvvəlcə Osmanlı xarici nəzarətinə rəsmən xəbər verildiyinə və bu mülaqatın siyasəti-haziräni dəyişdirəcək bir rəng və mahiyyətdə olmadığına dair məclisi-məbusan Osmanini iqna edəcək (qənaətləndirmək) sözlər söylədi.

Bu müahidənin bağlanıb-bağlanmadığı və əgər bağlanmışsa nə şəkildə olduğu hənuz (hələlik) məlum deyildir. Məlum olan bir şey varsa, o da Yapon müharibəsində olduğu kimi, bu dəfə dəxi Rusiyanın Alman siyasiyyonu tərəfindən aldanılmış olması və son zamanlarda Rusiyanın aləmi-siyasətdə peydərpey (dalbadal) müvəffəqiyyətsizlikdən müvəffəqiyyətsizliyə düşməsidir.

İngilis mətbuatı müahidənin şəkilini bu surətlə göstərir:

1) Almaniya tərəfindən çəkilməsi təsəvvür olunan Hind dəmiryolunun məsarifini (xərcini) Rusiya dəröhdə edir. (öhdəsinə götürür)
2) Bağdad dəmiryolu bitdikdən sonra Rusiya bu yoldan Xaniqeyn (Kərbəla tərəfindədir) şəhərinə bir şöbə çəkəcəkdir.
3) Almaniyanın Xaniqeyndən şimala dəmiryolu çəkməyə ixtiyarı yoxdur.
4) Almaniyanın İranda siyasi bir məqsədi və yer almaq niyyəti olmadığı kimi Rusiyanın rizası (razılığı) olmadan İranın şimal tərəflərində də heç bir imtiyaz almayacaqdır.

İştə Londra (London) mətbuatı müahidəni bu şəkildə təxmin edir. Müahidə nə şəkildə olursa olsun, zənnimizə görə, Almaniya iyirmi sənə bir çox məsaiyi-siyasiyyə nəticəsi olaraq əldə etdiyi Osmanlı dostluğunu belə bir dəqiqədə pozacaq qədər qafilanə bir hərəkət ixtiyar edəməz.

Şimdiyə qədər İran işlərində Almaniyanın Osmanlı ilə bərabər çalışdığına qane olan fikirlər Almaniyanın bu son hərəkətlərindən əndişəyə (düşünməyə) düşürlərsə də, buna məhəl yoxdur. Çünki Osmanlı dövlətinin İrandakı qil və qal (hay-küy) siyasiyyəyə müdaxilə etməsi və müdaxiləyi-əcnəbiyyəyə mümaniət eləməsi dövləti-Osmaniyyənin heysiyyət və vəziyyəti-siyasiyyəsinə mərbut bir məsələdir. Bu kimi mülaqatlar Osmanlı kabinəsini xövf və tərəddüdə düşürməz zənn ediriz.Əgər rus və Alman tərəqqübü (yaxınlığı) doğru çıxarsa, bundan ən ziyadə təhlükəyə düşəcək Fransadır. Çünki meydani-siyasətdə tək qalaraq əhəmiyyəti-siyasiyyəsini bilmərrə (tamami ilə) qaib edəcəkdir.

Lakin neçə sənələrdən bəri əlaqati-iqtisadiyyə və siyasiyyə ilə biri-birinə bağlı olan Rusiya və Fransanın belə mühüm məsayili-siyasiyyəyə girərkən yekdigərini xatirdən çıxarmalarına da ağıl irməz. Bu cəhətdən ehtiyat ilə mülahizə edilmək lazımdır.Gərək Osmanlıya, gərəksə İrana xaricdən o qədər təhlükə yoxdur. Bunu neçə dəfə dedik, yenə deyiriz. Bunlara təhlükə daxildən, yəni kəndilərindən gələcəkdir.

«Yeni Füyuzat»da İran işləri münasibəti ilə Xivə tarixindən bir nübzə yazdıq. Bu son nömrələrimizdə də

tatarların Rusiyaya nasıl gəldiklərini və tamam iki yüz qırx sənə bütün Rusiyada hökmran olduqdan sonra nasıl və nə səbəblərlə hökumətlərini qaib etdiklərini yazırız.Tarixdən bu mənhus səhifələri çıxarıb ortaya qoymaqdan məqsədimiz həp mazidə nə qədər cəmiyyətlər təşəkkül etmişsə, ittifaq sayəsində təşəkkül etmiş olduğunu və nə qədər hökumətlər, millətlər, cəmiyyətlər dağılmışsa, biləks, nifaq və şəqaq bəlası ilə dağılmış bulunduğunu göstərməkdir.

Eyni səbəblər, eyni nəticələr tövlid etmək qəziyəyi-qətiyyədir.

İştə aləmi-islamda bu gün o hökumətləri, o cəmiyyətləri tarmar edən əsbabi-mənhusə pəncəsindədir. Binaən ileyh əgər bu hal davam edərsə, onların düçar olduqları nəticələrə düçar olmaq da aləmi-islam üçün, məazallah, təbii və qətidir.

Müsəlmanlar arasında taundan mühlik bir mərəzi (xəstəlik)-i-müxərrib olan nifaq və şəqaqi-mövcud olduqca düşmən xaricdə aramaq böyük bir qəflətdir. Zatən xaricdəki düşmənlər də daxildəki düşmən nifaqdan istifadə edirlər.

Gərək İranda, gərək Osmanlıda əcnəbiyə satılmış nə qədər nazirlər, nə qədər məbuslar, nə qədər mühərrirlər var?

Bu gün Osmanlı məclisi-məbusanındakı xəlafgiranın qilü qalına qulaq verilsə, həpisi əcnəbi amal və əqrazının türkcə tərcümə və təqririndən ibarət olduğu çox Sühulətlə anlaşılır.

Bütün o şiddətlərdə, bütün o hiddətlərdə bir

əcnəbi ürəyinin titrədiyi, çarpındığı görülür. Bu əhvalın həpisi, məəttəəssüf, tərbiyəyi-şəxsiyyə, tərbiyəyi-milliyyə və tərbiyəyi-ictimaiyyəmizin füqdanından nəşət edir.

Əvət! Əgər tərbiyəyi-mühitiyyəmiz, əhvali-ictimaiyyəmiz belə məfasid əxlaqın təzivinə müsaid olmasaydı, bittəb bunlar kimi vətənfüruş, millətfüruş, dinfüruş üzviyyati-səxifə bizim aramızdan zühur etməzdi.

Məzbələ (zibil) mövcud olduqca, çibin əksik olmaz. Bunun üçün məzbələni təmizləmək lazımdır. Binaən ileyh biz də bu məfasidi-əxlaqdan qurtulmaq istəsək, hər şeydən əvvəl əhvali-ictimaiyyəmizi tərbiyə etməliyiz ki, mühiti-müstəqbəl bu yoldakı istadadidənidən azadə olsun.

Bu da ancaq şərayiti-xüsusiyyəti-milliyyə ilə qabili-imtizac bir mədəniyyətin məmləkətlərimizdə təsislə mümkündür ki, bu imkanın da dərəcəyi-təcəllisi təlim və tərbiyəyi-ibtidaiyyəyə sərf ediləcək diqqət və məsai ilə mütənasibdir.

Halbuki biz müsəlmanlarda şimdiyə qədər ən ziyadə ehmal edilən məsələ iştə bu tərbiyə və təlimi-ibtidai məsələsidir. Bunun üçün də bir tərbiyəyi-məxsusəmiz yoxdur. Bir tərbiyəyi-məxsusə ilə böyüməyən bir şəxsin, bir cəmiyyətin, bir millətin də bir məqsədi-məxsusi, bir məsləki-məxsusu olamaz. O şəxs də, o millət də ən nəhayət bizim düşdüyümüz bugünkü halişurişə düşər.

Tarix bizə belə göstərir. Belə olmuş və belə

olacaqdır. Nəhayət, əqrazi-müxtəlifə, (ayrı-ayrı qərəzlər), amali-mütəqəyyirə, məfasidi-mütəvaliyyə (ardıcıl fəsadlar) içində yuvarlana-yuvarlana əğyarın baziçəyi-dəsayisi olur.

İştə bütün bu sui-əhvalın sui-təlim və tərbiyədən nəşət etdiyində diplomatlarımız, mühərrirlərimiz, bütün ərbabi-əql və ürfanımız müttəfiqdir.

Hətta İran nayibüssəltənəsi cənab fəxamətəab Nasirülmülk həzrətləri Bakıda ziyarətləri ilə müşərrəf olan zəvatın bir çoxunun bu nöqtəyə nəzər-diqqətini cəlb edərək ən ziyadə şikayət etdikləri müsəlmanlar arasındakı nifaqdan və ən ziyadə nəsihət elədikləri səmimi bir ittifaqdan ibarət bulunmuşdur.

Bu gün də Osmanlıda «İttihad və tərəqqi» firqəsi əleyhinə işləyən dəsisələr də bu növ bir məfasidi-siyasiyyədir ki, Vətənin bəqa və fənasını müsavi (bərabər) hesab edənlər tərəfindən icra edilir. Lakin bunu yəqinən bilməlidir ki, əgər «İttihad və tərəqqi» firqəsi məğlub olursa, Türkiyə növbənöv firqələrin amali-xüsusiyyələrinə meydani-ləhs və ləb (oyunlar) olacaqdır ki, bu da Türkiyənin əsbabi-məhvini hazırlar.

Şükür Allaha ki, bu firqənin salamat niyyəti, qüvvəti ara-sıra baş göstərən və iqrazi-əcnəbiyyəyə alət olan firqəbazları tez təskin edə bilir. (sakitləşdirir).

ƏHMƏD KAMAL

18 YANVAR 1911, № 3, səh. 2-5

BƏDAYİ - ƏŞAR =

SON CAVAB!

Sizi şairliyimlə süsləyərək
Bir zaman sevmək istədiyimdi, fəqət
Anladım, istəməksizin bilmək,
Sizi qəlbimdə tutdu şövqi-həyat...

x x x

Sizi heç şimdi sevmiyor ruhum,
Ürəyim qarşınızda bixəlcan,
Kim demiş eşqinizlə məcruhəm?
Baxınız, gözlərim nasıl xəndan!

x x x

Söndü artıq təhəssüsi-mazi,
Həp xəyal oldu, şimdi, ox sizi
İnanın, sevgilim. ki, sevmiyoram!

x x x

Bu sözün hər dəqiqə təkrarı,
Siliyor xatirimdən əkdarı.
Sizi heç sevməməklə məsruram!

CALAL SAHİR

İSTAMBUL
18 YANVAR 1911, № 3, səh. 5

ERKƏKLƏRİN VƏ QADINLARIN MADDİ TƏMİNATI

- 6 -

Erkək ilə qadın məişət mövcibincə maddiyyatla uğraşmaları məcburiyyətini əvvəlcə dərxatir etdik (xatırladıq). Bununla bərabər, onlar kəndi əlaqələrində fəqət mənəviyyat təriqi olan məhəbbəti-səmimiyyə üzrə bir-birilərinə mərbut olmaları icabını və necə ki, qadın, elə də erkək imrari-məişət cəhətindən əmniyyəti-tamə hasil etdikdən sonra onlar üçün məhəbbəti-səmimiyyə üzrə əlaqədar olmaqdan maföVq bir səadət və arzu fərz oluna bildiyini irəlidə söyləmişdik. Şu əsasi-müqəddəs rəxnədar olmamaq üçün erkək və qadınların maddiyyətcə halını təmin etmək icab edir. Ona görə də bu dəfə şu dairədə bəhs etdiyimiz lazım gəlir.

Qadınlar təbii maddiyyatın təhsilinə təmin və təyinat cəhətində artıq müstəid olmadıqlarından birinci olaraq onların təmin halına dair iradi-məqal ediriz.

Qadın təzəvvüc etdikdə (evləndikdə) istiqbalı düşünər. Gələcəkdə övladının təmini-halı xatirinə gələr. Zövcü (əri) məfqud olduqda nasıl təəyyüş edə biləcəyini dərxatir edər. Bunlar üçün təbii təminat yolları aramaqda məcbur qalar. Başqa bir məhəl bulunmadığından bu təminatın həpisini əlaqə etmək istədiyi zövcinə aid qılar. Onun təzəvvücü sayəsində arar.

İştə mənsub olduğu və arasında yaşadığı cəmiyyət qadını bu əndişələrdən azadə qılarsa, təbii, qadın da

kənlisi üçün məişət yoldaşı və həyat sirdaşı aramaqda sərbəst bulunar. Əlaqədar bulunduğu rəfiqini şəxsiyyət və heysiyyəti-zatiyyəsi ilə təqdir edər və onu kəndi həyatına və şəxsiyyətinə münasib bir rəfiq ədd edib, məhəbbəti-səmimiyyə üzrə onunla əlaqədar olar, səadət bular. Bu yolda erkək halı dəxi qadın misalıdır. Təzəvvüc əfkarı ortaya gəlincə məişət etmək, övlad bəsləmək və ətfal tərbiyət verib, həddi-rüşdə yetirmək, ailə idarəsi və xanədarlıq məsələsi, kəsbə ədəmi-iqtidarı, qocalığı və bəlkə, vəfatı, ondan sonra bağimandə ailəsinin halı bütün-bütünə onun nəzərinə gəlir və qəlbinə birinci olaraq bunlar xütur edər (xəyalından keçər).

Əlbəttə, bu mətləbə dair erkəyin təminatı mövcud bulunarsa, kəndi həyatında məsudanə yaşamaq üçün ancaq bir rəfiqəyi-müvafiqəyə möhtac bulunduğunu hiss edər və onun intixabında sərbəstanə məhəbbətdən başqa bir imtiyaz aramaz.

İştə hal bu minval üzrə olduqdan sonra erkək ilə qadınların məişəti-həyatiyyə və atiyələrini mənsub olduqları cəmiyyət təmin edərsə, əfradın kəndiləri bəxtiyaranə bir surətdə bulunduqları kimi, şu cəmiyyəti-mütəşəkkilə dəxi nə dərəcədə məsud və bəxtiyar bir cəmiyyət ola biləcəyi dəxi bədihidir.

Cəmiyyətin özü əfradını təlim və tərbiyə edər, onlar üçün xidmət arar, xidməti bulunmadıqda maaş verər. Möhtac qaldıqda müavinətdə bulunar, övladını tərbiyə edər, lazım olan təlimi xətmi olaraq əta edər. Əfradının bütün ehtiyacatını hüsula gətirməklə onları

səfalət və bətalətə düçar olmalarından xilas qılar.

Xülasə, işbu cəmiyyət bütün əfradının hamisi olar və onlar üçün məsudanə bir tərzi-məişət yolu açar və onlara məsudanə bir həyat bəxş edər. Belə ki, şu cəmiyyətin əfradı möhtac və ehtiyac nə olduğunu dəxi düşünməz. Belə ki, bir parası kisrətdən və bir qismi dəxi ehtiyac və şiddətdən kəndi məişətlərində şaşıb məbhut qalmaq (mat qalmaq) kimi ifrat və təfrit yolları məsdud (bağlı) qalar.

Belə bir tərzi-məişətin təsəvvür və təsviri bir xəyali-məhzdən ibarət qalacağı qarelərimizin zehninə çarpacaqdır. Burasını bilirik, ancaq gələcəkk məbhəslərdə şu fikrimizin hüsulpəriz ola biləcəyi xüsusunda bir az da izahat verməklə qarelərimizi iqnaə çalışacağız.

İştə şöylə bir cəmiyyət və elə əfradi-cəmiyyət hüsula gələ bilməsi məsələsi islamiyyət qanun və şəriəti-mütəhhərəsi ilə təlqin və iraə olunduğunu dərk edəcəyiz.

İşbu vəchlə erkək və qadın maddiyyətcə təminati-taməyə malik olduqdan sonra ruhaniyyət hüsndən heç bir halda ayrılmayan insanların hissi-ruhanilərinin nə dərəcədə izdiyad edəcəyi bir dəfə təsəvvür olunsun və şu ruhaniyyətdən məhrum qalmaqla insanlar nə qədər mənəvi və həqiqi həyata nail ola biləcəkləri xatirə gətirilsin.

İştə nə səadət! Və nə müqəddəs həqiqət!

Erkək ilə qadına şu səadəti bəxş etməyi onlardan təşkil olunan cəmiyyətin üzərinə mühəvvəl etdik.

Gələcək məbhəsimizdə şu cəmiyyətin kəndi halı və təmini-əhvalına dair bəsti-kəlam edəcəyiz. Şu surətdə işbu məsələmizin həlli yolunda bir qədər də izahata lüzum vardır, zənn edirəm.

MABƏDİ VAR (ARDI VAR)

AXUND YUSİF TALIBZADƏ

18 YANVAR 1911, № 3, səh. 5-6

MƏZHƏKƏYİ-İCTİMAİYYƏ VƏ SİYASİYYƏ ARTİSTİ

Keçən nömrədə şəkilini gördüyümüz müsyo Durovun əhvalatından.

Vladimir Durovun Senbernar adında bir iti var ki, «Mama» kimi bir neçə kəlməni adətən insan kimi tələffüz edir. Sirkdə bir neçə kəlmə danışdıqdan sonra adəti üzrə həmişə əli ilə quyruğunu tutur.

Bu iti Durov bir dəfə Yaltada sirkdə çıxarmış və yenə orada yenə it quyruğunu tutunca Durov qışqırır:

-Yavaş, quyruğunu çıxarma! Yoxsa bəzi məşrutələr kimi quyruqsuz qalarsan.

Bu sözləri general Dumbadzeyə nəql etmişlər. General Dumbadze hökm edir ki, quyruq xüsusunda Durov bundan sonra bir daha söz söyləməsin.

İkinci günü camaat qəsdən sirkə toplaşırlar.

Dumbadze cənabları da camaat ilə bərabər sirkə təşrif gətirir. Məzhəkə əsnasında növbət ilə gələndə camaat pək çox iztirab ilə dinləyirlər ki, it ilə Durov nə söyləyəcək.

Durov it ilə bir neçə fokus göstərir. Sonra növbət quyruğa gəldikdə Durov qışqırdı:

-Camaat, axırıncı nömrəni göstərməyəcəyəm. Çünki general Dumbadze quyruq haqqında göstəriləcək fokusu mən etdi.

Bu əsnada camaat gülməyə başladı. General Dumbadze qəzəblənir. Hökm edir ki, vapuru bəkləməyərək Durovu at ilə Odessa şəhərinə göndərsinlər. Durovu Yaltadan ixrac edərək Odessaya göndərirlər.

Odessada dəxi Durov ilə qrada-naçalnik Zelineyev arasında aşağıdakı əhvalat vaqe olur.

Sirkdə fasilə vaxtında general Zelineyev zala gedər. Təsadüfən Durov da zalda camaat ilə bərabər əyləşmiş olur. Qrada-naçalnik zala girəndə camaat birdən ayağa durur. Fəqət Durov heç yerindən qımıldanmaz. Qrada-naçalnik Durovun ayağa durmadığını görüncə qeyz ilə qışqırır:

- «Dur ayağa! Mən Zelineyevəm.»

Durov:

- Pək gözəl! Siz yetişəndə mən də sizin hüzurunuzda ayağa duraram.

Qrada-naçalnik o dəm istər ki, Durovu sirkdən ixrac etsin. Fəqət camaat pulu geri istəyəcəyindən qorxaraq bir söz deməyib, tamaşanın axırını bəklər.

Durov isə axırıncı oyunu göstərirkən donuzların

birini gök rəng ilə boyayıb səhnəyə çıxarır. Və başqa heyvanları da səhnəyə çıxaranda hökm edir ki, cümləniz bu donuza baş əyiniz. Çünki bu kökdərzə Leoniddir.

Qrada-naçalnik bu hərəkəti görərək sabahnan Durovu Odessadan da ixrac edir.

Keçən gecə Nikitin bəradərlərinin sirkində icraiyi-hünər edərkən pişiklərlə siçanları bir arada rəqs etdirirdi. Bu əsnada dedi ki:

«Qəribədir ki, mən tək bir adam təbiətin biri-birinə düşmən yaratdığı pişik ilə siçanı barışdırmağa müvəffəq oldum. Hökumətlər iki milləti müsalihə etdirməyə müvəffəq olamırlar.»

İştə ikinci nömrədə şəkilini gördüyümüz misiyo Durovun həyatından bir neçə sətir təqib etdiyi məsləki açıqdan-açığa məlum edir.

18 YANVAR 1911, № 3, səh. 6-7

= TƏRACÜMİ-ƏHVAL =

10-CU NÖMRƏDƏN MABƏDİ (ARDI)

ALEKSANDR SERQEYEVİÇ PUŞKİNİN MEYDANİ-ƏDƏBİYYATA BİRİNCİ QƏDƏMİ.

Darülfünunda mütəşəkkil ədəbi cəmiyyətdə Puşkindən başqa onun həmməktəbləri olan Baron de

Lovik, puşşin, Elliçevski, Kiyoxelbeger və bir çox sairləri də var idi. Puşkinin qüvvəyi-təbiyyə və şeriyyəsi də bu dövrdə meydana çıxmışdır. Bu zaman Puşkində müşahidə olunan fövqəladə istedad, qabiliyyət sayəsindən bir az zamanda fövqəzzikr (qeyd olunan) ədəbi cəmiyyətin müntəxəbi oldu.

1814-cü sənəyi-miladisində Puşkin meydani-ədəbiyyata ayaq basır. Puşkin ən birinci dəfə nümunə olaraq «Vestnik Yevr» məcmuəsinin 13-cü nömrəsində «Ke druqu stixotvorsu» ünvanlı N.K.Ş.P. imzası ilə dərc olunmuş şeri inşad etmişdir.

Ondan sonra yenə o məcmuədə «Vener ot lunı», «Kolna», «Opıtnost», «Blajenstvo» şeirləri təb olunmuşdur. (çap edilmişdir).

1815-də darülfünunda birinci dəfə vaqe olanq ümumi imtahanlar və tövziyi-mükafat (təqdimatda) mərasimində Puşkinin meydani-ədəbiyyatda kəsbi-şöhrət etməsinə ən birinci vasitə olmuşdur. Bu tövziyi-mükafat mərasimində paytaxtın ən zumənsəb əyan və əşrafi (mənsəb sahibləri) isbati-vücud etmişdilər. (iştirak etmişdilər).

Həmin gündə Rusiyanın imtahan heyətinin və tövziyi-mükafat heyətinin üzvü, şair və ədibi-əzəmi Derjavin də iştirak etmişdir.

Puşkin öz tərcümeyi-halında fövqəzzikr imtahan məclisini tərif edərək belə yazır:

-Axirüləmr (nəhayət), imtahan heyəti məni də hüzura dəvət etdi. Xüsusi əsərlərimdən birisini oxumağım təklif olundu. Mən də Derjavindən iki qədəm

(addım) fasilədə olaraq «Sarskoye seloda xatiratım» ünvanlı əşarımı oxudum. Əşarımda vətənimin ədibi-əzəmi Derjavin namını yad etdiyim anda qəlbimdəki sürur və səadətimi təsvir etmədən qələmim aciz qalır. Şadlığımdan gözlərim yaşarıb, özümü şaşırdım.

Əşarımın itmamında fərəhimdən o qədər şərmsar oldum ki, məclisdə qalamadım. Gözlərimi yumub salondan çıxıb qaçdım. Sonra Derjavin mənim xatiratımdan o dərəcə məhsus olmuş ki, məni hüzuruna tələb edib, ağuşuna almaq istəmişsə də, məni heç yerdə bulmadılar.

Bu imtahan məclisindən sonra Puşkinin şöhrəti gündən-günə Peterburqda kəsbi-əhəmiyyət edərək, axırda bütün Rusiya üçün səbəbi-fəxr və mübahat olur.

Bu ildən Puşkin Rusiyanın məşhur ədib və alim və fazilləri ədd olunan Jukovski, Karamzin, Dmitrov və Batişkov ilə həmməclis olub, bunlar ilə bərabər meydani-ədəbiyyatda mücahidəyə başlayır.

MABƏDİ VAR (ARDI VAR).

MƏMMƏDSADİQ A.

18 YANVAR 1911, № 3, səh. 7-8

= ƏRZİ-TƏŞƏKKÜR =

İstanbulda «Yeni Füyuzat» həcmində və on altı səhifə olaraq intişar etməkdə olan «Sərati- müstəqim»ə Misirdən, Türkistandan, Hindistandan,.. və hasili aləmi-islamın hər tərəfindən ərbabi-qələm (qələm sahibləri) iştirak (abunə) etməkdədir.

Bu məcmuəyi-mötəbər hər həftə siyasi, iqtisadi, ədəbi... məqalati-nəfisə ilə ərzi-vücud edir. Son nömrələrində «Yeni Füyuzat» haqqında və ləyaqətimiz fövqində uzun bir təqdir-tərif gördük. «Yeni Füyuzat»ı məhzən məqsədindən ibarət olan bu tərifata ərzi-şükran eləyiriz.

18 YANVAR 1911, № 3, səh. 8

«YENİ FÜYUZAT»A ABUNƏ OLAN ZƏVATİ-GİRAM:

1) Hacı Məmmədəliyev; Nuxa;
2) Firudin bəy Köçərlinski; Qori;
3) Məşədi Baba Kazımov; Novorosiyski;
4) Məmməd Axundov; İrəvan;
5) Süleyman Bayramov; Dərbənd;
6) Abbasəli Hacı Kazımzadə; İrəvan;
7) Yusif Hüseynov; Naxçıvan;
8) Məlik Məlikov; Salyan;
9) Məşədi Mehdi Xudadadov; Salyan;

10) Əhməd Hüseynov; Salyan;
11) Feyzulla Əsgərov; Salyan;
12) Şəmsi Əsədullayev; Bakı;
13) Əliheydər Babayev; Bakı;
14) Mirzə Mahmud Əsədulla xan; Rəşt;

Ardı var.

18 YANVAR 1911, № 3, səh. 8

«Yeni Füyuzat»a üç aylıq abunə olan zəvatigiramın yanvar 1911-ci il tarixli nüsxəmiz ilə, yəni 12 nömrə ilə abunələrini xitam bulmuşdur. Təzədən idarəyə müraciət etməlidirlər. Müraciət etməyənlərə iki sənənin üçüncü nömrədən sonra «Füyuzat» göndərilməyəcəkdir.

XXX

EŞİDƏNƏ:

Əfsus ke in məzrəera ab giriftə əst,
Dehqane fəlakətzəde Ra xab giriftə əst.

Tərcüməsi:

Əfsuslar ọlsun ki, tarlanı su basmışdır,
Ona görə ki, evi yıxılmış kəndli yatmışdır.

18 YANVAR 1911, № 3, səh. 8

«YENİ FÜYUZAT»

№ 4

İkinci sənə:

25 YANVAR 1911 (5 SƏFƏR ÜL-MÜZƏFFƏR 1329)

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ – İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «Füyuzat».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində

ƏRƏB HİKMƏTLİ SÖZLƏRİ =

- Elm hər fəzilətə səbəbdir.
- Elm qəlbin həyatı, gözlərin işığıdır.
-Ağıllı olan şəxs elm və kamal istər.

- İnsanın həyatı elmdir. Onu qənimət bil! Qəlbin mövti cəhldir. Ondan qaç!

- Ey təhsil edən şəxs! Nə gözəl zəxirə yığırsan! Zinhar, elmi inci və qızıl ilə bərabər tutma! (yəni elm onlardan qiymətlidir).

- Fəzilət fəqr halına mövcib olsa da, bir dəqiqə onu qazanmaqdan fariq olma!

- İnsan üçün mövhibəyi-ilahiyyənin ən fəzilətlisi ağıldır ki, əşyadan heç bir şey ona qiymətcə yaxın deyildir.

- Cənabi-həqq insanın ağlını mükəmməl yaratmışsa, mühəqqiq onun əxlaq və dərəcəyi-kamala vasil olur.

25 YANVAR 1911, № 4, səh. 1

MÜSTƏŞRİQİ-ŞƏHİR PROFESSOR VAMBERİ CƏNABLARI

Avropada türklərin yeganə və səmimi müdafeyi professor Vamberi cənablarından «Yeni Füyuzat» haqqında aldığımız iltifatnaməni məəl-iftixar (fəxrlə)

buraya dərc ediriz.

Müşarəleyh bundan altı sənə müqəddəm sər mühərririmiz tərəfindən Misirdə nəşr edilən «Doğru söz»ə dəxi bir iltifatnamə göndərmişdi. O zaman dövri-istibdad idi, şimdi dövri-inqilabdır. Bu iki dövrdə ustadi-möhtərəmin türklər haqqındakı rəy və nəzərini göstərmək üçün ikisini də bərabər dərc eləyiriz.

«DOĞRU SÖZƏ»

Fəzilətli əfəndim həzrətləri!

«Doğru söz»ün bizə ehsan buyurduğuz bir nüsxəsindən ziyadəsi ilə xətt etdim. Allah ömürlər versin! Və əmali-vətənpərvəranənizdə müyəssər eləsin!

Vaqiən «Doğru söyləyəni doqquz köydən qovarlar!» fehvasınca zati-aliniz bəzi məşhur və indələrbarbab mənfur olan yerlərdə pək məqbul olmayacaqsınız. Lakin buna təəssüf buyurmayınız. Bir vaxt gələcək və gəlməlidir ki, xidmətiniz hər halda pəsəndidə olacaqdır.

Əfəndim! Bu günlərdə Rusiyada sakin olan müsəlmanların çox yerlərindən bizə varid olan qəzetələrdə görürəm ki, şu yaxın zamanımıza qədər məchulül-əhval olan tatarlar nə qədər irəli getmişlər və ülum və fünunda və ümuri-siyasiyyədə nə əcayib tərəqqi göstərmişlər. Hər gün yeni-yeni qəzetələr çıxarırlar, teatrolar açırlar, parlaq-parlaq nitqlər söyləyirlər, adətən mədəniyyətin ən yüksək dərəcəsinə vasil olmuş millətlər kimi davranırlar. Bunları görüb kəndi-kəndimə soruram:

Tatarlar, başqırdlar, qırqızlar az vaxt içində bu qədər irəli gedə bildilər. Nə üçün istedadi-madərzad babında bütün miləli-müsliminə təfəvvüq edən bizim osmanlı qardaşlarımız geri qalırlar?

Bu sualın cavabı qolay və əhra millət indində (nəzdində), əlbəttə, məlumdur. İştə bu maniələri meydandan rəf və burmalı həll etmək üçün nəqd qeyrət sərf etməlisiniz.

Əfəndim, əzizim!

Türklərin qədim dostu:

VAMBERİ

6 YANVAR 1904

25 YANVAR 1911, № 4, səh. 2

«YENİ FÜYUZATA»

FƏZİLƏTLİ ƏFƏNDİM HƏZRƏTLƏRİ!

Bizə irsal və ehsan buyurduğunuz «Yeni Füyuzat» məcmuəyi-mötəbərənizin dörd nüsxəsini hissiyyati-şükraniyyə ilə aldım. Və mütaliəsindən, doğrusu söyləyim, çox məmnun və məsrur oldum. Vaqiən millətinizə və insaniyyətə etdiyiniz xidmətiniz fövqəladə böyük və mühümdür. Çünki türk milləti-nəcibiyyəsinin şimdiyə qədər geri qaldığına baş səbəb maarif meydanını ehmal və təkasül etdiyidir. Ağıl və fərasət türklərdə heç bir vaxt nöqsanpəzir deyildi. İnbisati-ruhaniyyələrinə böyüklərinin istibdad və təəddisi mane olmuşdur.

Əlli sənədən əvvəl qövliniz türklərin şu qədər irəli gələcəklərini heç xəyal etməzdim. Lakin həmd olsun ki, oyanmalarını görməyə müvəffəq oldum.

Zati-aliniz kimi əhrarın qeyrətini müşahidə etdikcə daha ziyadə tərəqqi edəcəklərinə heç şübhəm yoxdur.

Allah sizə ömürlər versin!

Əl-xalis: **VAMBERİ**

Budapeşt, 30 noyabr 1910

25 YANVAR 1911, № 4, səh. 2-3

x x x

İstanbul mətbuatının İran haqqındakı rəy və nəzərini göstərmək üçün «İran-viran» məqaləsini İstanbul qəzetələrindən buraya nəql etdik.

SİYASİ
İRAN-VİRAN

«Brotuş, sən uyuyursan! Oyan! Kim olduğunu gör! Söylə! Dur! Haqqı yerinə gətir! Roma qalacaqmı?

Brotuş, sən uyuyursan və Roma zəncirlər içində. Oyan! Söylə! Dur! Haqqı yerinə gətir.

(Şekspir, Jül Sezar)

Mən içimdə duzəxdən (cəhənnəmdən) nişan verən həriqi-hicrət və hicrana Şekspirin, o ən böyük ingilisin, o ən böyük insanın bu sözləri ilə bir rəxnəyi-

tənəffüs açıram. «Alnım ovcumda» ünvanlı bir məqaləmdə dur və diraz (uzun-uzadı) təşrih etmişdim.

İranın müqəddəratı Türkiyənin müqəddəratına o qədər bağlıdır ki, İranın müqəddəratına biganə durmaq bizim üçün kəndi müqəddəratımıza qarşı laqeyd və biganə durmaq deməkdir.

İranın sinəsinə atılan xəncər bizim sinəmizi dəldikdən sonra İranın sinəsinə varır. Və xəncərin sapına yaxın olan qismi incə ucundan daha ziyadə təxribat icra edər. Qurşunu yaxından yeyən uzaqdan yeyəndən daha ziyadə məcruh və xarab olur.

Bunu söylədikdən sonra əshabi-izan üçün çox söz söyləmiş oldum, deməkdir.

Mən burada İranın qurtarılması üçün Almaniya imparatorunun şəfaətini təsal edən vətəndaşlarımın (vətəndaşlarımın deyirəm, İran qardaşlarımızın demirəm), əvət, başqalarının rəcliyyətinə evlənmək istəmək qəbilindən bir qəhrəmanlıqla İranın rus və ingilis dırnağından qurtarılmasını Almaniyadan təzərrü və niyaz edən pək xeyrxah vətəndaşlarımın fikirlərində əsla deyiləm.

Mən hürr(azad) Türkiyənin nə amir, nə məmur, nə dilşikən, nə dilşikəstə, hasili müstəqil və hürr bir vətəndaşı olmaq heysiyyəti ilə bəyani-fikir edərək deyirəm ki, İran virandır. İran bizim bir qonşumuzdur. Xanalarımız (evlərimiz) biri-birinə bitişikdir. Hətta axalarımızı təfriq edən (ayran) divar müştərəkdir. Eyni divarın üzərinə həm İranın, həm Türkiyənin damı mövzudur.

Binaən ileyh İran bizim üçün qonşudan daha ziyada bir şey olan bir cari-müttəsildir. (bitişik qonşudur).Belə bir qonşunun təxlisi-həyatı üçün Almaniyadan daha əvvəl himməti-rəcülanəsinə (mərdlik təşəbbüsünə) müraciət olunacaq iki millət vardır.

Birincisi, binnəfs iranlılar, digəri də Həyati-İran ilə həyatı arasında qətiyyən bir xətti-fasil müəyyən bulunmayan və heç bir zaman bulunmayacaq olan Türkiyə imparatorluğunun ümumvətəndaşlarıdır. Əgər biz yaşamaya qərar verdikcə, sizə söyləyirəm:

- Ey hürr Türkiyənin hürr olması lazım gələn vətəndaşları! Əgər biz yaşamaya qərar verdiksə, İran üçün ölməyə qərar verməliyiz.

İkinci qərar mövcud olmadıqca birinci qərar vallah kizb (yalan) və riyadır. Çocuq oyuncağıdır. Almaniya İran məsələsində dərəcəyi-müdaxiləsini nimrəsini bir ajansın şu teleqraf ilə təyin etmişdir:

«Almaniya Rusiya və İngiltərənin İrandakı qonşu bulunmaları heysiyyəti ilə, qalibiyyəti-nüfuz və həqqi-təqəddümlərini təslim edir. Və sərbəstiyi-ticarətinə rəxnə iras edilmədikcə müdaxiləni qətiyyən ağıla gətirməz».

Almaniyanın mürəvvəc əfkarı bu sətirləri yazdıqdan sonra «Almaniya İranın təqsimini və ya la ələt-təyin bir müraqibə altına vəzini (vəziyyətini) məcaz görməz» kimi müşəvvəsülmal bir sözlə fikri-xudkamanəsini yaldızlayır. Hər sahibnəzər üçün zatən məlum idi ki, Almaniyanın müsəlmanlara himayətkar görünməsi müsəlmanların sağılmaya, qırpılmaya fəzlə iste-

dadındandır ki, biz şərqilər üçün bu keyfiyyət mövzeyi-iftixar məhzi-şinadır.

Almaniyadakı təksiri-nüfus (əhalinin artması) Avropanın heç bir yerində hasil olmayır. Bundan maəda, (başqa) Almaniya adətən bir fabrikalar imperatorluğudur. Bu fabrikaların cürük-sağlam məta (əmtəə) məhsullarını soxaraq cahil, sənayesiz millətlər Almaniyaya pək lazıimdır. Almaniya bu millətləri isə müsəlmanlarda bulur. Almaniya bizi heysiyyətimizlə, daha doğrusu, bu qillət (az) heysiyyətimizlə himayə edir kimi görünür. Həqiqət bu mərkəzdə ikən Almaniyanın mənafeyi-maddiyyəsi məəziyadə təmin edilincə İranın təqsim və fəsxində Almaniyanın nə ziyanı var?

Əgər İran həqiqət halda çürümüş, yıxılmışsa, onu qaldırmağa nə qəvanini-təbiət müsaiddir, nə qüdrət, fitrəti-kafi?

Məfluc (fələc) bir adamı tutaraq ayağa qaldırmaqdan nə çıxar?

Qaldıran adam onu ələddavam bittəb tutmayacağından, verər-verməz xəstənin düşərək daha ziyadə məlul və pərişan olması aşkar deyilmidir?

Əgər İran ölmüşsə, təslimi-ruh etmişsə, onu İsayi-möcizdəm belə acizdir ehyadan.

Feyzi-bəyani-İran ilə müsəxxər olaraq ən gözəl mənzumələrini əcəmcə yazmış olan şairimiz Nabinin şu beyti burada nə qədər becayi-təxtirdir:

Çün tir behər ca ke, fetəd xış nəxizəd,
An kəs ke, bebale degəranəst pəridə.

Tərcüməsi:

Ox taxıldığı yerdən özbaşına çıxa bilməz,

Başqasının qanadı ilə də uçmaq mümkün deyil.

Fəqət mənim etiqad və imanım şu mərkəzdədir ki, İran-viran hənuz zindədir (sağdır). Sənələrdən bəri heydərpəsəndanə bir surətdə davam edən bu mücahidələr qansız, cansız bir millətin karı deyildir. Qansızlıq, cansızlıq bizdədir ki, biz belə bir mərəkədə pürşan və əzəmətin önündə atil və seyrci qaldıq. Bir tək ömür naci bir millətin üzünü ağartmaz.

O müqəddəs gecə könlümdən həzaran təbcil xüruşandır.

«İranda şövkəti-istibdadın süqutunu gördüm. Bu bəxtiyarlığın üzərinə yaşamaq istəməm. Təyidi-hürriyyət yolunda cəng edərək öləcəyəm... deyərək, əlindəki qələmi ataraq, qılınca sarılaraq:

«Əs-seyf əsdəq ənba min əl-kütüb» deyərək ünəxünə şah ilə çarpışaraq ölən o əqdəs (müqəddəs) şühədayi-İran Səid Salmasinin ruhi-büləND və müəzzəminə həzaran səcdəyi-hörmət!

«Sur İsrafil» mühərriri Bəxtiyar xan ki, Əbdülhəmidin padaşi-mülənət və xəyanəti olan Məmmədəli şah əmri ilə məclisi-məbusani İranı (İran Milli məclisini) topa tutduğu gün və ayağından asıldıqdan sonra başına zopalarla vuraraq etlaf edilərkən cüvarında (yanında) sandaliyyəsi üzərində raki (araq) içməkdə olan Məhəmmədəli şaha qarşı:

Zindəbad Məşrutiyyəti-İran!

(Yaşasın İran məşrutiyyəti!» deyə bağırmaqdan fariq olmamışdı. Onun ruhi-kibriyapərvərinə bizim ruhi-müsəğğərimiz bilməm hankı ədayi-əzm və təqdir ilə cəbin (alın) təzim edəcək?

Artıq nəticəyə vasil olmalıyam və müdhiş kəlməmi söyləməliyəm.

İranın istiqlalı və zindəgisi (həyatı) bizim üçün «Krid»dən deyil, bütün Avropayi-türkinin həyat və bəqasından daha mötənadir. Mən bu sözümü məmləkətimin qanlı-canlı gənclərinə söyləyirəm. Əhli-hökumət və ricali-hökumət sözümü eşitməmək üçün qulaqlarını tıxaya bilərlər.

Krid bizim canımızsa, İran bizim canımızın canıdır. İran bizim həyatımız, bizzat nəfəsimizdir.

Müdafiəyi-nəfəs üçün nə yapılmaq lazım gəldiyini söyləməyə, bunu təyin və təhdid (hədd qoyma) etməyə imkan və lüzum varmı?

BİR KURD

25 YANVAR 1911, № 4, səh. 3-5

ERKƏK VƏ QADINLARINDAN TƏŞKİL OLUNAN CƏMİYYƏTİN VƏZİFƏSİ VƏ TƏMİNATI

= 7 =

Sabiqda (keçmişdə) zikr olunan qərar üzrə erkək və qadınlardan təşkil olunmuş cəmiyyətin bir qism

vəzifələri bəyan olundu. İşbu cəmiyyət kəndi əfradı üçün darülitam (yetimxana), mərizxanalar (xəstəxanalar), mədaris (mədrəsələr) və məkatib (məktəblər) və darüləzzə və darüttərbiyələr (internat-məktəbləri) kimi əfradi-cəmiyyətin başqa dürlü ümumi və xüsusi ehtiyaclarını dəxi təmin edəcəyini irəlidə zikr etmişdik. Bununla şu cəmiyyətin vəzifəsi yəqin olduğunu zənn edirəm.

Şimdi isə işbu cəmiyyətin maddi təminatına dair iradi-məqal etmək (fikir söyləmək) arzusundayam. Təbii bir bunca vəzayifə (vəzifələrə) dara olan (malik olan) bir cəmiyyətin də nə dərəcədə təminatı olması icab edir, məlumdur.

Belə bir cəmiyyətin təşkilini islam dini dairəsində fərz etdiyimizə görə şu cəmiyyətin maddi təminatı dəxi şu dinin müsaidəsi dairəsində hüsula gələcəyini irad ediriz.

Dini islamda qadınlar kəndi övladını övza edib (sud verib), tərbiyə və təlim etmək vəzifəsində məcbur bulunduqları üçün şu vəzifəni kəndi arzuları üzrə öhdələrindən rəf etməyə hər bir halda müxtardırlar[1].

Hətta kəndi övladına süd vermək üçün hər bir qadın zövcindən (ərindən) müzd mütalibəsinə dəxi sahibi-ixtiyardır. Onun üçün də cəmiyyəti-məzkurə zövc və zövcənin rizası üzrə təzə mütəvəllidləri (anadan olanları), ədəmi-rizaları surətində oğlan iki

---

[1] Şu məsələ: Qadının övladı vasitəsi ilə pabənd olmayıb kəndi məişətində bir növ hürr (azad) və sərbəst yaşamasına xidmət etmək məqsədindən irəli gəlmişdi

sinnində və qız çocuqlarını yeddi sinnindən məcburən alıb darüttərbiyə və tarüttəlimlərə gətirməyə muxtardır. Pədərləri (ataları) şu çocuqların tərbiyəsinə sərf edə biləcəkləri miqdari-məsarifi tədrici olaraq işbu cəmiyyətə təslim etməyə məcbur qalacaqdır.

Əvvəla, bu vəchlə şu məbləğin ədasında müqtədir olan valideyndən hər ayda cəmiyyət sandığına riayətə hər ildə məsarifindən ziyadə kəsb etdiyi mənafeyin ondan bir hissəsini zəkat naminə şu cəmiyyətə əda etməlidir.

Üçüncü, hər bir müslüm (müsəlman) saliyanə (illik) munəsinə müqtədir olarsa yeddi girvənkə qutiqalibindən, (ərzağdan) ya onun qiymətini şu cəmiyyətə fitrə təriqi ilə verməyə məcburdur.

Dördüncü isə hər bir kəs vəfat etdikdə Süls (üçdə bir) malını hər dürlü ehsanata sərf olunmaq üzrə vəsiyyət etməkdə muxtar bulunduğu üzrə kəndi əfradına yeganə mühafiz və rifahi-hal və səadət əhvalı yolunda xidmətdə bulunan cəmiyyətə hər bir kəs sulsi-malını vəsiyyət etməyə vicdanən məcbur ediləcəkdir.

Bundan əlavə ki, xeyrat və ehsanat təriqi ilə hər bir kəs kəndi malından istədiyi qədər bərzl etməyi şəriəti-müqəddəsə həddi-təklif etməlidir.

Işbu vəchlə cəmiyyəti-məzkurə nə dərəcədə böyük bir təminata dövlət və müknətə malik ola biləcəyi bir dəfə düşünülsün. Burası da məlum olsun ki, nə qədər mütəməvvil (varlı) və müknətdar (qüdrətli) bir şəxs olursa olsun, üç bətndən sonra onun cəmi mayəmləki (var-dövləti) süls təriqi ilə işbu cəmiyyətin

yədi-kifayətinə (sərəncamına) keçir.

Cəmiyyəti-məzkurə bir bunca dövlət və miknətə malik olduqdan sonra miknətini izdiya üçün (çoxaltmaq üçün) hər dürlü ticarət və mədaxil yolları açır. Hər qism ixtiraata və əfradının hüsni-halı yolunda çalışır. Təbii, şu ümuratın başında kəndi əfradı bulunduğu münasibəti ilə ümuməfradı ondan mənfəətbərdar olur. əfradı cəmiyyətin təminatı yolunda çalışdıqları kimi cəmiyyəti-məzkurə dəxi kəndi əfradının səadəti uğrunda xidmət edir. Şu cəmiyyətin kəndisi kimi əfradı da kəsbi-qüvvət edib və bərəkət bulur.

Hər bir erkək və qadın kəndi məişətlərində təminati-tammməyə malik olduqları kimi kəndi övladının da istiqbal (gələcək) və səadəti barəsində qənaəti-kamilə hasil etmiş olurlar. Şu vəchlə büğz və nifaq, xəyanət və şəqaq yolları məsdud qalır. Biləks (əksinə) əfradı cəmiyyəti sevdiyi kimi, cəmiyyət də kəndi əfradını sevir, əfradının təminatına sərfi-əhəmiyyət etdiyi misalı onların övladını işbu məqsəd üzrə təlim və tərbiyə edir. Ətfal (uşaqlar) ümumən bir qism tərbiyə aldıqları üçün bir məqsədə xidmət etməyə və cəmiyyəti-məzkurəni kəndiləri üçün vəliünnemət tanımağa məcbur qalırlar. Heç bir kəsin istedad və qabiliyyəti məhv olmadığı kimi, hər kəs kəndi hüququna nayil olmaqla müqtəzi ül-məram yaşayırlar. Ehtiyacdan nəşət edən fənalıqlar ortadan qalxır. Heysiyyəti-bəşəriyyəyə malik olan əfradı-cəmiyyət meydana qədəmzən olur. İşbu vəchlə həqiqət və ədalət ortaya çıxır. Hər yer əfal və əmal mənbəyi-həqiqətdən nəşət edir. Maddiyyat

əhəmiyyətsiz qalınca mənəviyyət kəsbi-ciddiyyət edir.

İştə şu təriq ilə erkək və qadının yanında hüsula gələn əlaqə nə dərəcədə ciddi və həqiqi ola bilməsi bir dəfə təsəvvür olunsun. Bütün digər həqiqətlər və səmimiyyətlərə əksəndaz olan işbu əlaqə məhəbbəti-həqiqə və səmimədən başqa bir əsasa mübtəni olması qabilmidir?

Bir erkək bir qadın ilə əlaqə təsəvvürü mümkünmüdür?

Əlbəttə, yox! Əvət, nə gözəl xəyal! Nə gözəl səadət!

Mabədi var. (ardı var)

AXUND YUSİF TALIBZADƏ

25 YANVAR 1911, № 4, səh. 5-6

= HİCRAN =

SƏİD BƏYƏ!

Ah! Ey sevdiyim nasıl yaşasın,
Söylə sənsiz, səni sevən üşşaq?
Ruhumu sənsən eyləyən təskin,
Məni öldür də, məndən olma uzaq!

x x x

At üzündən niqabı, ey canan!
Nuri-çeşmindədir bütün əməlim.

Yetişir çəkdiyim qəmi-hicran,
Məni et naili-vəfa, gözəlim!

x x x

Sevmişəm, mən səni, yenə sevərim,
Sönməsin həsrətinlə nəşələrim!
Məni sən də sevirmisən? Heyhat!

x x x

Şad ikən mən neyçün, nədən məhzun,
Oldum, olmaqda möhnətim əfzun,
Böylə keçməkdə macərayi-həyat!

ƏLİ PAŞA

25 YANVAR 1911, № 4, səh. 5

= ARILAR =

Həşərat içində ən çox cəmiyyətlə yaşayan və sənət və məharətləri ilə nəzər-diqqətimizi cəlb edən və qarışqalardan sonra arılardır.

Arılar üç cinsdir:

1) Erkək;
2) Dişi;
3) Xidmətçi.

Qarınlarındakı zəhər kisələri vasitəsi ilə dişlədikləri yerləri zəhərləyən iynələr erkək arılarda yoxdur. Bu iynələr dişi və xidmətçi arılarda vardır.

Bu iynələr adətən burğu (probuşnik) kimi diş-diş olduqları üçün bir arı bir adamı sancdığı vaxt orada qalır.

Arının dişisinə «Bəy» deyilir. Bunun vəzifəsi yumurtalamaqdır. Bal, bal mumunu (şam) yapanlar xidmətçi arılardır. Mükəmməl bir quvan (yeşik) səkkiz mindən ziyadə arı alır. Arıların içində ən yoğunu və böyüyü dişilər və ən arıqları xidmətçilərdir.

Erkək arılar çox tənbəldirlər. Bunlar xidmətçi arıların yapdığı balı yeməkdən başqa iş bilməzlər. Bunun üçün iyul ayına yaxın çalışqan xidmətçi arılar bu tənbəl erkək arıları quvandan qovurlar. Hətta öldürürlər.

İyul ayında bunların arasında haqq və hesab məsələsi çıxar. O vaxta qədər çalışmış olanlar quvanda qalır. Çalışmamış olanlar oradan ixrac edilir.

Bal mumu arıların qarınlarında olan kisələrdən çıxar.

Arılar quvan yapmağa başladıqları vaxt arıların, xüsusi ilə xidmətçi arıların birinci işi quvanı suvamaqdır. Quvanı suvamaq üçün qovaq və sair ağaclardan əmdikləri bir növ suyu işlədirlər. Bu iş bitdikdən sonra arılar pətək yapmağa başlayırlar.

Pətək yapmaq üçün arıların hər biri ayağı ilə bir parça bal mumu tutaraq ağzına götürür. Xeyli yoğurur. Sonra qovanın tavanına yapışdırır. Bu hal ilə bal mumu yığıldıqdan sonra otaq yapmağa başlarlar. Otaqları altı güşəli olur. Otaqları yapmaqda arılar məharətli bir mühəndisdirlər.

Otaqların kiçiklərində xidmətçi arılar, böyüklərində erkəklər və dişilər oturur.

Otaqlar tamam olandan sonra arı bəy pətəyin

bütün otaqlarını dolaşır. Hər otağa bir yumurta buraxır. Xidmətçi arılar da xidmətə başlarlar. Əgər bir otağda iki yumurta görərlərsə, birini atarlar. Arı bəy bu işi bitirdikdən sonra bir tərəfə çəkilib, arıların işlərinə baxarlar. Altı gün sonra yumurtadan bir arı çıxar. Bu bala öz-özünə bir tor yapıb, içinə girər. Bu toru yapması otuz altı saat sürər. Üç gün sonra balalar qabıq bağlar. Səkkiz gün bu halda qalır. Sonra qanadlanaraq uçmağa başlarlar. Bu təzə arıların dişiləri anaları ilə keçinməz. Aralarında müharibə başlar. Bu arada xidmətçi arıların vəzifəsi iki tərəfdən hankısı olursa onu quvandan xaricə atmaqdır. Xidmətçi arıların bir qismi balalar süd nənəlik vəzifəsini eləyər. Digərləri də otağları bal ilə doldurar. Bir qismi də bal mumu yapmaqla məşğul olur.

Mabədi var. (Ardı var)

BALAXANI

ƏLİ MİŞAN

25 YANVAR 1911, № 4. səh. 7

= MƏRHƏMƏTLİ ƏDHƏM =

Durub da ağlayır: Övladım! Ah iştə sənin,
Tükəndi ömri-əzizin, soldu gül bədənin.
Üfüqlərə qədər, oğlum, qoşub onu bularam,
Bulub o zalımı, mən intiqamını alaram.

= 3 =

Tapılmayır, dolaşır bir zaman zavallı dağı,
Püriztirab o zaman enmək istəyir aşağı.
Durub da hər tərəfə pək həzin-həzin baxır,
Uzaq-uzaq görünən bir qaraltını çağır.
Edər qaraltıya diqqət doyunca düşmənini,
Bir iztirab, bir atəş alır onun tənini.

Qoşar da düşməninin arxasınca şir misal,
Baxınca arxasınca, Ədhəmi görər dərhal.
Cabuq çapar atını iztirab ilə qatil,
Görünməyir, qayalar orada olur hail.

Uçar yeyincə onun intiqam üçün Ədhəm,
Bir intiqam mücəssəm olur bu pir adəm.

Mabədi var

A.Ş.

25 yanvar 1911, № 4, səh. 7-8

MƏKTƏB
=MƏSƏLƏ =

İki adamdan biri digərinə sorar ki:

- Qaç yaşındasan?

- Mən sənin yaşında ikən sən kaç yaşında idisən, mən şimdi onun iki misliyəm. Sən mənim yaşıma gələndə ikimizin yaşımızın məcmusu 63 olacaq.

Əcaba, bunların hər biri kaç yaşındadır?

x x x

EŞİDƏNƏ:

Ahu nəzərin naz ilə səyyadına salmış,
Səyyadi-siyəhbəxt fəqət yuxuya dalmış.

25 YANVAR 1911, № 4, səh. 8

ETİZAR (ÜZR)

Şimdiyə qədər şəkillərimizin klişalarını Bakıda yapdırırdıq. Lakin qarelərimiz də görürlər ki, klişalar heç bir şeyə bənzəmir. Bundan sonra Moskvaya göndərəcəyimiz kimi bir-iki nömrədən sonra «Yeni Füyuzat» gördüyü rəğbətə mütəşəkkirən on altı səhifə və böyük hərflərlə mətbu olaraq intişar edəcəkdir.

Bu səbəblə qarelərimiz bir-iki nömrə üçün şəkildən bizi məzur görsünlər.

25 YANVAR 1911, № 4, səh. 8

«YENİ FÜYUZAT»

№ 5

1 FEVRAL 1911, İKİNCİ SƏNƏ

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda «Füyuzat».

Hər şeydən bəhs edən həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 15 qəpikdir.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində.

Mahmud Şövkət Paşa həzrətləri

Böyüksən, ey insan! Böyüksən, böyük,
Böyüklüyün yanında qalır pək kiçik.

1911, № 5, səh. 1

= EYB VƏ QÜSUR BİZİM ÖZÜMÜZDƏDİR =

Sultan Əbdüləziz mərhumun zamanındakı Osmanlı sədriəzəmlərindən məşhur böyük Fuad Paşa Parisdə olduğu zaman orada bir məclisdə diplomatlardan biri sorar ki:

- Paşa! Zamanımızda mövcud olan dövlətlərin, ən qüvvətlisi, ən möhkəmi hankısıdır?

Fuad Paşa mərhum hazırcavablıqla və nöktəquluqla məşhur bir diplomat idi. Dərhal cavab verir ki:

- Türkiyə dövlətidir!

Məclisdə hazır olan zəvatın həpisində heyrət və tərəddüdlə qarışıq bir təbəssüm əlamətləri görülür. Haqları da var!

Sultan Səlimlərin, Fatehlərin Türkiyəsi deyil, hətta Məhəmməd Rəşadın Türkiyəsi də deyil... Əbdüləzizin Türkiyəsi!

Müharibati-mütəvaliyyə (ardıcıl) ilə yorulmuş, müahidati-mənhusə ilə əli-qolu bağlanmış bir əsir! Bir ov ki, bütün həyat və müqəddəratı ovçularının ədəmi-

ittifaqı lütfünə istinad etmiş.

Belə bir dövlət nasıl olur da mövcud dövlətlərin həpisindən qüvvətli, möhkəm olur?

Əlbəttə, gülünəcək söz!

Lakin Fuad Paşa mərhumun boş söz söyləməyəcəyini bilənlərdən biri paşadan sözün məzmununu sorar. Paşa da deyər ki:

- Əfəndim, sözüm heyrətinizə mövcib (səbəb) olmasın.

Əvət! Türkiyə dövləti mövcud dövlətlərin həpisindən qüvvətli və möhkəmdir. Çünki əsrlərdən bəri xaricdən siz bizə hücum elədiyiniz, daxildə də biz bizə hücum etdiyimiz halda hala (indi) yaşayırız. Əgər sənələrdən bəri bizim başımızda olan xarici və daxili bəlalar sizin birinizin başına gəlsəydi, çoxdan bəri məhv olmuşdu.

Nə acı həqiqət! Lakin əlli sənə əvvələn böyük bir diplomatımız tərəfindən etiraf edilən bu acı həqiqətin əlli sənədən bəri hala yaşadığını görmək və daha sənələrlə yaşayacağına inanmaq daha acı bir həqiqət deyilmidir?

«Daxildə biz bizə hücum etmək». İştə bu bir həqiqətdir ki. islamiyyətlə bir yaşdadır deyilə biləcək qədər ixtiyardır. Əhvali-hazirəmizə baxılırsa, heyəti-ictimaiyyəyi islamiyyəni dəfn etmədən fənapəzir olmayacaqdır.

İştə İran! Xaricən məruz olduğu məhaliki-əcnəbiyyədən (əcnəbi təhlükədən) ziyadə daxildəki müxtəlif firqələrin müsadiməyi-iğrazı əlində nalandır. Bu

korların belə görəcəyi bir həqiqətdir ki. əgər İrandakı firqəbazların tövhidi-amal və iğrazı imkanpəzir olsa, xarici hücumlara da dərhal təvəqqüf və sükunət gələr. Lakin heyhat!

İştə Türkiyə! Bir tərəfdən ingilis Misiri tutmaq və İrandakı məqasidi-siyasiyyəsini təshil etmək üçün Türkiyənin əleyhində min dürlü dəsayisə (hiylələrə) müraciət edir.

Bir tərəfdən, Bolqar, Yunan İngilisin Türkiyəyə zidd olan bu siyasətindən bilistifadə (istifadə edərək) Türkiyə əleyhinə ittifaqa qalxışır. Bütün bu şu işi-siyasi əvvəldən bəri göz dikdiyi Trablisi-qərbə təcavüz etmək üçün İtaliyaya cürət verir.

Digər tərəfdən, hökümәti-Həmidiyyə dəllalları Misirdə, Parisdə düvəli-əcnəbiyyəyə, (əcnəbi dövlətlə-rə) xüsusi ilə ingilislərə alət olaraq Ərəbistanda qiyam-lar, həyəcanlar iqa edir (törədir).

Hər tərəfdən müşkilati-siyasiyyə! Süzayiqəyi-maliyyə (maliyyə böhranı)! İxtilafati-daxiliyyə!

İştə iki dövləti-islamda bu üç bəlayi-müdhişin ziri-qəhrindədir.

Şimdi damarlarında bir damcı olsun islam qanı olan bir insanın əlli milyona qərib (yaxın) bir nüfus (əhali) təşkil edən bu iki dövləti-islamın bu müsibətinə qarşı vəzifəsi nə olmaq lazımdır?

Əgər bu vəzifəni müsəlmanların bugünkü fəsadi-əxlaqları ilə bilmüvazinə təyin etmək lazım gəlirsə, bu iki rükni-islam xəsmayi-din (din düşmənləri) əlində parçalanırkən o vəzifə düşmənlərə müavinətdən ibarət

qalır!

- Əvət! Ərəbistanda Şeyx Yəhya, Şeyx İdris kimi iki düşmən islamiyyət və insaniyyəti-diyanət hicabı altıncda ingilislərin Cənubi İran, Cənubi Ərəbistan hasili bəhri-mühiti-Hindi (Hind okianında) səvahilindəki (sahillərindəki) mənafeyi-siyasiyyə və iqtisadiyyələrinə lət olub, bütün cənubi və şərqi Ərəbistanı, Ərəbistanın yapışıq qonşusu olan İranı, hətta rövzəyi-müttəhhəräni (Məkkə nəzərdə tutulur) təhlükəyə qoyduqları bu əsnada aləmi-islamın hər nöqtəsində mitinqlər, məşvərətlər təşkil və bu iki şeyxi-mülənətə qarşı teleqraflarla, ümumnamələrlə izhahi-nifrət və lənət olunmaq surətilə bir həyəcan göstəriləcək yerdə Misirdə Əbdülhəmidin iyirmi sənəlik vasitəyi-mülənəti (lənətlənmiş) olan ərəb izzətlərin, Parisdə sərfi-infiali-şəxsisi sövq ilə «İttihad və tərəqqi» firqəyi-faxirəsinə düşmən olan Şərif Paşaların və yenə insan alış-verişinin məmnu (qadağan) olduğu bu əsri-mədənidə kəndi-kəndini bilməm hankı səfarəti-əcnəbiyyəyə satmış qafqazlı «müsəlmanın»cilərin gərək xəfiyyən (gizli), gərəksə qəzetələrlə Osmanliya və İrana etdikləri hücumlara insan nə deyəcəyini bilmir.

Parisdə «Məşrutiyyəti-Osmaniyyə» adı ilə ayda bir dəfə fransızca olaraq məcmuə nəşr edən Şərif Paşa haqqında keçən nömrələrimizdə məlumati-lazimə verdik. O məlumatdan qareini-girama (hörmətli oxucu-lara) məlum oldu ki, bu hərif qərəz və infiali-şəxsisi pəncərəsində zəbundur (acizdir), məhkumdur. Müvazinəyi-əqliyyə və vicdaniyyədən məhrumdur. Bunun

sözü qulağa girməzsə də, bunu ağıl və məntiqdən məhrum edən bir səbəb vardır ki, o da Əbdülhəmid dövründə alışdığı izzəti-həyatı dövri-müqəddəsi-məşrutiyyətdə qaib etməsidir (itirməsidir, əldən verməsidir).

Lakin yenə Parisdə «müsəlmanin» ismilə rusca bir məcmuə nəşr edən və Qafqazın bilməm hankı bədbəxt küncündə yetişmiş olan «D.Q.Xatakukur»a nə olmuş ki, bütün səhifələri Osmanlını tənqid və qafqazlıları Osmanlıdan nifrət etdirmək mövizələri ilə doludur.

Osmanlıda məşrutiyyət elan olunduqdan sonra nəşr edilməyə başladı. Parisdə nəşr edilir? Rusca nəşr edilir? Güya bir neçə müsəlman qafqazlı tərəfindən nəşr edilir? Ancaq Osmanlını tənqid və tərzil etmək üçün nəşr edilir? Osmanlıların eyblərini qafqazlılara göstərmək üçün nəşr edilir?

«Qafqazlılar, Osmanlıdan sizə xeyir yoxdur!...» demək üçün nəşr edilir?

Kim nəşr etdirir? Nə üçün nəşr edilir? Orasını bilməm! Siz mülahizə ediniz!

Fələk müsaidə edərsə bu məcmuədən bir neçə mətləb alıb, haqqında gələn nüsxəmizdə açıq bir tənqid yazacağız.

Belə hissiyyati-diniyyə və milliyyədən bilkülliyyə (tamamilə) məhrum olan ovraqi-səxifənin deyil, Qafqaz müsəlmanları kimi oyanıq bir camaati-islami, hətta dünyanın bir ucunda, bir cəzirədə (adada) aləmdən ayrı bir halda yaşayan cava müsəlmanlarını beloə iqbal etmək, qüvvət və təsirindən məhrum

olduğunu biliriz. Bizi mütəəssir, hətta dilxun edən cəhət Rusiyada intişar edən bəzi tatar rəfiqlərimizin bu məcmuənin elanlarını, məqalələrini möhtərəm sütunlarında vermələridir.

Hər zaman, xüsusi ilə bu gün müsəlman mətbuatının vəzifəsi camaati-islami bu kimi zəhərli təlqinatdan mühafizə etməkdir.

ƏHMƏD KAMAL

1 FEVRAL 1911, № 5, səh. 2-4

EŞİDƏNƏ:

Mən ölərsəm, milləti zənn etmə kim, biyar olur,
Qanımın hər qətrəsi tufannümayi-sar olur.
Şimdi aciz saydığın bir gün səni pamal edər,
Millətim, ey bixəbər, bir gün gəlir bidar olur!

BALAXANI: NEMƏT BƏSİR

1 FEVRAL 1911, № 5, səh. 4

= SƏHHƏT =

Əvət! Keçmiş nömrələrdə dediyimiz kimi səhhətə nail olmayan insan kəndi həyatından məhrum olmuş deməkdir. Halbuki dünyada səhhətdən ziyadə layiqi-etina bir şey olamaz. Bunu heç bir vaxt unutmamalıyız ki, iştə fəqət salim adam layiqdir. Xüsusən şu yaşadığımız zamanda əmrari-həyat üçün insan dürlü-

dürlü müşkilata düçar olur. Məsələn:

Bir mərizi (xəstə) –fəqir madam ki, biçarənin vücudu səhhətə malik deyil, nasıl gedib işləsin?

Bunun üçündür ki. biçarə həyatını mərarət ilə keçirir. Binaən ileyh keçən nömrədə dediyimiz kimi, yenə təkrar ediriz ki, dünyada səhhətdən böyük dövlət olmaz.

Şimdi kainata diqqətlə nəzər edəlim. Görəcəyiz ki, insanların pək çox hissəsi növbənöv mərəzlər (xəstəliklər) ilə məhat (əhatə) olmuş. Demək ki, nərəyə nəzər etsək insaniyyətin həyatını dəhşət içində görəcəyiz. Şimdi kəndi-kəndimizdən sual etsək:

Bu minlərlə mərəzlər nərədən (haradan) gəlir? Bu dəhşətli mərəzlərə insanlar nə üçün və nədən mübtəla olur?

Bu cavabı alırız ki, bir insanın vücudu onun üçün zəif olub yüzlərlə mərəz içində məhv olur ki, o insan təbii həyata münasib olmayan, qanuni-təbiətə bərəks əhval içində yaşayır, təbiətin qanununa zidd yaşayan insan daima təhlükə pəncəsindədir. Binaən ileyh hər bir insan vücudunu salim saxlamaq üçün təbiətin istədiyi şərayit daxilində yaşamalıdır. Burada ən çox müqəssir bizim diplom alıb gəlmiş həkimlərimizdir. Çünki təbii həyat nədir və onun şərtləri nədən ibarətdir? Biz bunlardan bixəbəriz. Halbuki həkimlərimiz də bu xüsusda bir kəlmə dəxi nə qəzetələrdə, nə də jurnallarda yazmırlar. Bakıda mən görmədim və ümidvaram ki, görməyəcəyəm. Zira hər bir yerdə olduğu kimi, bizdə də «Sevdayi-cib» məsələsi

xatirdən fəramuş edilməyir (unudulmur). Biz də naçar (əlacsız), onlara aid olan bu vəzifəni kəndi boynumuza alırız. Türkcə, rusca kitablardan iqtibas etdiyimiz bəzi məlumatı qariyini-girama (hörmətli oxuculara) hər həftə təqdim edəcəyiz.

Əvət! həyatın təbii şərtləri bunlardan ibarətdir:

Hava, ziya (günəşin işığı), su. Hərəkət və rahat.

Həddən ziyadə iş işləmək, daima bir yerdə əyləşmək və oralarda pis qoxulu hava tənəffüs etmək (bu təsadüflər ən çox fabrikalarda bulunur) insanın vücudunu daima təhlükəyə atar.

Məsələn, bizi müsəlman evlərində bir ailə bir odada (otaqda) tam bir gecə yatar da. Yarım saat olsun pəncərəni, yaxud qapını açmazlar. Bədihidir ki, bu dürlü odadan xəstəlik əksik olmaz. Lamahalə gecə bir odada bir ailə yatarsa, gündüz pəncərə açılsın. Ta ki, gecədən qalmış o pis qoxulu hava dışarı çıxıb, təmiz hava oraya daxil olsun.

Yaxud evi süpürəndə görürüz ki, biçarələr nə pəncərəni açarlar və nə də qapını.

Bəzi vaxt pəncərəni tez qapayırlar. Xüsusən bizim müsəlman evlərində evi süpürəndə pəncərəni, yaxud qapını açmayırlar. Evi süpürən halda bəzən toz və torpaq və pis qoxular havaya qalxar. Sonra nəfəs alanda bunların həpisi hava ilə ciyərlərə gedir. Bu surətdə gözəl səhhətlərini fənaya verirlər. Bunun üçün evlərdən başağrısı, ürək bulantısı, bərklik kimi mərəzlər heç əksik olmayır.

Pəncərənin qanadını daima bir az açıq qoymaq

lazımdır. qapalı olduğu surətdə yuxarıda zikr etdiyimiz mərəzlər peyda olub, həyat təhlükədə bulunur.

Ey qareyini-giram! Sizə pəncərəni açıq qoyunuz, deyəndə, cavab verəcəksiniz ki:

«Qışda pəncərəni nasıl açıq qoymalı? ... Çünki pəncərə açıq olanda ev soyuq olar».

Mənim zənnimcə, bu cavabınız doğru deyildir. Zira pəncərəni, qapını qapalı qoyanda dürlü-dürlü mərəzlərə düçar olursunuz və mərəzə düçar olub da həkimə, davaya (dərmana) hesabsız paralar sərf edirsiniz.

Deyilmi (olmazmı) həkimə və davaya verdiyiniz paranın yarısını oduna verəsiniz, və sobanı tez-tez yandırasınız?

Nə oda soyuq, nə də gözəl vücudunuz mərəzə mübtəla olar.

Halbuki mərəzə mübtəla olandan sonra vücudunuzda ağıl və fərasətiniz də zəifləşir. Halbuki sizin vücuduzdan, ağlınızdan cəmiyyəti-milliyyə, cəmiyyəti-bəşəriyyə xidmət bəkləyir. Bilə-bilə vücudunuzu, ağlınızı xarab etməklə həm özünüzə, həm millətinizə, həm bütün insaniyyətə xəyanət etmiş olursunuz.

Mabədi var (ardı var).

ƏLİ PAŞA

1 FEVRAL 1911, № 5, səh. 5-6

MƏZHƏKƏYİ – HƏKİMİYYƏ İLƏLLİ DƏLİ

Məccanindən (dəlilərdən) birinə:

- Şərab içirmisən?-demişlər:

- Ağıllılar içdikləri vaxt mənə bənzəyirlər. Mən içərsəmsə, kimə bənzəyəcəyəm? -cavabını vermişdir.

x x x

= VALİDƏ İLƏ OĞUL =

Bir adam validəsinə (anasına):

- Nənə, sənə şəkərmi alım? Yoxsa səni ərəmi verim?-

Dedikdə, nənəsi:

- Oğlum, validənin şəkər yeyəcək dişimi qaldı?- demiş.

x x x

= BİR ƏRƏB =

Müəzzinin (azan verənin) biri qamət gətirərkən (Həyyi əla səlat) dediyi sırada hər kəs ayağa qalxınca camaat miyanında (arasında) olan bir ərəb:

- Əgər müəzzin (Həyyi əla zəkat) desəydi, vallahi-əzim kimsə yerindən durmazdı, demiş.

1 FEVRAL 1911, № 5, səh. 6-7

RUSIYADA TATARLAR. NASIL GİRDİLƏR, NASIL MƏHV OLDULAR?

1533 tarixində Vasili vəfat etdi. Bunun vəfatında Rusiyanın hürriyyət və istiqlalı yenidən qazanılmışdı. Lakin Vasilinin vəfatından sonra Rusiya üçün istilayi-tatardan daha dəhşətli bir bəla hazırlanmışdı. Bu bəla Rusiyanı kökündən alt-üst etdi.

Vasili vəfat etdikdən sonra onun yerinə dördüncü İvan ləqəbini alan «Bəlalı» çar oldu ki, o zaman on dörd yaşında idi.

Bu zaman Rusiya prinslikləri məhv olub, bütün Rusiya bir idarəyi-vahidə altına alınmışdı. Əski prinsliklər Rusiyanı yenə prinsliklərə bölüb, qaib etdikləri əski hökumətlərini təkrar əllərinə almaq üçün İvanın bu çocuqluğundan istifadə etməyə qalxdılar. Və həpisi İvanın əleyhinə ittifaq etdilər. İvanın atası da öz tərəfdarları ilə bunlara müqabilə etməyə hazırlandı. Və bu surətlə Rusiyanın içində başdan-başa bir müharibəyi-daxiliyyə (daxili müharibə) alovlandı.

Hər şəhərdə, hər kənddə, hər küçədə, bazarda xalq boğaz-boğaza cəng edirdi. Əgər bu hal davam etsəydi, Rusiyada ruslar da yer üzündən qaldırılmış olardı. Lakin yuxarıda ismi keçən «Bəlalı İvan» yetişdi. Bu mərəkələrə bir nəhayət verdi.

Bəlalı İvan hər nə qədər çocuq idisə də, qayət zəki və ədalətli bir cavan olduğundan Rusiyanın prinsliklərə ayrılmasından Rusiya üçün nə böyük müsibət

meydana gələcəyini idrak (dərk) edə bilirdi.

İvan Rusiyanı bir idarəyi-mütləqə altına almaq və əhalini şiddətli bir təziq altında tutaraq bütün rusları bir idarəyi-vahidə altına cəm etmək surəti ilə bu müharibati-daxiliyyəyə nəhayət verilə bilər fikirində idi. Lakin sələfi Vasili kimi az düşünən və tələş edən (çalışqan) adam olmayıb, hər şeyi uzun-uzun mülahizədən sonra icra eləyən tədbirli bir adam olduğundan zülm və şiddətə Rusiyanın daxilindən başlamadı.

Rusiyanın bu qarışıqlığından istifadə edərək tatarlar, lehlilər (polyaklar), isveçlər hər tərəfdən Rusiyaya dəsti-təərrüz və təcavüz uzatmaya başlamışdılar.

İvan əvvəla bunların dəsti-təcavüzlərini kəsmək ilə işə başladı və bunlarla müharibəyə girişdi.

Bu əsnada isveçlər də, tatarlar da daxilən məşğul olduqlarından bunlara bir az asanlıqla qalib oldu. Lakin lehliləri məğlub etməkdə çox əziyyət çəkdi.

Hasili (nəticəsi), bu müharibələrin bəzisində qalib, bəzisində məğlub olmuşsa da, yenə məyus olmayıb, müvəffəq oldu. Və bundan sonra taziyanə islahını daxilə çevirdi. Əvvəla ümumrusiyaya elan elədi ki, Rusiya bir milləti-vahidə padşahlığıdır. Bu elanından sonra fərmanına bərəks gedənləri (əks gedənləri) dərhal qətl və edam edirdi. Hətta kəndi oğlunu dəxi kəndi əli ilə edam etmişdir.

Mabədi var

Ə.M.

1 FEVRAL 1911, № 5, səh. 7-8

GÖZƏLİM, AÇMA MAZİNİ!

İstəməm mən, açılmasın qalsın
O siyah pərdə ta əbəd məstur!
Yatsın əmaqi-zülmətində onun,
Bütün itami-fikrətim məhcur!

x x x

Soldurur nəşəyi-şəbabətini,
Sənə ondan əsən zəhərli hava.
Söndürür qəlbinin hərarətini,
İstəməm mən, açılmasın orda!

x x x

Ah mazi! O səhnəyi-müvəllim,
Sənə məchul qalsın, ey gözəlim!
İstəməm anlama, həyat nədir?

x x x

Yasü ümmid.... naləyi-qahir,
Bir cidali-təhi.... həyat deyilir.
Bunu sən bilmə! Üf, bilməyəlim!

ƏHMƏD KAMAL

Misir

1 FEVRAL 1911, № 5, səh. 8

ERKƏKLƏR VƏ QADINLAR MİYANINDA (ARASINDA) İCRA OLUNAN NİKAHIN SURƏTİ

Erkək ilə qadın sabiqdə (keçmişdə) zikr olunduğu əsas üzrə əqdi-nikah edilərsə, təbii bir-birlərini

layiqincə tanımaları icab edəcəkdir. Şu məsələ dini-islamın şəriəti-müqəddəsəsi ilə müvafiqətdə bulunması ümuma məlumdur. Zira hər bir kəs kəndi zövciyyət rəfiqini meyl və rəğbətinə layiq ədd edib də təzəvvüc etmək lazımdır.

İnsanın başqa heyvanlardan üstünlüyü olan həqqi-ruhani hər bir işdəki kimi əsas məişət olan təzəvvüc məsələsində dəxi insana intixab haqqı verə biləcəkdir və insaniyyət aləmində ruhaniyyət məsələsi birincilik dərəcəsini hayiz olduğu üçün intixab (seçim) vəsilələri dəxi şu ruhaniyyətə aid olacağı bədihidir. Burada erkək və qadının dövlət və sərvətin, şan və şövkətin əhəmiyyəti olmayıb, onun imtiyazati-zatiyyə və kamalati-həqiqiyyələri cilvənüma olmalıdır.

Və şu təriqdə mövcüdpəzir olan zövciyyətdə hər iki tərəfin rizaları, meyl və rəğbətləri olduğu halda vəzifəyi-zövciyyətə müğayir olmayan şərtlərin ümumi əqd zimnində şərt olunmaq cayizdir.

İrəlidə söylədiyimiz vəchlə zövciyyətin yeganə əsası və əlaqəyi-həqiqiyyə vəsiləsi ədd olunan məhəbbəti-səmimiyyə işbu şərtlərin məbnası olması icab edəcəkdir. Və bu vəchlə birinci əsas məhəbbəti-səmimiyyə ədd olunduğu halda başqa şərtlərə artıq ehtiyac hiss olunmaz. Zira şu şərtlərin heç biri erkək və qadını xoşbəxt edəcək dərəcədə qabiliyyəti yoxdur. Səddaq (sədaqət) nə dərəcədə çox olursa olsun, zövc və zövcənin məhəbbətləri ixlal olunduqda heç bir tərəfi məsud (xoşbəxt) edəməz.

Erkək ilə qadının bir yerdə yaşamaları məcburiy-

yətinə səbəb olarsa da, ruhlarını əzabi-daimiyə düçar və giriftar etmədən başqa bir nəticə verməz. Ona görə də şəri-şərifi-islamda (müqəddəs islam şəriətində) səddaqın azlığı da müstəhsən görülmüşdür. Şu qism maddiyyatın əhəmiyyətsizliyi ilə bərabər zövciyyətdə birinci dərəcədə rühaniyyətin ziyadəsincə nəzəri-etinaya alınması iraə olunmuşdur (təqdim edilmişdir). İşbu əsas üzrə təşkil olunan zövciyyətin davamı dəxi şu əsasın mövcudiyyəti sayəsində ola biləcəyi də bədihdir.

Erkək və qadın şu əsas üzrə yaşadığı halda miyanələrində (aralarında) bulunan zövciyyət dəxi ona mübtəni olacaqdır. Aralıqda əsarət və məcburiyyət olmayacaqdır və şu vəchlə zövciyyət səadəti onların kəndilərini məsud qıldığı kimi mütəəlliqat və övladının səadətinə dəxi əksəndaz olacaqdır. İnsanların biri-biri ilə əlaqələri zatən yekdigərini məsud edə bilmək dairəsində təcviz olunduğu üzrə əks surətində bədbəxtanə əlaqələrdən ictinab etmək lüzumu dərmiyan olunca bədbəxtanə zövciyyətin əlaqəyi-müləmməsini qət etmək və insanları şu bəlanın giriftarı olmaqdan xilas etmək üçün şəriəti-müqəddəsədə təlaq məsələsi ortaya çıxmışdır.

İnsanlar hissən ayrılarkən cismən dəxi ayrılmaları icabını və vicdanın əleyhində əsarətdə yaşmaqdan xilas olmaq təriqini (yolunu) təsviyə edən iştə şu təlaq məsələsi olur. Onun üçün də bəşəriyyətin əlaqəsində nikahın nə dərəcədə əhəmiyyəti varsa, o dərəcədə dəxi təlaqın əhəmiyyəti olması qabili-inkar deyildir. İkisi bir nöqtəyə xidmət etdikləri üçün səadəti-bəşəriyyə yolun-

da xadim ədd olunmaları icab edər.

Demək ki, erkək və qadını əlaqədar edən və səadəti-zövciyyəyə nail etmək iqtidarında bulunan nikah onların aralarında bulunan məhəbbəti-səmimiyyədən başqa bir əmr (iş) fərz olunmaz.

İşbu vəchlə təəddüdi-zövcat və daha bunun kimi məsayili-müğləqəyə dəxi bir məhəl qalmır. Şu sayədə zövc və zövcənin hər bir məişət müşkilatı həll olunur. Xüsusiyyət və səmimiyyət meydangir olunca dürlü-dürlü rəsmiyyətlər ortadan qalxır.

Bu qism məsudanə zövciyyətlərə və nikahlara zəmanəmizdə mümaniət göstərən dürlü-dürlü ehtiyacati-maddiyyə hisləri və qism-qism övlad və ətfal pabəndliyi kimi düşüncələr olduğunu sabiqdə də işarə etmişdik. İrəlidə bəyan olunan cəmiyyət sayəsində şu ehtiyaclar, hətta günagün düşüncələr rəf olmaqla bərabər belə bir həqiqi nikahın hüsula gəlməsinə heç bir qism mümaniət çıxmayacağı məlum və aşkardır. İştə bu vəchlə icra olunan əqdi-nikah, əsarət qəbalələri olmayıb, məhəbbəti-həqiqiyyə və səmimiyyə əlaqəsindən ibarət qalmaqla bütün fənalıqların və narəva hərəkətlərin önünü alıb məkarimi-əxlaq və səadəti-bəşəriyyə yolunda xidmət edəcəkdir. Və bu təriqlə vücudpəzir olmuş nikahla, zəmanəmizdə adətimizcə icra olunan nikahı bir dəfə də olsa müvazinə etməlidir. Bəzi etibariyyat və mülahizatdan ibarət bulunan bir əlaqənin nə dərəcədə etibarlı ola biləcəyi bir dəfə də olsun düşünülsün. Şu qism nikahlar vasitəsilə milyonlarca zühura gələn bədbəxtlikləri hiss edib də, adəti-

mizcə yenə də davamına çalışırız. Şu dürlü nikahlar islamiyyətcə olmayıb, adətimizcə bizim aramızda icra olunduğunu dəxi bilməliyiz. Həqiqəti-aliyyəyi-islamiyyə səadəti-bəşəriyyə üçün şu dürlü mülahizat və etibaratı əsas qərar vermədən son dərəcə alidir. İştə nöqsanın kəndi ətvar və adatımızda olduğunu bir dəfə iqrar etməliyiz.

Mabədi var (ardı var).

AXUND YUSİF TALIBZADƏ

1 FEVRAL 1911, № 5, səh. 9-11

İCMALİ – ƏHVAL

= BİZİM ŞƏRQDƏ İQTİŞAŞ =

Bir az zaman iqtişaşati-daxiliyyədən azadə olub fövqəladə ciddiyyət ilə vətənin və millətin səadətinə çalışan jon türklərin ibraz etdikləri fəaliyyət və əhəmiyyət daima osmanlıları və bununla da aləmi-islamı öz əllərində əsir edib vasitəyi-istifadə edən Avropa dövlətlərini yenə düşündürməkdədir. O cümlədən olaraq müsəlmanlığın əxirən cəlladı olan İngiltərə dövləti ənkəbut (hörümçək) kimi bu tərəfdən İrana, o tərəfdən də Osmanlı məmləkətlərinə nişlərini yürüdüb, daima bu islam mərkəzlərində iqtişaş və ixtilalın davamına çalışmaqdadır.

Yunan ixtilalından iki ay keçdikdən sonra ərəb libası ilə müləbbəs olmuş ingilis müşəvvəqlərinin fitnəəngiz təşviqləri nəticəsi olaraq Yəmən iqtişaşı

başlamışlar.

Ərəblərin iqtişaşı skat edilmədən (sakitləşdirmədən) bu tərəfdən Avstriya və Qaradağın tərğib və təhrisi ilə Albanlar meydana atılmışdılar. Üsyana qalxmış albanlar dəstələrlə Qaradağa keçib, orada silahlanırlar. Türkiyə hökuməti qərar verdi ki, albanların belə mühacirətlərinə mümaniət edilsin. Bunun üçün də Qaradağ sərhədlərinə mühafizə əsgərləri qoyub, mühacirlərə mümaniət etməkdədir.

Keçən gün alınan «Ruskoye slovo» qəzetəsinin müxbiri Uskopdan xəbər vermiş ki; «Dünən Türkiyə və Qaradağ sərhəddində böyük qanlı müsadimə (toqquşma) olmuşdur. Sübh vaxtı səyahətdən övdət edən Qaradağ əsgərləri Türkiyə sərhəddində albanlar üçün türk qoşunu tərəfindən qurulmuş olan bir pusquya rast gəlirlər. Bunların arasında atışma vaqe olur. Atışma əsnasında bir dəstə Alban mühacirləri vaxtdan istifadə edərək sərhəddi keçib Qaradağa qaçmışlar. Bu atışmada da üç nəfər türk əsgəri ölüb, bir neçəsi də yaralanmışdır.»

Bu xəbərin, yəni Qaradağ sərhəd qoşununun «Səyahətdən» övdət etmək xəbərinə biz əsla qoşunu albanların sərhədə yaxınlaşmasını bilib də əmdən türk əsgərlərinə hücum etmişdilər. Bununla da mühacir albanlara yol açmışlar. Bundan sonrakı teleqrafda da deyilir ki, Qaradağdakı albanlar Türkiyə dövlətindən əfvi-ümumi tələb edirlər.

Bu tərəfdən də albanlar Qaradağ hökümətindən ciddiyyətlə tələb edirlər ki, Türkiyə işlərinə müdaxilə

edilib, Türkiyəyə qarşı iş görülsün. Asilər (düşmənlər) Qaradağ hökumətinə vədə verirlər ki, Türkiyə ilə bir toqquşma başlanarsa, albanlar tərəfindən Qaradağa ciddi müvainət olunar.

Bura məhafili-siyasiyyəsində Albaniya iqtişaşının banisi Qaradağ olduğu söylənilir.

Albanların üsyanına Romada (Kalabriya) şəhərində mövcud albanlar komitəsi tərəfindən də ianə olunur.

Komitə bu günlərdə nəşr etdiyi intibahnamədə albanları bittamam (tamamilə) üsyana dəvət edərək maddi cəhətdən böyük müavinətdə bulunacağı kimi, iyirmi min nəfərdən ziyadə də milli əsgər göndərməyi vəd edir.

Bu tərəfdən də yunan hökuməti Tessaliyada (Tirxalə) səhrasında böyük bir manevra ilə öz qüvvəyi-bərriyyəsini (quru qoşunlarını) Türkiyəyə göstərmək istəyir. Bu isə Osmanlı hərbiyyə nəzarətinin (hərbi nazirliyinin) hökmü ilə yunan sərhəddindəki qüvvəyi-əsgəriyyənin on iki səri (çevik) atəşli batareya ilə bir çox pulemyotların artırılması nəticəsidir.

Demək ki, Balkan adasında yenə qanlı faciələr gözlənilir. Hər halda bu günlərdə osmanlılıq qeyrət və himməti ətrafında hazırlanan bəla fırtınalarına çarə aramaq məcburiyyətindədir.

Allah müvəffəq buyursun!

M.S.

x x x

Paris-Diplomasiya məhafilində təmin edirlər ki, Asiyaya-süğrada (kiçik Asiyada) çəkiləcək dəmiryol xətti haqqında Türkiyə ilə Fransa miyanında müzakirat başlamışdır.

Fransa kabinəsi bu xüsusda öz nəzəriyyatını Babi-aliyə (Osmanlıya) məlum etmişdir. Buraya müvasilət etmiş olan Peterburq səfiri Yoryioni ilə Risven miyanında bu xüsusda icrayi-müzakirat edilməkdədir.

x x x

Roma – Trablisi – qərbdən (Tripoli) buraya xəbər verilir ki, valinin təşviqi ilə bura rəsmi cərayidi (rəsmi qəzetələri) italiyalılara qarşı fitnəəngiz məqalələr nəşr edirlər.

Məhəlli İtaliya konsulu vali ilə bilmərrə qəti-əlaq etmişdir. (əlaqələri kəsmişdir).

= İRANA DAİR =

Zavallı İranımızın halı get-gedə fənalaşır. Bir tərəfdən əcnəbi müdaxilələri (İranın daxilindən özünü heç bir işə qarışdırmaqsızı dəmiryol xətti çəkilməsi kimi), o tərəfdən də dostları ilə düşmənlərinə fərq verməyə qadir olmayan iranlıların ixtilafati-daxiliyyələri İranın düçar olduğu təhlükəni gündən-günə artırır.

Bu gün İranın, iranlıların ən birinci ümidləri nayibüssəltənə həzrətləridir.

İştə İranın nicatına dair əfkari-ümumiyyəyə ümid verən bu zatdır. Keçən həftənin əvvəllərində öz arzusu üzrə rəsmi-istiqbal (qarşılama) icra olunmaya-

raq nayibüssəltənə həzrətləri Tehrana varid olmuşdur.

Nayibüssəltənənin ən birinci görəcəyi işi kabinə islahı olacaqdır. İran kabinəsi bunu əvvəlcə duyaraq istefasını bir kaç həftə müqəddəm (əvvəl) vermişdir.

Avropa qəzetələri nayibüssəltənənin həqiqi bir məşrütiyyət tərəfdarı kabinə təşkili fikirində olduğunu yazmışdı. Gərək elə də olsun. Bu gün İranda heç bir siyasi firqə lüzumu yox. Nayibüssəltənə həzrətlərini düşündürəcək əsl müşkilat daxili iqtişaşatdır.

İki həftə əqdəm maliyyə naziri Sənidəddövlə iki nəfər rus təbəəsi tərəfindən qətl edildi. İsfahan valisi Mötəmid Xaqan da sabiq İsfahan əmiri-nəzimiyyəsi (polis rəisi) Abbas xan tərəfindən qətl edilmişdir.

Avropa mətbuatı bu iki mühüm hadisəyə pək çox əhəmiyyət verməkdədir.

Sənidəddövlənin qətlinə dair «Tayms» qəzetəsi yazır ki:

Vəzirin qatillərinin İranda məhkum edilmələrinə rus hökuməti razı olmayacaqdır.

Fəqət qatillərin rus əlinə verilməsi də iranlıların ruslara qarşı ədəmi-rizaları dəxi artacağı təbiidir.

İranın cəhəti-maliyyəsini tənzim üçün nayibüssəltənənin İngiltərədən istiqraz təşəbbüsündə olduğunu Avropa qəzetələri yazmaqdadır.

İrana dair həvadisi-mühümmədən biri də İngiltərə və Rus hökumətlərinin müttəfiqən İrandan Hindistana dəmiryol xəttini çəkmələəridir.

1 FEVRAL 1911, № 5, səh. 11-12

«YENİ FÜYUZAT»

№ 6

İkinci sənə

15 FEVRAL 1911

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, Dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «Füyuzat».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir. Başqa şəhərlərdə 12 qəpik.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində.

= MÜNDƏRİCAT =

1) Məktub – İrandan bir türk;
2) Namiq Kamal – Vətən mənzuməsi;
3) Əli Paşa – Səhhət;
4) Səid Salmasi;
5) Yusif Əli – Xanımlarımız;
6) Axund Yusif – Erkəklər və qadınlar;
7) Məmməd Sadıq –Təracümi-əhval;
8) Avarə – Gözəlim.

BÖYÜK VƏTƏNPƏRVƏR ƏHMƏD RZA BƏY

20 saniyə qərib (yaxın) bir müddət Avropada Əbdülhəmidin hökuməti-müstəbidəsi ilə mücadilə ayağına gələn, hər növ iqbalı vətəni – Osmaninin səlamət və səadətinə fəda edib bu günkü Məşrutiyyəti – Osmaniyyənin əsbabi-istehsalını ehzara müvəffəq olan Məclisi-məbusan rəisi-alisi, böyük vətənpərvər Əhməd Rza bəy əfəndi həzrətlərinin (şəkili).

15 FEVRAL 1911, № 6, səh. 1

= ƏHMƏD KAMAL BƏY QARDAŞIMIZA =

Möhtərəm bəy əfəndi!

«Potsdam mülaqat» sərlövhəsi ilə mötəbər Füyuzatın əon nüsxəsində nəşr etdiyiniz məqaləni kamali-diqqətlə oxudum.

Aləmi islamiyyətin başına gələn fəlakətlər, bu günə qədər çəkilən zəhmətlər, məşəqqətlər, bundan belə üzərimizə çökəcək nikbətlər bizi titrətməli, iqaqaz etməli nəhayət, oyandırmalıdır.

Heyhat! Məqaləniz rəqiq bir hissin məhsuludur. Həp oxumalı, mütənəbbeh olmalıyız.

Aciz (mən) hissiyyatınıza iştirak edənlərdən olduğumu isbat etmək üçün məqalənizi oxumadan qəzetələrdən birinə göndərdiyim məqaləni eynən buraya qeyd etmək lüzumunu hiss edirəm ta ki, aşağıda bəzi cümlələrə edəcəyim etirazın fikirinizə müxalif olduğundan dolayı yürüdülmüş olduğu zəhabı varid olmasın.

«Biz İrana bənzəyirizmi?» məqaləsi münasibətilə bir-iki söz.

Xülusu-niyyət ərbabı daima nikbinlik izharına çalışır. Bədbinanə hərəkətin mahiyyəti çabuq, həm pək çabuq anlaşılır.

Nə demək istədiyimi anlatmadım, zənn edirəm. Türkiyəni İrana bənzətməkdən hələ bu aralıq ləzzət alanlar kimlər ola bilər?

Hankı tərəfə mütəvəcceh qəlblər, hisslər belə bir

fikirdə buluna bilər?

Hankı əllər bu məqalələri yaza bilər? Bir kərrə düşünəlim!

Möhtərəm.....! Sadəcə «Məmləkətimizdə çıxan bəzi qəzetələr bizi İrana bənzədir!» cümləsi ilə ismi-təsrih etməyərək mütaliə yürüdür.

Biz şu ismləri təsrih edilməyən qəzetələri, o məqalələri yazan əlləri, o həsədə, o fikirdə bulunan boş ağılları anlamaq, həm pək uzaqda bulunduğumuz halda tanımaq istəyiriz.

Biz osmanlılar, bilxassə Türkiyə müsəlmanları hökumətimizə dost və qonşu, rəvabiti-maddiyyə və mənəviyyə ilə mərbut İranın başına gələn fəlakət-lərdən, əcəba, bir şəfqət ümid edir kimi mütəəssir olur. Sonradan biz də onun başına gələnlərdən və ya gələcəklərdən hissədar ediləcəyimizi düşünər kimi təlaşa düşürüz?

Yoxsa bu iki hökumətin şövkət və müknəti, bəqa və səlamətləri «Bütün aləmi-islam» üçün bir zəman təşkil elədiyinimi nəzəri-diqqətə almaq istəyiriz?

Hər tərəfdə islamlar (müsəlmanlar) xar və həqir, zəlil, məhkumi-təğəllüb. Nə tərəfə istərsən bir nəzər firlatsaq bu hal, bu həzinəngiz mənzərə gözümüzə çarpar.

Bir az daha irəli gedəlim. Bu gün İranda kəndi torpaqlarında, evlərində də bu zavallı, fəlakətzədə millət əcanibin (əcnəbilərin) dəsti-təğəllübünə, zənciri-əsarətinə bənd olmuş deyilmi?

Biz türklər «Milləti-məhkumə» sözünü çoxdan

unutduq. Vətənimiz osmanlılarındır, deyiriz. Müsavata riayət ediriz. Hətta Avropada mücavirimizdə bulunan hökumətlərə qarşı bir cəmilə (hiylə) ibraz etmək, bir az da o tərəfdən əks edən sədaları basdırmaq üçün xristian vətəndaşlarımızı islamlardan bir az daha müəzziz (əziz) və mütəfəvviq (üstün) göstərmək istəyiriz. Doğrumu?

Balkanları görünüz! Rusiyanı görünüz!

Bu hiss, bu fikir onlarda varmı?

Oralarda miliyyət, qövmiyyət hissləri qəlbdən silinmək çarələri düşünülürmü?

Əqvami-müxtəlifənin vətəni-müştəriki olan Türkiyədə qonşularımızın çevirdikləri intriqalar mahiyyət məsələsini ifhama kifayət edəcək bir radəyə vasil olduğunu düşünmək icab edərmi?

Mücavirimizdə bulunan hökumətlərin kəndilərinə bu aralıq ifşa etdikləri əsrarın cəhəti-təəllüqünü anlayırmıyız?

Mən İranda, həm pək uzaqdayam. O məqalələrin, şu verdiyimiz izahatdan kimlər tərəfindən yazılmış olduğunu hiss edə bilmiş, kəndim də anlaya bilmişsəm, məmnunəm.

Biz türklər İran qardaşlarımıza bənzəməyi kəndimizə şərəf edd ediriz. Bu zavallı məmləkətin bağrı yanıq, millətin də bizimlə bərabər dövri-təkamül və tərəqqiyə girməsini əz canü dil arzu ediriz.

Heyhat! Məqalə sahiblərinin fikir və məqsədi – təhlükə anlayırız – bu deyil!

Vətənimizi, məmləkətimizi anarşi halında göstərmək, məşrutiyyətdən iranlılar kimi istifadə edəmə-

diyimizi aləmə anlatmaq hüsnə bir osmanlı nədən qapılır?

Məmləkətimizdə, bilxassə Makedoniyada təkvin edən və əlan (indi) davam etdiyi, görülən vəqayeyi-əliməyə kimlər səbəbiyyət (bais) verir?

Bolqar rəisi nəzari, bolqarların Makedoniyada islamlarla bir səviyyədə tutulmadığını nə cəsarətlə söyləyir?

Demək, bu məqalələri yazanlar bu fikiri qəbul edirlər. Əcəba, Bolqaristan islamları, vətəndaşları bolqarlarla müsavat hüquqa şimliyə qədər nail olmuşmu?

Hicrəti-bəliyyəsi nədən dindaşlarımızın əlan belini bükür?

Mühacir cəmiyyəti bu sözlərə, böhtanlara qarşı nədən əbkəm durur? (susur?).

Misio Malinovun fikri İranda olduğu kimi, islamları xristian vətəndaşların, əcnəbilərin nüfuz və təhkimi altında bulundurmaqsa, buna bir deyəcəyimiz olamaz!

Fəqət yuxarıda da söylədik, bir az müsaidət-karanə hərəkət edilə bilməklə bərabər bir az irəli gedildimi? İçində bulunduğum İrana iştə o zaman bənzəməzmiyiz?

Zatən «Bənzədiyimiz» söylənir.

Amma həqiqətdə «Bənzədilmək» fikrilə çalışır. Bu anlaşılmazmı?

Möhtərəm....!

İranın bir-iki nöqsanını ortaya qoyub, bu nöqsanları saymaqdansa, bizə qalırsa, bu məmləkətdə

tərəqqiyyata, təsliyyata hənuz (hələlik) başlanmadığını məəttəssüf zikr etmək lazımdır.

Böyük bir zata, məmləkətin müqəddəratı yədi-həmiyyətinə mövdu (əmanət) bir İran diplomatı: «Əxlaqi-ümumi islah olunmadıqca, proqramsız şəxsi partilərdə mənfəət uğrunda çalışması əlyövm (bu gün) o məqsədlə çalışmaqdan vaz keçməyən zinüfuz adamların cahil, nik və bədi (yaxşı və pisi) təfriqdən aciz əhali arasına əkdikləri fəsad toxumları imha edilmədikcə, daha doğrusu bu təfriqələr, nizalar (çəkişmələr) rəf və nəzə edilmədikdə İranda ordu-əsgər təşkilatından bir fayda hasil olamaz»-deyir.

İranı görənlər bu ehtiyatlı ordu təşkilatını ikinci dərəcəyə buraxmağı münasib görür, o diplomatın fikirini təsvib edirlər. Amma «Siyasi intriqalar, hökumətdə görülən bətaət və rəhavət (asta hərəkət), əcz və məskənət, əhalidəki haləti-ruhiyyə, cəhalət, səfahət, bu gedişlə, bu fikir müsibətin tətbiqinə imkan buraxmayacaqdır»-deyənlərsə biz osmanlılar daima qonşumuz, qardaşımız haqqında nikbinliyimizi izhar, hər halda təzyif və təhqirə bilənləri bu gün məhcub və şərmsar e dəcək bir vəziyyətin İranda da təcəlli edəcək ümidini şimdidən fikirimizə nəqş, bununla mütəsəlli oluruz (sakitləşiriz).

Başqa da çarə varmı?

Mabədi var. (ardı var).

İRANDA BİR TÜRK

15 FEVRAL 1911, № 6, səh. 2-4

= VƏTƏN MƏNZUMƏSİ =

ARDI

Bəsləmişkən bu qədər adamı ehsan ilə,
Getdi biçarə Vətən, ağlayaraq şan ilə,
Yaz bu mərsiyyəni daşa şühəda qanı ilə!

Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qarə madərini.

x x x

Silmədik bunca yetimin gözünün yaşlarını,
Daş və torpaqlara sürdük o gözəl başlarını,
Vətənin bağrına vurduq vətənin daşlarını.

Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qarə madərini.

x x x

Bir zaman aləmi-iqbalda sultan olduq,
Cameyi-aləm idik, şimdi pərişan olduq,
Ah! Bir qan içənin keyfinə qurban olduq.

Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qarə madərini.

x x x

Vətənin nikbətinə, dərdinə canmı dayanır,
Düşmənin görsə, gözü yara kimi qan boşanır,
Bu qədər zülmdən insan deyil, iblis utanır.

Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qarə madərini.

Mabədi var (ardı var).

NAMİQ KAMAL – HİKMƏT

15 FEVRAL 1911, № 6, səh. 4

= SƏHHƏT =
= ÇOX YEMƏK =

Mərəz (xəstəlik) mədə pozulmaqdan əmələ gəlir. Onun üçündür ki, insanın bir çox hissəsi kəndi mədəsini müalicə etməklə məşğuldur.

Məşhur milyoner Rotşild (Voriskovana) da Bavariyada haləti-təbii ilə müalicə edən məşhur keşiş Knipsin nəzdinə gedir. Ondan rica edir ki, mənim mədəm xarab olmuş, inayət əlinizi mənə uzadaraq məndə olan bu ağır mərəzə bir çarə ediniz. Mən çox yeyirəm və çox tez-tez yeməyə alışmışam.

Xülasə surəti-mərəzi Knipsə göstərir. Və bir çox həkimə gedib, birinin belə, o birinin şöylə et dediklərini və kəndinin hər nə etdisə də bir nəticə hasil olmadığını Knipsə söyləyir.

Knips cavab olaraq deyir ki:

- Əvət, mən sizə doğrusunu söyləyim, siz xəstəsiniz. Sizin belə əmrari-həyat etmənizə ən birinci səbəb sizdə ikinci mədənin olmadığıdır.

İştə bir misal:

Nə vaxt yemək insana pək çox dadlı gəlirsə, o vaxt yeməkdən əl çəkmək lazımdır, ta ki, əzalar möhkəm qalaraq vücud rahat olsun. Fəqət biz tamamilə bunun bərəksi olaraq yaşayırız. Yemək dadlı olduqda o vaxt həddən ziyadə yeyiriz. Binaən ileyh dürlü-dürlü təhlükədə bulunuruz. Heç olmazsa bir dəfə imtahan etmək üçün yemək dadlı olanda bir qədər az yeyiniz. Bu surətdə olan halda, şübhəsiz, təsdiq edərsiniz ki, vücunuzda bir şadlıq nümayan olur. Binaən ileyn insan daima az yeməkdən sonra kəndini iyi, vücudunda yüngüllük və iştə pək çox hirs və rəğbət hiss edər. Lakin çox yiyəndə, əlbəttə, cəmi əzalarda ağırlıq və tənbəllik hiss edər. Heç qorxmayınız ki. az yeyəndə sizə bir bəla ariz olur. İnsan az yeməkdən heç mütəzzərir olmaz (zərər çəkməz). Lakin çox yeməkdən hətta ölər. Halbuki insan idaməyi-həyat üçün yeyir. Kəndi həyatını qət etmək üçün yeməyir. Lakin bəzi insanlar qüvvətim çox olsun deyə yeyirsə də, pək çox səhv edir. Halbuki insan çox yedikdə mədəni xarab edər. Mədə xarab olduqda insanın bütün əzalarına şu xarab olmuş mədədən qan da xarab gedər. Əzalara xarab qan getdikdə bədən zəif olur. Əzalar zəif olduqda vücudda (bədəndə) təhlükəli mərəzlər peyda olur. Halbuki insan yemək üçün yaşamır. Fəqət yaşamaq üçün yeyir. Təəssüf olunur o adamlara ki, qarnına qul olub yaşayırlar.

Bu halda şübhə edilməsin ki, gec ya tez belə adamlar mərəzə düçar olur və mərəzə düçar olduqda bu

dövr o insanların həyatı daima təhlükədə olub, ömri-təbiidən əvvəl ölürlər. Belə insanlar ölmürlər, fəqət kəndi əlləri ilə kəndilərini öldürərək kəndi dişləri ilə kəndilərinə qəbir qazırlar.

Əvət, kəndinizi çox yeməkdən saxlayınız. İştə yuxarıda zikr olunan məsayili təcrübə ediniz və təcrübə etdikdən sonra tamamilə təsdiq edərsiniz zənnindəyəm.

Əvət! Yuxarıda dediyimiz kimi, yenə təkrar ediriz ki, çox yemək insanı xəstə edər. Məsələn ət, məşrubat (içkilər) kimi şeylərdən (halbuki məşrubat da bizdə haramdır) bədənə mənfəət olmayıb, çox mərəzlər hasil olur.

Ey qareyini-giram! (hörmətli oxucular)

Sizin fikirinizcə ət bədənə çox qüvvət verir və bədəni səhhətə nail edir. Halbuki əldən bəklədiniz mənfəəti o qədər görməzsiniz. Və fikir edirsiniz ki, guya ət, çaxır və bunlar kimi şeylər insanı qüvvətə nail edərək ayağa qaldırır. Xüsusən xəstə olduğu zaman.

Hər nə qədər zamani-tüfuliyyətdən eşitdiyiniz və alışdığınız şeyləri sizə tərk ediniz demək çox çətindir. Lakin müvəffəq oluram.

Əvət! Ətə zəhər demək olmaz. Fəqət bəzi vaxt hazır edilən yemək çox zərərli olur. Məsələn:

Əti qaynatdıqda, yaxud qızardanda bəzi şeylər qatırlar. Həqiqətən yeməkdən sonra bir stəkan (qədəh) suya kifayət etməyib, insan şərab da istəyir. Şərabı içdikdə bir papiros olsa daha gözəl olur, - deyə bir papiros da arzu edir. Halbuki vücudunuz bununla qüvvətə nail olmadıqdan başqa vücudunuzda olan

qüvvəti də qaib edirsiniz.

Bir kərrə imtahan etmək üçün yemək istəyəndə bir az südlü aş (südlü sıyığ) yeyib, sonra meyvə yesəniz onda könlünüz nə şərab və nə papiros istər.

ƏLİ PAŞA

15 FEVRAL 1911, № 6, səh. 5-6

SƏİD SƏLMASİ KİMDİR?

İran inqilabının qanlı səhifələrini hər kim mütaliə etmişsə, bilər ki, İran məşrutəsinin qurbanlarından biri və bəlkə, ən birincisi Səid Səlmasidir ki, 24 fevral 1909 tarixində vüğu bulan (baş verən) Makı ilə Xoy müharibəsinin Sədabad çölündə Makı əşrarı tərəfindən həyatına fəcianə bir surətlə xatimə çəkilib, qayəyi-amalı və intihayi-arzusu olan İran qüsuri-idarəsinin islahını görməksizin (görmədən) cami-şəhadəti nuş etdi.

İştə o mücahidi-həqiqinin ömrünün son günlərində Xoydan mənə yazdığı bir məktubu möhtərəm Füyuzat qarelərinə (oxucularına) bir töhfə qəbilindən olaraq eynən dərc edirəm ki, o vücudi-mübarəkin necə səhih bir məslək və ali bir fikir sahibi olduğu açıqdan-açıqa kəşf olunsun və öz kəlamıma dəxi işbu misra ilə xitam verirəm:

Həmiyyətbinü qeyrətbin cavanmərdi tamaşa kon!

ƏLİQULU NƏCƏFZADƏ

= MƏKTUBUN EYNİ =

Möhtərəm qardaşım! Məktubunuzu ziyarət etdim. Mənim kimi fikrən və ruhən müztərib olanlara sizin kimi sadiq bir rəfiqin məktubunu ziyarət böyük bir bəxtiyarlıqdır. Bu məktubuma da cavab yazsanız, sizdən daha ziyadə məmnun olacağam.

Mətləbənizin bir fəqərəsində:

(Mərd əgər naz keşəd nazi-nigarı bari. Sağ olsun jon türklər ki, öz iqdamlarının bərəkəti ilə Əbdülhəmiddən qan tökmədən məşrutəni bir gündə aldılar) yazırsınız.

«Mərd əgər naz keşəd... misrasından nə demək istədiyinizi anlayıram. Mərd odur ki, nazı çəkilməyən nigarların nazını çəkə. Çünki nazı çəkilməyən layiq nigarlara çox nazkeş bulunur. Bu isə mənim fikirim deyil, bəlkə, bu həqiqət hər yerdə gözə çarpar. Zatən sosializmənin də əsası bu deyilmi?

Sosialistlər də xəvası buraxıb fağır, müztərib və bikəs (kimsəsiz) olan füqərayi-kasibənin nazını çəkmirlərmi?

Bu gün İran hər yerdən və hər məmləkətdən artıq nazkeşə möhtacdır. Bunu buraxıb da milyonca nazkeş olan nigarların ətəyindən tutmaq mərhəmətsizliyə dəlildir.

Yenə bir yerdə:

«İn Vətən misli İraq və Şam nist. İn vətən şəhri əst ke, avəranam nist».

Dünyanı özümüzə vətən bilək. Gərək ümum aləmi-islamı mülahizə eləyək. Bir İranı deyil, deyirsiniz.

Bəradər! Bəşəriyyətin istinadgahı «Sosializmadır». Bu nə fransızların, nə Almanın və nə İranındır. Bu fikir insanların əfkari-səmimanəsi, arzuyi-yeganəsi və rəhbəri-səadətidir. Bunun üçün, yəni buna yetişmək üçün çarə məşrutiyyət və parlamentarizmadır. Hər millətin ibtidayi-məşrutiyyətində iqtisadi-siyasi və iqtisadi-ictimaiyə nisbətən bir az inhiraf duyulsa da, yenə ümumbəşəriyyətin birləşəcək və görüşəcək yeri həman sərmənzili-səadət olan sirati-müstəqim həqdir ki, adına sosializma deyiriz.

Gələlim Osmanlı məşrutəsinə.

Əzizim, cavan türklər otuz sənədən bəri qəlbən müntəzəm və qeyri-müntəzəm bir surətdə çalışırlar. Bu, inkar olunmaz bir həqiqətdir. Lakin Osmanlı məşrutəsi bunların səmərəyi-səyi deyildir. Otuz sənə əvvəl millətin hürriyyətini qəsb edən, otuz sənə sonra millətə hürriyyət verən, bir gündə otuz beş milyon nüfuzu (əhalisi) öldürən, bir gündə yenə ruh verən, iradəyi-səniyyə ilə qırx min məzlumu həbs edən, əfvi-şahənə ilə xilas edən, məmləkətə hürriyyət bəxş edən, istibdad gətirən, pəp bu xariqələri yapan və bu sehrləri eyləyən zalım, xain, bir müstəbid nabekardır ki, adına Əbdülhəmid deyiriz. Millətlərə bəxş olunan hürriyyətdən fayda yoxdur. Məgər ki, sitvət və qüdrəti-milli sayəsində mühafizə oluna.

Bizə də ingilislər sədəqə növündən olaraq bir hürriyyət bəxş etdilər ki, «Yelqovan» kimi tündbad

politik hər nə tərəfə meyl elədisə, o yenə düşdü. Hürriyyət bir cövhərdir ki, bahası (qiyməti) ....dir.

Türkiyədə nə üçün belə olmadı?

Bu sualın cavabını istiqbaldan bəkləməli. Baxalım nə söyləyəcək.

Yazırsınız ki, Təbrizdə Məcidiyyə xiyabanını başdan-başa qarət etmişlər. O cümlədən bizim «Hacı.... mağazasını».

Anladım. Demək istəyirsiniz ki, Hacı.... kimi bir xuliqanın mağazası qarət olunan yerdə anla ki. sizin mətbəə və mağaza sağlam qalırmı?

Pək xoşuma getdi. Nazikanə bir surətdə yazmışsınız. Zərər yox. Əzizim, yandırsınlar! Qarət etsinlər! Bununla mənə bir şey olmaz. Lakin öz cəhalətlərini dünyaya isbat etmiş olurlar.

Mühüm xəbərləri xahiş edirəm məktub vasitəsi ilə yazınız.

Mən təmamən dünyadan bixəbər yaşayıram. «Sərmayə azaldıqca qədri bilinir.» məsələsi doğru imiş. Bir neçə ay əvvəl ölüm nəzərimdə heç bir şey idi. Yaşamaqdan nifrət edirdim. Şimdi isə köpək kimi yaşamağa həris və arzukeşəm.

Dostlara SALAM.

SƏİD XƏLİLZADƏ SƏLMASİ

15 FEVRAL 1911, № 6, səh. 6-8

= XANIMLARIMIZA «İŞIQ» MƏCMUƏSİ =

Sənələrdən bəri Avropada tulu edib cahani-insaniyyəti nuranur ürfan eləyən şəmsi-mədəniyyətin ziyası qəti-məsafə edə-edə, nəhayət, bizim məmləkəti-mizə də işıq saçdı.

Bəşəriyyətin nisfi-müqəddəsi, ən mühüm və möhtərəm üzvü olan xanımlarımız mədəniyyət dediyi-miz mühiti-mərifətə daxil olmaq şöylə dursun, hətta onun cüziyyat əhvalından belə bixəbər idilər.

Xanımlarımızın belə füyuzati-maarifdən bixəbər olmaları heyəti-ictimaiyyəyi-milliyyəmizi əsrlərdən bəri bu günkü gördüyümüz hal cəhalət və səfalətdə yaşadır.Çünki insaniyyətin birinci məktəbi ana quca-ğıdır.Bu məktəbin əhval və şərayiti nə qədər müntəzəm olursa, insanın orada olacağı tərbiyyəyi-ibtidaiyyə də o qədər müntəzəm və parlaq olur. Biləxərə, görəcəyi təhsil və tərbiyə də bu tərbiyəyi-ibtidaiyyənin hökm və təsirindən azadə olamaz.

İştə bundan anlaşılır ki, bəşəriyyət məsud bir heyəti-ictimaiyyə təşkil edə bilmək üçün hər şeydən əvvəl qadınlarının tərbiyə və təliminə sərfi-qeyrət məcburiyyətindədir.

Avropa əhalisi bu həqiqəti çoxdan anlayıb xanımlarının tərbiyəsinə çalışmış və ancaq bu sayədə bu gün fərti-heyrət ilə tamaşa etdiyimiz dərəcəyi-kamalə vasil olmuşdur.

Halbuki bizdə bir çox əhadisi-nəbəviyyə (pey-ğəmbər hədisləri) və kübar kəlam qadınların təhsil və

tərbiyələrini fərz və vacib dərəcəsinə çıxarır.

«Elm öyrənmək (əldə etmək) bütün müsəlman kişilərinə və qadınlarına vacibdir.»

Hədisi-cəlili-nəbəvisi qadınların təlim və tərbiyəsini fərz olaraq əmr etdiyi halda biz nə üçün qəflət edib bu cəhətə əhəmiyyət verməyiriz? Əcəba!

Bizi bu vaxta qədər aldadıb həyati-səfilanəyə alışdıran kimlər olmuşdur?

Şək yox ki, «yüz qövmi-dəccal» güruhudur. Şimdi bu «İşıq»-ın zühuri ilə həm qəflətimizə etiraz və həm təshihi-qüsura mübaşirət etmiş oluruz. İbtidada (ilk növbədə) heç bir şey nöqsandan xali olmaz.

Binaən ileyh bu balaca xanım qəzetəsində bəzi nəvaqis (nöqsanlar) görülsə də onu tənqid eləmək rəvayi-həqq deyildir.

Çünki «tənqid asandır, icad çətindir.» Hünər bunu tənqid etmək deyil, onda görülən nöqsanları təshih və ikmala müsaid olacaq rəğbət və himmət göstərməkdir.

Xülasə əlinə bir fanüsi-ürfan alıb vadiyi-cəhl və zülmətdə qalan həmşirələrini (bacılarını) işıqlandırmaq üçün meydani-qeyrətə atılan «İşıq» məcmuəsi mühərrərəyi-möhtərəməsini təbrik edib, bu kimi xanım əfəndilərin çoxalmasını arzu və təmənna edirəm.

YUSİF ƏLİ

15 FEVRAL 1911, № 6, səh. 8

FÜYUZAT:

İki həftədən bəri Bakıda xanımlara məxsus olaraq intişara başlayan (nəşr olunmağa) «İşıq» məcmuəyi-möhtərəməsini təbrik ilə məzhəri-rəğbət olmasını ərbabi-irfandan təmənna edir və məcmuənin İstanbulda xanımlara məxsus nəşr olunan məcmuələrə və xüsusi ilə Nigar, Fatma Əliyyə, Əminə Süməyyə, Xalidə Saleh və .... xanım əfəndilər kimi məşhur mühərrirlərimizə göndərilməsini tövsiyyə edir.

15 FEVRAL 1911, № 6, səh. 8

ERKƏKLƏR VƏ QADINLARDAN TƏŞKİL OLUNAN CƏMİYYƏTİ-İSLAM.

ardı

İbarət bulunan bir əlaqənin nə dərəcə etibarı ola biləcəyi bir dəfə də olsun düşünülsün. Şu qism nikahlar vasitəsi ilə milyonlarca zühura gələn bədbəxtlikləri hiss edib də, adətimizcə yenə də davamına çalışırız. Şu dürlü nikahlar islamiyyətcə olmayıb, adətimizcə bizim aramızda icra olunduğunu dəxi bilməliyiz.

Həqiqəti-aliyyəyi-islamiyyə səadəti-bəşəriyyə üçün şu dürlü mülahizat və etibaratı əsas qərar vermədən son dərəcədə alidir. İştə nöqsanın kəndi ətvar və adatımızda olduğunu bir dəfə iqrar etməliyiz.

=BU CƏMIYYƏTİN ƏFRADI VƏ MÜQAYİSƏSİ=

- 9 -

İnsanlar mədəni bittəb xəlq olunduqları üçün də təməddün (mədəniyyət) və ictima üzrə yaşamaları icabı hər bir kəs kəndinə müvafiq və səmimi olan bir məişət yoldaşı və sirdaşı araması lüzumuna birinci dərəcədə ehtiyac hiss etdirir. Bununla bərabər qisim-qisim maddiyyat və sosialnı məsələlər dəxi məişəti-bəşəriyyədə böyük rollar oynadığını hiss etməkdən azadə olmayan bəşər onunla da uğraşması və o yolda da təmini-məişət etməsi icabını irəlidə söyləmişdik. Hazırda mövcud cəmiyyəti-bəşəriyyədə tərzi-məişət və əsasi-cəmiyyəti-məzkur ehtiyacların hər birini kəndi dərəcəsində rəf etmək (yerinə yetirmək) və səadəti-bəşəriyyənin təkmil və ifası yolunda kafi bulunmadığı üçün də işbu cəmiyyəti-bəşəriyyələrdə hər bir kəs kəndi səadətini təmin etmək uğrunda şaşıb heyran qalmışdır. Mənəviyyata olan ehtiyacatın ifası maddiyyat və bəlkə çox vaxt etibariyyat sayəsində hiss olunması müşahidə olunur. Bütün insanlar təzad və tənaqüz içrə yaşayır.

Dini-mübini-islamın səadəti-bəşəriyyənin ifası yolunda bütün məişət məsələlərini bilətraf (ətraflı) tədqiq edərək insanların hər bir ehtiyaclarını mizan edib (ölçüb) kəndi mövqeyində qərar verdiyini görüncə irəlidə zikr olunduğu üzrə əvvəlcə islamiyyətdə «Yeni islam cəmiyyəti» təsisini əfradi-bəşəriyyətə ərz və iraə (təqdim) edirəm.

Qədimülləyyamdan (qədim zamanlardan) bəri mütənaze fih olan səadəti-bəşəriyyə məsələsi uğrunda

dürlü-dürlü iraəyi-əfkar edənlər, günagün (müxtəlif) məsləklər ihdas qılanlar, mübarizəyi-həyatiyyəni təmin üçün qisim-qisim yollar açanlar zənnimcə dini-islamın şu əsası üzrə müvafiqət etmək məcburiyyətində bulunduqlarını hiss etməlidir. İnsanlar məişətlərində maddiyyata olan ehtiyaclarını fəqət rəfi-ehtiyac üçün olduğunu hiss edə bilmələri kimi həyati-bəşəriyyə mənəviyyatın yədi-müqtədaranəsində olduğunu da bu dəfə düşünməlidirlər. Və maddiyyatın mənəviyyata müqəddəmiyyəti münasibəti ilə əhəmiyyəti hiss olunduğu kimi, mənəviyyat bilisalə olaraq insanların səadətini təmin etməsi qəbulu da məcburidir.

Maddiyyatın mənəviyyata olan əlaqəsi cismin ruha olan münasibəti kimi olduğu üçün ehtiyacati-ruhaniyyə ilə ehtiyacati-cicmaniyyə bir dəfə də olsa təfriq və mümtaz olmalıdırlar və onların müqəddəmiyyət və isalə (nəcabət) üzrə bir-birlərinə də olan əlaqələri dəxi qabili-inkar deyildir. İrəlidə zikri silqət etmiş olan «Yeni islam cəmiyyəti» şu maddələrin əsası bütün-bütünə nəzəri-etibara alınmaq üzrə səadəti-bəşəriyyənin təmini üçün işbu əsasdan xaric digər bir əsasa məbni bir başqa cəmiyyətin təşkili, zənnimcə, dairəyi-imkandan xaricdir. Zira necə ki, mənəviyyat da hər birisi kəndi dərəcəsində nail olmazsa, bəşəriyyətin səadəti hüsulpəzir olmaz. Onun üçün də dini-islamın işbu nəzəriyyatını ənzari-aləmə ərz etmək məcburiyyətində bulundum. Və şu cəmiyyətin təşkil və təsisi və məişəti-bəşəriyyə ilə tövfiq (müvəffəqiyyət) dairəyi-imkandan xaric bir əmr olmadığını zənn edirəm. Və şu

maddəyə dair ərbabi-hidayət və əshabi-dirayət olan kəslərin də nəzəri-diqqətini cəlb etməklə işbu cəmiyyəti-məzkurənin əfradının təmini-səadət və halları və şu cəmiyyətin əhəmiyyəti ilə hal-hazırda əmri-məişət etməkdə olan əfradi-bəşərin səadət və halları və əlhal mövcud bulunan cəmiyyətlərin əhəmiyyət və kəfalət dərəcələri ilə bir dəfə də olsa müqayisə etmələrini rica edirəm. Bu barədə təhqiqati-lazimə də bulunub, bəzli-əfkar etmələrini arzu edirəm.

Ərbabi-nəzərlərin nəzdində məqbul görünərsə, islahati-lazimə ilə məişəti-bəşəriyyəyə tətbiqi yolunda məsai (yardım) mücəddədanə bulunmaları istirhamında bulunuram.Bəzi məvaniyi-xariciyyə səbəbinə işbu cəmiyyətin təsisi və məişətlərinə tətbiqi müstəqil yaşamayan camaatlara müşkil bir surətdə görünürsə də tədrici-zaman ilə imkan dairəsində şu əfkarın nəticəpəriz ola bilməsi də təbiidir. Zira insanların ehtimamı sayəsində hər dürlü müşkilatın həll olunacağı müsbət bir əmrdir. Ciddi surətdə sərfi-əfkar olunarsa, məsələmiz pək mühüm və ali bir məsələdir. Bundan əlavə ki, dini-islamın qəvanini-aliyyəsindən istifadə etməyə hər bir müsəlman vicdanən məcburdur.

Zikr etdiyimiz «Yeni islam» cəmiyyətin təsisinə bir dəstaviz olaraq irəlidə nümunə üzrə müxtəsər də olsa bir məramnamədə ənzari-ərbabi-irfanə təqdim etməyi vəd edirəm.

AXUND YUSİF TALIBZADƏ

15 FEVRAL 1911, № 6, səh. 9 – 10

= GÖZƏLİM =

Vəfa yoxdur, cahana şəxsi-aqil etibar etməz,
Səfa məşuqədən görməz, fəraqət ixtiyar etməz.

Bu dünya bir dəyirmandır, şəbü ruz eyləyir dövran,
O xoşvaxt eyləməz şəxsi, bir yerdə qərar etməz.

Əzizim, küyinə gəldim, qapından qovdular itlər,
Gədanı əhli-Hatəm səglərə əsla düçar etməz.

Məni kafir da bilsən payinə gəldim, həyatım çün,
Qəvanini-zamanla saili bir kimsə xar etməz.

Nigarım, dilbərim, yarım, əzizim, canü cananım,
Tökülsə aşiqin qanı, qapından o fərar etməz.

Dilənçi tək açar əl, busədən doymaz, bu qanundur
Nə qədər etsən ianə, sail əsla doymaz, ar etməz.

AVARA

15 FEVRAL 1911, № 6, səh. 10

TƏRACÜMİ – ƏHVAL

ALEKSANDR SERQEYEVİÇ PUŞKİN
PUŞKİN MEYDANİ-SİYASƏTƏ GİRİR.

Puşkin darülfünunda ikən iki yüzdən artıq inşad edib (yazıb), «Ruslan və Lüdmila» nam qəsidəsini dəxi

yazmağa iqdam etmişdir.

1817-ci sənəsində darülfünunda birinci dövrəni ikmal edənlərin son imtahanı oldu. Şu məclisdə Puşkin öz inşadkərdəsi olan «Ədəmi-iman» nam şeirlərini oxudu.

Puşkin rus ədəbiyyatı və elmi-əruzda son dərəcə mahir və alim olduğu halda, sair ülumda o qədər zəif göründü. Bunun üçün də ancaq onuncu dərəcə nişan ilə ikmali-təhsil etmiş olduğu aldığı şəhadətnamədən anlaşıldı.

İmtahani-ümumidən dörd gün sonra Puşkinin vəzarəti-xariciyyədə (xarici işlər nazirliyində) məmurlar dəftərində qeyd olunduğu xəbəri Peterburq qəzetlərində oxundu. Bu halda Puşkin Peterburq məhafili-əyanında və dəvayiri-ədəbiyyəsində (ədəbi dairələrdə) gündən-günə kəsbi-şöhrət etmişdir. Puşkinin istedad və ləyaqətini təhsin edərək o zamanda Peterburqda mövcud «Arzamas» nam ədəbiyyat cəmiyyəti məzkuru, yəni Puşkini üzvi-idarə intixab etdi (seçdi).

On doqquzuncu əsrin əvayili (əvvəlləri) Rusiya ədəbiyyatının da əvayili idi. Bunun üçün Puşkin kimi dahiləri xoşnud edəcək bir mühiti-ədəb və ürfan o zaman Rusiyanın zadəgan sinifindən başqa siniflər də mövcud olmadığından Puşkin də bir tərəfdən valideyninin, digər tərəfdən kəndi dühayi-ədəbi sövqü (meyli) ilə sinfi-zadəganə daxil olmaq məcburiyyətinə düşmüşdür.

1825-ci sənəsindəki Dekabr inqilabının Puşkinə də təsir etmiş olduğu, əyyami-inqilabatda böyük rol ifa

edərək dekabristlər ilə də əlaqədar olduğu təhqiqatdan anlaşılmışdır.

Peterburq mətbuatında Puşkinin bir çox məqalati-müfidəsi də dərc edilmişdir. O cümlədən olaraq o əsrin məşhur irticaiyyun və istibdadiyyunun mürəvvəc əfkarı olan Qulitsin, Arakeçov və Arximandrit Koti kimi zəvatın əflai-mülənətkaranələrini tənqid edici məqalələr də Puşkinin asari-qələmiyyəsindəndir. Şu məqalələr qəzetələrdən iqtibas edilərək xüsusi vərəqələr və kitabçalarda nəşr edilib əldən-ələ paylanılırdı.

Puşkinin bir çox əşar və qəsidələrində Rusiya siyasəti və tərzi-idarəsi dəxi tənqid edilmişdir. Bu minval ilə Puşkin bir az zamanda bütün Rusiya siyasətçiləri miyanında (arasında) kəsbi-şöhrət edib, idarəyi-hazirəni tənqid edici məqalələri ilə Rusiya siyasiyunlərinin (siyasətçilərinin) mayəyi-iftixarı olmuşdur. Puşkinin nəşr etmiş olduğu bir şeir və yaxud bir məqalə ayrıca vərəqələrdə təb edilərək Rusiyanın cəmi savadlıları arasında müntəşir olurdu.

Puşkinin tənqidatı bir az zamanda hökumət məhafilini (dairələrini) titrədərək böyük məqamların nəzərini cəlb etdi. Bunun üçün də Puşkin hökumət tərəfindən təqib edilməklə bərabər asari-qələmiyyələri də (yazdığı, qələmə aldığı əsərlər) şiddətli bir surətdə sansur (senzura) təziqatı altına alındı.

1820-ci sənəsində Peterburqda belə də bir şayiat (şaiyələr) var idi ki, güya Puşkin həbs edilərək məxfi bir idarədə şiddətli cəzalandırılmışdır. Belə iftizahamiz (biabırçı) şayiələr Puşkini o dərəcədə acındırmış ki,

bəzən intihar fikirinə düşdüyünü yaxın dostları anladıqdan heç onu gözdən buraxmamışdılar.Belə bir iftizah və təziqətadan mümkün olduğu qədər uzaqlaşmaq fikri ilə özünün Sibriyaya və ya sair uzaq yerlərə nəfy edilməsi üçün Puşkin özü təlaş etmişdir.

Puşkinin Peterburqda qalması, daha doğrusu, Rusiyada vücudunun müzir (zərərli) olması hökumət məhafilində çoxdan bəri qət edilmişsə də, bəzi sahibinüfuz əşxasın müdaxiləsi Puşkinin şiddətlə təhti-təziqata alınmasına mane olmuşdur.

Mabədi var.

MƏMMƏD SADİQ

15 FEVRAL 1911, № 6, səh. 10-11

RİCA

Qarelərimizdə tarixə, vüquati-zəmanəyə dair şəkillər varsa «Füyuzat»-a dərc etmək üçün göndərmələrini rica ediriz.

EŞİDƏNƏ:

Hər kimin varsa cibində pulu,
Xırda olsa sözü olur məqul.
Parasız adamın bütün sözünün,
Qiymətlidirsə də, deyil məqbul.

Ə.P.

15 FEVRAL 1911, № 6, səh. 11

MƏRHƏMƏTLİ ƏDHƏM

Olur o, nərəzən, intiqam pürhiddət,
Cüvarı həp dərəni, dağları alır heybət.
Gecə idi, at sürüşüncə düşər Ədil atdan,
Alır mühitini qayət mühab bir xəlcan.
Olur Ədilin ayağı şikəst, biçarə,
«Aman! Yetişdi» deyə, yox görür daha çarə.
O hal ilə sürünüb bir yerə olur pünhan,
Sızıldayır ayağı, səs çıxarmayır, o zaman
Gəlib də Ədhəm onu görməyib, edər hiddət,
Gecə idi, hər tərəfi qaplamışdı bir zülmət.
Piyada hər tərəfit cüstəcu üçün dolaşır,
Ədili görməyərək şöləbar olur, əlışır.
Uzaq, yaxın qararan, cabəca duran qayalar,
Birər ədu görünürdü həp Ədhəmə onlar.
Dəli kimi gəzir, titrəyir əli, ayağı,
Qaralmış iştə qəzəbdən üzü, dili, dodağı.
Gəzər, qoşar, dolaşır, gah bir ah çəkər,
Bulunmayır nə qədər gəzsə də ədudan əsər.

Ardı var

A.Ş.

15 FEVRAL 1911, № 6, səh. 12

XƏSTƏNİN NƏZDİNƏ (GÖRÜŞÜNƏ) GƏLƏN BİR HƏRİF

Bir adam əhbasından bir xəstəyə xatir sormağa getmiş imiş. Nəməzacın (xəstənin) otağ qapısından içəri girdikdə:

- Allah məni sənin yoluna fəda etsin! Necəsən?

Xəstə də cavab olaraq:

- Necə olacağam? Ölmək üzrəyəm. Dedikdə müsafir cənabları:

- Elə isə sözümdən döndüm. Mən daha vaxt var zənn edirdim, demiş.

x x x

BİR QADIN ALTINCI ƏRDƏ

Bir qadın beş ərə varmış. Beşi də vəfat etmiş. Müəxxərən (son zamanlarda) bir adama daha varır.

Bir gün bu adam dəxi xəstələnib əsiri-fərraş olur.

Mərğum dalğın-dalğın (fikir edə-edə) yatarkən zövcəsi başucuna keçib ağlamağa başlar.

Ah, əfəndi! Məni kimə buraxıb gedəcəksən?

Hərif bu sözü eşidincə həman başını qaldırıb:

- Yeddinci ərin olacaq bədbəxtə! cavabını verir.

15 FEVRAL 1911, № 6, səh. 12

EŞİDƏNƏ:

Hər kimin olsa eybi zatında,
Özgənin eybini olar cuya.
Kor çeşm-cahanı kor istər,
Şəbpərrə mehri istəməz peyda.

SEYİD ƏZİM

15 FEVRAL 1911, № 6, səh. 12

«YENİ FÜYUZAT»

№ 7
22 fevral 1911,
İkinci sənə

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, Dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «Füyuzat».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir. Başqa şəhərlərdə 12 qəpik.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində

= BEŞİNCİ SULTAN MƏHƏMMƏD RƏŞAD =

(şəkil)

Məşrutiyyəti-müqəddəsəyi-Osmaniyyənin birinci padşahı və millәti-nəcibəyyi-Osmaniyyənin sevgili atası beşinci Sultan Məhəmməd Rəşad həzrətləridir.

Nə böyük təsadüfdür ki, Sultan Məhəmməd Rəşadın osmanlılara bəxşi-hörmət etməsi münasibəti ilə məcmuəmizə şəkilini dərc etməmiz Rusiya imparatoru ikinci Aleksandrin rəiyyəti itlaq, yəni ağaların əllərindən xilas etdiyi günə təsadüf etdi.

22 FEVRAL 1911, № 7, səh. 1

= MÜƏLLİMLƏRİMİZ =

Bu son zamanlarda Bakıdakı ibtidai məktəblərinə rəğbətin azaldığından, müəllimlərin türkcəyə ədəmi-vüquflarından şikayət çoxalmışdı.

Əxirən (son zamanlar) Bakı məkatib (məktəblər) idarəsi bu şikayəti Qafqaziya maarif müdirinə isal və Qoridəki rus darülmüəlliminində türkcə dərslərin artırılmasını istida (xahiş) etdi. Bu istida üzərinə əhvalı (vəziyyəti) təhqiq üçün bu həftə məzkur darülmüəlliminin müdiri Semyonov və türkcə müəllimi Firidun bəy Köçərli Bakıya gəlmişdilər.

Darülmüəllimindən çıxan və Bakı məkatibi-ibtidasında müəllimlik edən əfəndilərin üsuli-tədrisə və türkcəyə nə qədər aşina olduqlarını tədqiq üçün altıncı

ibtidai məktəbdə bir imtahan icrasına qərar verildi. Bu imtahanda Qoridən gələn zəvat ilə bərabər Bakı məkatibi-ibtidaiyyə müdiri ilə müfəttiş Qənizadə Sultan Məcid cənabları və təxminən əlliyə yaxın müəllim hazır olduğu kimi Bakı məkatib idarəsinin dəvəti-rəsmiyyəsi ilə bu mühərriri-aciz də orada isbati-vücud edirdim (iştirak edirdim).

Hər gün üç müəllim üç sinifə dərs verir. Digər müəllimlər və müməyyizlər də hər müəllimin üsuli-tədrisə olan vüqufiyyəti və dəröhdə etdiyi dərsdəki qüvvətini nəzəri-diqqətlə tədqiq edirdi. Axşam isə saat altıdan on ikiyə qədərinə məzkur məktəbdə gündüz verilən dərslər sameyin olan (dinləyici) müəllimlər tərəfindən tənqid edilirdi.

Mən dərslərdə də, tənqidlərdə də hazır oldum. Bitərəfanə bəyani-fikir edilmək lazım gəlirsə tənqidləri lüzumundan bir az ziyadə şiddətli buldum. Dərs verən müəllim əfəndilərə sahibi-kamal bir pedaqoq demək bittəb mümkün olmaz. Lakin tərəqqiyyati-elmiyyə və fənniyyənin mərtəbəyi-qisvası demək olan pedaqoji, psixoloji kimi ülumi-ruhiyyədə aləmi-islamın bizaəsi müvazinə ediləcək olursa məzkur müəllimləri üsuli-tədrisdə bir neçə nöqsanlar ilə bərabər yenə təbrik etmək lazım gəlir.

Biriya olaraq deyə bilərəm ki, üsuli-tədrisdə bizim seminariya məzunları digər qətəati-islamdakı müəllimlərin cümləsinə faiqdir (üstündür). Dərs verən müəllim əfəndiləri tənqidçi qardaşları tənqid edərkən ən ziyadə nəzər-diqqətə almaları lazım gələn bir nöqtə

var idi ki, o da lisanımızın, daha doğrusu, yazımızın üsuli-sövtiyyəyə qilləti-istedadıdır.

Biz türklər yazıb-oxumağa, ülum və fünuna müsəlman olduqdan sonra rəğbət və meyl göstərdik. Hətta türklərdən yetişən böyük alimlər belə təlifatlarını (əsərlərini) ərəb lisanı üzrə yazmışdılar. Bunun üçün də türklər kəndi yazıları üçün ərəb hürufunu qəbul etmişdilər. Lakin bu bir surəti-qəbuldur ki, sırf mütianədir.

Əvvəla, o hərfləri qəbul edən əvvəlin (ilk) müəllifimiz lisanımızla ərəb lisanı, türk dili ilə ərəb dili arasındakı miyanət (orta) tələffüzü, fərqi-məxarici tədqiq etməyi, binaən ileyh bu fərqlərə görə və dilimizdəki əsvati-xüsusiyyəni (xüsusi səsləri) ifadəyə qabil olacaq bir surətdə hürufat və kəlamati-ərəbiyyədə islahat icra eləməyi heç xatirinə gətirməmişlər. Yaxud gətirməkdən qorxmuşdular.

Saniyən, ərəb dili bir dildir ki, sırf qəvaid qüvvəti ilə oxunur və yazılır. Bu dilin hürufi-imla ilə işi yoxdur. Ərəb ağızdan çıxan bir səsin içindən yalnız hürufi-saitəni yazar.

Məsələn: Üsuli-sövtiyyə ilə (hərəkət) yazılmaq lazım gələn bir kəlməni ərəb (hərəkət) yazar. Hürufi-imlanı eşitməz.

İştə bizim müəllifi-əvvəlinimizdə ərəbin bu qaydasına itbaən ağızdan çıxan səslərin yalnız saitlərini yazıb, samitlərinə, kələmatın sonlarından başqa yerdə əhəmiyyət verməmişlər. Halbuki ərəb hürufi-imlayə yazısında yer verməmişsə, onların əvəzinə bir tağım

qaydalar qoymuşdur ki, o qaydalarla yenə o dil oxunur və yazılır. Bizdə isə hürufi-imla olmadığı kimi, onların vəzifəsini ifa edəçək qayda da bulunmadığından yaxın vaxta qədər yazdığımızı oxumaq kərəmət və möcüzə qüvvətinə möhtac olmuş və bu üzdən türklər də şimdiyə qədər əksəriyyətlə bisavad qalmışdır.

Məsələn, yaxın vaxta qədər, hətta bu gün, hətta İstanbulda «Kibi»-ni «Ki», «Qara»-nı «Qərə» və sairəni yazanlar az deyildir. Hətta bu istibdad təhririn mühafizəsində ata-baba yadigarı imiş israr edənlər də, məəttəəssüf, çoxdur.

Şimdi şu «Sonra» şəklində yazılan bir kəlməni bir müəllim nə qədər pedaqoq olursa olsun, bir şagirdə nasıl qandıra bilər?

Türkcəmizdə hal bu mərkəzdə ikən kəlamati-ərəbiyyənin tədrisinə keçərsən, çətinlik birə on artmazmı?

Çünki bir türk çocuğu kəlamati-türkiyyə nasıl yazılırsa yazılsın, bir-iki dəfə hecaladıqdan sonra məna və məfhumun dəlaləti ilə o kəlmələri nəhayət oxuya bilir. Halbuki bu çocuq lisanımızdakı ərəbcə və farsca kəlmələri ancaq şəkillərinin dəlaləti ilə oxuya biləcəkdir. Yəni türkcə kəlməni çocuq oxuyacaq, lakin ərəbcə, farsca bir kəlmə özü-özünü çocuğa oxutduracaqdır. Əgər kəlmədə özünü oxutmaq istedadı mövcudsa, çocuq onu oxuyar və yazar. Əgər kəlmə bu istedaddan məhrumsa, çocuq əsla onu oxuyamaz və yazamaz. Bu istedad da ya o kəlmənin mənasının və şəkilinin çocuqca məlum olması, yaxud o kəlməni

təşkil edən hərfləri oxudacaq işarələrin mövcud olması ilə isbati-vücud edər.

Məsələn, ərəbi bir kəlmə alalım ki, bir türk çocuğu bunu heç eşitməmiş, görməmiş, mənasını da bilməyir olsun. İştə:

«ÜZV»

Bunu əvvəla çocuğa oxudalım. Sonra yazdıralım. Çocuğu öz halına buraxsaq bu kəlməni bəlkə on dürərli oxuya bilər. Lakin heç bir vaxt əsl oxunması lazım gələn tələffüz ilə oxuyamaz. Çünki bu şəkilə ən uzaq, ən biganə tələffüz kəlmənin tələffüzü-səhihidir.

Mabədi var (ardı var)

ƏHMƏD KAMAL

22 FEVRAL 1911, № 7, səh. 2-4

EŞİDƏNƏ:

Məqsədin yara yetməksə əgər,
Tişə vur ta nə qədər canın var.
Ələ Fərhad tək külüngünü al,
Eyləmək üçün bu dağları həmvar.

Ə.NASİR

22 FEVRAL 1911, № 7, səh. 4

İLAN VƏ SÜLÜK (ZƏLİ)

Bir ilan bir sülük görüb durdu,
Üzünü döndərib ona sordu:
Dedi: Heyrətdəyəm bir işdə ki, mən
Mənə surətdə bənzəyirkən sən.
Nə səbəblə səni sevər insan?
Məni gördükdə həp olur lərzan?
Nə üçün sevməyir məni birisi?
Səni lakin arar, sorar həpisi?
Sən də sancırsan adamı, mən də,
Nə səbəb vardır, anlamam bunda?
Qurtarınca kəlamını bu ilan,
Gülərək söylədi sülük heyvan:
Dediyin söz tamam haqdır haqq,
Doğrunu söyləyim, fəqət mənə bax!
Mən səninlə təbiət üzrə əvət,
Sancmaqda müsaviyəm, fikir et!
Nə zaman sancsan sən insanı,
O dəqiqə çıxar onun canı.
Mən isə sancıram pək ahəstə,
Sağalar sancdığımda hər xəstə.

Ə. PAŞA

22 FEVRAL 1911, № 7, səh. 4

İRAN SƏFƏHATİ – İNQİLABİYYƏSİ

- 1 -

Növi-bəşərin (insanların) tərəqqiyyatı, insanları tədricən qüvvəyi-təbiətin təqəyyüdatından azad edər (çarpışmalarından, çaxnaşmalarından).

Hər fərd, hər ailə, hər ailə, hər millət və qövm ümumən və xüsusən qüvvəyi-təbiətin təqəyyüdat və mühacimatına məruzdur. Ta zəmani ki, (o vaxtadək ki,) qüvvəyi-təbiət kamal ilə kəşf edilməz. Ta vaxti ki, qüvvəyi-təbiət hüsni-surətlə istemal edilməz. Ta ani ki, qüvvəyi-əqliyyə və feliyyəyi-insaniyyət əfradi-bəşərin hər bir fərdinin mənfəəti üçün mütəsaviyən (bərabər) sərf edilməzsə, o tərəqqi kamil bir tərəqqi ədd olunmaz.

Əsri-hazir (bu əsrdə) tərəqqiyyatı hənuz heç bir millət və qövmə, heç bir məmləkət və qitəyə təbiətin təhacümatına (hücumlarına), təqəyyüdatına qabibiyyət şöylə dursun əsiri-pəncəyi-əvamiri olmaqdan, qurtulacaq bir iqtidar bəxş etdiyi görülməyir. Elə bir parlaq əsrin görülə bilməsi də pək məşkükdür (şübhəlidir).

Məə mafih (bununla belə), həzizi-məzəllət ilə övci-səadət, tərəqqi ilə tədəni, bədəviyyət ilə mədəniyyət arasında mövzu bulunan təkamül və təhadüm (gerilləmə) nərdivanlarının basılmaqlarını günagün (müxtəlif) məxluqati-zihəyatın (canlı) çıxmış və enmiş, çıxmaqda və enməkdə olduğunu bizə tarixi-təbii pək əyan və surətdə göstərdiyi kimi həyati-ümumiyyəyi-bəşərin təsvir edilmiş bir lövhəyi-ibrətnüması deyilən tarixi-aləm dəxi bu həqiqəti elan edir. Bir çox yaşamış

məxluqat, heyvanat bu gün nam və nişanı bulunmayacaq surətdə mədum (məhv) bulunur. Bir çox yaşamış nəbatatın bu gün ancaq müstəhasatı (qədim nümunə) əlimizdə bulunur. İbtidayi-təşəkkülü qayət naqis və zəif olan və «Əkrilti» nam ilə məruf nəbat təkamülə tabe olaraq bir vaxtlar təcəssüm və təkəssür və tövsəədə (geniş yayılmaqda) fövqəladə bir müsaidət buraq bu soyuq günlərimizdə sobalarımızda kəndimizi istitmək üçün yaxdıqlarımız və daş halını almış mədən kömürlərini bizə yadıgar buraxmış ikən yenə təbiətin cilvəsinə məruz olaraq təhadüm ilə, inqiraz ilə (tükənmə ilə) bu gün ancaq məmaliki-harrənin (isti iqlimli ölkələrin) bəzi tərəflərində süpürgə halında «Əyirti otu» namilə yaşayır.

Mamut fillərinin bugünkü fillərə, dayırların bugünkü atlara istihaləsi təkamül və təhadüm qəvanini-ümumiyyəsinin, daha doğrusu, təqəyyüdati-təbiətin hökmranlığını ənzari-diqqətimizə qayət bədi bir surətdə vəz edir.

Şimdi bu müqəddimədən sonra əsl məqsəd və qayəmizə gələlim.

İnsanların bu günkü dövrü dövri-təkamül bulunduğu və insanların sahəyi-təkamüldə qəti-mərahil etdikləri (mərhələlər qət etdikdən) Avropa fəlasifəsinin əksəriyyət iddiasından məlum və müstəban (aydın, məlum) olur. Müntəha bu təkamülün intəhası və dərəcəyi-əqsası (uzaqlığı) təyin olunmayır. Təkamül nərdivanı bir olduğu halda bu gün qətəat (qitələr) və məmaliki-müxtəlifədə imrari-həyat etməkdə olan milə

(millətlər) və əqvami-müxtəlifənin kafəsi (hamısı) o nərdivanın eyni basmağında bulunmayır. Müxtəlif basmaqlarında bulunmaqdan qeyri bəziləri müttəsil o basmaqları keçib çıxmaqda, bəziləri çıxmalarını təshil üçün (asanlaşdırmaq) kəndilərindən aşağı olanlardan istifadə etməklə məşğul, bəziləri kəndilərinin bulunduqları basmaqdan daha yuxarı basmaq olmadığı etiqadında bulunur. Bəziləri bulunduqları basmaqdan daha yuxarı basmaq olmadığı etiqadında bulunur. Bəziləri bulunduqları basamaqdan qeyri basmaqların mövcudiyyətini görüb çıxmaq üçün çırpınır. Bəziləri kəndilərini yetişmək istəyənlərin çıxmalarına sədd çəkməklə məşğul.

Xülasə, bir mübarizəyi-ümumiyyədə hökmran olur. Fəqət əsl qərabət nöqtəsi burasındadır ki, həyati-ümumiyyəyi-bəşərin təsvir olunmuş bir lövhəyi-mübarizəsi olan bu nərdivanın eyni basmaqlarında miləli-müxtəlifənin gəlib keçmələri anında vüqua gələn (baş verən) halat həp eyni halatın təkrarından, eyni vəqayenin cəryanından başqa bir şey olmadığıdır.

Miləli-müxtəlifənin səfəhati-inqilabiyyəsini nə qədər dəqiq bir surətdə nəzərdən keçirərsən görəcəyim şey mütləqa hər millətin təkamül nərdivanının basmaqlarını çıxarkən eyni basmağında eyni halatın cəryan təkrarından ibarət bir keyfiyyət olacağıdır.

Əsasən bəzi müvərrixinin (tarixçilərin) müəyyən müxtəlif vaxtlarda müəyyən müxtəlif lövhələrin görülməsinə dəlalət edən tarix, təkrar edən vəqayedən bəhs edir. Surətin də tərifi buna istinadəndir. Bu lövhəyi-

mübarizə və inqilabatda ən ziyadə şayani-şükran (layiq) bir nöqtə varsa, o da bu basmaqları çıxmaq əsnalarında, inqilabat zamanlarında, çırpınmaq vaxtlarında, bir basmaqdan o biri basmağa otlamaq anlarında vüqua gəlməsi təbii olan tələtümdən heç bir cəmiyyət və ya millətin hakimiyyətini qaib edib fənaya müncər olduğu görülməməsidir.

Dəhşətli çarpışmalar, qan tökmələr, şiddətli ixtilafat, fikir mübarizələri görülür.

Gözümüzün önündə cəryan edib duran vəqaye bizə bu həqiqəti göstərir. Fəqət tərəqqi etməyə, sahili-salamətə çıxmaq üçün qanadlanmağa, giriftar olduğu girdbaddan (fırtınalardan) ixtilasi-nəfəs üçün çırpınmağa, inqilabati-günagün ilə təsviyyəyi-ümura (işlərə) müaşirət etdikləri anlarında qeyri bir millət və ya qövmün dəndani-tamah və xunxarına qapıldığı görülməyir.

Zəmanəmiz inqilabatının ən bədi, ən qərib (qəribə) və haləti-ruhiyyəsinin kəşfi ən müşkül və ən dəhşətlisi İran inqilabatıdır. İran bu anda surəti-qətiyyədə giriftar olduğu (düçar olduğu) girdbaddan, sərsərdən, teyfundan, fəlakətdən qurtulmağa çalışır. Hər millət və ya cəmiyyətin bu dövrəni keçirdiyi zamanlarda bu basmağı atladığı anlarında bir qanuni-əzəli kimi ötədən bəri hökmran olmuş ixtilafat, ixtilalat, təhacümat, tələtümat burada da olunca dəhşət ilə hökmünü icra etməkdədir.

Bu dörd sənədəne bəri dumnu qırılmış, əmvacibiamana qapılmış, qursanların mühacimatına məruz

qalmış, ümid nicatını qədərə (qəza və qədərə) mühəvvəl etmiş bir gəmi kimi inqilabati-günagün içində sarsılmaqda olduğu görülən İran təhərrüyi-rahi-nicat eidə-edə aqibət əmsalı məsəlli-çoban dövründən ziraət (əkin) dövrünə, üsuli-idarəyi-keyfə mayəşa dövründən (dərəbəylik) idarəyi-qanuniyyəyə, istibdaddan hürriyyətə tərəf ağır və fəqət təmkinli bir surətdə keçir. Qayət dəqiq olan bu mumankratik, yaxud psixolojik dövrünü keçirir.

Keçməkdə olduğunu bizzat (şəxsən) görüb iştirak etməklə iftixar edirəm.

AKİF SƏFVƏT

22 FEVRAL 1911, № 7, səh. 4-7

SƏHHƏT

=YEMƏK=

Əvət, ətə zəhər demək olmazsa da, bəzi vaxt ətdən çox zərər gəlir. İnsan xəstə olub həkimə getdikdə əgər əzada qızdırma olmuş olsa o saat həkim ət yeməyi və məşrubat içməyi xəstəyə mən (qadağan) edər. Zira ət və məşrubat bədəndə olan qızdırmanı qüvvətləndirərək artırır. Bu məşhurdur ki, çox ət yeyib və çox məşrubat içən insan tez və asan xəstəliyə, məsələn qızdırma tif, zətəlcəm (zatülcənb) kimi mərəzlərə düçar

olur. Belə mərəzə düçar olduqda sağalması pək çox çətindir.

Bundan başqa, diş ağrısı, diş çürüməsi kimi mərəzlər də ətin şirəsindən əmələ gəlir. Bir dəfə imtahan üçün çox ət yeyən və çox məşrubat içən adama yanaşınız. Onun ağzından gələn o pis qoxunu hiss edərsiniz, zənnindəyəm.

Ey qariyini-giram, yediyiniz əti yəqin edirsiniz ki, xəstəliyə tutulmayan bir qoyunun ətidir, ya ət xəstəliyə tutulmayan bir qoyunun əti olmadığını isbat etmək üçün sizdən bu cavabı alıram, zənnindəyəm. İştə cavab:

Yediyimiz ət xəstəliyə tutulmayan qoyunun əti olduğu şübhəsizdir. Zira hökumət tərəfindən təyin olunmuş həkimlər var və sallaxanada kəsilən qoyunu həkim birər-birər nəzər-diqqətdən keçirərək mərəzə (xəstəliyə) tutulmayan qoyunu kəsir. Mərəzə tutulanı sürüdən rədd edir (ayırır) və mütəbaqi qoyunu kəsərək əti də satışa buraxır, deyilmi?

Əvət, bu cavaba sözüm yox. Lakin bir müsəlman aləmini də nəzər-diqqətdən keçirəlim. Müsəlmanlar bu qanuna riayət edirlərmi? Əlbəttə, yox!

Zira müsəlman aləmində görürüz ki, küçələrdə olan qəssablar qoyunu kəndiləri alıb, kəndiləri kəsirlər. Və kəsdikdə bu əl qoyunu ətidir deyə beş-altı qəpik də rəsmi qiymətindən baha satırlar. Biçarə xalq da əl qoyunu ətidir, gözəl olur, deyə alır. Halbuki qoyunlarda aşağıda zikr etdiyimiz mərəzlər olur. Məsələn:

Vərəm və çuma kimi. Belə olan surətdə heç

şübhə edilməsin ki, küçədə kəsilən qoyunlardan bu kimi mərəzlər əksik olmaz. Və bu kimi mərəzlər olduqda biçarə avam nas (xalq) həm beş qəpik qiymətdən ziyadə para verərək ət alır, həm də qoyunda dediyimiz mərəzlərə tutulur.

Ülumi-təbiyyə (təbiət elmləri) bizə göstərir ki, insanın əzasından biri mərəzə tutulub ağrıyanda cəmi əzada naxoşluq, ağalıq hiss edir.

Əvət, şimdi mən ümid edirəm ki, qariyini-giram bu təhrir etdiyimiz (yazdığımız) səhhəti oxuduqdan sonra kəma hövə əməl edərək kəndi səhhətlərini dürlü-dürlü mərəzlərdən mühafizə edərlər. Xüsusən ət olduqda diqqət edib, hökumət tərəfindən təyin olunmuş həkimin nəzər-diqqətindən keçmiş əti alıb, küçələrdə kəsilmiş vərəm və çuma kimi mərəzlərə tutulan qoyunun ətini almazlar.

Əvət, ət elə bir incə şeydir ki, sıcaqda (istidə) tez qoxu tutaraq kəndi qüvvətini qaib edir. İnsan yedikdə mərəzə tutulur. Xüsusən yayda.

Binaən ileyh insanlardan çox hissəsi yayda nəbatatdan başqa bir şey yeməzlər. Bu halda insan zəif olduğu halda ət ilə yeməklə qıvraq olaraq qüvvəti artar, zənn edilməsitn. Halbuki bərəks, insan zəif olduqda ət yiyərsə, daha fəna, pis hala düşər. Zəngin adamların çocuqlarının və qızlarının bədənlərində qan az, üzləri sarı və kəndiləri zəifdirlər.

Nə üçün belə? Bunları iyi doydurmayırlarmı? Yumurta, məşrubat və ət kimi şeylər bunlarda olmayırmı?

Yaxud doydurduqda nə səbəblə xəstəlikləri getməyir?

Yuxarıda dediyimiz kimi ət zəif insanı qüvvətli etməz.

Əski zamanda Qalitsiya tək bir nəbatat ilə təəyyüş edərək imrari-həyat edirdilər. Nüdrətən ildə bir, yaxud iki dəfə ət yeyirdilər. Binaən ileyh daima səhhətə nail, qüvvətli, ağllı camaat idilər.

Bəzi insanlardan eşidiriz, yaxud görürüz ki, ət və məşrubatı qışda güya bədən sıcaq və qüvvətli olsun, deyə yeyirlər, içirlər. Bu surətdə qiblə tərəfindən gələn İtaliya fəhlələri nasıl işləyirlər. Halbuki ətdən və məşrubatdan qaçırlar.

Heyflər biz müsəlmanlara ki, məşrubat bizdə haram olduğu halda biz indi içməyə alışırız!

ƏLİ PAŞA

22 FEVRAL 1911, № 7, səh. 7-8

VƏTƏN MƏNZUMƏSİ
MABƏDİ (ARDI)

Gediyor ah... edərək axirətə şanlı vətən,
Yalnız qaldı təsəlli bizə bir parça kəfən,
Hifzi uğrunda dənizlər kimi qan tökmüş ikən.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Eydi-qurbanımıdır verdiyimiz qurbanlar?
Kəbəni yıxmaq üçünmü tökülürdü qanlar?
Müsəlmanam deyənə rəhm ediyor şeytanlar?
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Xuni-məsum şəhidani-vətən çıxdı dizə,
Baxın Allah üçün insaf ilə tariximizə,
Bu həqarət, bu iza layiq olurmudu bizə?
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Yalnız bircə kiçik qızlar imiş övladı,
Onların da qan idi giryəyi-istimdadı,
Girmədi ah... yenə bir qulağa fəryadı.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Ey Vətən, gənc idin, ey vah tükəndin bitdin,
Bizi alçaqlara, xainlərə möhtac etdin,
Bunca önsüzlərini kimlərə möhtac etdin.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

NAMİQ KAMAL -HİKMƏT

22 FEVRAL 1911, № 7, səh. 9

«TARİXİ-TƏBİİ»-DƏN ARILAR MABƏDİ (ARDI)

Arılar çiçəklərdəki «Nektar» deyilən dadlı bir cövhəri yeyib mədələrində həzm edirlər, bal halında çıxardaraq yuvalarındakı hücrələrə qoyurlar, üzərini də yenə bal mumu ilə örtürlər. İştə bu heyəti-məcmuəyə «Köməc» namı verilir. Şunu da yadımızdan çıxartmamalıyam ki, xidmətçi arılarda dişilər dəxi bulunursa da bunların əzası arı bəyininki kimi mükəmməl deyildir. Şayəd (bəlkə) validə olacaq arı bəyi yumurtadan əvvəli olaraq çıxarsa, xidmətçi arılar dərhal yaxın hücrədəki xidmətçi arını validə (ana) olmaq üzrə tərbiyə edərlər.

Arıların «Eşşək arısı», sıcaq məmləkətlərə məxsus «Siyah arı» kimi növləri vardır. Bunlar bal yapmadıqdan başqa zəhərli iynələri ilə rast gələni soxarlar (sancarlar).

Arıların insanlara fayda və mənfəəti pək çoxdur. Bal və bal mumu həp bunların məhsuludur. Sentyabr-oktyabr aylarının əvvəllərində arıları səhər vaxtları uyuşuq ikən bir parça tüstü ilə bir tərəfə qovaraq bal köməcləri alınır. Köməclərdən az sıxmaq ilə, yaxud kəndi-kəndinə bal axar ki, buna «xalis bal» deyilir. Bal alındıqdan sonra qalan bu çalları da bal mumudur. Came, məscid və sair yerlərdə yapmaq üçün mum yapılır. Bal dəxi şəkər məqamında qullanılır. Bal insanın mədəsində şəkərdən daha artıq tez həzm olunur. Bir arı bir-iki misqal bal yapmaq üçün iyirmi beş min çiçək nektarını əmmək lazımdır. Arının əmdiyi

çiçəklər gözəl qoxulu yerlərdə olursa, onun balı daha yaxşı olur. Balın şirin olması çiçəyin şirin olmasına bağlıdır.

Əgər çiçək acı, yaxud zəhərli olursa, bundan çıxan bal insanı öldürməzsə də, mədə bulantısı, işləmə, qusmaq kimi xəstəliklər verir.

Amerikada bir şəhərdə 150 qədəm (addım) yüksəkliyində qayət böyük və geniş bir bal məxzəni varmış ki, oradan çeşmə kimi bal axar və hər kəs gedib oradan qabını doldurarmış.

Arılar çox zəki heyvancıqlardır. Hətta bəzi məhəllərdə arıları göyərçinlər kimi postçuluq xidmətində dəxi istixdam edirlər.

BALAXANI

ƏLİ MİŞAN

22 FEVRAL 1911, № 7, səh. 9-10

= İCMALİ-ƏHVAL =

«CƏMİYYƏTİ-İSLAMİYYƏ VƏ OSMANİYYƏ»YƏ 86000 RUBL İANƏ (YARDIM)

Donanmayi-Osmani mənfəətinə Mövlayi-Ruminin əhfalından Çələbi Cəlaləddin əfəndi həzrətləri on lirə ianə vermişdir.

Allah belə həmiyyətli zatlara tövafiq verib

əmsalını (kimiləri) artırsın!

=14000.000 (ON DÖRD MİLYON) FRANK İANƏ=

Bu günlərdə vəfat edən Misir prinslərindən bir zat vəsiyyətnaməsində Türkiyə donanma (flot)-sı mənfəətinə on dörd milyon frank ianə verilməsini vəsiyyət etmiş.

x x x

=İMAM YƏHYA =

İmam Yəhya əşayir şeyxlərinə məktub yazaraq onlardan müavinət tələb etmiş. Lakin şeyxlərin çoxu imam Yəhyanın tələbini birmərrə rədd etmişdir.

x x x

= KÖNÜLLÜLƏR =

Məkkəyi-mükərrəmə əmiri Şərif Hüseyn Paşa həzrətləri Yəmənə göndərilən əsgərlərlə mülhəq olmaq üçün on min könüllü toplamışdır. Könüllülərə hökumət tərəfindən əsləhə (silah) verilib, yemək və içmək də hökumət tərəfindən veriləcəkdir.

x x x

ERMƏNİLƏR

Ermənilər bayramlarında bir-birlərinə həlviyyat (şirniyyat), yəni şəkərli, dadlı şeylər həddiyyə eləyir-

lərmiş. Bu adət ermənilərdə milli bir adətdir. Halhazırda Türkiyədə «Borqaz» qəsəbəsindəki ermənilər ittifaq edərək bayramda bu dadlı şeylərə sərf edəcəkləri paranı donanmayi-Osmani mənfəətinə cəm etməyə (toplamağa) qərar vermişdilər.

22 FEVRAL 1911, № 7, səh. 10

= TOLSTOY HAQQINDA =

Tolstoyun həyat və asarı və məsləki-fəlsəfisi haqqında bəzi izahat verməyi münasib gördük.

Bu gün Avropada «Tolstoyizm» namı ilə bir məsləki-fəlsəfi vardır ki, Tolstoyun məhsuli-ictihadıdır.

Bu məsləki-fəlsəfi bəzi həyəcanlı təqdirkarlar tərəfindən adətən bir məzhəb halına vəz edilmişdir.

Bu gün dünyanın hər tərəfində «Tostoyizm» məsləkinin tərəfdarları, salikləri vardır.

Bu məzhəb nədən ibarətdir?

Bu babda qarelərimizə sırf məlumat qəbilindən olmaq üzrə bəzi izahat əta (təqdim) edəcəyiz.

Tolstoyun fikirincə, qəlb və ruh hər şeydir. Həzrəti-İsa da kilsələrdə deyil, qəlb və ruhi-bəşərdə qaimdir və nəbiyi-müşarileyh (adı çəkilən peyğəmbər) qəlbi-bəşərin bir timsali-ülvisindən başqa bir şey deyildir.

Tolstoyçuluq «Şəxs və qəlb! İştə xilqətin və mətuf olduğu qayənin əlifi də budur, yası da budur!»

deyir. Din, rus ədibinin fikir və mütaliəsinə nəzərən kamali-dərunindən ibarətdir.

Halbuki müctəmiən sürülən ömür və bilxassə mədəniyyəti-hazirə şəxsin və haiz olduğu kamalın namütənahi surətdə təkmilinə haildir. İştə bunun üçün Tolstoyçuluq həyat və mədəniyyəti-hazirəni ittiham edir. Mədəniyyət ləməəyi-kazibəsi ilə insanın gözünü qamaşdırır, bir tağın ehtiyacati-zayidə tövlid edir. Və insanı əsl təqib etməsi lazım gələn qayədən, yəni kamali-dərunidən ayırır. Nə səadət, nə rifah və nə istirahət təmir etmir. İştə Tolstoyun bu əfkar və nəzəriyyat sabiqəsilədir ki, Avropa mədəniyyəti-kazibəsindən və şəhər həyatından nifrət edirdi.

Tolstoyçuluq bu babda deyir ki:

«İnsan səadəti kəndi nəfsində bula bilir. Bunun üçün ehtiyacatı mümkün olduğu qədər az olmalı və köylərdə münfəridən (təkbaşına) yaşamalıdır. Binaən ileyh bəşəriyyət səadət və rifahi-maddi və mənəviyə nail olmaq üçün səhralara hicrət etməlidir (köçməlidir).

Tolstoyçuluq daha irəliyə getmiş və izdivacın əleyhində bulunmuşdur.

Tolstoyçuluğun nəzəriyyati-əxlaqiyyəsinə gəlincə:

Kəndisi fənalığa qarşı müqabilə edilməməsi tərəfdarı idi. Və «Fənalığa qarşı müqabilə etmək fənalığı çoxaltmaqdır. Fənalıq müqabilə olunmazsa, nəhayət, kəndiliyindən zayil olur» deyirdi.

Bu nəzəriyyat biz şərqilər üçün pək də yeni bir şey ehtiva etməsə də, qərbdə pək böyük bir məftu-

niyyətlə tələqqi olunmuşdur.

Hər halda, tolstoyçuluq bu əsrin ən böyük zəkalarından, ən alicənab qəlblərindən biri idi.

22 FEVRAL 1911, № 7, səh. 10-11

= İŞTƏR BƏLİYYƏSİ (BƏLALARI) =

1903-cü sənəsində Rusiyada 72 milyon 500 fövci (boçka) vodka içilmiş və bu uğurda tamam 550 milyon manat pul sərf edilmişdir. Bu surətlə kiçik çocuqlar dəxi daxil olduğu halda hər bir adamın hissəsinə ildə dörd manat isbat etmiş olur. Ən çox içki Rusiyanın vəsət (orta) və şimal tərəflərində sərf olunmaqda imiş.

Yalnız 1895-ci il tarixində Rusiyada içkidən 39665 (otuz doqquz min altı yüz altmış beş) adam tələf olmuşdur.

Bunlardan:

Məst halında qərq olmuş (boğulmuş) 9165 adam

məst ikən yıxılıb ölmüş; 8757 adam çox içməkdən tələf olmuş;

5895 adam çox içməkdən o yana-bu yana dəyib ölmüş;

3277 adam fanar və divara dəyib ölmüş;

2896 adam məst ikən yanıb tələf olmuş;

1530 adam çox içməkdən ürəyi çatlamış;

1252 adam məst halında öz-özünü asmış;

834 adam məst halında özünü kəsib öldürmüş;

674 adam məst halında ikən öz-özünü zəhərləmişdir;
375 adam digər səbəblərdən.

FÜYUZAT:

Əcəba, neçə ildə işrət Rusiya üçün bir Yapon müharibəsi yerinə qaim olur?

Yapon və Rus müharibəsi əsnasında müharibəyi-bəhriyyəni tədqiq etmək üçün Almaniya dövləti tərəfindən əqsayi-şərq sularına bir gəmi göndərilmişdi. Kitay (Çin) tərəflərində bu gəminin içindəki əczaxana (aptek) üçün bir neçə şüşə şampan lazım olmuş. O tərəflərdə bir limana uğrayıb şampan aramışlar. Bütün şəhərin içində bir şüşə şampan bulunmamış. Almanlar bunun səbəbini sormuşlar. Almanlara cavabən demişlər ki:

-Sizdən iki saat əvvəl rus gəmiləri keçdi. Rus zabitləri bu şəhərdə nə qədər şampan varsa həpisini aldı. Bir dənə şampan qalmadı.

Alman gəmisinin komandanı bu xəbəri Almaniya imparatoru Vilhelmə yazmış. Vilhelm bu teleqrafi oxuyunca demiş ki;

- Bir dövlətin əsgəri, zabiti ki, məst olmadan düşmən qarşısına çıxarmayır, o dövlətin məğlub olacağında şübhə etmək qəflətdir. Nasıl ki, elə də oldu.

22 FEVRAL 1911, № 7, səh. 11-12

MƏZHƏKEYİ – HƏKİMİYYƏ

QƏRİBƏ BIR VƏQƏƏ (ƏHVALAT)

Bir gün bir axund kəndi odasına toplanmış adamlara vəz etdiyini görmüş ki, odaya toplanmış xalqın (camaatın) həpisi füqərayi-kasibədir. Hətta nümunə olaraq belə bir zəngin yoxdur.

Axund:

- Camaat, bilirmisiniz qiyamətdə pərvərdigari-aləm zənginlərin başına nə gətirəcək?

Əvət, əlbəttə zənginlərin həpisini cəhənnəmdə yandırıb, siz füqəraya cənnətdə ali qəsirlər (saraylar) ehsan edərək huri və qılman verəcək.

Axund sözünü qurtardıqdan Əlinüsrət adında bir hərif ayağa duraraq demiş ki; Axund həzrətləri, mən bu müamiləyə heç inanmıram ki, Allah zənginləri cəhənnəmdə yandırıb da, biz füqəranı cənnətdə rahat buraxsın. Zira Allaha fəhlə lazımdır ki, zənginləri yandırdıqdan sonra onların küllərini daşıtdırsın.

İştə o zaman Allah məni və mənim kimi füqəranı cənnətdən çağırıb deyəcək ki;

- Nüsrət, kisəni alıb bu külləri cəhənnəmdən təmizlə!

Demək ki, bu dünyada biz biçarələri bu zənginlərin həyatları nasıl cəhənnəmdə yaşayırsa, o dünyada da külləri səbəb olacaq, yenə biz cənnətdən çıxıb cəhənnəmə gələcəyiz.

Bu dünyada fəhlə olduğumuz kimi, qiyamətdə

də fəhlə olacağız, deyə sözünü qurtardıqda əhli-məclis qəhqəhə ilə gülərək Nüsrətə afərin dedilər

İLDIRIM VƏ TEYMUR LƏNG (TOPAL)

Teymur ləng Osmanlı padşahlarından İldırım Bayazidi əsir tutmuşdu. Bir gün Teymur ləng bir bəzmi-nuşanuş tərtib edir. Məclisdə xanəndələr və sazəndələr çalmaqda olduğu halda Sultan Bayazidi əsir sifəti ilə gətirib məclis odasının axırında bir dəmir qəfəs içində oturdur. Bir ara Sultan Bayazid ağlar bir halda görünür. Teymur ləng bir mənayi-istehza ilə:

- Ey əzəmətli padşah, səni ağlar kimi görürəm. Nə üçün?

Deyir:

- Mən onun üçün ağlayıram ki, bu bədbəxt dünyanı sənin kimi bir topal ilə mənim kimi bir kora tapşırmışlar.*

** Teymur ləng topal, Sultan Bayəzidin bir gözü kor idi.*

22 FEVRAL 1911, № 7, səh.12

«YENİ FÜYUZAT»

№ 8

İkinci sənə

1 MART 1911, (12 RƏBİ ÜL-ƏVVƏL 1329)

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL:
ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «Füyuzat».

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

Bir nüsxəsi 10 qəpikdir. Başqa şəhərlərdə 12 qəpik.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərind

MƏRHUM RƏFİQ BƏY

İştə bir zəka, iştə bir nitq. İştə bir cürət! Şəkilini gördüyümüz zat bu xəsayisi-nadirənin mücəssəməsi idi.

Mərhum Rəfiq bəy İstanbulun ən məşhur advokatı (vəkili) idi. Bütün ömrünü Türkiyənin hürriyyəti üçün sərf etdi. Xaricə çıxmadı, İstanbulda çalışdı. Bugünkü hürriyyət Türkiyənin minnətdar olduğu ərkani-giramdan biri də bu zatdır. Heyf ki, elani-hürriyyətdən sonra bir sənə keçmədən vəfat etdi. Dövri-hürriyyətdə az müddət Ədliyyə naziri oldu. Şəkilinin «Yeni Füyuzat»-da dərci mövludi-mübarəki-Nəbəvi gününə təsadüfü mərhumun şayani-şəfaət olduğuna dəlildir.

səh.1

= MÜƏLLİMLƏRİMİZ =
MABƏDİ (ARDI)

Demək ki, çocuq oxurkən bu, yaxud buna bənzəyən bir kəlməyə təsadüf edərsə müəllim o kəlməni bir neçə dəfə çocuğa deyib və dedirtdirib onun tələffüz və qiraətini çocuğa əzbərlətməlidir ki, bu da üsuli-tədrisdə bir istisna təşkil edir.

Bir də bu kəlməni yazdıralım. İştə müəllimin əsl müşkilatı burada zahir olur. Əgər bu kəlməni imla edən müəllim türk tələffüzü ilə qiraətsə, çocuq onu özü yazmaqda məzurdur. Zira türklərdə nə «ayn», nə də «zad, za, zal» hərfi vardır. Əgər ərəb tələffüzü ilə qiraət

edəcəksə, bu halda çocuq əlifbaya başladığı zaman bunların və tələffüzləri bizdə mövcud olmayan digər hərflərin çocuğa təlim edilmiş olması lazım gəlir.

«Ayn, za, zad» kimi tələffüzləri dərin bir quyu dibinə atılan daşın çıxardığı boğuq səslərdən fərqi olmayan hürufatı tələffüzə boğazının təşəkküli-təbiisi namüsaid bir türk çocuğuna bunları kəmahüvə (onun kimi) tələffüz etdirmənin qeyri-mümkün olduğundan sərfi-nəzər etsək də belə bir məşğuliyyətin alacağı zaman ilə hənuz ibtidai təhsildə olan o tifli-həft salə (yeddi yaşlı uşaq) verəcəyi təəb və kəlal sərfi-nəzər ediləcək qədər əhəmiyyətsiz məsələ deyildir, sanıram.

Bu halda nə yapmalı?

Yapılacaq şey qiraət əsnasında kəlməni demək, imla əsnasında da çocuqların yazacağını gözləmədən o kəlməni taxtaya (lövhəyə) yazmaqdan ibarət bir çarəsizlikdir.

Heyfa ki, lisani-təhririmizin (yazı dilimiz) yarısı deyil, bəlkə üçdə ikisi, bəlkə dörddə üçü iştə bu növ qeyri-qabili-qiraət və imla bir tağım kələmati-ərəbiyyə və farsiyyədən mürəkkəbdir ki, türkcə yazıb-oxumaq istəyən bunların şəkillərini əzbərləməyə məcburdur.

Bu halda səkkiz yaşında məktəbə girən bir çocuğun otuz yaşında, məsələn, bir mühərrir olana qədər, başı (muzəyi-əşkali-kələmat) olmaq icab edir.

Bu halın bizə nə dərəcə maneyi-tərəqqi olduğu məlumdur. Əgər bu müşkilatın dəfi üçün bəzilərinin iddiaları kimi lisanımızdan ərəbi və farsi kəlamatı atmaq cürətinə qalxışsaq, bu halda o otuz yaşındakı mü-

hərriri səkkiz yaşındakı bu tifil əbcədxan mənzələsinə endirmək qəbilindən bir fədakarlıq olur ki, bu da heyəti-ictimaiyyəyi-Türkiyəni lal qoymaq deməkdir. Çünki əsl türk dilini bugünkü müxtəlif (qarışıq) türk dilinin dərəcəyi-istedadına çatdırmaq üçün yenidən Baykala övrət cəlb edib doqquz-on əsr əvvəldən başlamağa başlamaq lazım gəlir ki, bunun da imkanı yoxdur.

Lakin bu imkansızlıq bizi büsbütün məyus və məhkum eləməz. Bu halda nə yapalım?

Mənim fikrimcə:

Hər dildə kəlmələr iki qismdir. Biri müştəqat, digəri qeyri-müştəqatdır. Ədəvat dəxi bu qeyri-müştəqat cümləsindəndir.

Əvvəla lisanımızdakı müştəqat və qeyri-müştəqatın qiraət və imlası üçün müntəzəm qəvaid yapılmalıdır.

Saniyyən, lisanımızdakı qeyrit-müştəqat üçün qonulan qəvaidi bilatərəddüd və bipərva ərəbi və farsi qeyri-müştəqqat üçün tətbiq etməlidir.

Salisən, lisanımızda işlədilən ərəbi və farsi kələmatın bilüzum olanları atılaraq bir heyəti-müntəxəbə tərəfindən kələmati-ərəbiyyə və farsiyyə təcdid edilib, bir qamusi-məxsusi (xüsusi lüğət kitabı) yapılmalıdır. Bu qamusun içində olmayan ərəbi və farsi bir kəlməni işlətmək qələtati-təhririyyə (yazı səhvləri) və nəqayisi-ədəbiyyədən (ədəbi nöqsanlardan) sayılmaq üzrə qəvaidi-sərfiyyə və ədəbiyyəyə ciddi bir maddə əlavə edilməlidir.

Rabiən, süuni-zamanın göstərəcəyi bir lüzum üzərinə yenə bu dillərdən bir kəlmə alınmaq icab edərsə, bu kəlməni almaq ixtiyarı İstanbul Akademiyasına məxsus olmalıdır.

İştə bu surətlərlə lisanımız ən az dörddə üç nisbətində sadələşdirilmiş olur.

Əsarətzədəyi-etiyad olan bəzi zəvat burada ən ziyadə ikinci maddəni qəbul etməkdə tərəddüd edəcəkdir. Yəni türkcə qeyri-müştəqqat haqqında vəz ediləcək qəvaidin ərəbi və farsi-müştəqqata tətbiqini behəsbi-etiyad qərib görəcəkdir. Lakin mən bu istiqrabda heç məntiq görməyirəm. Biz şimdiyə qədər yazımızın əski qərabətinə də eləcə alışırız. Və zaman ilə qərabət də zail olur gedər. Əgər bu islahat bizdən əlli-altmış sənə əvvəl yapılmış olsaydı, bu gün bizə pək təbii gələrdi.

Türkcədə kəlmənin birinci hecası məftuhsa, hərf imlasız, məksursa «ya» ilə, məzmumsa «vav» ilə yazılmaq lazımdır. Məsələn:

«Əsnəmək» kəlməsində «Əs....» birinci heca olduğundan bu hecanın arasında «Ya», «Vav» görmədikcə məftuh oxumaq və yazanda da «He»siz yazmaq, yəni «əs...» yazmamaq lazımdır. Bunun kimi «qırmızı, qurşun» kəlmələrini də «qırmızı, qurşun» yazmaq cayiz deyildir.

Şimdi türkcə qeyri-müştəq kəlmələrdə dəyişməz bir qayda olan bu üsulu qeyri-müştəq farsi kəlmələrə nə üçün tətbiq etməyəlim.

Məsələn, fars lüğət kitabında «Nişan», «Nişabur» kəlmələrini bu şəkillərdə yazır.

Şimdi bunların birinci hecaları məksur (kəsir işarəli) olduqlarından bizim qaydamızla «Nişan», «Nişabur» yazmaq daha gözəl deyilmi?

Çünki bizim dilimizdə bu kəlmələrin özlərindən başqa heç bir müştəqləri yoxdur. Mücərrəd, qeyri-müştəq kəlmələrdir.Biz ərəbdən dəmi mütəəssib olacağız? Hətta ərəb «Nişan» kəlməsinin birinci hecasında eşitdiyi «ya» hərf imlasını cəmiyyətdə izhar edib «Nəyaşin» surətində cəm edir.

İştə mənim fikirim belə kəlmələri tamami ilə türk dilinin qəvaidinə tabe eləməkdir.

Burada mütəərrizlərin deyəcəkləri bir söz var ki, o da budur:

- Bu kəlmələri şəkli-əslilərindən çıxarırsın, sonra müruri-zaman ilə əsllərini, hankı lisandan olduqlarını unuduruz.

Bu bir etiraz da ola bilir. Lakin bu etirazın qərabəti də qeyri-qabili-inkardır.

Canım! Mən bir kəlməni oxumaq və yazmaq üçün onun tərcümeyi-halını bilməyə nədən məcbur oluram?

Hankı millətdə, hankı dildə xalq belə bir məcburiyyətə əsir edilmişdir?

Bir kəlmənin əslini zəbt etmək qamusların vəzifəsidir. Dildə ixtilas etmək istəyənlər də qamuslardan onların əslinə ittila hasil edə bilərlər. Lakin bütün bir millət bu zərurətə məhkum edilməz.

Məsələn, fransızlar rumlardan yığıncaq mənasına olan «ekklesia» kəlməsini alıb kilsə mənasına

«eglise» yapmışlar.

Yenə latınlardan mən mənasına olan «ego» kəlməsini alıb mənlik mənasına «egosme» halına qoymuşlar. Daha latınlardan, rumlardan nə qədər kəlmələr almışlarsa, həpisini öz dillərinin şivəsinə görə bir şəkilə soxmuşlar. Və onların əsllləri də qamuslarında və o kəlmənin yanı başında mötərizə (iskopka) içində məhfuzdur.Ərbabi-ixtisas (mütəxəssislər) müstəsna olduğu halda heç bir fransız bu kəlmələri yazarkən özünü bunların əsllərini bilmək məcburiyyətində tutmaz.Bizim son zamanlarda çıxan qamuslarımızda dəxi əcnəbi kəlmələrin əsllləri mötərizə içində izah edilməkdədir. İstəyən onlara müraciət edə bilir.

Bir türkə «Ərəbi və farsi kəlmələri ərəb və fars nasıl yazırsa, sən də elə yazacaqsan!» demək. «O kəlmələrin əsllərini bilməyə məcbursan, yoxsa qələt elərsən!» deməkdir.Bu halda o, biçarə türk də qələt etməmək üçün yazmağa məcbur tutulmuş olur.

Məncə ərəbi, farsi bir kəlmənin əslini qaib etmək qorxusu ilə olduğu şəkildə mühafizə etmək, məsələn, Ayasofiya cameyini rumlardan aldığımızı fikirdən çıxarırız qorxusu ilə kilsə halında hifz etmək kimi qərib bir iddia olur.

Mabədi var.

ƏHMƏD KAMAL

1 MART 1911, № 8, səh. 2-5

VƏTƏN MƏNZUMƏSİ = MABƏDİ (ARDI)

Bu fəlakət yaxışırmı ürəyi dağlılara?
Xəncəri-zülm olurmu heç əhli bağlılara?
Təpədin bizi, ya rəbbi, qaradağlılara.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Eylədin kəsbimizə həp Vətəni sərmayə,
Belə xidmətləmi gəldin bu dəni dünyayə?
Üzümüz qalmadı Allaha da istidayə.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

İştə can verir Vətən dininə, hürriyyətinə,
Yüyürərək qanlı müsəllaya xüda hörmətinə,
Haqqa qarşı duralım ər kişinin niyyətinə.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Kimlər iclalını, təkbirini ayin edəcək?
Qəbrdə dininin ədasını nə təlqin edəcək?
Şu mübarək Vətəni qalmadı təkfin edəcək.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Ümmətin cümləsi zalımlara padaşmıdır?
Qanmıdır istənilən din yoluna, başmıdır?

Ya Məhəmməd, o mübarək ürəyin daşmıdır?
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

NAMİQ KAMAL-HİKMƏT

1 MART 1911, № 8, səh. 5

SƏHHƏT

ZƏHƏRLƏNMƏK

Ət vaxtında sərf edilməzsə (yeyilməzsə), dərhal mikroblara məkul (yem) olur. Bu mikroblar da vücudu zəhərləyici sular çıxarlar. Kəsilən heyvanatın dəriləri altına üfləmək mikrobları intişarına və ətin tez çürüməsinə səbəb olur. Ətlərin pozulmasına səbəb nə olursa olsun, istər heyvanın ziyadə yorğunluğu, yaxud xəstəliyi nəticəsi olsun, iəstərsə ətinin çürüməyi mütəaqib olsun insanda hüsula gələn zəhərlənmək əlamətləri həmən birdir. Bu zəhərlənməyə əcnəbi məmləkətlərində «Botulizm» nakmı verilir.

Bəzən ətdə mövcud tofsinlərin miqdarı zəhərlənmə əlaməti hasil edəcək qədər olur. Bu halda zəhərlənmək yeməyi az bir müddət mütəaqib zühur edər. Lakin əksəriyyə zəhərlənmək yeməkdən on səkkiz-iyirmi dörd saat sonra zahir olur.

Ya qurutma, yaxud duzlama əsəri olaraq böyüməyə, artmağa, meydan tapamayan ətdəki təfəs-

süx (çürümə) mikrobları mədəyə vasil olduqlarında hərarət və rütubət kimi artmalarına müsaid bir çox şərtlərə təsadüf elədiklərindən artıq miqdar tofsinlər çıxardaraq icrayi-təsir eləməyə başlar (təsir etməyə başlar).

Zəhərlənmələrin başlıca əlamətləri qay, ishaldır. Müvəqqətən artar hərarət (qızdırma) bir müddət sonra hali-təbiiyyəyə düşdüyü kimi, mədədə yayılıb zəiflər. Adətən xolera kimi hallar göstərərək insan vəfat eləyər.

Vərəm (çuxotka) xəstəliyi sığırlarda pək çoxdur. Xəstəlik pək ziyadə irəliləmişsə, yalnız əti iyi (yaxşı) bişirmək şərti ilə bu növ ətin istemalında o dərəcə məhzur yoxdur. Vaqiən (həqiqətən) arlivan vərəmli sığır ətlərinin hər halda sərf edilməməsini bəyan israr edir.

Kaç (neçə) sənə bundan əqdəm Londaə vərəm konqresində almaniyalı müəllim Koxun insan və sığır vərəmlərinin ayrı-ayrı olduqlarına dair irəli sürdüyü nəzəriyyat tamami ilə cərh edilmiş və əks məsələ həmən sabit olmuş olduğundan yenə bu barədə deyir ki:

Vərəmli heyvanat əllərindən mümkün olduğu qədər qaçmaq calamatpərvəranə bir hərəkətdir.

Əvət, buracan ətdən bəhs etdik. Şimdi keçəlim başqa yeməklərə.

Yumurta:

Bütün quşların yumurtaları qida olaraq yeyilə bilirsə də, biz burada fəqət toyuq yumurtasından bəhs edəcəyiz.

Yumurta dünyada ən gözəl və ən qədim bir qidadır. Fransada sənədə 12 milyon toyuq yumurtası sərf olunmaqdadır. Toyuq yumurtası 60 qram çəkisi olub, bundan 6 qramını qabığı, 18 qramını sarısı, 36 qramını ağı təşkil edir. Yumurta ən səhi, pək ziyadə hazım, pək ziyadə müqəvvi (qüvvətli) bir qidayi-təbiidir. Az bir həcmdə ziyadə müqəvvi olub, qanda olan bütün ünsürləri cami bir qidayi-mükəmməl və tamdır. Bundan başqa, yorulmuş ənbubəyi-həzmiyyə üçün adətən müsəkkin (rahat verici) bir qidadır. Yumurta nə qədər az bişərsə, o qədər tez həzm olunur. Yumurta sühuləti-imtisasından naşi çox oturmaqla imrari-həyat edənlər havi olduğu kükürt və fosfordan verərək cümlə əsəbiyyəsi zəif olanlara pək münasibdir. Onun su ilə qarışdırılması və təxmir (xamır) edilərək təndirdə bişirilməsi ilə istehsal olunan çörək əğziyyənin (qıdanın) ən mütəmmim və ən faydabəxşidir. Çörəyin xəvası:

1) İstemal olunan onun safiyyətinə;
2) Yoğurmağa;
3) Xəmirin dərəcəyi-təxmirinə;
4) Dərəcəyi-təbxinə (bişirilməsinə) tabedir.

Un gözəl alınmış, yəni köpükdən büsbütün ayrılmış olması təriqi-həzmiyyəni (həzm yollarını) təhris edərək istemal və istifadə olunacaq məvadişiishal ilə dəfini (kənar edilməsini) təshil edər.

ƏLİ PAŞA

1 MART 1911, № 8, səh. 5-7

ERKƏKLƏR VƏ QADINLARDAN TƏŞKİL OLUNMUŞ CƏMİYYƏTİN MÜXTƏSƏR MƏRAMNAMƏSİ

-10-

Sabiqcə zikr olunduğu üzrə insanların səadəti-hal və hüsni-məişət və rifah əhvalına dair bəzi məlumat ərbabi-intizar və əshabi-əfkarın nəzəri-diqqətinə təqdim olunmuşdu və şu məqsədlərə nayil olmaq üzrə təzə bir tərzi-məişət ittixaz etmək icabı məzkur «yeni islam» cəmiyyətinin təsis və təşkili lüzumunu hiss etdirir. Şimdi isə şu cəmiyyətin bir para əsas qanunlarına dair burada iradi-məqal etmək arzusundayız.

«Yeni islam» cəmiyyətimiz zeyldə zikr olunduğu əsasa mübtənidir:

Əvvəla, cəmiyyətin məqsədi bütün əzalarının maddi və mənəvi təminatını hüsula gətirməkdir. Bu qərar ilə ki ;

1) Cəmiyyətin hər üzvü bütün-bütünə ehtiyacati-maddiyyədən məhfuz və məsun qalmalıdır.
2) Cəmiyyət kəndi üzvlərinin əxlaq və ətvarına (davranışlarına) müvazib olmalıdır.
3) Cəmiyyətin üzvləri kimi, övladları da lazimə təlim və tərbiyə almağa müvəffəqiyyətdə bulunmalıdırlar.
4) Cəmiyyət camaatın ehtiyacına dair hər dürlü (növ) məktəb və mədrəsə, darülfünunlar, darüttərbiyə, darüləczə və darülitamlar, kitabxana və qiraətxana, müsafirxana (meh-

manxana), xəstəxanalar, darüttövlidlər və bunlar kimi ehtiyacati-bəşəriyyəyə dair maddələri təsis və təşkil etməlidir.

5) Əzaları üçün xüsusi ehqaqi-həqq məhkəmələri təsis olunmalıdır.

6) Əzalarının istedad və qabiliyyətinə görə vəzifə üzrə onları xədəmati-layiqəyə təyin qılmalıdır.

Saniyən, cəmiyyətin varidatı şu qərar ilədir ki:

1) Hər bir üzv ildə şəriəti-müqəddəsədə müqərrər vəchlə fitrəyi-maliyyəsini cəmiyyətə verməlidir.

2) Hər bir üzv bir ilin ərzində təhsil etdiyi varidat və mədaxilinin əvvəla bir hissəsini üşr (onda bir) və zəkat olmaq üzrə cəmiyyətə təslim etməlidir (ödəməlidir).

3) Hər bir kəs vəfat etdikdə süls (üçdə bir) malını cəmiyyətə tərk etməlidir (ödəməlidir).

4) Övladının tərbiyəsinə imkanı olan üzvlər öz övladlarının tərbiyəsi üçün cəmiyyət tərəfindən müəyyən olunan məbləği öz vaxtında əda etməlidir.

5) Cəmiyyətin kəndisi ticarət yolları açır. Fabriklər, zavodlar bina edir. Mağazalar və xanalar (evlər) bina qılır. Hər dürlü ticarət və mənafe yolları arayır.

6) Camaatın maddi və mənəvi mənafeyinə dair hər dürlü təşəbbüsatda bulunur.

Salisən, cəmiyyətin əzaları:

1) O kəslər ki, cəmiyyətin məramnaməsinə mütabiq vergiləri öhdəsinə qəbul edər, istər ünas (qadın) olsun, istər zükur (kişi).
2) Üzvləri ədədi (sayı) qeyri-məhsur olmaqla bərabər təlimati-ibtidaiyyəni haiz olmaları şərt olunur.
3) Cəmiyyətin əzaları məkarimi-əxlaqa dara olub, cəmiyyətə və bəşəriyyətə rəxnəzən (xoşagəlməz) hərəkatda bulunmamalıdırlar.
4) Cəmiyyətin üzvlüyündən kəndi xahişilə xaric olan kəslər cəmiyyət nümayəndələrinin səlahdidilə (məsləhətilə) yenə şu cəmiyyətə daxil ola bilərlər.
5) Cəmiyyət kəndi əzalığından xaric etdiyi üzvü xaric etmək səbəbi əxlaqsızlıq və vicdansızlığa aid olursa, bir daha şu cəmiyyətə qəbul olunmaz. Başqa surətlərdə cəmiyyət nümayəndələrinin səlahdidilə yenə qəbul oluna bilir.

Rabiən (dördüncü), cəmiyyətin idarəsi:

1) Cəmiyyətin idarəsi mərkəzi və şöbə idarələrindən ibarət olur.
2) Mərkəzə idarə sədri, ümumşöbə və mərkəzin nümayəndələri vasitəsi ilə intixab olunur (seçilir).
3) Cəmiyyətin mərkəzi idarəsi əzaları kimi, şöbələrinin də əzaları və sədri məhəlli üzvlər vasitəsi ilə intixab olunur.
4) Mərkəzi idarənin şöbələrinin idarə üzvlərinin

ədədi məhəlli üzvlər tərəfindən ümumi iclasda təyin olunur.

5) Təftiş komissiyası kimi cəmiyyətin üzərində nəzarət edən komissiyalar ümumən məhəlli üzvlər tərəfindən intixab olunur.
6) İdarələrin işlərini sərəncam edib, müavinətdə bulunmaq üçün təşkili lazım olan komissiyalar məhəlli idarə nümayəndələri tərəfindən təyin olunur.
7) Şöbə idarələrin sənəlik (illik) əmal və təşəbbüsatı mərkəzi idarəyə təqdim olunub, təsdiq olunur.
8) Şöbələrin bir sənə ərzində əmələ gətirdikləri təşəbbüsatın müsahibəsi dəxi mərkəzi idarəyə təqdim olunur.

Xülasə, biz burada işbu məramnaməni tətvildən (uzatmaqdan) ehtiraz ediriz. Zira şu məramnaməni bir nümunə olaraq ərbabi-bəsirətin nəzəri-diqqətinə təqdim etmək məqsədimizdir. Ancaq burada cəmiyyətin müxtəsər vəchlə keyfiyyəti-təşkil və məqsədini bəyat etmək arzusundayız.

İrəli nömrələrdə zikr olunduğu vəchlə «Yeni islam» cəmiyyəti təsis etmək arzusunda bulunan cavan əfkarlı islamdaşlarımız da izhari-vücud edərlərsə (iştirak etmələrini bildirsələr), müəssislər təxmin və təyiṇ olunduqdan sonra belə bir cəmiyyət üçün də lazımınca məramnamə tərtibinə təbii iqdam olunacaqdır.

«Səy və küşiş (çalışma) sayəsində hər bir məqsədin hüsula gələcəyinə qane olanlardanız». Bu

məqal ilə xətmi kəlam ediriz.

AXUND YUSİF TALIBZADƏ
1 MART 1911, № 8, səh. 7-8

= SER ERNEST KASELİN BİR TƏŞƏBBÜSÜ =

İngilis məşahiri-maliyyunundan ser Ernest Kaselin namı (adı) heç kimsə üçün məchul deyildir. Müşarileyh bir çox milli banklar müəssisidir. Qarelərimiz bəlkə ser Ernest Kaselin mütəvəffi (rəhmətə getmiş) Kral Edvard ilə əskidən bəri dost olduğunu da bilirlər.

Ser Ernest Kasel bu dəfə kral Edvardın təzkir namı və eyni-zamanda Alman-ingilis münasibatının islahı üçün mühüm bir təşəbbüsdə bulunmuşdur.

Bu təşəbbüs Almaniyada bulunan fağır ingilislərə və İngiltərədə bulunan fağır almanlara müavinət (yardım) etmək üzrə dörd milyon sərmayə ilə bir müəssisə təşkilindən ibarətdir. İştə əhəmiyyət bəxş edən cəhət İngiltərə tərəfindən kral və kraliça ilə sabiq kraliçanın və Almaniya tərəfindən imparator ilə imparatriçanın müəssisəni təhti-himayələrinə almalıdırlar.

Ser Ernest Kasel əslən alman olub, Koloniyalı bir bankirin oğludur. İngiltərədə böyümüş, ümumi-maliyyədə (maliyyə işlərində) böyük bir şöhrət və etibar qazanmışdır.

1 MART 1911, № 8, səh. 8

EŞİDƏNƏ:

Afərin xan eylədin Əbdülhəmidi kəndinə,
Hankı qövmün pişdarı sən kimi cəllad olur?
Xanəni məmur edib, yıxma bu xalqın beytini,
Zülm ilə abad olan, bir gün gəlir bərbad olur.

NEMƏT BƏSİR

1 MART 1911, № 8, səh. 8

= İRAN SƏFAHƏTİ-İNQİLABİYYƏSİ =

-2-

Növi-bəşər (insanlar) arasında ta əzmənəyi-qədimədən bəri (qədim zamanlardan bəri) müxtəlif və qeyri-həmcins təbəqələr təşəkkül etdiyi, nüqati-aləmin hər bir nöqtəsində iki namusavi qism olduğu kimi, İranda dəxi hakim və məhkum, amir və məmur, zalım və məzlum, əsil və adi, müftəxor və rəncbər təbəqat namusavi bütün mənası ilə hökmfərma. Bir fərq idi ki, İrana nisbətən mütəməddin (mədəniyyətli) məmləkətlərdə növi-bəşərin eksplotator, yəni faydamənd qismi əmələ (fəhlə) və rəncbər (zəhmətkeş) qisminin zəmami-həyati-ictimaiyyə və siyasiyyəsini yədi-qəsbinə keçirmiş, vəz etdiyi qəvanin (qanunlar) və qəbul etdiyi rüsumat (rəsmlər, adətlər) ilə zülm bittəsavi təriqilə bu əksəriyyət sinifinin zəhmətini, səyini, alının tərini zəbt və istirdad ilə yenə onları əsarətdə saxlamaq, qanlarını axıtmaq, təhti-inqiyadda bulundurmaq, başqa millət-

lərin zəif əqsamına hücum etmək üçün hər gün daha ziyadə müzərrib, daha ziyadə az zaman içində çox canlar qəbz edən əsləhə (silah) və alati-hərbiyyəyə təbdil edər olduğu halda, İranda mütəməvvilin (varlılar) ilə rəncbərin təbəqnəsi, zalım və məzlum sinifləri Avropa və Amerikanın nisbətən mütəməddin məmləkətlərində əqəllən bu gün də olduğu kimi, olacağına məəttəəssüf, onların bu günkü İran kimi hal-hazır dövri-təməddününə daxil olmaq üçün çalxanıb yuvarlandığı bir dövrəsində, yəni bu gün mütəməddin bildiyimiz milәl (millətlər) və əqvamın bir mürəbbe, ya bir, ya iki və ya üç əsr əvvəl bugünkü İran inqilabatını keçirdiyi bir dövrəsində bulunur. Çobanluq dövründən ziraət (əkin) dövrünə keçməyə çırpınır.

Nəsrəddin şahın dövri-səltənəti və Müzəffərəddin şahın əyyami-hökuməti nəzəri-tədqiqdən keçirəcək olursa, mütəməvvilin ilə rəncbərin, hakimin ilə məhkumun arasındakı münasibat lövhələri ənzari-tamaşaya vəz ediləcək olursa, görülüb təsdiq ediləcəkdir ki, biçarə rəncbər sinfinin artıq nəfəs çəkməyə, kəndilərini insan oğlu insan tələqqiyə qüdrətləri yox imiş.

Bir ovuc xunxar (qaniçən) hökuməti-müstəbidə məmurları istədikləri zülmü icrada muxtar, məsuliyyət yox, ədalət namı eşidilməmiş, vicdan iztirabı olduğu lüğət kitablarında olsun görülməmiş.

Bir halda ki, dünyanın ən müstəbid hökumətlərində mafövqə (ən yüksək) şikayət qaydası ibqa (ləğv) olunduğu halda İranda bu da yox idi. Zülm, etisaf, təcavüz o bədbəxt kütləyi-bəşərin maddiyyat və

mənəviyyatında olunca dəhşət ilə hökmfərma.

Ruhanilər bir yandan, ətbai-hökmdaran bir cəhətdən, marin hökumət bir tərəfdən, mülkədar və rüəsayi-əşayir bir başdan (tayfa başçıları bir tərəfdən). Xülasə, hər önə gələn dünyanın bədbəxtlik ilə tövsifinə səbəb olan bu rəncbər və əmələ sinfinin başına tökülmüş bulunurdular. Qanlarını əmməklə belə qane olmayıb, ətlərini yemək, gəmiklərini yaxmaq ilə ancaq təskini-cu edər olmuşdular.

Şiddəti-zülm yeganə saiqi-intibahdır!

İştə bu əsnalarda idi ki, dahi Melkumxan Nazimüddövlə meydani-mübarizəyə çıxıb, isbati-vücud edir. «Adəmiyyət» namı ilə bir cəmiyyət təşkil edir. Adam yapan bir makina işləməyə başlayır. Bu dahi Londrada təb və nəşr etdiyi asari-intibahnaməsini və sair müxtəlifə ilə İranın ən hicran, ən dəqiq, ən nazik və səmərədar (məhsuldar) məhəllərinə sövq edir. Fəryad etməkdən, ağlamaqdan başqa bir şey bilməmiş, giriftar olduqları baqi-giram əzabından xəxlisi-giriban edə biləcəklərini yuxularında belə təxəyyül etməmiş, təqazayi-həyat güya belə icab edirmiş kimi kəndilərini qədərə (qəza və qədərə) məhəvvəl etmiş bu bədbəxt sinif önlərində qanadlarını himayəyə açmış bir mələk kimi rəhnümalıq edən dövlət Nazimini gördükləri kimi «Aman, rahi-nicatımızı bulduq!» deyərək «Adəmiyyət» cəmiyyətinə daxil olub, adam olmaq həddinə düşdülər...

Bu dövr İranın birinci dövrəyi-inqilabını təşkil edir. Fəqət əfsus ki, hər millətin birinci dövrəyi-

inqilabında zühur edən vəqayeyi-əsəfamiz burada da hökmünü pək fəci (faciəli) bir surətdə icraya qoydu. Hər millətin bu birinci dövrəni keçirmək anlarında zuhur edən fəcaye güya əzəli bir qanun imiş kimi burada da ruyi-məkrini insaniyyətə, insanlara ibrətbəxş olacaq bir surətdə göstərdi.

Nəsrəddin şahın insan qanı ilə yazılmış, ahi-ciyərsuz ilə qiraət olunmuş bir fərmanı sağır qulaqlara varıncaya qədər çinlatdı. Ətraf və əknafı qan qoxusu basdı. Qırdılar, kəsdilər, döydülər, yaxdılar.

Adam olanların vücudunu bu mübarizəgahdan qaldırmaq əzmi-qətisi ilə hər bigünahın qanını nisar etdilər. Adam olan adamların vücudu bu dünyada müzir (zərərli) imiş kimi ayaqlar alıtnda çiynətildi.

Sonra ətraf və əknafı təbii olan bir sükuti-müvəqqət istila etdi. Hər kəs zənn edirdi ki, zülm ədlə, zülmət nura qələbə çalmış. Fəqət mümkünmü?

Zədələnmiş qəlb, yanmış can, parçalanmamış könül qalmamışdı. O sükuti-müvəqqət pərdəsi arxa-sında müdhiş bir intiqam, bir əksüləməli-mütərəsid fürsət bulunurdu. Meydani-vəqada ədl ilə zülm, hürriy-yət ilə istibdad çarpışmağa amadə bulunurdu. Əsasən bir kaç aqil və qəyur və müxlis zəvatın əsəri-zəka və səyi və ictihadı ədalət bayrağına istinadı bir məmləkət və millətin səlamətinə kifayət edəcəyi müsəlləmdir.

İngilis hükəmasından Bekonun «hər qanqı bir məqsəd uğrunda təbiətə tabe olan kimsə, əlbəttə, əməl etdiyi şeyə hakim olur» qövli-həkimanəsi mövcibincə kəndini zülmün tiği-qəddaranəsindən qurtaran Seyid

Camaləddin Əfqani kimi fələyə baş əyməz, əzmi-qəvisindən əl çəkməz, ittihadi-islami-mucahidin düha-pərvəranından və Mirzə Rza kimi can qorxusu olduğu-nu bilməz bir kaç qəyurun gərək məqsədin üsrətindən və gərəksə cühəlanın (cahillərin) istixlaf, yaxud nifrətindən təkəddür edəcək yerdə davam və səbat və əhvali-mühiti müərrif olan məlumat və icabat ilə təzyini-zat və sifat etdikdən sonra mövqeyini bulub, qeyrətə ümumuzəc (nümunə) olacaq bir surətdə adamların və adəmiyyətin intiqamını aldılar.

Nəsrəddin şah Mirzə Rza tərəfindən kiçik bir intiqam ilə yerlərə sərilmişdi.

Bu surətlə adəmiyyət və ədalət ilə pəncələşənin aqibəti nə olduğu və nə olacağı haqqında ibrətbəxş olmaq və tarixi-aləmə bir misali-güzin (seçilmiş) və zərrin (parlaq) təşkil etmək üzrə İran tarixi-inqilabında bir səfhəyi-cədidə açılmış oldu.

AKİF SƏFVƏT

1 MART 1911, № 8, səh. 9-11

MÖVLUDİ-NƏBƏVİ =

Əvət! Yövmi-mövluddur. Rəbiülmövludun 12-ci günüdür. İştə bu günü təvəllüd ilə daimi həyata nayil və sair əyyamdan mümtaz edən Məhəmmədi-ərəbi və rəsuli-mədəni bu yövmi-məsudda ərsəyi-həyata qə-dəmzən oldu, təvəllüd etdi. Şu təvəllüd daimi bir həyata malik olduğu kimi, bir çox şeylər də ondan

təvəllüd edib, edir, etməkdədir.

Qədim ül-əyyamdan bəri isti qövmlər və qara-çılpaq dağlar arasında vəhşət ilə yaşayan ərəb əqvamı ənzari-aləmdə rəhmi-madərdə cənin halında bulunar kimi əhəmiyyətsiz bir tayfanın və Misir Fironlarının taxt və tacına belə malik olmaqla yenə ancaq Hiksus (Qaçaq) namı ilə yad olunan əqvami-ərəbin bütün miləl və əqvama şöhrət və sövlətləri işbu təvəllüd sayəsində əksəndaz oldu (səs saldı).

Qətl və qarət məvası, büğz və nifaq yuvası olan Ərəbistanda salamatlıq, islamiyyət, üxüvvət və ittifaq əsası vücudpəzir oldu. Ərəblər vəşhət və cəhalətdən xilas olub, bütün aləmiyana işbu təvəllüd sayəsində ləməpaş (işıqsaçma) və mədəniyyət faş etmək müvəffəqiyyətində bulundular. Ərəblər və ərəblik şu sayədə bütün aləmiyana qarşı izhari-vücud etdilər. Ərəb olmayanlar da tabe olmaq məcburiyyətində oldular.

Səddiqi əkbərlər, Faruqi-əzəmələr, Əsədullayi-qaliblər təvəllüd etməklə hər bir yerdə fəth və zəfərə nayil olub, sədaqət, ədalət və qabiliyyəti-islamiyyəni cahaniyanın səmi-etibarına yetirdilər (eşitdirdilər). Bununla şu təvəllüdi-zülməvaliddən qüruni-cədidə və əxirənin (müasir və son əsrlərin) qüruni-müsabiqədən imtiyazını təsdiqə bütün əqvami-bəşəriyyə və ədyani-rəsmiyyə (rəsmi dinlər) məcbur qaldılar. İştə Məhəmmədi-ərəbi təvəllüd etdi, dedikdə təzə əsrlər, yeni qərnlər və mədəniyyətə dair dövrlər təvəllüdü deməkdən ibarət qalır. Bununla bərabər, bütün cahani-

yana feyzbaxşa olub, mənsub qalan Məhəmmədi-ərəbi bərgüzidə (seçilmiş) bir xəbər olduğu üçün aləmə qarşı «Mən ərəbdənəm» deyə kəndi əsl və nəsəbini müftəxər qılırsa da, «Ərəb məndən deyildir» hədisi-şərifinin misdaqınca bu halda da İdrislər və Şeyx Yəhyalar meydana atılır. Onlardan da büğz və nifaqlar törəyir. Ədavət və şəqaqlar təvəllüd edir. İslamiyyətə zərbələr vurulub, əcanib (əcnəbilər) güllələrinə üzüvvəti-islamiyyə sinələri hədəf olunur. Qalibiyyəti-islamiyyəyə qarşı İngilis təbəəsi olmaq rəva görünür.

Mərkəzi-islam və qibləyi-ənam olan Beytulladan (Məkkə nəzərdə tutulur) və qəbri-mütəhhəri-Rəsulallahdan (Məhəmməd peyğəmbər) həya etməyib, əcanib hilələrini o müqəddəs məkanlara buraxır.

Rəsuli-əkrəmimizin məsqət ür-rəsi bulunan (andan olduğu yer olan) və məhdi-ağuşunda tərbiyət verən Vətəni-müqəddəsini və cismi-şərifinin mühafizi olan qəbri-mütəhhərini əqrazi-şəxsaniyyələrinə (şəxsi-qərəzlərinə) fəda etmək arzusunda bulunan səfalətpərvər şeyxlər əlhal məhəmmədiyyət və ruhi-islamiyyətin mühafizəsi yədi-kifayətlərinə (öhdələrinə) tapşırılmış mərkəzi-xilafətə əcanib oxları atmaqdan, əlbəttə, həya etməyəcəkdir. Fəqət şəriəti-islamiyyə qiyamətədək baqi qaldığına əmniyyətimiz tamam olduğu üçün daimi həyata malik olan işbu təvəllüd sayəsində qalibiyyəti-islamiyyə hər bir halda təcəddüd və təvəllüd etməklə şu qism dinaətpərəst kəslərin məğlubiyyətə (alçaqların məğlub olmasına) və səfalətə giriftar qalmalarına da əmniyyətimiz tamdır.

Ancaq şu mərkəz tövlid və mənbə təcdiddən təvəllüd edən insan hər bir məqsuda məsaisi ilə yetişə bilər. Bütün üzüvvəti-islamiyyə tərəfdarlarına məsaiyi-tam və neyli-məram arzu etməklə bərabər işbu yövmi-məsud və mövlud ilə islamdaşlarımızı təbrik ediriz.

AXUND YUSİF TALIBZADƏ

1 MART 1911, № 8, səh. 11-12

MƏZHƏKƏYİ-HƏKİMİYYƏ (LƏTİFƏLƏR)

«TEYMUR LƏNG VƏ BAYƏZİD =

Teymur ləng (Topal Teymur) Osmanlı padşahlarından İldırım Bayəzidi tutmuşdu. Bir gün Bayəzidi at yerinə arabaya qoşmuşdu. Bayəzid arabanı çəkərkən arada bir başını döndərib arabanın çarxlarına baxarmış. Teymur ləng bunu görüb:

- Çarxlara nə üçün baxırsan? deyə soruşmuş.

Bayəzid:

- Çarxın nə tərəfə döndüyünə baxıram-cavabını vermiş.

x x x

= BEYİNSİZ QALAVA =

Bir gün bələdiyyə üzvlərindən biri vəfat etmiş. Bunun başını açıb beynini müayinə etmək istəmişlər.

Və başını açıb beynini çıxarmışlar. Həkimlər beynini başqa bir otaqda müayinə etdikləri əsnada bir adam ölünün olduğu otağa girib qulağına demişlər ki;

- Zavallı, vaxtsız öldün. Şimdi səni Dumada qalava (baş) seçdilər.

Bunu eşidən ölü yerindən sıçrayıb çıxardıqları baş çanağını başına qoymuş, Dumaya doğru yüyürməyə başlamış.

Qulağına söz söyləyən adam:

- A kişi, nərəyə gedirsən? Beyinin o biri otağda qaldı, demiş.

Təzə qalava:

- Qalava oldum, daha beyin nəyə gərək?- cavabını vermiş.

1 MART 1911, № 8, səh. 1

EŞİDƏNƏ: (QLASNI SEÇGİSİNƏ DAİR)

Başqalar amadə olmuşlarsa da zənn etməyin,
Müsəlmanlar bixəbərdir, qəflət yuxusundadır.
Bu cilovdarani-islamı tamaşa eyləyin,
Hər biri-bir digəri iqfal qayğısındadır.

Ə.NASİR

1 MART 1911, № 8, səh. 12

YENİ FÜYUZAT»

İKİNCİ SƏNƏ, 8 MART 1911, (19 RƏBİÜL-ƏVVƏL 1329)

№ 9

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

ÜNVAN: Bakı, Dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «Füyuzat».

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

Bir nüsxəsi 10 qəpikdir. Başqa şəhərlərdə 12 qəpik.

Ayinəsi işdir kişinin, lafə baxılmaz,
Şəxsin görünür rütbəyi-əqli əsərində.

MÜNDƏRİCAT:

1) Əhməd Kamal – Müəllimlərimiz;
2) Sultan Süleyman lisanından;
3) Ə.Qasımov – Gizli həyat (fənni);
4) Bir türk – Əhməd Kamal bəy qardaşımıza;
5) Namiq Kamal – Vətən mənzuməsi;
6) İcmali-əhval;
7) M.Ş. Məktəbli və mədrəsəli;
8) A.Ş. Mərhəmətli Ədhəm.

Şəkil

Elani-hürriyyətdən sonra hökuməti-Məşrutəyi-Osmanini rəsmən Avropaya bildirmək üçün göndərilən heyəti-məbusan (Londrada)

8 mart 1911, № 9, səh. 1

MÜƏLLİMLƏRİMİZ

-3-

Bunlardan ərəbi və farsi kəlmələr haqqındakı mütaliələrimdə israr edəməm. Lakin türkcəmiz haqqında çox tez islahata başlamaq lüzumunu iddiada müsirrəm (israr edirəm).

Bir neçə zamandan bəri Bakı «Nicat maarif cəmiyyəti» rəisi İsa bəy Aşurbəyov cənabları ilə lisanımızda təcarübi-ciddiyyə sahibi himmətli müəllimi-

mizdən Mahmud bəy Mahmudbəyov cənablarının təşviq və dəvəti ilə həftədə bir dəfə iniqad etməkdə olan «İttihadi-imla əncüməni» mümkün olduğu qədər türkcəni islaha sərfi-qeyrət etməkdədir.

Bu əncümən yaxında vəzifəsini ikmal edəcək. Sonra əncüməninin islahatı ümumi şurayi-müəlliminə ərz olunacaqdır. Burada da tədqiq edildikdən sonra qərari-ümumi daha lazım görüləcək, məhəllərə təqdim olunub, imlamız üçün elə bir dəstürüləməl keçirməyə çalışacaqdır. Bu dəstürüləməl meydana çıxana qədər hər kəs öz ictihad və etimadına görə yazıb-oxumaqda bittəb məzurdur. Bu səbəblə imlamız haqqındakı sözümü burada kəsib, əsl mühüm bir məsələyə keçirəm.

Müəllimlər imtahan elədiyi günlərdə bir gecə Bakı şəhər idarəsindəki maarif əncüməninin dəvəti ilə Bələdiyyə salonunda müdirlər və müəllimlərdən mütəşəkkil (ibarət) bir ictimayi-ümumi olmuşdu. Bu ictima (yığıncaq) şu əsasi maddələri müzakirə etmək üçün idi:

1) Türkcə dərs veprməyə müəllimlərimizin bizaələri (imkanları) kafimi? Deyilmi?
2) Müəllimlərimizin bu xüsusda bizaələri kafi olmazsa, buna nə çarə qılmalı?
3) Buna çarə qılmaq üzrə Qoridəki darülmüəllimində türkcə dərslərin ədədi-nimini (sayının yarısını) artırmalı, yoxsa türkcə üçün ayrıca bir darülmüəlliminmi açmalı?

İştə müzakirə ediləcək məsələlərin ən canlı

nöqtələri bunlar idi.

Birinci maddə çox qolay həll olundu. Hənuz sinni-səbavətlərində (uşaq ikən) Qoridə seminariyaya daxil olub, o mühiti-əcnəbi içində sənələrlə pərvərişyab olduqları halda cövhəri-giranbahayi-həmiyyətlərinə zərrə qədər xiləl gəlməyən qeyrətli müəllimlərimiz, hətta türkcədə kafi dərəcə bizaətləri olanlar dəxi bilittifaq ədəmi-bizaələrini iddia ilə isbati-masiri-milliyyət elədilər. Və bu iddianın nəticəsində seminariyadakı türkcə tədrisatın türk müəllimi yetişdirməyə kafi olmadığı sabit oldu.

İkinci maddəyə keçildi. Bu maddəni üçüncü maddə izah edirdi. Zatən yapılacaq çarə üçüncıü maddədəki iki surətin birini qəbul edib, ona görə bir proqram tərtib etməkdən ibarətdir.

Bu maddə bir çox müzakirədən sonra seminariyadakı həftədə 6 dəfə olan türk dili dərsini on səkkiz dəfəyə çıxartmaq və şimdiyə qədər qeyri-məcburi olan türk dilinin bundan sonra məcburi edilməsinə qərar verildi. Bu qərar seminariya şurayi-müəllimində bədəl-müzakirə (müzakirədən sonra) qəbul olunarsa, icra edilməsi qərarı ilə iniqad xitam buldu.

Şimdi bu qərarlar seminariya şurayi-müəllimində qəbul edilib, edilməyəcəyi bir tərəfdə qalsın. Qəbul edildiyi fərz edilsə, əcəba, bu bizim dərdimizə bir davayi-şafi (əlac edici dərman) ola biləcəkmi?

Məsələ buradadır.

Bu məsələ keçən bir məclisi-xüsusidə şəhər məkatibi-islamiyyəsi müfəttiş Qənizadə Sultanməcid,

«Səadət» məktəbi müdiri Fərhad bəy Ağayev, Süleyman bəy Əbdürrəhmanbəyov, Üzeyir bəy Hacıbəyov kimi bəzi müqtədir müəllimlərimiz arasında bir az mövzu bəhs edildi.

Mən həftədə on səkkiz dərs ilə bir türkcə müəllimi yetişəcəyinə inanmıram. Əgər həftədə on səkkiz dəfə tədris ediləcək bu dərsin imtahanı rusca imtahanları dərəcəsinə təhti-məcburiyyətə alınarsa, seminariyadan məkatibi-ibtidaiyyə üçün əla külli-hal türkcə müəllimi yetişə bilər. Lakin işbu məcburiyyətin dərəcəsini dediyim kimi təyin və təmin etməkdir.

Hətta bu dərəcə, yəni türk dili imtahanlarının rus dili dərəcəsində məcburi olması təyin edilsə belə bunu bizə kim təmin edəcəkdir?

Dünyada istehqari-məişət bir fədakarlıqdır ki, hər kəsdən tələb olunmaz. Tələb olunsa da ümid edilməz. Bu açıq bir məsələyi-həyatidir.

Bu məsələ belə olduğu halda məişəti müdirinin hüsni-təvəccöhinə bağlı olan bir müəllimin, müdirin dilxahı (istəyi) üzrə hərəkət etməsi təbii olmazmı?

O halda türk dili imtahanlarına izafə (əlavə) ediləcək bu məcburiyyət də ya müəllimin hissi-fədakarisinə, ya müdirin insaf və həmiyyətinə mərbut qalacaq. Binaən ileyh bunlar dəyişdikcə məcburiyyətin dərəcəsi də dəyişmiş olacaqdır.

Bu halda möhkəm bir qərara yapışmış olanlarını Qafqazın həqiqi mərkəzi olmaq heysiyyəti ilə Maarif əncüməninin təhti-müraqibəyə (kontrol) alması tələb olunsa, buna da hökumətin rüxsət (icazə) verməsi çox

şübhəlidir. Bu halda nə yapalım?

Əvvəla,məktəblərdən dünyanın heç bir yerində olmayan sinif üsulunu ləğv edib, ixtisas üsulunu vəz etməli (tətbiq etməli). Yəni bir müəllim dörd saat bir sinifdə dörd müxtəlif dərslə məşğul ediləcək yerdə dörd müxtəlif sinifdə, hətta dörd müxtəlif məktəbdə ixtisas etdiyi bir dərslə məğul edilməlidir.

Sinif üsulu ən müzirr (zərərli) üsuli-tədrisiyyədəndir. Çünki mümkün deyildir ki, bir müəllim bir sinifə verəcəyi dörd dərsdə də bir dərəcə sahibi-ixtisas olsun.

Yenə mümkün deyildir ki, bir müəllim bir sinifdə verəcəyi dörd müxtəlif dərsin tədrisnaməsini (konspekt) bir dərsin tədrisnaməsi qədər qolaylıqla hazırlaya bilsin.

Yenə mümkün deyildir ki, bir müəllim bir sinifə verəcəyi dörd dərsin dördünə də bir dərəcədə həvəskar olsun.

Hər nə nəzərlə baxılarsa baxılsın, bu, pək fəna bir qaidəyi-tədrisiyyədir. Əgər buna müəllimin azlığı, iqtisad cəhəti mane göstərilirsə, bu da məntiqi bir bahanə olmaz. Madam ki, müəllim dörd saat məşğul olacaq, dörd saat bir sinifdə qalacağına o dörd saatı dörd sinifdə keçirək, bunun nə maneiyyəti vardır?

Xüsusilə bu qayda bu gün milli məktəblərimizdə tətbiq olunduğu halda şəhər, yaxud hökumət məktəblərində nə üçün qabili-tətbiq görülməyir? Anlamıram.

Saniyyən, müəllimlər üçün bir sənəlik türkcə bir kurs açılmalıdır. Bu kursun hansı şəhərdə olması

məsələsi qərar veriləcək bir məsələsə də, hər halda Qoridən başqa şəhərdə və birinci sənə labüd məktəbləri, müəllimləri digərlərindən çox və məsrəfə digərlərindən qat-qat mütəhəmmil olan Bakıda açılması lazımdır, sanıram.

Salisən, birinci sənənin nəhayətində (sonunda) bu kursdan alınacaq nəticəyə görə kursun məhəlli-daimisi təyin edilməlidir.

Rabiən, kurs şəhər məkatib idarəsinin ancaq kontroluna tabe olmaq şərti ilə nəzarət və idarəsi müstəqillən Bakıdakı cəmiyyati-islamiyyədən birinə (islam cəmiyyətlərindən birinə) təslim və tövdi edilməlidir.

Xamisən, şəhər idarəsinin verəcəyi para kifayət etməzsə, islam nəşri-maarif cəmiyyətləri müştərikən (şərikli, birgə) və qüvvəyi-maliyyələri ilə mütənasibən artıq qalan məsarifi (xərcləri) təmin etməlidir.

Qoridə artırılacaq türkcə dərslərdən ancaq beş sənə sonra mənfəətbərdar olmaq almayacağız, əgər seminariyadakı türk dili imtahanlarını Qafqazın həqiqi mərkəzi olmaq heysiyyəti ilə Bakı maarif əncüməninin təhti-müraqibəyə (kontrola) alması tələb olunsa, buna da hökumətin rüxsət verməsi çox şübhəlidir. Bu halda nə yapalım?

Halbuki bu ictimalarda verdiyimiz qərarla bu gün əldə olan müəllimlərimizin türkcədə kifayətləri olmadığını isbat etdik. Demək ki, Qoridən bizə türk müəllimi yetişənə qədər çocuqlarımız yenə bu müəllimlərin əllərində qalacaq.

Buna kim razı olur?

Halbuki burada açılacaq kursda həm mövcud müəllimlərimiz, həm hər sənə seminariyadan çıxıb gələcək müəllimlər kursun açıldığı gündən istifadəyə başlayacaqdırlar.

Həzərati-müəllimin!

Bu millətin məsələyi-həyatiyyəsidir. Sükut ilə keçdirmək millətə zülmdür. Bəyani-fikr ediniz. Hər gün qəzetələrdə biri-birimizi söyməklə məşğuluz. İştə mühüm bir mücadiləyi-əfkar meydanı.

Sizlərin bu xüsusda təcrübəniz bizdən də çoxdur. Təcrübənizi, fikrinizi yazınız. «Füyuzat» sütunları təcarüb və əfkarınıza açıqdır.

ƏHMƏD KAMAL

8 MART 1911, № 9, səh. 2-5

= SULTAN SÜLEYMAN LİSANINDAN =

Ey düşmənim, ey düşmənim!
Şəmşiri-qəhrim qanlıdır,
Bənzər hilali-sitvətə, dəstimdə xəncər şanlıdır.
Təkrim edər bişək məni hər kimsə ki, izanlıdır,
Bir kərə diqqət et mənə, qarşındakı osmanlıdır.

x x x

Söylə mənə Allah üçün, gördünmü belə əsgəri?
Görsən belə, yox fayda Dara kimi cəngavəri.
Keçmiş zamanı etmə yad, artıq unut İsgəndəri,
Bir kərə diqqət et mənə, qarşındakı osmanlıdır.

x x x

Əlayı-din etmək üçün əmr eylədi peyğəmbərim,
Dünyanı tənvir eylədi şəmşiri-pərtövavərim.
Pəncəmdə aləm titrəyir, bir əsgər oğlu əsgərəm,
Bir kərə diqqət et mənə, qarşındakı osmanlıdır.

x x x

Ülviyyəti izhar üçün etdim fədayi-canü tən,
Görməzmisərn ki, toplarım olmàqdadır atəşfikən?
Qan damlayır, qan damlayır dəstimdəki şəmşirdən,
Bir kərə diqqət et mənə, qarşındakı osmanlıdır.

MƏHƏMMƏD CALAL

8 MART 1911, № 9, səh. 5

FƏNNİ (TEXNİKİ)
= GİZLİ HƏYAT =

Biz çox vaxt görmüşüz və görürüz ki, od yanandan sonra elə alov sönür. Odun üstünü qara kül tutur və sonra bu qara kül sovrulur. Hərgah biz o sönmüş odu eşib bir neçə çırpı qoysaq o dəm yarı sönmüş kömürlər təzədən cana gəlib şölələnər. Bu əlaməti bəzi heyvanat və nəbatata nisbət vermək olur. Belə ki, bəzi heyvanat və nəbatat müvəqqəti olaraq yuxuya gedirlər. Ərbabi-fünun (alimlər) çox vaxt bu əlaməti təftiş etmək qəsdinə düşüb, bunun nə cəhətdən sadir olmasını tapmaqda aciz qalmışdır. O əlamət gizli həyatın başqa bir halətidir. Bu əlamət heyvanat və

nəbatatın tərki-həyat edib məhv və tələf olmasından olmayıb, onların hərarətinin əksilməsindən nəşət edir. Bu qism heyvanat və nəbatat müvəqqəti zindəganlığını tərk edib, yenə yenidən dirilirlər və imrari-məişət edirlər (yaşayırlar). Belə zindəganlığın gedib sonradan cəsədə qayıtması ilə xüsusi ölmənin təfavütü zəmin ta asiman (yerdən göyə) qədərdir. Bu təfavüt professor Priyerin timsalında çox aydın və aşkar surətdə meydana çıxır.

Priyer deyir ki, hərgah biz saatı qurub bir neçə dəqiqədən sonra onu qəsdən saxlatsaq görəriz ki, dəqiqəşümar fövrən hərəkətdən qalıb bir yerdə dayanar və o yerdə bihərəkət qalar. Dəqiqəşümarın hərəkətdən düşməsinin səbəbi zahirən görünməyir. Fəqət bizim cümləmizə saatın içində olan silinderlər (prujinalar) hərəkətdən düşəndə dəqiqəşümar prujinasız hərəkət etməyəcəyi məlumdur. Hərgah saatın rəqqasını (mayanik) cüzi hərəkətə gətirsək, o dəm saatın təkərləri gərdişə (hərəkətə) başlayacaq və dəqiqəşümar da safırbulatın üzərində dolanmağa şüru edəcək.

Belə saatları məxfi həyatda bulunan cismlərin halətlərinə nisbət vermək olur.

Şimdi nəzərdə bir prujinası sınmış saatı tutaq. Biz onun zahirindən onu bieyb və ya fövqdə (yuxarıda) dediyim kimi, qəsdən dayanılmış saatdan seçməyə qadir deyiliz. Elə ki, onu işlətmək üçün qurub və ya qurulmuş olsa hərəkətə gətirsək, o vaxt müvəffəq olarız. Hər qədər sınmış saatın pendoluna hərəkət versək işləməz. Zira o bir fövt olmuş (ölmüş) cism

kimidir.

Bu tövr (təhər) gizli həyatın haqqında pək çox timsallardan (misallardan) meydana çıxarmaq cümləyə mümkündür. Lakin cümləsi xoşayəndə olmaz. Əlbəttə biz bu müxtəsərcə məqaləmizdə çox timsallara yer verməkdən çənirək, bəzi xoşayəndə misalları nəzərdə tutmağı özümüzə rəva görəcəyiz.

On beşinci və on altıncı əsrlərin arasında ərbabi-fünundan (alimlərdən) elmi-təbiiyyatın danişməndi (bilicisi) olan misiyo Franklin diqqət etmiş ki, «Karaslar», darağanlar neçə aylar ilə donmuş suyun içində qalaraq, buz əridikdə yenidən iadəyi-həyat edib, zindəganlığa başlamışdılar.

Elmi-təbiyyatla məşğul olanlar ot və ələf içində yaşayan boz və mütəvvər qurbağanı bir qab suyun içinə salıb, sonra o qabı buz və qar vasitəsi ilə dondurmuşlar. Biçarə qurbağa su ilə bərabər qabda donmuş. Sonra onu isti bir odaya (otağa) daxil eləyib, buz orada iki saatdan sonra xalis əriyir, fəqət qurbağa halətə gəlməmiş. Bir buçaq saat keçəndən sonra qurbağanın cana gəlib tənəffüs etməsi əhli-fünunu heyrətə gətirir. Çünki qurbağa cana gəlməmişdən bir saat əqdəm (əvvəl) zərrəbin (mikroskop) vasitəsi ilə nə qədər cidd və cəhd etmişlərsə də qurbağada asari-həyat, yəni cəsədindəki damarların hərəkətini görməmişlər.

Fövqüz-zikr (yuxarıda göstərilən) təcrübədən sonra ərbabi-fünun zavallı heyvanların rahat və zindəganlıqlarını qəti edərək onları öz təcrübələrinə

qurban etmişdilər. Bu dəfə elm zəhmətkeşləri bicarə heyvanları bir qab içində qalıb və ətrafına xırdaca buzlar doldurub, arasına duz tökmüşlər. Bu hal ilə qurbağa sabaha kimi soyuq qabda möhkəm donmuş və onu ələ alıb, asan tikə-tikə sındırmaq mümkün olurmuş. Zavallı qurbağalar o qədər donmuşlar ki, sandalın üzərinə vuranda ağac kimi səslənirmiş. Belə donmuş qurbağanın birini sındırıb qanını və ürəyini, böyrəyini xüsusi buz kimi donmuş görürlər. Bu minval üzrə donan binəva heyvanları qabdan çıxarıb bir isti odaya qoyandan sonra yenə cana gəlib, zindəlik (dirilik) nişanəsi izhar etmişlər.

Həqiqət (həqiqətən), elmi-təşrihə (fiziologiyaya) baxanda bir para balaca heyvanlar insanı təəccübə salır. Hər bir suyu qoxumuş arxlarda (kanallarda), gölməşlərdə milyonlar ilə cürbəcür heyvanlar kəmçə quyruqdan başlayıb (kalavastik) gözə görünməyən iynə ucundan balaca həşəratadək (infozyurlaradək) zindəganldıq edirlər.

Elm ərbabı bu balaca, sadə göz ilə seçilməyən həşərata bələd olmaq üçün zərrəbin vasitəsi ilə bunları təftiş etmişdilər. Bu həşərat pək çox xırda və iynə kimi yumurudurlar. Bunların bədənləri ayna kimi aydın və düzdür. Hətta zərrəbinin altında bunların içəri əzaları və cəsədlərində qanın gərdişi və sair cüziyyatları aşkar görünür. İçində həşərat olan sudan bir qətrə götürüb bir qabda qurudaq. O vaxt ancaq mikroskop ilə bu balaca cücüləri seçə biləriz. Bu cücü susuz qalacaq, yumurlanıb risman kələfi kimi olur. Bu həşəratlar çox

vaxt mikroskopun şüşəsinə (predmetnoye stekloya) qonan zərrə tozlardan seçilməyirlər. Təftiş edənin xəyalına da gəlməyir ki, burada can və həyat var. Bəli, bunlar dap həyat sahibidirlər. Bu həyatın axırını bizim kimi məmat gözləyir.

Bunları da cismimiz kimidir. Bu toz kimi şeyi bir qətrə su ilə isladıb zərrəbin ilə baxanda heyran qalmalıdır. Təftişə məşğul olan əşxas bu vaqiəni görəndə təəccüb edib, özlərini bumu görmüş hesab edirlər. Bu xırdaca nöqtəyə su dəydikcə tərləşməyə başlayır. Şimdiyə qədər xaba (yuxuya) uymuş və müvəqqəti olmuş həşəratdan təzədən həyat qoxusu gəlir. Su bu cücünün bədəninə dəyən kimi şiyir (şişir), bir qədər uzanır, qırışmış cəsədi təzədən hamar olur. Balaca qılçaları cəsədindən qopur və bu gözə görünməyən heyvan yeriməyə başlayır. Bu zavallının bədəninə su dəyəndən sonra bir qədər bir yerdə davam edib, tərpənmək xəyalına düşməyir. Güya ki, özü də bu əlamətə təəccüb qalır. On beş dəqiqə və bəzi vaxt bir saat durandan sonra yeriməyə şüru edir. Bu vaqiəni görən şəxs naəlac güləsidir. Binəva heyvan güya ki, müddəti-mədid (uzun müddət) baxandan sonra əyilib gözlərini silir, təzədən aləmə tamaşa edir. Hərəkət edəndən bir qədər sonra binəva heyvanın içəri əzaları da işləməyə başlayırlar. Onda həmin bu cücü yavaş-yavaş zərrəbin şüşəsindən enib gedir. Və zərrəbinin altından xaric olan kimi daha bizim gözümüzə görünməyir.

Həşəratın bu minval müvəqqətən ölməyi onların

çox zaman ömür etməsinə bais olur. Məsələn, bir gölməşdə milyonlarca həşərat zindəganlıq edirlər. Günün hərarətindən gülməsin suyu quruyanda binəva həşəratlar da quruyurlar. Və nüsxə illər ilə uyğun qalırlar. Elə ki, yağmur-yağışdan və ya hər yerdən bu qurumuş göləşə su gəlir, neçə illər ilə yatmış cücülərin canına su dəyən kimi dirilib, yenə əvvəlki kimi dolanıb ömür etməyə şüru edirlər (başlayırlar).

Xüdavəndi-təbarək və taala insana bu nemətiuzmanı (böyük nemət) əta etsəydi, ol vaxt insan necə xoşbəxt olardı. İnsan ömrünün çətin və məşəqqətli zamanında müvəqqəti xaba (yuxuya) olub, sonra təzədən dirilib, zindəganlığa şüru edərdi.

Çox vaxt olur ki, insan bica yerə (yersiz) öz əslini arzu edir və əksəriyyən etdiyi arzunu da əmələ gətirir.

Hər vaxt hansı qəzetəyə olursa olsun, baxanda, əlbəttə, görəcək filan yerdə filankəs özünü qətl etdi, ya ki, zəhərlədi. Uzağa getmək lazım deyil.

Dünən mən dərslərimi hazırlar, müəllimlərim əta etdiyi qəzetələrin qiraəti ilə məşğul idim. Nəzərdən üç qəzetə gəlib keçdi. İttifaqən bəndə (mən) hər üçündə də intihar həvadisə (hadisəsirnə) rast gəldim.

«Terskoye exo» qəzetəsinin 84-cü nömrəsində deyilir ki, (Komenski-Podolsk) şəhərinin həbsxana valisi Simonovski özünü qətl elədi.

«Qafqaz» qəzetəsinin 268-ci nömrəsi söyləyir ki, noyabrın 21-də Bakı həbsxanası valisinin nayibi (müavini) Q.P.Kavliç naqan revoliveri ilə özünü həlak

etdi.

Eyzən «Zakavkazskoye obozreniya»-da Tiflisdə Qriqor Tavaliyaşvili namında bir cavan özünü həlak etmək qəsdi ilə korbolovaya kislata içmək istədi.

Xülasəyi-kəlam, bir qəzetə olmaz ki, bunlar kimi onda intihara dair həvadis olmasın ki, əgər Xüdavəndi-aləm insana da bu neməti əta etsəydi, daha bu cür xüdgəştilik (özbaşınalıq) olmazdı. İnsana bir qüssəyi-əzim (böyük əzab) əl tapanda müvəqqəti xaba uyub, yenə təzədən həyata müraciət edərdi. Əfsus ki, biz bu nemətdən məhrumuz. Bu neçə kəlmə bizim əsl mətləbimiz olan təbiətdən xaric olduğuna görə qarelərimizdən əfv olunmasını istehram (xahiş) edirəm. Mən də yuxarıda həşəratdan ancaq «İnfozior» namında olan cücünü götürüb, onların müvəqqəti xaba uymağını tövsif etdim. Şimdi keçək «Klaverit» namında olan heyvanlara. Bunların cəsədləri infoziordan da balaca olduğu cəhətə ən güclü zərrəbin ilə bunları təftiş edirlər. Bunların cəcədləri ziyadə yumuşaq və həm güzgü kimi durudurlar. «Klaveritlər» həmişə nəm yerlərdə olurlar. Əksərləri arpa və buğda zəmilərində olub, onların kökünə zərər yetirirlər. Bunlar yumurtalayıb gürült yatırlar. Bu tovə həşəratların özü nə balacalıqdadırsa, zərrəbin vasitəsi ilə ziyadə çətin görünürlər. Belə olan surətdə bunların yumurtaları nə kiçiklikdə olduğunu tövsif etmək mümkün deyil. Ancaq təbiyyat müfəttişləri söyləyirlər ki, fövq-üzzikr həşəratların yumurtalarından bir milyona qədər yığmaq mümkün olsaydı, ancaq bir iynə başı əmələ gələrdi.

Həmin Klaveirit namında olan həşəratlar da müvəqqətən uyub, yenə təzədən dirilirlər. Ta olur ki, bunlar qurumuş gülməşlərdə neçə əsrlər xabda qalırlar. Elə ki, abi-nisan (yağış suyu) bunların canına dəydi, təzədən hərəkət edirlər. Bu əlamətllə bənzər bir əlamət insanın da başına gəlir. Ancaq heyvanların başına gələn əlamətlə təfavütü ziyadədir. Bəzi vaxt insan mərizlik halında qəşşə düşür. Bu qəşşin adına tibb istilahında «Litarkiçski son» deyilir. Xəstənin qohum-əqrəbası onu ölmüş hesab edirlər. Amma təcrübəli təbiblər bu əlaməti dərk edirlər.

İnsanın müvəqqəti xaba uymağı ilə bəşəratın təfavütü buradadır ki, insan çox xaba uymağa davam edəməyib, tez həyata övdət edir (oyanır) və yainki onunla tərki-həyat edir (ölür).

İnsanın belə qəşşi iki və ya üç gün çəkir. Misio Kallin öz tibb kitabında yazır ki, çox vaxt ittifaq düşüb ki, qəşşə (litarkiçski sona) giriftar olanlar həman bu halətdə təcrübəli təbiblərin təhti-nəzarətində (nəzarəti altında) bir il müdavimət eləmişlər.

Mabədi var.

SEMİNARİST: Ə.QASIMOV NAXÇIVANLI

8 MART 1911, № 9, səh. 5-8

ƏHMƏD KAMAL BƏY QARDAŞIMIZA!

Möhtərəm bəy əyəndi!

Şimdi gələlim əsl məqsədə. Məqalənizin bir-iki cümləsinə etirazımıza. Mühərrirlər nə istərlərsə yaza

bilərlər. İçlərində hissləri, qəlbləri başqa bir tərəfə mütəvəcceh olanlar da buluna bilər. Amma müxlisiniz Osmanlı ölkəsində əcnəbiyə satılmış nazir, məbus (vəkil) buluna biləcəyini bir dürlü hövsələmə sığdırmayacağam.

Mühərrirlər kimi, məbusların içində də həslülmilliyə hissləri, qəlbləri başqa tərəfə mütəvəcceh olanlar da bəlkə buluna bilər. Bunlar nasional bir firqə təşkilinə qeyrət edə bilər. Bəlkə də bu ana qədər birbirinə ədu (düşmən) olan iki tərəf ixtilafati-məzhəbiyyə və bir dərəcəyə qədər icabati—siyasiyyə təsiri ilə aralarında ümid edilməyəcək bir müqarinət hüsuluna çalışa bilərlər. Olmaz deyil. Olur. Nasıl ki, olmuşdur da.

Vaxtı ilə Makedoniyada bir-birlərinin qanını tökən, xanimanını söndürən iki millət bu gün əvvəlindən bir şey olmamış kimi bir-birini sevir. Qucaqlayır, yek vücud (bir can) ola bilirlər. Vüquatihal bizə bunu da göstərir. Bu günlərdə bu da nəzəriibrətimizə çarpır.

Bir mllətin qəlbini, fikrini, hissiyyatını biz nasıl birdən-birə kəndimizə cəlb edə biləriz?

Yuxarıda da işarət etdik. Nə deyiriz vətənimiz müştərəkdir. Osmanlılarındır deyə fəryad edir. Müsavati-hüquq elan eləyiriz. Vasil olduğumuz nəticə nədir? Mənə ədəmi-məmnuniyyət, düşmənlər arasında belə bir məvəddət, bizə qarşı xüsumət, bürudət.

Daha nə yapıla bilər?

Osmanlıları yek vücud bərəkətlə halına gətirmək

üçün icraati-hökumət o millətləri məmnun edə bilərmi?

Bir kərə türkcə qəzetələri gözdən keçiriləm. Osmanlıların mənafeyi-müştərikələrini ortaya qoymaqdan, o mənfəəti vəqayə etməkdən başqa nə yazırlar? Bu qoca-qoca sütunlarda ümumun mənafeyinə müqayir bir fəqərəyə təsadüf oluna bilərmi?

Bir kərə də türkcədən başqa lisanla nəşr olunan qəzetələri nəzəri-müsaliədən keçirəlim. Kiçik bir xətanın əzam (böyük), olmamış bir vəqəə icad elədiyi görülər. Güya rumlar, bolqarlar məşrutiyyətə müxalif təcavüzata, işgəncələrə məruz qaldığını yazırlar. Teleqraflar təati, təhqiqatlar icra olunur. Baxarsınız ki, nəticəsi heçdir.

Ya o həyəcanəngiz məqalat osmanlılıq şərəfinə nəyisə verə biləcək mütaliat nədir, nə məqsədlə yazılır?

Anlamıyorsuz, lakin həqiqət daima həqiqətdir. Kəzb və duruğu (yalan) məzmumdur. Bilahəqiqat (təhqiqatsız), qayət mühüm imiş kimi bir həvadis nəşr etmək (yaymaq). Ətraflı ˋvəlvələyə vermək, həyəcan hüsuluna bais olmaq. Fürsətdən istifadə edərək əfkar və hissiyyati-milliyyəni başqa tərəfə meyl etdirmək fikri ilə Atinadan (Afinadan) dəstgahi-təbi (çap dəzgahını) İstanbula nəql, Karışvikada təsis edən nə qədər mühərrirlər var idi. Kim bilir, bəlkə də əlan mövcuddur. Çalışmaq bir məziyyətdir, fəqət saxta niqab altında iş görmək və «Məqali idea» düşgünlərinə məxsus bir xislət olduğunu artıq anlamayacaq kimsə qaldımı, biz də bilməm. Elə amma «Elenirmo ittihadi-yunani» cəmiyyəti məəttəlmi qalsın? O cəmiyyətin

namı, icraatı səhifəyi-aləmdən silinsinmi?

Bu qabilmi? Əvət, elenırmo!

Nərəyə getdiniz bu cəmiyyətin icraatını, fədakarlığını görməzsinizmi?

Hissiyati-milliyə rumları daima bir-birinə təğrib etdiyini hiss etməzmisiniz? Ya bu ittihad rəvabiti-mənəiviyyəyə daha böyük qüvvətlərin yardımı ilə, müavinəti ilə də kəsbi-qüvvət edə bilmək bəxtiyarlığına nail olursa, bolqarlar da belə deyilmi?

Otuz sənə əvvəlki bolqarları bu gün nə halda görürüz?

Bu nədən əcəba!

Həp kəndi əzmi-qəviləri, tərəqqiyə istedadları nəticəsimi? Yoxsa müstəxlislərin himayət və səhabətinin də təsiri olurmu? Bilələlim, anlayalım da.

Şimdi bir az da kəndi-kəndimizi düşünəlim. Bizə əğyardan himayət, səhabət qapıları açıldımı?

Ah! Əvət, biləks. Bir çox bəlalar, şəamətlər başımıza nərədən gəldi və gəlir?

Bir kərə düşünəlim! Bu gün nə çəkiriz?

İnhitata doğru sürüklənirik. Başlanğıcını anlayalım. Həp bir vəqəəyə, bir fürsətə qurban olduğumuz meydana çıxıyoruz. İştə Türkiyə, İran.

Türkiyə: fəlakət fəlakət üstünə. O mənhus hərb! Ayastfanus Berlin müharibələri, bir inqisam. Daha böyük bir bəla otuz iki sənəlikdə bir istibdad.

Beli bükülmüş, qanı qurumuş bir hökumət birdən-birə həman bir sənə, iki sənə içində kəndini düzəldə bilərmi?

Bir az insaf! Müsaidə lazım deyilmi? Nərədə, kimdən?

Daha hala intriqalara məruz bulunuruz. Məmləkətimizdə vüquat əksik olmur.

İRANDA BİR TÜRK

8 MART 1911, № 9, səh. 8-9

= VƏTƏN MƏNZUMƏSİ =
MABƏDİ

Ah! Rəbbim, nə üçün maili-fəryad oldun?
Vətəni qəhr ilə, təhqir ilə mötad oldun?
Həpimiz zalım isək, səndəmi cəllad oldun?
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Nə mürüvvət dilə bizdən, nə vəfa ümid et,
Ey Vətən, yara ki, var töftinini kəndin dit,
Köksünü, bağrını aç, məhkəməyi-məhşərə get!
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Vətən övladına düşmən kimi rəhm etmədilər,
Xəstəyə baxmadılar, yaralıya getmədilər,
Ditdilər ətlərini, tiftinini ditmədilər.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Yoxmudur məşvərətə millətin istedadı,
Kimə verdik baxınız dövləti-istibdadı,
İştə təhqir edir məqbərəyi-əcdadı.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Bölünəydi səni bizlər kimi üç dənəsin,
Yüzünə baxmağa da qəsd edəməzdi düşmən,
Ətini bəslədiyin xalq yedi, ah, vətən.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Vətənin cövhəri-namusunu bizmi satalım?
Pəncəyi-xakda hüccac ilə bizmi yatalım?
Haqqa qarşı duralım, Kəbəyə daşmı atalım?
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

NAMİQ KAMAL-HİKMƏT

8 MART 1911, № 9, səh. 9-10

İCMALİ-ƏHVAL
ƏNVƏR BƏY

Məşhur qəhrəmani-hürriyyət Ənvər bəy cənabları könüllü olaraq getmək üçün hərbiyyə nəzarətinə

müraciət etmiş, lakin hərbiyyə naziri nəzarəti qəbul etməmişdir.

ŞAFEİLƏRİN MÜVƏFFƏQİYYƏTİ

Əl-Mənahə, Əl-Nişiyyə, Əl-Məşaciz nam (adlı) yerlərə asi ərəblər hücum edib, o yerlərdə olan şafeilər ilə qanlı bir müharibədən sonra asi (düşmən) bir çox tələfat verib qaçmışlar.

SEYYİD HÜSEYN

Hökumətə müti (tabe) Seyyid Hüseyn tərəfindən idarə olunan əşirətlər (tayfalar) ilə bir miqdar Osmanlı əsgəri üç-dörd min asi ərəblərin işlərini bitirib, Təhamə tərəfləri tamamilə təmizlənmişdir.

İRANIN DAXİLİYYƏ NAZİRİ

İranın daxiliyyə naziri tamam (bütün) valilərə bir təhriratı-ümumiyyə göndərib hökumətsizlikliyin zərərlərini birər-birər göstərərək tərəqqiyyəti-millət və mülk xüsusunda qeyrət etmələrini tövsiyyə etmişdir.

İTTİHADİ-İSLAM

Son günlərdə Təbriz qəzetələri Türkiyə ilə İranı dostlaşdırmaq haqqında pək çok məqalələr yazmağa başlamışlar.

«Şəfəq» ismli cəridədə «İttihadi-islam» sərlöv-

həli yazılan məqalənin doğrudan-doğruya pək çox təsiri olacağını rus qəzetələri yazırlar.

8 MART 1911, № 9, səh. 10

MƏKTƏBLİ VƏ MƏDƏRƏSƏLİ. MOLLALAR İLƏ ÜRFANIN MƏHƏBBƏT VƏ İTTİFAQLARI YOX. BU YAXŞI NƏTİCƏ VERMƏZ

Bu hökmi-ali 1300 sənədən ziyadədir öz qüvvəyi-qüdsiyyəsini mühafizə etmiş gedir.

Vay! O ayati-mühakimat ilə amil olmayan əməl-sizlərə! Qövli ilə (sözü ilə) əməli bir olmayan iki ranglilərə!

Quran buyurur:

Məbada küsməyin! Əxlaqsız və dürüşt (kobud) olmayın! Hilm ilə, rifqlə müamilə edin! Mehriban olun! Hikmət və mövizəyi-həsənə ilə çağırın! Bilmə-diklərini bildirin! Qılmayanlara qıldırmaq, tutma-yanlara tutdurmaq, gəlməyənlərə gətirmək istərsəniz; fərmani-cəlilə baxın! Əfv ilə pək həkimanə danışın! Onlar üçün istiğfar edin!

Məclislərinizə bərkiyin ki, məclislərinizə bərki-sinlər. Bir yerdə məsləhət və məşəvərəti-şura ediniz!

Quran belə deyir:

-Qardaşlar! Baxın Qurana! Sonra baxın əhli-Quranın əməllərinə, rəftarına!

Heyf-heyf! Nədən isə camaatımız milli maarifi

istəmir. Biz belə deyiriz. Bundan isə sual zimnisinin çox söz götürür yerləri var. Millət öz maarifindən sovumuş, niyə isinəmir?

Varid olan sualın çox dürlü cavabları vardır. Millətin o qədimdən olan şövkət və əzəməti, dairəyi-vüsəti məlum. Balaca uşaqlarımız belə müxtəsər tarix və coğrafiyalarında o həqiqətləri tamaşa edirlər. Millətin hökmü, nüfuzu o zaman hər nərələrə qədər uzanmışsa, o hökm, o nüfuz o yerlərdə bir çox islam camaatı buraxmış, orada təvəttün edib qalmışlar. Və ya yerli olub islamiyyəti qəbul eləmişlər. Məsələn, Çində otuz milyon islam (müsəlman) olduğu sonuncu statistikalarda məlum. Malaqa və Hind-Çində, Cava-Sumatra adalarında on üç milyon, Hinddə yetmiş beş milyon, Asiyayi-Vüstada (Orta Asiyada), Türkistan, Tatarıstan, Sibriyada, Şimal və Cənub Qafqazda, Krımda, İran, Anadolu, Bəlucistan, Ərəbistan, Afrikanın ümumən şimalı və sair əksər yerləri, Avropayi-Şərqinin əksəri islam Avropanın qərb cənubu olan Spaniya və Portakiz məmləkətlərin neçə yüz illər ərəblərin olduğu məlum. Bu bitməz-tükənməz islam əhaliləri hökumət idi, dövləti-müəzzəməyi-islamiyyə təbəəsi idi.

O zamankı camaatın milli maarifinin bəxş etdiyi qüvvəyi-ittihad və ittifaq ilə zəmiməyi-mərkəzi-islamiyyə edilmişdi. O zamanın üləması camaatlarını belə bir həyati-əbədiyə sahib eləmişdi. Sonraları get-gedə o tərbiyəyə, o mərifəti-həqiqəyə nəqs və fütur gələrək porzulmaya üz tutdu. Sələflərin halı, övzası (vəziyyəti)

xələflərdə qalmayıb, xələflər naxələf çıxdı. Aqibət kəkələsən. Mən kimi bizləri «Yadigari-vətən» nəticə buraxdı.

İndi düşünək, burada bir mühakimə və qiyas yapaq! Əgər o qiyas və mühakiməni yapacaq qüvvəyi-məfkurə bizlərdə varsa, harada olsun?

O qüvvələri işlətməyə qoydular?

Buradan da keçək yenə sərlövhəyə. «camaatımız milli maarifə istəmir».

Baxalım ətrafımızda, mühitimizdə ömür tələf edən əfradı camaatın etiqadına, idarkına, miqdari-məlumatına.

Hər kəsə məlum olan məbəyi-maarif və mədəni-səadət məktəbdən bəhs açaq. Görəcəksən ki, kimi; oğlum məktəbdə oxudu. Oxudu, sonu nə olacaq? Müsəlman elmləri, məktəb dərsləri oğluma nə verəcək?

Bir çox o elmləri oxumuşları da görürüz. Göndərim şkolaya. Rusca öyrənir də, o qədər xidmətlərin birinə soxulub çörək qazanır, deyə cavab alırsan.

Fikri-ümumidən məhrum olanlar, milliyyət tanımayanlar bü gunu görüb sabahdan bixəbər qalmış olanlar üçün bu, bir fikri-amiyanədir. Onların zəmlərincə bu bir cavab kafidir. Kimi də görəcəksən ki, ağıla, fikirə zəhər qatan daha yoğun cavab verəcəkdir. Belə ki; məktəbdə oxunan elmlərin heç birisi əsla islam elmləri deyil. Bu elmlər aqibət övladımızı dindən, imandan çıxarır. Yaxşısı budur ki, o təzə elmləri görməyib, getsin rusca oxusun ki, o səlahdır bundan və salamtdır, deyir.

Ələlümum cavablar belədir.
Mabədi var.

M.Ş.

8 MART 1911, № 9, səh. 10-11

MƏRHƏMƏTLİ ƏDHƏM

O dəmdə bir qayaya söykənib durur bu qəm,
Həzin-həzin düşünür iştə ixtiyar Ədhəm.
Tüfənginə dayayıb şöylə ixtiyar başını,
Tökürdü həsrətlə damla-damla yaşını.
Başında qanlı xəyalat, atəşin xuliya,
Önündə al qan, içində «Amul»durur güya.

Baxar da deyir ona: «Aldınmı intiqamımı? Ah!»
Bulutlara qarışır, qeyb olun yenə nagah.
Atıb tüfəngini, Ədhəm çocuq kimi ağlar,
Həzin iniltisi, fəryadı dağ, daşı dağlar.

Bir az edər yenə də kəndi-kəndini təskin,
Bayatı, şərqi deyib, gah oxşar övladın.
Şu ixtiyar gecəni həp keçirdi bu minval,
Buna verirdi təsəlli ümidi-istiqbal.

Nigahi-həsrəti bir qanlı məşələ dönmüş,
Baxar o tar bəriyə, həp baxışlardı sönmüş.
Ağardı dan yeri, məşriq qızardı, mehri-münir,
Əşələrlə o dəm etdi aləmi tənvir.

Ayıldı dağ, dərə, orman, çayır, bayır, kuhsar,
Tului-şəmsilə həp quşlar oldu nəğmənisar.
Qanadların qayaya çarparaq uçar şahin,
Süzər havada, baxar ov üçün, vurur qanadın.
Mühəyyib gözlərini bir zaman dikib baxır,
Hücuma başlayaraq ildırım kimi şığıyır.
(Tüfənginə söykənib, gözlərin tikib uzağa).
Cıvıldaşıb, dağılıb, quşlar eləyir fəryad,
Həzin civ bilitlərilə edərlər istibdad.

Tüfəng əlində, qayalar içində bir sərsəm
Kimi həzin dolaşır, düşməni arar Ədhəm.
Tapılmayır... bürüyür alnını soyuq bir tər,
Nə kəndisində təhəmmül, nə düşməndən əsər.

Qaçıb, solub bənizi, titrəyir əli-ayağı,
Kiçik cığırla enər ol zaman dağı aşağı.
«Nicat buldumu xain?» dikib yerə gözünü,
Addım-addım ataraq, axtarır onun izini.

Görünməyir bir əsər, ah, zəhərləndi həyat,
Dözərmi ya? Qoca Ədhəm bu matəmə, heyhat!
Oturdu bir qaya üzrə, baxar sola-sağa,
Tüfənginə söykənib, gözlərin dikib uzağa.

Üzündə kədurət niqab şəklində.
Gözündə küyə həsrət kəlb şəkilində.

Önündə durmuş ati bir qaya kimi olğun,
Həzin-həzin o dəxi Ədhəmə baxar küsgün.
Mabədi var

A.Ş.

8 MART 1911, № 9, səh. 11-12

MƏZHƏKƏYİ-HƏKİMİYYƏ

Bir gün bir adam Molla Nəsrəddindən sordu ki;

- Molla, dünyada kəndindən (özündən) axmaq adam gördünmü ya?

Molla:

- Əvət, əfəndim, gördüm.

Bir gün mənə qapı lazım olduğundan naşi bir xarrat çağırdım. Xarrat ölçüsünü evdə fəramuş edir. Qapını ölçmək üçün bir şey tapmadığından iki qollarını açıb qapının əndazəsini götürərək dükanına getməyə başlar. Yolda gedərkən hərif diqqət edir ki, məbada bir adam əllərinə toxunaraq əndazəni pozsun deyə. Yolda bir quyu olduğundan zavallı quyuya düşər. Camaat yığıldı ki, onu quyudan çıxarsın.

Dedi ki, arkadaşlarım, əllərimdən tutmayın, əndazə pozular. Saqqalımdın tutmanızı rica edim.

İştə əfəndim, bu hərifi mən kəndimdən axmaq bildim.

X X X

YENƏ MOLLA

Bir şəxs Mollanın nəzdinə gəlib isteda (xahiş)

edərək deyir ki;

- Molla, şəhərə gedəcəyəm. Rica edirəm, eşşəyini mənə verəsiniz.

Molla:

- Eşşəyim burada deyil. Aparmışlar, - dedikdə tövlədən eşşəyin səsi gəlir.

Hərif:

-Molla əmi, siz deyirsiniz eşşəyin burada deyil. Bəs o kimin səsidir?-deyə sorduqda;

Molla:

- Əfəndim, mənim bu ağ saqqalıma, sözümə inanmayıb, eşşəyin səsinəmi inanırsınız?-cavabını vermiş.

8 MART 1911, № 9, səh. 12

«YENİ FÜYUZAT»

İKİNCİ SƏNƏ, 15 MART 1911, (26 RƏBİÜL-ƏVVƏL 1329)

№ 10

Hər şeydən bəhs edər həftəlik məcmuəyi-müsəvvərədir.

SƏR MÜHƏRRİR: ƏHMƏD KAMAL

SAHİBİ-İMTİYAZ VƏ MÜDİRİ-MƏSUL: ƏLİ PAŞA HÜSEYNZADƏ

ÜNVAN: Bakı, Dəniz kənarında, Ağa Kazım Haşımovun kontorunda, «Füyuzat».

Bir nüsxəsi 10 qəpikdir. Başqa şəhərlərdə 12 qəpik.

ŞƏKİL

Məşhur alimlərdən çox zamandan bəri Teymurxan şurada iqamət etməkdə ikən keçən həftə vəfat edən Ədürrəhim Talıbov Təbrizinin şəkili.

Məhrum mühüm və müxtəlif əsərlərin müəllifidir.

SƏH.1

= NOVRUZ =

Martın doqquzu «Novruz»dur. Yəni yeni gün, sənənin yeni günüdür. Demək ki, o gün yeni bir sənəyə daxil oluruz.

Millətlərin bir milli, bir də dini olmaq üzrə ələlmümum iki növ bayramları vardır. Bu iki bayramdan sonra bir də «Sənəbaşı» deyilən bir gün vardır ki, sənənin əvvəli olmaq münasibətilə ümumi bir bayram edilir.

Bu sənəbaşı bayramı xristiyanlarda yanvarın birinci gününə təsadüf edir.

Türklərdə milli bayram yoxdur. Biri Ramazan, digəri Qurban olmaq üzrə iki növ dini bayram vardır.

Bu halda bu novruz nədir?

Bu novruz tamamilə xristiyanlardakı yanvarın biri kimi sənəbaşı bayramıdır. Lakin İran ilə İrana cüvar olan yerlərdən başqa nə türklər, nə də digər müsəlman millətlər o günü bayram hesab etməyirlər.

«Novruz» tərkibinin kəndisinin farsca olması göstərir ki, bu gün, bu bayram farslar tərəfindən meydana çıxarılmışdır. Bu halda «Novruz» türklər üçün nə dini, nə milli bir bayram olur.

Bakıda mərhum Şəmsəddin Sami bəyin «Gavə-yi-ahəngər» adlı faciəsi bir neçə dəfələr teatroda oynandı. O faciəni tamaşa edənlər anlamışdılar ki, bu bayram Zöhhakın əsrində də, hətta daha əvvəl, yəni minlərlə sənələr əvvəl dəxi mövcud imiş.

Atəşpərəstlik, bütpərəstlik dövrlərində icad edilən bu bayramın kim tərəfindən icad edildiyində tarix tərəddüd edir. Bəzi tarixlər, daha doğrusu, rəvayətlər Cəmşid dövründə icad edildiyini söyləyir. Hər hankı dövrdə icad edilmiş olursa olsun, hər halda islamiyyətdən pək çox zaman əvvəl icad edilmiş olduğunda heç şübhə yoxdur.

Binaən ileyh bu bayramı həzrəti-Əli əlyehissalamın yövmi-viladətinə (anadan olduğu günə) məxsus bir bayram hesab etmək çox qəribə bir hesab olur.

Həzrəti-Əli əleyhissalam Ərəbistanda şərəfbəxşi-aləmi-vücud oldu. Tarixi-təvəllüdü də, biləxərə ərəbcə tarixi hicri ilə təshih və qeyd edilmişdir ki, hicrətdən 23 sənə əvvəl rəcəb ül-mərcəbin 13-cü gününə təsadüf edir.

Halbuki ərəbi ayları həmişə dəyişdiyindən, yəni ərəbi aylarının hər günü mütləqa sənənin, mövsümün sabit bir gününə təsadüf etmədiyindən həzrəti-Əlinin yövmi-viladəti də Novruz kimi sabit bir günə təsadüf etməz.

Əvvəla, bilirik ki, həzrəti-imamın yövmi-viladəti bir-iki novruza təsadüf etmiş olsun, bu rəvayət də bu təsadüfdən çıxmış olsun. Lakin novruz bayramı o viladətə məxsus bir bayram deyildir. Bu bayram sırf İran bayramıdır.

Novruz neçə min sənə İranda milli bir bayram hökmünü icra etdiyi halda biləxərə unudulmağa başlamış, hətta İrana islamiyyətin düxulunda bilmərrə (tamamilə) ortadan getmişdi.

İran Səlcuq türklərinin əlinə keçdikdən sonra bu bayram yenidən meydana çıxarıldı.

465-ci sənəyi-hicridə İran Səlcuq dövləti taxtına oturan Calaləddin Məlikşah dövründə ülum və fünun çox tərəqqi etmişdi. Elmi-hikmət, elmi-heyət (nücum) kimi ülumi-aliyyədə müsəlmanlar o əsrin ustadları olacaq dərəcədə sahibi-kamal olmuşdular. Calaləddin Məlikşah ümuri-hökumətin hər tərəfində islahat icra etdiyi əsnada İran üçün sabit və məqul bir təqvim yapılmaq lazım olduğunu da düşündü.

Calaləddin Məlikşahın vəziri məşhur Nizamülmülk heyət elmi alimlərini dəvət edib, belə bir təqvim yapılmasını təklif elədi. Üləmayi-heyət də 468-ci s ənəyi-hicridə bu novruzun sənəbaşı olması üçün bilittifaq qərar verdi. Demək ki, 468-ci sənəyi-hicriyyəsi martının doqquzu novruz hesab edilir.

O zaman üləmayi-heyətin martın doqquzunu sənəbaşı qəbul etmələrinə səbəb o gün günəşin bürci-həmələ intiqal etməsidir.

Zatən o zamana qədər İranın ötəsində, bərisində

bu günün yadıgarı qalmış olduğundan iranlılar tərəfindən çox tez qəbul və nəşr edildi (yayıldı).

Lakin bu günə qədər yalnız bir novruz deyilən gün qalıb, digər günləri, ayları, sənələri etibardan düşmüşdür.

Yenə Calaləddin Məlikşahın dövri-səltənətində üləmayi-heyət təkrar ictima edib 471-ci sənəyi-hicriyyəsi ramazanın onuncu günündən etibarən bir tarixi-şəmsi daha yapdılar. Adına da «tarixi-Calali» dedilər.

Tarixi-Calali də 33 sənəlik bir dövr alınıb, bu dövrün 28 sənəsinin hər dörd sənəsinə bir gün əlavə edildi. Qalan beş sənənin isə bir gün sonuncu sənəsinə artırıldı.

Hər 33 sənədə 366 gün olan sənələr 4, 8, 12, 16, 20, 24, 28, 33 sənələridir.

Otuz üç sənəlik bir dövrün hər sənəsi 365 gün olub, yalnız dörd sənəsi 366 gün olduğundan bütün otuz üç sənə (365x33+8), yəni 12053 gün olmaq lazım gəlir.

Şimdi bunu 33 sənəyə təqsim edərsən, bir sənə ortaq olaraq 365 gün olur.

Bu halda tarixi-Calalidə bir sənədə bütün bir sənə zərfində (ərzində) bir günün on mində biri qədər xəta mövcud ola bilir. Bu xətanın da tam bir gün olması üçün 5000 sənə keçmək lazım gəlir.

Digər tarixlərə baxılarsa görülür ki, o zaman üləmayi-islam tərəfindən yapılan bu bu tarix ən az xətalı bir tarixdir.Məni Jul Sezarın tarixində hər 128

buçuq sənədə bu xəta bir gün olur.Tarixi-hicridə isə bu xəta daha böyükdür. Hər 30 ildə 11 gün təfavüt eləyir.Çünki o zaman islam heyətşünasları 30 sənəlik bir dövr almış və bir qəməri ayı da 29 buçuq gün hesab etmişlər. Halbuki ayın dövriyyə müddəti 29 gün, 12 saat, 44 dəqiqə və üç saniyədir.

Şimdi bu hər ay naqis olan 44 dəqiqəni bir sənədə olan 12 aya zərb edərsə (vurarsa), 528 dəqiqə çıxar ki, bir sənədə bu qədər dəqiqə, yəni 9 saat qədər xəta edilmiş olur. 30 sənədə isə 11 gün olur. Bu on bir gün xətanı geydirmək üçün qəməri sənələrinin bəzilərini 355, bəzilərini 354 gün hesab etmək icab eləyir.

Xülasə, görülür ki, tarixi-Calali hər halda digər tarixlərdən daha az xətalı və müsəlman tarixidir.

Müsəlman hökumətlərində bu tarixin qəbul edilməsi çox müvafiq olur.

Osmanlılar da bir əsr əvvəl tarixi-Calaliyə yaxın bir tarix qəbul edib, adına «Sənəyi-maliyyə» demişlərsə də, o da müntəzəm bir şey deyildir. Sənəyi-maliyyədə də sənəbaşı martın birinci günüdür.

Novruz həm günün həməl bürcünə keçməsi, həm hər şeyin təzədən həyat bulduğu bir vaxta təsadüf eləməsi etibarı ilə təbii bir bayramdır ki, fikrimcə, bu bayramı bütün aləmi-insaniyyət icra eləməlidir.

ƏHMƏD KAMAL

15 MART 1911, № 10, səh. 2-5

VƏTƏN MƏNZUMƏSİ

- Ardı –

Doymadı gözlərimiz, qan ilə olsun, dolsun!
Babalar ağlaya dursun, analar saç yolsun!
Üzümüz yerdə sürünsün, başımız daş olsun!
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Vətənin yaraladı sinəsini düşmən əli.
Giryə matəm imiş halətimiz ta əzəli,
Kərbəlada tökülən xuni-yetimani-Əli.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Vətən ey vah, həqir oldu, pərişan oldu,
Düşmən İstanbula girdi, bu dəmi şan oldu,
Məməsindən tökülən süd yerinə qan oldu.
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Belə məsum olanın qəbri qılıcla açılır,
Qəbrin üstündəki daşdan belə qanlar saçılır,
Belə qanlar saçılırkən nə ürəklə qaçılır?
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Ey Vətən, həsrətini eydi-vüsal ilə bəzə!
Bari röyada görən ərzi-camal ilə bəzə!
Südünü, nemətini, qeyri halal ilə bəzə!
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

x x x

Əsəri-şani-Xuda, laziməyi-cürmi-bəşər,
Kəbəni yıxmağa, məhbubunu təhqirə qədər,
Fürsət ətasımıdır düşmənə, ey rəbbi-qədər?
Vətənin bağrına düşmən dayadı xəncərini,
Yox imiş qurtaracaq bəxti qara madərini.

NAMİQ KAMAL-HİKMƏT

15 MART 1911, № 10, səh. 5

MÜSƏLMANLARA QƏSD SULTAN SÜNUSİNİN FACİƏ QƏTLİ, BATAVİYA SULTANLIĞININ MƏHVİ

Aləmi-islamın çoxdan bəri bir çox təziqat altında əzildiyi ərbabı-mütaliənin məlumudur.

Bu son sənələrdə aləmi-islamın hər nöqtəsində, hətta ən hicran güşələrində belə müsəlmanlarda bir ruh, bir həyat əsəri görünməyə başladı. Əsrlərdən bəri cəhalət sisi ilə avropalıların təziqatına məruz və məhkum qaldıqlarını anlayıb, bu bəladan, bu fəlakətdən qurtulmaq üçün olduqca elmə, ürfana sarıldılar.

Kəndilərinin də avropalılar kimi insan olduqlarını və binaən ileyh bundan belə artıq qərblilərin maddi və mənəvi zülm və təəddisinə bir nəhayət vermək lazım gəldiyini düşündülər. Və bu yolda az-çox iyicə fəaliyyətlər göstərdilər.

Lakin qərbi dostlarımız:

«Aman! Müsəlmanların gözü açılır. İslamlar dirilirlər!»-deyə bütün Avropa hökumətlərini (ən kiçiyindən ən böyüyünə qədər) təhti-əsarətlərində inləyən milyonlarca təbəə müslimələrini daha ziyadə, daha şiddətli bir surətdə təziq etməyə başlayıb, hətta bəziləri müsəlmanların dinlərinə, dillərinə, milliyyətlərinə qədər təərrüz etdilər.

Əvət! Müsəlmanlar misionerlərin, müstəbidlərin, kapitalistlərin təəddiyyatı altına qaldılar. Mədəni avropalılar var qüvvələrini aləmi-islamı dünyanın hər tərəfində sıxmağa başladılar.

Fəqət qərblilər bu kimi təziqat ilə aləmi-islamda nümayan olan nuru söndürmək, müsəlmanlarda müşahidə edilən intibah və hərəkatın önünü almaq mümkün olmayayacağını və bu şiddətli cəryanın qarşısına elə olur-olmaz tədabir ilə çıxılayamayağını anlayıb, başqa tədbirlər, başqa vasitələr düşündülər və buldular.

O tədbir, o çarə nədir? Qılınc!

Əvət! Qərblilər artıq müsəlmanları öldürməyə, canavarcasına qətl etməyə, kiçik islam hökumətlərini məhv etməyə başladılar. İştə nümunəsi:

Kaç həftə müqəddəm (bir neçə həftə əvvəl) Bataviya sultanlığına nəhayət verilmişdi. Şöylə ki,

Linqa cəzirəsinə (adasına) qərib (yaxın) Diyu adaları sultanı Hollandiya hökuməti tərəfindən xəl edilib, Sinqapura sürüldü. Yerinə digəri keçirilmədi. Şimdi Diyu adalarında Hollandiya idarəsi vəz olundu. Bu sayədə Bataviya sultanlığına nəhayət verildi. Xəlin səbəbi:Sultanın xəfiyyən Holandiya bayrağını tanımaqdan imtina etməsi imiş.

Bu gün isə bundan daha əlim, daha fəci, bəlkə qan ağladacaq bir dərəcədə bir qara xəbər almaqla ürəklərimiz dağlar olur. Yuxarıda ərz etdiyimiz Bataviya vəqəəyi-əliməsi hollandiyalılar tərəfindən yapılmışdı. Aşağıda bəhs edəcəyimiz qanlı faciə isə Avropa çiçəkləri olan fransızlar tərəfindən icra edildi. Səhrayi-kəbirdə bir hökuməti-islamiyyəni qanlı bir surətdə məhv etdilər. Və Sultani-Sünusi həzrətlərini övlad və əyalı ilə bərabər fəci (faciəli) bir surətdə qətl eləmişdilər.Afrikada Səhrayi-kəbir müsəlmanlarının ən mütəməddin (mədəniyyətli), ən mütərəqqi, ən müqtədir, ən nüfuzlu rüəsasından (rəislərindən) Sultan Sünusu həzrətlərini övlad və əqrəbası ilə keçən yanvarın 22-də, tükləri ürpədəcək dərəcədə bir surəti-faciədə şəhid elədiklərini ancaq bu gün qəzetələr anladılar. Zira xəfi tutulurdu. (gizli saxlanılırdı)

Moda namında bir yüzbaşının komandası altında bir Fransız məfrəzəyi-əsgəriyyə «Nəzlə» nam məhəllin cuvarında sultan Sünusinin həmən kafəsi səri atəşli əsləhə (silah) ilə müsəlləh ordusuna təsadüf etmişdir. Fransız əsgəri ilə Sünusinin əsgəri arasında dəhşətli bir müsadimə (toqquşma) başlayıb, sabahdan axşama

qədər davam etmişdir. Müsadimə əsnasında fransızlar ibtida (ilk) sultan Sünusi ilə vəliəhdi xadimi şəhid etmişdilər.

Qronfild ismində bir mülazim (zabit) təhti-idarəsindəki «Rulev» topunu Sultan Sünusi ilə oğlunun qərargahı üzərinə çevirib, qayət vəhşi və barid bir tövr ilə:

- «Ah, iştə ələ keçirdim!»-deyə hayqırmışdır.

Sultani-müşarileyhin digər oğulları da canavarcasına şəhid edilmişdi. Bütün məiyyəti əfradı da birər-birər qılınc və süngüdən keçirilmişdir. Tələfat pək çox və yaralıların ədədi (sayı) dörd yüzü təcavüz etdiyi təxminən bildirilir.Şəhidi-möhtərəm Sultan Sünusi həzrətləri 1792-ci sənəsindən etibarən olduqca kəndini, kəndi mövcudiyyətini, qüvvətini tanıtmağa başlamışdı. Azacıq bir zaman içində «Onanqı» nam məhəllin şimalında pək mühüm və qüvvətli bir hökumət təşkilinə müvəffəq olmuşdu.Şəhidi-müşaileyh ən son sistem alati-hərbiyyə, səri atəşli tufənglər ilə mücəhhəz beş min əsgərinin mükəmməl bir ordu təşkil etmişdi.

Sultan Əs-Seyyid Əhməd Əs-Sünusinin və xanədanının (ailəsinin) belə qəbih bir surətdə şəhid edilmələri aləmi-islam üçün böyük bir zəya (faciə) və unudulmaz bir vəqəəyi-əlimədir.

«YENI HƏQIQƏT»-DƏN

H.SƏBRİ A.

15 MART 1911, № 10, səh. 5-7

Qəşi halında bulunanda binavanın boğazına süd töküblər. Və çox vaxt ittifaq düşüb ki, qəşiyə giriftar olan şəxsləri vəfat etmiş hesab edib dəfn etmişlər. Qəbrdə ayılmış, şəxslərin fəryadını eşidən olubsa, qəbrdən çıxartmışlar. Hərgah fəryadlarını eşidən olmayıbsa, orada qalıb ya bağrı çatlamış və ya acındansuzundan vəfat etmişlər.

Söz yox, bu tövr xaba uyma həşəratların xaba uymağından uymaması məsləhətdir. Hindistanı səyahət edənlər bu əlamətə nisbət bir neçə nişqulu nağıllar Hindistan hoqqabazlarının (fokkuznik-falgirlərinin) müvəqqəti ölmələri haqqında öz əsərlərində yazmışlar ki, bəzi kitablarda dərc olunubdur. Səyyahlardan biri «Djemis bir ayda» elmi-xəbərə dair nəql (nağıl) eləyir:

Hindistanda Rijinet Sineqanın qəsrində bir hoqqabaz sakin olurdu. Və bu hoqqabaz müvəqqəti xaba uyurdu. Bir vaxt Rijinet Sineqa istədi ki, bunun xaba uymağının həqiqət olmağını yoxlasın. Sineqa hökm elədi hoqqabazı bir təlis içrə bürüyüb tikdilər. Təlisi möhürləyib bir sandıqçaya saldılar. Sonra sandıqçanı da möhürləyib əlahiddə (ayrıca) bir boş evə saldılar ki, onu da Sineqa xüsusi möhürü ilə möhürlədi. Rijinet Sineqa otağı möhürləyəndən sonra ətrafına əsgər düzdü. Hər iki saatdan bir qaravulçuları dəyişirdilər. Bu minval hoqqabaz altı həftə otaqda kisənin içində ac-susuz xaba uydu. Elə ki, vədə tamam oldu Rijinet Sineqa özü gəlib aparıb qapını açdı. Əllərində

məşəl otağa daxil olub sandıqçanı qoyduqları yerdə tapdılar. Sandıqçanın da möhürünü rədd edib, açıb qoyduqları kisəni gördülər. Necə ki, sandıqçanın və habelə kisənin də möhürü pozulmamışdı. Müşəvvəq havasız sandıqçada qalıb çürüyən kimi olmuşdu. Müşəvvəqi söküb hoqqabazı risman (kəndir) kələfi kimi tapdılar. Rijinet Sineqanın hüzurunda olan həkim hoqqabaza nə qədər diqqət elədisə, onun nəzminin həzini içində ölmüş dərk edəmədi. Hoqqabazı hərəkətə gətirməkdən ötrü onun şagirdi ustasının başını isti su ilə ovxalayıb, burnuna-ağzına qoyulan mumu çıxartdı və sonra biri-birinə yapışmış dişlərini bıçaq gücü ilə açdı. Ağzını açandan sonra gördülər ki, binəvanın dili yumurlanıb, dala qayıtmış. Şagird dilini də düzəl-dəndən sonra bunun yumulmuş kirpiklərinə yağ sürtüb, bir az yavaşca ovdu. Bir qədər sonra hoqqabaz yavaş-yavaş gözlərin açmağa başladı. Sonra bunun bədəninin qırışı açılıb əvvəlki halətə gəlməyə başladı. Bir neçə dəqiqə keçəndən sonra hoqqabaz güclənərək ağzını açdı və yavaşca Rijinet Sineqaya sordu:

«Əzizim, şimdi mənim gücümə inanırmısan?»

Yuxarıda dərc elədiyim nağıl nişqulu olmağına əmin deyiləm. Mən də «Djemis bir ayda» onun yazdığına etibar edirəm. Bu əhvalata qarelərimiz inanmamaqda məzurdurlar. Bir tərəfdən bu əlaməti nağıl və ya fantaziya hesab eləmək mümkündür. Amma o biri tərəfdən biologiya, zindəganlıq elmi təsdiq edir ki, dünyada heç bir iş olmaz ki, əmələ gəlməsin. Və bir para şəxslər var ki, nə tövr isə

həqiqətdən müvəqqəti xaba uyarlar və xaba uyanda bunların əzaları işləmirlər. Hətta ən təcrübəli təbiblər bunların nəzmini təftiş edib, onun hərəkətdən düşməsini və cümlə əzanın doğrudan da neçə günlər ilə ölüm halətində qalıb, yenə yalançı məmatdan həmişəlik və şirin həyata övdət eləmişlər (qayıtmışlar).

SEMİNARİST: Ə.QASIMOV

15 MART 1911, № 10, səh. 7-8

MƏRHƏMƏTLİ ƏDHƏM
(ARDI)

Yorulmuş, ac duruyor, heç çıxarmayır da nəfəs,
Şu ixtiyardakı alama sanki bir məkəs.

Hava gözəl, ötüşür quşlar, eləyir şivən,
Çiçəklər ilə döşənmiş çayır, bayır, gülşən.

Terek qayalara çarpar, köpüklənir, çağlar,
Sızar, axar qayalardan gözəlcə irmaqlar.

Nədir düşündüyü? Bilməm, onu qəmum almış,
Təbiətin şu tamaşayi-hüsnünə dalmış.

Fəqət baxışları məhzun, üzü qəmaludə,
Xəzan vərəqləri əmsalı olmuş əfsürdə.

Qaya kimi deyinir: yox nişan, aman! Niyətimin?
Yararmı belə nədamətlə həm evə getmək?..

Üfüqdə dağlar ucundan günəş suluq qızarır,
Qürub olur da, dumanlarla ortalıq qararır.

Ümidi qət olaraq müztərib, pərişan hal,
Minib ata şu zavallı qayıtdı bu minval.

Məlal, matəm içində yetişdi evlərinə,
Bir iztirab, bir atəş yürür damarlarına.

Qapı ucunda durub ağlayırdı qadını,
Zavallı hönkürərək oxşayırdı övladını.

Bir az da Ədhəmi xatırlayıb da deyir: ey vah!
Şu ixtiyar nərədə qaldı? Gəlmədi, Allah!

Saqın! Zavallını qətl etdimi şu bir xain?
Və ya nicatmı buldu, qurtardımı o canın?

Görüb qadıncığı Ədhəm məlul, donub durdu,
Qadın görüncə onu macəranı həp sordu.

Əli-ayaqları titrər kimi, gözü giryan,
Həzin-həzin danışıb, macəranı etdi bəyan.

Xəbər alınca qadın macəradan etbi bir ah,
Bir iztirabla, riqqətlə söylədi ey vah!

Sağın! O, olmasın? İştə bizə qonaq gəlmiş,
Hərif iki ayağından dəxi şikəst olmuş.

Bunu deyincə qadın, Ədhəm oldu pürxəlcan,
Təlaş edər kimi sordu: Haçan gəlib mehman?

Səhər, aman! Nərədə? Yuxuya dalıb orda,
Bunu eşitcək o, heykəl kimi donub qapıda.

Dönüb qana, ürəyi çırpınırdı şiddətlə,
Təlaşla otaya durdu, qoşdu sürətlə.

Görür, zarıldayaraq, sərilib, uyur düşmən,
Görüncə qatili Ədhəm qopardı bir şivən.

Başın alıb əlinə, ağlayırdı pürxəlcan,
Önündə mövc vurur əşki-çeşmi çün nisan.

Başında qanlı duman, dürlü fikirlər dolaşır,
Alovlanırdı, vulkan kimi yanır, alışır.

Şu qəmli çöhrəsini qaplamış səhabəyi-qəm,
Dururdu qatilin qarşısında ol Ədhəm.

A.Ş.

15 MART 1911, № 10, səh. 8-9

ƏHMƏD KAMAL BƏY QARDAŞIMIZA!
(ARDI)

Bolqar rəis məzarı bilapərva (çəkinmədən) Makedoniyada bolqarların islamlarla (müsəlmanlarla) bir səviyyədə tutulmadığını söyləyir. Çətələr fəaliyyətlərinə davam edir. Şəməndoferlər, stasionlar rəhva edilir. Dürlü-dürlü fəsahətlər, dinaətlər olunur. Yunanistanda boş durmur. O da başqa dürlü çalışır. Kridi, o mülki-bəhri-səfidi (Ağ dənizi) ələ keçirməyə, sədədinə yaxın yerləri zəbt etməyə çalışır. Zavallı Krid müsəlmanları da o arada əzilir. Qəbahətləri, təsəvvürləri nə? İslam olmaları.

Bolqaristan kəndi-kəndinə istiqlaliyyətini elan edir. Hökuməti-Osmaniyyə etiraz edir. İslamlara qarşı etiraz, zülm başlayır. Nədən? Səbəbi?

Səbəbi islamları hicrətə məcbur, milləti-vahidə təşkil etmək.

Yunanistanda, Serbistanda, Ruminiyada kaç (neçə) xana müsəlman qaldı. Bolqaristan islamlarının otuz sənədə nisfindən (yarısından) ziyadəsi hicrət etmədimi? Bu tədbirlər, bu yalnız o millətlərin hissiyyatına müvafiq düşən müamilələr bizə bütün aləmi-islama, bəqamızı təmin üçün aramızdan nifaq və şəqaqı rəf etmək, kəndi-kəndimizi düşünmək zamanın hülul etdiyini ifham etməyirmi? Yoxsa daha vaxtımız varmı? Varsa bəklәriz. Əcnəbilərin icraatına intizar edəriz. Zatən çoxdan başlamış dərdə.

İran gözümüzün önündə.

Nə isə, daha irəlisinə getməyəlim. Sədədə rücu

edəlim. Məbuslar içində qəlbi, hissi başqa tərəfə qapılmış olanları bir tərəfə buraxsaq, digər münqəd məbuslarımızın əcnəbiyə satılmış olduğunu zənn edirəm. Siz də qail olmazsınız.

«İttihad və tərəqqi» cəmiyyəti möhtərəmdir. Bu ehtiram qəlbimizdə caygir olmaqla bərabər hökuməti tənqid edənlərin əcnəbiyə satılmış olduğunu, o şiddətlərdə, bütün o hiddətlərdə əcnəbi ürəyinin titrədiyini, çarpdığını zikr etməklə bir qism vətənpərvərlərimizi mütəəssir etmiş olduğunuzu siz də təslim edərsiniz, zənnindəyəm.

Məmaliki-əcnəbiyyədə həqq və həqiqət uğrunda çalışan məbuslar yoxmu?

Keçənlərdə Fransa məclisi-məbusanında (Milli Məclisində) sosialist juresin Fasın nə vaxt təxliyyə ediləcəyini (boşaldılmasını) kabinə rəisindən sorması fikir insaniyyətəmi, yoxsa əhanətəmi məhmuldur?

Şimdi Dumada bir məbus çıxıb da İranda rusların nədən əsgər yollandığını, ingilis-rus etilafının, Rus-Alman müqarinətinin nə kimi məqamda məhmul olduğunu sual edirlərsə, bu məbus xainmi olmaq lazım gəlir?

Məclisi-məbusan Osmaninin müzakiratını sizdə-bizdə uzaqdan eşidir, dinləyiriz. Tənqid edilən məsayili görürüz. Əksəriyyət firqəsinə mənsub məbuslar belə maarifin hal-həzərini, əhvali-daxiliyyənin təzəbzübünu (intizamsızlığını), tərəqqiyyat naminə hənuz bir şey görülmədiyini, onlarda vicdanlarının hökmünə təbiyyətlə (tabe) əlaqədar nəzərlərdən sual edirlər. Bunlar da

əcnəbiyə satılmış olurlar?

Xəlafgiranın məsayili-xariciyyə və daha ziyadə əhvali-daxiliyyə haqqında istizahları hər halda vətənin səlahına müvafiq icraatın xeyri-hüsula gətirilməsi əsbabını təhiyyə məqsədinə mətuf olduğunu (yönəldiyini), sual və istizah (bəyan) vüqusu kabinənin daha ziyadə fəaliyyətini istilzam (lazım) edəcəyini də düşünmək laxzım gəlməzmi? O fikirlər, mütaliələr, tənqidlər, rəhin qəbul olmasa belə, ortaya qoyulan məsayilin (məsələlərin) haqq ilə tədqiqinə və bir dərəcə daha təminə kabinəni məcbur edə biləcəyinə qənaət hasil olmazmı, əzizim?

İRANDA BİR TÜRK

15 MART 1911, №10, səh. 9-10

HİCRAN

Əli Paşaya nəzirə

Ah! Ey sevgilim, nasıl edəyim?
Bunca əsrari-eşqi dildə nihan?
Gəlir cuşa xuni-dil daim,
Qopur dildə sanki min tufan.

x x x

Mənə bir ləhzə lütf qıl, mələyim!
Qalmadı səbrü-taqətim.Heyhat.
Çırpınır hər dəqiqədə ürəyim,
Çəkilirmi bu iztirabi-həyat?

x x x

Yetişir çəkdiyim qəmi-hicran,
Etmə, Allah üçün, məni nalan!
Gah-gah eylə sevdiyim məni yad!

x x x

Məni et naili-vəfa gözəlim!
Vəslətindir cahanda hər əməlim.
Məni heç eyləməzmisən dilşad!

MİR BƏDRƏDDİN SEYİDZADƏ

15 MART 1911, № 10, səh. 10

MƏKTƏBLİ VƏ MƏDRƏSƏLİ

MOLLALAR İLƏ ÜRFANIN MƏHƏBBƏT VƏ İTTİFAQLARI YOX.

BU YAXŞI NƏTİCƏ VERMƏZ.

(Ardı)

Bu ikinci cavab əksər nasın (adamların) əqidəsidir. Bu da ruhanilərin təlibidir. Nisfimiz (yarımız) isə nisvanlarımızda, bədənlərimizdə bağlanmış olan ölülərimizdir ki, sürüdə-sürüdə keçib gediriz.

Nisfimizi təşkil edən bu qismimiz bu hal ilə məqşud olan tərəqqiyə qüvvət və qüdrət vermək deyil,

bəlkə səf və tənəzzül və məhviyyətimizin başlıca baisləridir.

Günah onlardamı?

Eləsə xalqdan nə bəkləməli?

Xalqda ümumi bir fikir və xəyal yoxdur. Nə bəkləmək olur?

Düşünəcəkmi ki, istiqbal nəyə varacaq? Nədən nəyə qaldıq? Bu belə olmaz! Bir çarə gərək!

Ara-ara belə fikir sahiblərimiz yox deyilsə də, ruzigar (külək) kimi keçib gedəcək. Tək əlin səsi çıxmaz kimi, yaslar eləsə, aciz və nəticəsiz qalıb bir dərdə dərman olmayacaq.

Əgər ruhanilər, «Ruhaniz deyiriz. Bu, xristian istilahdır. İslamiyyətdə ruhani və cismanilik kimi bir təqsim yoxdur». Əgər mollalarımız sözlərində, nüfuzlarında olan qüvvələri və imkanlı işləri təsəvvür və təşxis eləyə bilmiş olsalardı, dərhal təbdili-hal və məqal eləyib bir ittifaqi-ümumi yolu açа bilərdilər, bu pərakəndə ümməti yığışdıra bilərdilər. Qardaş və övladlarını tanıyıb yanlarına alardılar. Onlar ilə səmimi məhəbbətlər bağladılar. Təlin və təkfiri qaldırıb yerlərinə islahat əmrlərini vəz edərdilər. Diyanət və həqiqətləri təlqin edərdilər. Tamami (bütün) tövfiq; millətin dili olan qəzetə və jurnalları özləri oxuyub camaatlara hüsni-misal olardılar.

O zaman milli maarif birdən işıqlanmazmı idi? Həm araya girən acı-acı hücumlar, nalayiq əsnadlar tez zayıl olub, ədavətlər məhəbbətlərə mübəddəl olmazmıdı? Büğz və hərahətlərin yerini ülfət və məhəbbətlər

tutmazmıdı?

Mollalar birdən möcüzat kimi bir hünər meydana gətirərək ümum camaatı minnətdar eləmiş olurdular. Bu halda ümum kəndlərdə məktəblər açılardı, hər qüsur və eyblər özülindən islahata girərdi.

Məclislərin bugünkü imtahanlarına, bugünkü mollalıqlara, bu əsəf hallara daha meydan verilməzdi. Kəndlərə, prixodlara, məhəllələrə haqq ilə rəhbər və rahnüma olacaq mollalar təyin edilərdi. Camaatımız milli maarifə isinməyir. Üləma da hal belə olursa, təcəddüd hasil olurmu? Milli maarif dirilirmi? Xalqa intibah gəlirmi? Gəlməz, gəlməz.

Hələ əgər bir az zaman yenə belə gedərsə, sağ olanlar görür ki, nələr olacaq. O tərəf gözdən düşüb məğlub olacaq. Ara kəsiləcək. Rabitələr qırılacaq. Zərrə etimad qalmayacaq. Çarəsinə baxılmazsa, bu hal qayət yaxın gəlmişdir. Arada nazik bir pərdə qalmış. Bu da az bir səbəb və xəfif bir arizə ilə yırtılacaq. Bais həm özləri olacaq. Böyük zərər və ziyan da yenə özlərinə toxunacaq.

Müqəddəmləri (əvvəllər) «Şərqi-rus» qəzetəsində və «Həyat»-da belə məqalə yazmışdım. İmdi təkrar ərz edirəm. Milli maarif xüsusunda bundan bir ay müqəddəm Gəncədə cənab Həsən bəyin müəllimin milli bayramında cənab müxbirin məqalələri arasında müxtəsər, fəqət böyük bir nitq görüldü ki, o da müdəqqiqi-kamil Nəsib bəy həzrətləri tərəfindən irad olunmuşdu.

Nə böyük həqiqət!

Əhli-hala təkrar oxumalarını tövsiyyə edirəm.
«Günəş», № 80

Əlqərəz, üləmamızla iş görənlərimizin arasında təhəddüs edib, gündən-günə şiddətini artıran hali-əsəf istimalın təbdili lazım və vacib. Ən şafi və vafi çarələr isə üləmanın əlindədir.

Aqibət vəxim, nəticə pək müzləm.

1329 (1911) 8 rəbiüləvvəl

15 MART 1911, № 10, səh. 10-11

= BİÇİLMƏMİŞ TARLALAR =

Nekrasovdan tərcümə

Son bahar! Uçdular qaranquşlar,
Qaldı bomboş zavallı ormanlar.
Bir tək ancaq biçilməmiş tarla,
Baxana olmada qəmuməfza!
Sanki hər bir tərəfdə sünbüllər,
Şöylə əqdi-müsahibət eylər;
«Ələman mövsimi-mərarətdən,
Zərbəyi-badi-pürbürudətdən!»
Səcdə etməkdən, ah! Usandıq biz!
Toza-torpağa həp bulandıq biz!
Biri hər şəb duyur bədkirdar,
Dağıdır, soldurur, edir bizar.
Tülkü, dovşan, cəmi heyvanat,
Tapdayırlar bizi bütün övqat.

Ruzigar da kəsib havasımızı,
Etdi bərhəmzədə əsasımızı.
Nərdədir bizləri əkən kimsə?
Gəlsə bu vərtədən xilas etsə?
Bizi bilməm nə fikir ilə əkmiş?
Kəndini künci-izlətə çəkmiş.
Verir ruzigar belə cavab:
- Xəstədir, yox tənində taqətü tab.

ƏLİ SƏTTAR

BALAXANI.
15 MART 1911, № 10, səh. 12

= MƏZHƏKƏYİ-HƏKİMİYYƏ =
= ZƏNGİN BIR PAXIL =

Qayət zəngin (varlı) və paxıl bir adam bir gün gəmi ilə bir məhəllə gedərkən gəmidə olan bir neçə oğru məzkur adamda çox para olduğunu anlayaraq biçarəni tələf etmək fikirinə düşürlər.

Hərif oğruların hərəkətindən düşünür ki, paranı qəsb etmək üçün mütləqa kəndisini tələf edəcəklər. Fikirə qalar ki, nə edəyim. Paranı götürərək dənizə atar.Bu əsnada məzkurə:

- Sən paxıl bir adam ikən o qədər paranı nasıl dənizə ata bildin?-deyə sual edənlərə cavabən deyir ki:

- Bu hərəkət də paxıllığımdan nəşət etdi.

Mən ağçam ilə mənıdən başqa heç bir kimsənənin mənfəətbərdar olmasın istəməm. Tam istədiyim kimi yapdım. Həm nəfsimi tələfdən qurtar-

dım, həm ağçamı kimsəyə yaratmadım.

Bizim bəzi Bakı zənginləri kimi, sağlıqda nə kəndi yeyir, nə də başqasına mənfəət verir. Paranı yığıb, öləndən sonra da vəsiyyətnamə mövcibincə varislər arasına nifaq salır. Parasının da xeyrini dəvi (iddiaçı), vəkil ilə hakim görür.

x x x

= HƏKİM =

Bir həkim məzaristandan übur edərkən (keçərkən) abasını başına çəkərək üzünü örtür.

Bir hərif bunu gördükdə:

- Əfəndim, üzünü nə üçün örtürsən?-deyə sorduqda, həkim cavab olaraq:

- Əfəndim, üzümü nasıl örtməyim ki, həp bu məzlumlar mənim əlimlə ölüblər. Binaən ileyh xəcalət çəkərək üzümü örtürəm, demiş.

15 MART 1911, № 10, səh. 1

EŞİDƏNƏ:

Ərseyi-meydani-insaniyyətə qoymuş qədəm,
Vaqiən insan deyilsə, nitqi var tuti kimi.
Bixəbər ikən şeirdən, həm musiqidən də fəqət,
Bax nasıl əşarı tənqid eyləyir münşi kimi.

Ə.P.

15 MART 1911, № 10, səh. 12

«YENİ FÜYUZAT»
JURNALI
(1910-1911-ci illər)

«Elm və təhsil»
nəşriyyatının direktoru: *professor* Nadir MƏMMƏDLİ
Dizayn: Tural Əhmədov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Yığılmağa verilmiş 08.11.2010.
Çapa imzalanmış 10.12.2010.
Şərti çap vərəqi 28. Sifariş № 796
Kağız formatı 60x84 1/16. Tiraj 500.

Kitab «Elm və təhsil» nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.